GÜLXANİ PƏNAH

# İLYAS ƏFƏNDİYEV YARADICILIĞINDA FOLKLOR MOTİVLƏRİ

**M Ü N D Ə R İ C A T**

**GİRİŞ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

**I FƏSİL. İLYAS ƏFƏNDİYEV YARADICILIĞINDA FOLKLORİZM** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8

1.1. Əfsanə, rəvayət, nağıl, dastan süjeti və motivlərindən istifadə. . . . . . . 10

1.2. Bayatı, aşıq şeri və xalq mahnılarından bəhrələnmə . . . . . . . . . . . . . . 55

**II FƏSİL. YAZIÇININ YARADICILIĞINDA ADƏT-ƏNƏNƏ VƏ XALQ DEYİMLƏRİ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69

2.1. Adət-ənənələr, inanclar, alqış və qarğışlar . . . . . . . . . . . . . . . . . . . . . 70

2.2. Atalar sözü və məsəllərdən istifadə formaları . . . . . . . . . . . . . . . . . . . 94

**III FƏSİL. İLYAS ƏFƏNDİYEV VƏ MİFOLOGİZM** . . . . . . . . . . . . . 104

**NƏTİCƏ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 143

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 145

# G İ R İ Ş

Şifahi xalq ədəbiyyatı yüksək əxlaqi keyfiyyətlərə malik olan, insanların bədii-estetik düşüncələrini özündə əks etdirən ədəbiyyatdır. Bu ədəbiyyat dünya xalqlarının milli - mənəvi kökləri üzərində təşəkkül tapmışdır. Hər bir xalqın şifahi yaradıcılığında o xalqın ilkin inam və etiqadları, adət-ənənələri, ayinləri, mərasimləri öz əksini tapmış və qədər müəyyən dəyişikliklərə uğramaqla, cilalanmaqla, təkmilləşməklə, variantlara bölünməklə bu günümüzə qədər gəlib çatmışdır. Folklor, hər bir xalqın özünəməxsus yüksək mənəvi keyfiyyətlərini bədii şəkildə əks etdirməklə yanaşı, mənsub olduğu xalqın müxtəlif zamanlarda yüksək əxlaqi keyfiyyətlərinin və estetik zövqünün formalaşmasına xidmət etmişdir və edəcəkdir.

Xalq yaradıcılığı Azərbaycan ədəbiyyatında təkcə tədqiqatçılarımız tərəfindən toplanıb nəşr edilmir, eyni zamanda bir çox şair və yazıçılarımız öz yaradıcılıq görüşlərinə əsaslanaraq, öz əsərlərinin bədii təsir gücünü artırmaq, yüksək sənət əsəri yaratmaq üçün folklorun süjetlərindən və motivlərindən yaradıcı surətdə istifadə edirlər. Xalq əfsanələrinin, nağıllarının və digər folklor nümunələrinin süjetlərindən, obraz və motivlərindən bəhrələnməklə yüksək bədii təsir gücünə malik olan əsərlər yaratmaqla bərabər, xəlqilik prinsiplərini də öz əsərlərində qorumuş olurlar.

Müasir ədəbi prosesdə xalq ədəbiyyatı nümunələri fəal iştirak edir. Böyük sənətkarlarımız yaratdıqları əsərlərində folklorumuzun ən qiymətli nümunələrinə diqqət yetirir, onlardan faydalanırlar. Lap qədimlərdə ən gözəl

sənət nümunələri xalq yaradıcılığı bulağının gözündən su içmiş sənətkarlar tərəfindən yaradılmışdır.

El ədəbiyyatı zamanın sınağından keçmiş, cilalanmış, büllurlaşmışdır. Xalq təfəkkürünün min illər boyu formalaşmış məhsulu olan folklor yüksək estetik gözəllik kəsb edir. Dünya ədəbiyyatına ən gözəl sənət inciləri vermiş dahi sənətkarlarımız, o cümlədən xalqımızın söz sənətinin mahir ustaları Nizami, Fizuli, Vaqif, Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, S.Vurğun, S.Rəhimov, İ.Əfəndiyev və başqaları xalq yaradıcılığından, onun gözəl nümunələrindən yaradıcı surətdə istifadə etmiş, zəngin irsimizə məhəbbətlə yanaşmışlar.

Görkəmli folklorşünas M.H.Təhmasib yazırdı: «Dünya ədəbiyyatı tarixində heç elə bir şəxsiyyət tapmaq olmaz ki, dilində yazıb yaratdığı doğma xalqının şifahi söz sənəti ilə bağlı olmasın. Bu bağlılıq bəzən güclü, bəzən də zəif olur, bəziləri bu zəngin xəzinədən ancaq təsirlənir və faydalanır, bəziləri isə həm də təsir edir, hətta çox aydın izlər də qoyub gedir». (140, s.134)

Bu prosesi əsrimizin əvvəlindən bu günümüzə qədər Azərbaycan ədəbiyyatında da daha aydın şəkildə görürük. Xalqımızın görkəmli sənət xadimləri öz ədəbi bədii yaradıcılıqlarında mənsub olduğumuz xalqımızın zəngin mənəvi irsi olan folklor ənənələrinə bağlı olmuşlar.

C.Abdullayevin «S.Vurğun və folklor», S.Paşayevin «Nizami və folklor», Ə.Saləddinin «Sabir və folklor», B.Abdullayevin «Yusif Vəzir Çəmənzəminli və folklor», T.Xalisbəylinin «Nizami Gəncəvi və Azərbaycan folkloru», A.Abdullayevanın «Müşfiq və folklor», N.Xəlilovun «Ə.Haqverdiyev və folklor», C.Hacıbəylinin «Qarabağın dialekti və folklor», Ç.Quliyevin «S.Rəhimov və folklor» və b. tədqiqat işlərində onların xalq ədəbiyyatı ilə bağlılıqlarının elmi əsaslarla izahını vermişlər.

Azərbaycan ədəbiyyatında görkəmli yazıçı, dramaturq kimi tanınmış İ.Əfəndiyev yaradıcılığının folklorumuzla bağlı məsələlərinin araşdırılması da folklorşünaslığımızın əsas problemlərindəndir.

Yarım əsrdən çox yaradıcılıq yolu keçən İ.Əfəndiyev öz dərin məzmunlu əsərlərində xalqımızın keçdiyi tarixi yolun milli həyatımızda, məişətimizdə, şüurumuzda, psixologiyamızda baş verən hadisələrini işıqlandırmışdır.

Yazıçının əsərlərini oxucuya sevdirən, onu xalqın sevimli sənətkarına çevirən əsas amillərdən biri məhz onun xalq yaradıcılığına dərindən bələd olması və ondan yaradıcı surətdə bəhrələnməsidir. Ona görə də bu dissertasiyada İ.Əfəndiyevin xalq yaradıcılığına münasibəti məsələsi və ondan istifadə üsulları xüsusi tədqiqat mövzusu kimi götürülmüşdür.

İ.Əfəndiyev yaradıcılığı haqqında müxtəlif məqalələr, monoqrafiya yazılmış olsa da, «İlyas Əfəndiyev yaradıcılığında folklor motivləri» mövzusu bu günə qədər xüsusi tədqiqat obyekti olmamışdır.

Yaşar Qarayev, Yaqub İsmayılov, Bəkir Nəbiyev, Y.Seyidov, Ə.Əfəndiyev və başqa görkəmli ədəbiyyatşünaslarımız müxtəlif dövrlərdə İ.Əfəndiyev haqqında, onun sənətkarlığı haqqında maraqlı fikirlər söyləmiş, mətbuatda yazılarla çıxış etmişlər. Onlar İ.Əfəndiyev yaradıcılığında folklora münasibət məsələsinə toxunsalar da, bütövlükdə bu mövzu elmi-tədqiqat işi şəklində ilk dəfə təqdim edilir.

Monoqrafiyada İ.Əfəndiyev yaradıcılığında folklor məsələləri elmi-tədqiqat mövzusuna çevrilmişdir. Əsər onun xalq ədəbiyyatı ilə əlaqəsini geniş şəkildə öyrənmək sahəsində ilk təşəbbüsdür və sənətkar və folklor problemlərinin yeni baxışdan araşdırılmasına imkan yaradır.

Monoqrafiyada ilk dəfə İ.Əfəndiyevin folklora münasibəti müasir folklorşünaslıqla bağlı şəkildə qiymətləndirilir, burada yazıçının folklordan istifadə üsulları, obraz, süjet, dil-üslub baxımından təkmilləşməsində xalqımızın yaratdığı folklorun rolu, bu sahədə yazıçının ədəbiyyatımıza gətirdiyi yeniliklər və başqa əsas məsələlər diqqət mərkəzində durur. Bu problemlər konkret olaraq onun nəsr və dramaturgiya yaradıcılığında izlənilir.

Yazıçının folklordan istifadə üsullarını aydınlaşdırmaq üçün onun iri həcmli nəsr əsərləri, hekayələri, dram əsərləri əsas tədqiqat obyekti kimi götürülmüşdür. Burada yeri gəldikcə əsrimizdə yaşamış Azərbaycan ziyalılarının folklorla bağlı fikirləri də tədqiqata cəlb edilmişdir. İ.Əfəndiyev yaradıcılığı ilə bağlı yazılmış əsərlərdə onun folklorla bağlılığı haqqında müxtəlif fikirlər söyləyən ədəbiyyatşünaslarımızın mülahizələrinə də yer verilmişdir.

Monoqrafiyada əsas məqsəd yazıçının bir sənətkar kimi formalaşmasında folklorun rolunu açıqlamaq, əsərlərinin ideya, bədii estetik məzmununa folklorun təsirini araşdırmaqdır. Burada xalq yaradıcılığının yazılı ədəbiyyatımızın və ədəbi dilimizin inkişafına təsiri İ.Əfəndiyev əsərlərinin fonunda üzə çıxarmaqla yanaşı, yazıçının əsərlərinin ideya bədii dəyəri aydınlaşdırılır. Bununla əlaqədar olaraq aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır:

-yazıçının yaratdığı əsərlərində folklor janrlarından, obraz, süjet, motiv, ayin və adət ənənələrdən faydalanması üsullarını müəyyənləşdirmək;

-onun poetik sənətkarlığının, dil və üslubunun zənginləşməsində folklorun rolunu qiymətləndirmək;

-xalq yaradıcılığının təsiri ilə yazdığı əsərlərini, eləcə də bütöv yaradıcılığının folklorla üzvi şəkildə bağlı olaraq təhlilini vermək və onların orijinal keyfiyyətlərini üzə çıxarmaq.

Tədqiqat işində ilk dəfə olaraq yazıçının əsərlərinin folklor ənənələri ilə bağlılığından, onların süjeti, obraz və motivlərindən istifadə formalarından söz açılır. Mənsub olduğu xalqın etnik dünyagörüşünü özündə əks etdirən adət-ənənələr, inam və etiqadlar, mərasimlər və digər folklor vahidlərinin yazıçının qələmə aldığı əsərlərin milli məişəti, həyatı ilə bağlı xüsusiyyətləri tədqiqat işinə cəlb edilmişdir.

Monoqrafiyanın elmi yeniliklərindən biri də dissertantın ilk dəfə İ.Əfəndiyevin folklorun təsiri əsasında yazdığı əsərləri müəyyənləşdirmək, onların folklor süjetləri ilə müqayisəli elmi təhlilini verməklə onun sənətkarlıq xüsusiyyətlərini açmaqdır.

Yazıçının əsərlərində istifadə etdiyi atalar sözü və zərb məsəllər, lətifə, nağıl, rəvayət, əfsanə və bu kimi başqa nümunələrini işlətmə tərzini açıqlayır və onun özünün yaratdığı nümunələr müəyyənləşdirilir.

Burada İ.Əfəndiyevin folklor ənənələri ilə əlaqəsi ilk dəfə olaraq sistemli şəkildə tədqiq edilir. Onun yaradıcılığında folklor süjetləri, motiv və obrazlarından istifadə formaları şərh edilir. İlk dəfə olaraq İ.Əfəndiyev yaradıcılığında xalq mərasimləri, adət-ənənələri və başqa folklor vahidləri təhlil olunmuşdur.

İ.Əfəndiyev yaradıcılığında konkret bir məsələyə həsr olunan bu monoqrafiya Azərbaycan folklorşünaslığında «folklor və yazılı ədəbiyyat» problemlərini yeni elmi fikirlərlə zənginləşdirməklə yanaşı, İ.Əfəndiyev yaradıcılığının sistemli şəkildə dərindən öyrənilməsinə kömək edir. Aparılan tədqiqat işinin nəticələrindən Azərbaycan şifahi xalq ədəbiyyatına dair uyğun tədqiqatlarda istifadə oluna bilər.

# I FƏSİL

## İLYAS ƏFƏNDİYEV YARADICILIĞINDA FOLKLORİZM

Xalq yaradıcılığı insanın həyata baxışının, təfəkkürünün, estetik zövqünün formalaşmasında misilsiz rol oynayır.

Xalqın yaratdığı müdrik, nadir incilərdən zövq alaraq zəngin sənət əsərləri yaradan böyük sənət korifeyləri bəşəriyyətin inkişafına qüdrətli təsir göstərən mənəvi sənət xəzinəsi yaratmışdırlar. Çünki bəşəriyyətin arzuladığı ən gözəl həyat haqqında arzuları folklorda bir güzgü kimi öz əksini tapmışdır.

Hər bir xalqın folklorunun özünəməxsus bənzərsizliyi vardır. Onların həyat şəraiti, dünya haqqında təsəvvürləri burada bütünlüklə öz əksini tapmışdır. İstedadlı sənətkar, qüdrətli sənət ustası öz zəngin folkloruna söykənməklə, dünya xalqlarının yaratdığı ədəbiyyatı, sənəti bilməklə samballı əsərlər yarada bilər.

İ.Əfəndiyev də folklora dərin köklərlə bağlı olan bir sənətkar olmuşdur. Onu xalq ədəbiyyatına bağlayan tellər möhkəm idi. Dünyaya göz açdığı doğma

yurdu Qarabağın dilbər guşələri, tarixi salnamələr diyarı, Azərbaycan musiqisinin və şeriyyətinin beşiyi olan ata-baba torpaqları, sinədəftər nənə-babalarının sazlı-sözlü nəğmələri, ağsaqqalların - ağbirçəklərin söylədikləri nağıllar, əfsanələr, rəvayətlər, mövzusu xalqın həyatıyla sıx bağlı olan bayatılar, zərb-məsəllər və onlardan aldığı mənəvi qida onu körpəlikdən xalq yaradıcılığı ilə qovuşdurmuşdu. O, əsrlərin damarından süzülüb gələn nağıl, dastan, əfsanə, el deyimləri, xalq hikmətləri, atalar sözlərinin abı-havasında köklənmişdi. Qeyd etməliyik ki, İ.Əfəndiyevin ziyalı bir şəxs, millətin maariflənməsində yaxından iştirak edən bir müəllim olması da onun xalqa yaxın olmasına, onun yaratdığı incəlikləri dərindən duymasına imkan verirdi.

İlyas Əfəndiyev özündən əvvəlki dövrlərdə yaşayıb-yaradan qüdrətli söz ustalarının da yaradıcılığına dərindən bələd olmuş, onların yaratdıqları ən böyük sənət əsərlərinin məhz xalq ədəbiyyatı üstündə cilalandığını, buna görə də xalqın hissinə, duyğusuna yaxın olduğu üçün sevildiyini, qiymətləndirildiyini görürdü. İ.Əfəndiyev onun nadir nümunələrini yazılı ədəbiyyata gətirmiş, milli xalq ədəbiyyatı zəminində yetişmiş sənətkardır.

Xalqımızın gözəl sənətkarları daima xalqın yaratdığı bədii sənət əsərlərinə məhəbbətlə yanaşmışlar. Mirzə İbrahimov deyirdi: «Azərbaycan xalq yaradıcılığı və klassik ədəbiyyatı yüksək bəşəri ideallar, təmiz, müqəddəs hisslər xəzinəsidir. Bu xəzinədə biz həm insanın hərarətli vətənpərvərlik duyğularının, azadlıq yolunda mübarizələrinin, həm də təbiətin sirlərini açmaq, yerləri, göyləri dərk etmək ehtirasının və fəlsəfi idrakının parlaq bədii ifadəsini görürük». (22, s.VII)

Dünya xalqlarının yaratdığı qüdrətli sənət əsərləri haqqında böyük alimlər, tədqiqatçılar və mütəfəkkirlər qiymətli fikirlər söyləmişlər. Onlar xalqın zəngin bədii təfəkkürünün məhsulu olan dərin məzmunlu, mənalı əfsanələrdə, rəvayətlərdə, nağıllarda, əsatirlərdə, dastanlarda, qoşmalarda, nəsillərdən nəsillərə ötürülən insanların on min illəri əhatə edən həyat təcrübəsinin toplandığı məsəllərdə qiymətli fikirlərini ifadə etdiklərini dəfələrlə qeyd etmişlər. (64, 78, 84, 152, 153, 155, 158, 162, 171, 176)

Azərbaycan şifahi xalq yaradıcılığı da Azərbaycan-Türk tədqiqatçıları tərəfindən geniş tədqiq edilmişdir. (25, 27, 28, 29, 30, 50, 71, 144, 146, 156)

F.Köçərli, Y.Vəzir, S.Mümtaz, A.Şaiq, V.Xuluflu, H.Əlizadə, V.Vəliyev, Ə.Hüseynzadə, A.Nəbiyev, P.Əfəndiyev, S.Paşayev, H.İsmayılov və başqa folklorşünaslarımız məhz bu qüdrətli sənət əsərlərini itib-batmaqdan qorumaq üçün çalışmış, onların toplanması, nəşr edilməsi sahəsində çox böyük əmək sərf etmişlər. Böyük sənətkarlarımız Nizami, Füzuli folklorumuzun ən nadir incilərindən bəhrələnməklə, həm qüdrətli sənət əsərləri yaratmış, həm də onları yazılı ədəbiyyata gətirməklə uzunömürlülüyünü təmin etmişlər. İ.Əfəndiyev də öz əsərlərində xalq yaradıcılığına, onun sərvətinə bağlı sənətkardır. Onun ilk hekayələrindən ən böyük nəsr və dramatik əsərlərinə qədər bütün yaradıcılığında xalq ədəbiyyatının nəfəsi, ruhu duyulur.

Müəllif qələmə aldığı mövzunun ideya və tərbiyəvi əhəmiyyətini həyatla sıx bağlamağa çalışır. Hadisələrin süjetində mifik görüşlərimizdən, motiv və obrazlardan bəhrələnməklə orijinal sənət əsəri yaradırdı. Qüdrətli xalq sənətindən istifadə etməklə əsərlərinin ideya-bədii keyfiyyətinin, dil üslubunun təbiiliyinin və xəlqiliyinin yüksəldilməsinə çalışırdı və buna nail olurdu.

## 1.1. Əfsanə, rəvayət, nağıl, dastan süjeti və motivlərindən istifadə

İlyas Əfəndiyev yaradıcılığında xalq yaradıcılığı üçün ənənəvi olan süjetlərin, obrazların, motivlərin folklor nümunələri ilə müqayisəli tədqiqini apararkən məlum olur ki, o, zəngin xalq sərvətindən istifadə etməklə bitkin süjetlər qurmuş, obrazlar yaratmış, bədii dil və üslub formalaşdırmışdır. Buna görə də onun xalq sənətiylə əlaqələrinin tədqiqatını aparmaq bir tərəfdən xalq təfəkküründən və onun zəngin mənəvi irsindən istifadə etmək bacarığını, folklorumuzdakı kamilliyi, ustalığı qiymətləndirmək qabiliyyətini, digər tərəfdən onun yaradıcılıq keyfiyyətlərini, dünyagörüşünü, yaşadığı cəmiyyətin dünəninə, bu gününə münasibətini öyrənmək baxımından dəyərlidir. Bütün sadaladığımız bu məsələlər onun həm nəsr əsərlərində, həm də dramaturgiyasında özünü göstərir.

Onun nəsr əsərlərindəki obrazlar, onların təbiiliyi, bu obrazların düşüncə tərzi və onun xalqın düşüncə tərzi ilə sıx bağlılığı, bədii cəhətdən yüksək sənətkarlıq məsələsi olması faktları folklorla daha sıx bağlılığından irəli gəlir.

İ.Əfəndiyevin əsərlərini oxuyarkən bəzən adama elə gəlir ki, dastan, nağıl dinləyir, xalqın ruhundan süzülüb gələn deyimlərinə qulaq asır.

İ.Əfəndiyev məhz öz dilini, vətənini, xalqının adət-ənənələrini sevə-sevə onun yaratdığı mənəvi sərvəti öyrənə-öyrənə xalq zəkasının, təfəkkürünün məhsulu olan folklora söykənərək, ondan bəhrələnməklə xalqın sevimli yazıçısı olmuşdur.

Ədəbiyyatşünaslarımız, tədqiqatçılarımız yazıçının yaradıcılığı ilə bağlı qiymətli fikirlərini söyləmişlər. Görkəmli alimimiz Yaşar Qarayev yazır: «İ.Əfəndiyev əfsanə, mahnı və nağıl kimi qələmə aldığı ilk hekayələrlə nəsrə gəlmişdir… Özü də «nağıl», «əfsanə» sözlərini müəllif zahirən də gizlətmir, onu hətta başlıca sərlövhəyə çıxarır. «Sarıköynəklə Valehin nağılı»nda belə səciyyəvi «nağıl ifadələri», təhkiyə və kompozisiya əlamətləri də vardır: -aldı Valeh, aldı Sarıköynək» və s. Sanki aşıq dastan danışır». (41, s.5)

İlyas Əfəndiyevin yaradıcılığında xalq ədəbiyyatının epik və lirik janrlarından, onların süjet qurumundan, mövzu və motivlərindən istifadəsi ardıcıl səciyyə daşıyır. O, müraciət etdiyi mövzunun daxilində qədim qaynaqlarımızdan süzülüb gələn nuru qoruyur, onun işığında, öz bədii əsərinə, oradakı surətlərə oxucuların diqqətini cəlb edir.

Xalq ədəbiyyatının ən qədim növü olan əfsanələrin, əsatirlərin süjetlərindən yararlanma sənətkarın yaradıcılığında daha xarakterik səciyyə daşıyır. Xalqımızın minillik tarixini özündə yaşadan əfsanələrimizə xalqımızın böyük sənətkarları ülvi hisslərlə yanaşmışlar. S.Vurğun yazırdı ki, «Hansı bir əfsanə olursa olsun biz onda həqiqət şəfqətləri görməliyik, çünki onu insan yaratmışdır. Bütün əfsanələr insan və həyat yaranandan sonra yaranmışdır. Biz bu əfsanələr və nağıllar aləmində işıqla qaranlığın, xeyirlə şərin, doğma ilə yadın, düzlüklə əyriliyin mübarizələrini duyuruq». (122, s.26)

İ.Əfəndiyev əfsanələrdən səmərəli şəkildə faydalanır. Hər bir əfsanə xalqın həyatı, istək və arzuları, inamları ilə bağlı olaraq yaranmışdır. Yazıçının süjetlərindən yararlandığı əfsanələrin qəhrəmanları insanlardır, onların

qəlbində xoşbəxt gələcəyə inam hissləri öz əksini tapmışdır. Arzu və ideyalarının əksinə çıxan qüvvələrə qarşı onların qəlbində kin-qəzəb hissləri vardır. Bu nifrətin içərsində bəşəri duyğuları əks etdirən azad və firavan yaşamaq, arzu və ideyalarına çatmaq, istəyinə nail olmaq hissləri güclüdür.

Yazıçı «Apardı sellər Saranı», «Qarı dağı» və digər əfsanələrin süjet və obrazlarına öz yaradıcılıq təxəyyülünün prizmasından yanaşır, qəhrəmanının uşaqlıq dövründən yadında qalan həyat hadisələrini təsvir edərkən folklordan bəhrələnməklə keçmişimizdə və bu günümüzdə öz əksini tapan müştərək hadisələrə öz təfəkkürü, təxəyyülü dairəsində yeni bədii don geyindirir. O, xalq ədəbiyyatında insanlığa xidmət edən yüksək insani keyfiyyətlərdən istifadə etməklə yüksək bədii təsir qüvvəsinə malik əsərlər yaratmağa çalışmışdır. Burada xalqımızın tarixi keçmişini, milli adət-ənənələrini, namusu, qeyrəti, vicdanı, doğruluğu, düzlüyü, sədaqəti təbliğ etmişdir və bu günümüzün aktual məsələləri fonunda xalq ədəbiyyatının bu nadir incilərindən yaradıcı surətdə bəhrələnmişdir.

Yazıçının müraciət etdiyi əfsanələrdəki yüksək ideya, dərin məzmun, sənətkarlıq baxımından bitkin süjetlər və burada qoyulan problemlər, mövzu və ideya onu göstərir ki, bu əfsanələr zəngin mənəvi əxlaqi keyfiyyətlərə malik müdrik xalqımız üçün həmişə əsas olan, onun həyatının mənası olan ideyalarla zəngindir. Folklorun nəsr janrlarından biri kimi əfsanələr həyatda baş verən hadisələr əsasında yaranmışdır və onu söyləyən içərisinə möcüzə motivlərini, fantastikliyi də əlavə etməklə öz təxəyyülünün məhsulunu ortaya çıxarmışdır. Sonralar fərdilikdən çıxaraq xalq içərsində dolaşdıqca daha da təkmilləşmiş, cilalanmış, qiymətli bir sənət nümunəsi kimi qorunmuş, günümüzə qədər gəlib çatmışdır. Real hadisələrlə bağlı şəkildə möcüzə də əfsanələrdə lap qədimlərdən yaşamaqdadır və mifik, kosmoqonik, antropomorfik, zoomorfik, tarixi, qəhrəmanlıq, məhəbbət, vətənpərvərlik mövzusunda xalq içərsində yayılmış əfsanələrin mövzu və ideyaları hər bir dövrdə yaşayan xalqın bəşəri duyğuları ilə səsləşəndir. Qüdrətli söz ustalarının, eləcə də İ.Əfəndiyevin həmin əfsanələrin süjetlərindən, obraz və motivlərindən bəhrələnməklə yaratdıqları əsərlər sənətkarlıq baxımından qiymətli sənət əsərləridir.

Nizami, Füzuli, Nəsimi, Ə. Haqverdiyev, S. Rəhimov, S. Vurğun və digər söz ustadlarımız yaradıcılıqlarında əfsanə qəhrəmanlarına, bu əfsanələrin süjetlərindən istifadəyə geniş yer vermişlər və ondan bəhrələnməklə yüksək sənət əsərlərinin yaranması üçün geniş imkanların olduğunu, bədii cəhətdən qüvvətli əsərlərin yaratmağın mümkünlüyünü dəyərli əsərləri ilə sübut etmişlər.

Nizaminin yaratdığı «Xəmsə»də onlarla, yüzlərlə əfsanələr vardır və Nizami bu əfsanələrin süjetini, obrazlarını poetik qələmindən keçirərək onlardan bəhrələnməklə, öz arzu və ideyalarını ifadə edən yüksək sənətkarlıq nümunələri yaratmaqla həm öz sənət dühasına, həm də o əfsanələrə əbədi həyat, ölməzlik bəxş etmişdir.

İ.Əfəndiyev də bu ən»ənələri davam etdirmiş, baba-nənələrimizin yaratdığı bu zəngin xəzinədən yararlanmış və istəyinə nail olmuşdur.

«Apardı sellər Saranı» əfsanəsində gözəllik simvolu olan Sara çöllərdə, düzlərdə ceyran südü ilə böyüyən əfsanəvi varlıqdır. Qələmə alınan bu xalq əfsanəsi yazıçının əsərində elə bir fonda işlənir ki, bu əsər bizə xalq ədəbiyyatının tarixi kökləri üstündə pöhrələnmiş yeni realist bir əsər kimi təqdim olunur. Realist və romantik ilişgilərlə qələmə alınan hadisələr öz əfsanəvi cizgilərini qoruyub saxlamaqla oxucu qarşısına çıxarılır. Haqq-ədalət, azadlıq və səadət uğrunda mübarizə, milli-mənəvi dəyərlərə hörmət yazıçının qələmə aldığı «Apardı sellər Saranı» əsərinin mövzu və ideyasında əsasdır. O, xalq içərsində geniş yayılmış bu əfsanənin süjetindən istifadə etməklə, əfsanə obraz və motivlərindən bəhrələnməklə, bədii təsir qüvvəsinə malik olan yeni bir sənət nümunəsi yaratmışdır. Şifahi xalq ədəbiyyatı xalqın istək və arzularını ifadə edir. İ.Əfəndiyevin də yaratdığı bu əsərdə dövründən, zamanından asılı olmayaraq insan azadlığını, insan şəxsiyyətini, ləyaqətini, arzu və istəklərini müdafiə etdiyini görürük. Məhəbbət, sədaqət, qeyrət mövzusunda olan əfsanələrdə, rəvayətlərdə, dastanlarda, nağıllarda, yazılı ədəbi nümunələrdə insanların istək və arzularına qarşı çıxan, onların arzularını içində boğan, məhvinə səbəb olan cahil, yaramaz şahlar, xaqanlar, şər qüvvələr, əxlaq normalarını pozan murdar xislətlilər və eybəcər cəmiyyətdir. İ.Əfəndiyevin xalq ədəbiyyatından götürdüyü bu əsərdə əsas ideya bəşəri ideyadır; məhəbbət,

vəfa, sədaqət, etibar. Bu isə xalqımızın milli - mənəvi dəyərlərinin tərkib hissəsidir. Sara «Apardı sellər Saranı» əfsanəsinin qəhrəmanı olub, yazıçının lirik boyalarla üzərində yaradıcı surətdə işlədiyi yeni obrazdır.

Biz nağıl və əfsanələrimizdə Sara ilə yanaşı, Pəri xanım, Sərvinaz, Fatma obrazlarını tanıyırıq. Xalqımızın zəngin təxəyyülünün məhsulu olan bu ağıllı, gözəl xanımlar arasında Sara «Göyçək Fatma» nağılındakı yetim Fatma obrazıyla yaxınlıq təşkil edir. Bizim əksər nağıllarımızın qəhrəmanları eləcə də Fatma, Pəri kimi Sara da körpəlikdən anasını itirib yetimliklə böyüyüb boya-başa çatmış obrazlardır. Bu əfsanədə şifahi yaradıcılığımızda tez tez rast gəldiyimiz süjetlərdən olan ailə əxlaq görüşləri, insan taleyi ilə bağlı motivlər, milli adət-ən ənələrə hörmət, namus ön plana çəkilir. Əsərdə əfsanədə olduğu kimi Sara ilə Xançoban əhd-peyman bağlayırlar. Yenə nağıllarımızdan tanıdığımız amansız, qəddar, azğın nəfsli şahlar, xaqanlar onların səadətinə qılınc çalır. Öz nəfsinin qurbanı olan murdar şahın təkliflərini qəbul etməyən ata qızının Xançobana nişanlı olduğunu, ona könül verdiyini söyləyir. Şah öz inadından dönməyərək bu Muğan gözəlini ələ keçirmək üçün təklif etdiyi dünya malından, var-dövlətdən imtina edən atanın-balanın arzularının əksinə gedərək zorla onu aparmaq istəyir.

Xalq yaradıcılığında əsas yer tutan namus, qeyrət, əhdə vəfa, sədaqət prinsipləri bu əsərin süjetində əsasdır. Bu yüksək insani keyfiyyətləri hər şeydən üstün tutan ata-bala zalım qüvvələrin əlində aciz, kimsəsiz qalır. «Apardı sellər Saranı» əsərinin qəhrəmanı Sara köməksiz qalanda ürəklərə od salan bir nalə çəkir:

«- Ata!..»

Burada əlacsız qalan ata-balanın «köməyinə» çatan tapındığı, saflıq, paklıq rəmzi bildiyi, müqəddəs baxdığı sudur:

«Bu zaman göylər qeyzlə guruldadı. İldırım çaxaraq qoca dağın şiş təpəsini parçaladı. Sular qayalara çarparaq hiddətlə səsləndi. Dərələr uğuldadı. Muğan titrədi. Onun gözəli gedirdi…

…Təbiətin qüdrətli səsi ataya qalibiyyət yolunu göstərdi. O, əlini qaldıraraq:

-Dayanın, -dedi, -şaha bir sözüm var.

Hamı bir an dayandı.

O zaman ata, balasını qolları arasına alaraq çaya tulladı. Sular öz həmdəmini bağrına basıb, sürətlə axdı. Ata şaha baxaraq, müdhiş bir təbəssümlə:

-Sözüm bu idi, ey şah! -dedi». (41, s.143)

Yazıçı qələmə aldığı bu əfsanəni özü arzuladığı şəkildə poetik boyalarla təsvir edir. Əfsanə süjeti üstündə köklənən bu əsərində İ.Əfəndiyev vətən torpağının igidi, Xançobanın sevgilisi ellər gözəli Saranı yadelli xana təslim etməyərək onu coşqun sellərin qoynuna atan atanı e tibar, sədaqət mücəssəməsi kimi oxucuya təqdim edir. Milli əxlaqi dəyərlərimizə bağlılığımızı özündə əks etdirən bu əfsanənin süjeti üzərində yenidən işləməklə yazıçı öz bədii təxəyyülünün imkanları əsasında yeni, mükəmməl bir bədii əsər yaratmışdır.

Sara - Arpa çayı- Xançobanla bağlı qədim xalq mahnısının motivləri əsasında düzülüb qoşulan əfsanələrdən biri İlyas Əfəndiyevin qələmində reallaşır.

«Apardı sellər Saranı» əfsanəsinin müxtəlif variantları vardır. Mövzular müxtəlifliyinə, məzmun-ideya keyfiyyətlərinə görə bir-birindən fərqlənsə də bunlarda insan taleyi, insan faciəsi əsasdır. Bir mahnının motivləri əsasında yaranan əfsanələrdən birində sel Saranı Arpa çayının aşması nəticəsində ağuşuna alır. Su anası-Su atası mifoloji ünsürləri üzərində köklənən başqa bir əfsanədə Saranın anasının Arpa çayıyla bağlılığının nəticəsində Arpa çayı Saranı aparır. Digər bir əfsanədə Saraya vurulan əmisi oğlu əmisindən intiqam almaq üçün Saranı sulara qərq edir. Bütün bu əfsanələrdə sədaqət, saflıq, qeyrət, namus kimi ideyalar qorunub saxlanılır. İ.Əfəndiyevin qələmə aldığı bu mövzunun süjetində milli-əxlaqi keyfiyyətlər ön plana çəkilir.

Azərbaycan şifahi xalq ədəbiyyatından istənilən qədər material əldə etməyi bacaran sənətkar «Apardı sellər Saranı» əfsanəsiylə yanaşı, digər xalq ədəbiyyatının qaynaqlarından yararlanmaqla, qiymətli sənət nümunələri yaratmışdır. «Qarı dağı», «Vəzir Allahverdi xan və Bəhlul Danəndə», «Yusif və Esfir», «İsa-Musa», «Abidin yuxusu» və s. buna misal ola bilər.

Yazıçı bu rəvayətlərin, nağılların («Satıram», «İsaq-Musaq», «Yusib-Nəsib» və s.) süjet və obrazlarından bəhrələnməklə, ona real həyat donu

geyindirir və oxucu qarşısına yeni səpkidə, yeni sənət əsəri çıxarır (51). Onun qələmə aldığı «İsa-Musa» əsərinə diqqət yetirsək, bunun canlı şahidi olarıq. Sürüsünü tufanda itirmiş İsa və Musa qardaşları haqqında rəvayətlər xalq içərsində ən qədim dövrlərdən yaşayır və bu süjetin kökləri minilliklərə gedib çıxır. İlyas Əfəndiyev bu mövzuya yeni bir ruh, təravət gətirmişdir. Əsərin əfsanədə olduğu kimi süjeti qorunub saxlanılır, lakin hadisələr, qəhrəmanlar milli ruhumuza məkan və zamanca daha çox yaxın şəkildə verilir. İsa və Musa bir vətənin oğlu olub ikiyə parçalanmış Azərbaycan övladlarıdır: İsa və Musa atabir qardaş idilər. İsanın anası Arazın bu tayından, Musanın anası isə o tayından idi.

Yazıçının qəhrəmanları özünün dediyi kimi, «Qaçaq Nəbinin, Qaçaq Süleymanın at oynatdıqları Üç təpə dağlarından o tərəfə Salvartı yaylağında», qışda və yazda Haramıda sürülərini bəsləyir, var-dövlətlərini artırır, sevdikləri gözəllərə qovuşmaq, gözəl həyat qurmaq arzusu ilə yaşayırdılar. Onların tütəyinin, sazının səsində bir hikmət yatırdı, dinləyənləri heyran qoyurdu. İsanın nişanlısı Güney Azərbaycanlı Xan Kərəmin qızı, Musanın nişanlısı isə Avşar Hacıqulunun nəvəsidir. Yazıçının dediyi kimi, «saf nəsildən» olub, elin-obanın sayseçmə igidlərindəndir.

İsayla Musa «Çoban bayatısı»nın sədaları altında xəyalən öz istək və arzularına qovuşmağa can atdığı zaman göyün üzünü bürüyən qara buludun gətirdiyi tufanın dağları, daşları lərzəyə salan amansız uğultusu bu iki qardaşın bütün ömrü boyu nökərçiliklə, alın zəhmətiylə əldə etdiyi sürünü çöllərə tökür və yazıçı amansız təbiətin qardaşların başına açdığı müsibətləri əfsanəvi sonluqla bitirir: «Axtardılar, Alabaşı səslədilər, sürünü tapmadılar, yemədilər, içmədilər, yorulub əldən düşdülər, tapmadılar…

O zaman Allah onları bir cüt quş elədi ki, axtarışları asan olsun.

İndi o vaxtdan bəri İsa-Musa quşu hey sürünü axtarıb bir-birindən soruşur:

-İsa tapdın?

-Musa tapdın?» (40, s.68)

Gözümüz qarşısında aydın gecələrdə bir-birini intizar dolu səslə çağıran İsa-Musa quşu canlanır və yazıçı İsaq-Musaq quşu haqqında yayılmış bu əfsanədəki obrazlardan yararlanmaqla yaratdığı əsərin sənətkarlıq baxımından

qüvvətli çıxmasına nail olur. Əsərdəki lirizm, bədiilik, əsərin dilindəki sadəlik mövzunun bədii təsir gücünü artırmaqla yanaşı, onu xalq ədəbiyyatı nümunələrə yaxınlaşdırır. Xəlqilik pirinsiplərinə hörmətlə yanaşan yazıçı yaratdığı əsərini bədii boyalarla, real həyat səhnələriylə zənginləşdirir, bu xalq əfsanəsindən istifadə etməklə öz hümanist ideyalarına sadiq qalaraq insanlara xoşbəxtlik, səadət arzulayır, sanki İsaq-Musaq quşu haqqında yaranmış rəvayətlərdən, eləcə də özünün yaratdığı bu gözəl sənət əsərindən doğan ideyanı ümumiləşdirir: «-Ey böyük Yaradan!-deyirdi, -insanların …bütün insanların öz xoşbəxtliklərini tapmaqlarına kömək elə! Onların qəlbini yiyəsiz, köməksiz qoyma! Taleyin onları təkləyib naümid, pərişan etmələrini qoyma! Biz insanların bütün ciddi-cəhdinə baxmayaraq, ürəklər birləşib məhəbbətin əbədi ülviyyətini tapa bilmir. Dünya yaranandan bəri axtardığımız səadət nə üçün daima bir ilğım, bir əfsanə olub! Onu tapmaqda, ona qovuşmaqda bizə özün kömək ol, böyük Yaradan!» (40, s.73)

İ.Əfəndiyev tədqiqatçı, folklorşünas olmasa da, yaratdığı bədii əsərlər daxilində elə folklor toplayıcısıdır. O, xalqına bağlı, onun milli - məişətinə, adət -ənənəsinə yaxından bələd olan yazıçı, dramaturq idi. Əsərlərində neçə-neçə yer, dağ, oba ilə əlaqədar xalq içərsində yaşayan əfsanə və rəvayətlər yeni çalarlar vurmaqla qələmə aldığı mövzunun ideyası ilə qırılmaz surətdə bağlayır və bunu mövzunun daha bədii şəkildə əks etdirmək üçün ən gözəl vasitə olduğunu bilirdi. Yeganə övladını cəbhəyə yola salan atanın narahatçılığını, çəkdiyi əzabların ağrısını, onun həlak olması haqqında aldığı xəbərdən sarsılmasını daha təsirli, daha güclü verməklə müdhiş gecənin qaranlığını yaran «İsa-Musa» quşunun səsinə yazıçı diqqətimizi cəlb edir. Nağıl və əfsanələrdən eşitdiyimiz İsaq-Musaq əfsanəsini bizə xatırlatması və folklorun bu nadir incilərindən istifadə etməklə, ondan bəhrələnməklə, hansı zəmanədə yaşamasından asılı olmayaraq, əzizlərini itirmiş insanların faciəsini ümumiləşdirməsi sənətkarın yaradıcılığının yüksək ideyalara xidmət etməsini göstərir. Qəhrəmanın daxili aləmini, ağrı-acılarını, çəkdiyi mənəvi sarsıntıları, müharibənin törətdiyi acı faciələrin insan həyatında yaratdığı fəlakətləri İsaq-Musaq quşunun əfsanələrdə yaşayan qəmli taleyi ilə qarşılaşdırmaqla, onu

oxucuya xatırlatmaqla, yazıçı yaratdığı əsərin emosional təsirini, bədii gücünü artırmışdır.

İsaq-Musaq quşunun intizar dolu səsindən, onlar haqqında xalq içərsində dolaşan əfsanələrdən yararlanmaqla, yazıçı yaratdığı obrazın - övladını itirmiş, bala dağının göynərtilərini yaşayan atanın zəngin daxili aləmini yüksək bədiiliklə təsvir etməyə nail olmuşdur.

Bir-birindən ayrı düşmüş İsaq-Musaq haqqında əfsanənin yazıçının əsərlərində xatırlanması, bir tərəfdən onun bu xalq nümunələrinə olan sevgisindən, onların qəmli həyatından doğan kədərin bir insan kimi onun da qəlbinin tellərini titrətməsindən irəli gəlirsə, digər tərəfdən yazıçıya bədii cəhətdən qüvvətli, yaddaqalan, oxucu hafizəsinə həkk olunan qüvvətli bir əsər yaratmağa imkan verir.

İsaq-Musaq quşuyla bağlı əfsanələrin müxtəlif variantları vardır və bunlardan biri də «Yusif-Nəsib» əfsanəsidir. Burada deyilir ki, Yaqub peyğəmbərin on iki oğlu olsa da, ən çox Yusifi istəyirdi. Bir gün Yusifin evə gəlib çıxmadığını görən peyğəmbər nökərlərindən ikisini Yusifi tapmaq üçün göndərir. Lakin hər yeri axtaran nökərlər Yusifi tapa bilmirlər. Əlacsız qalan nökərlər Allahdan arzu edirlər ki, onlara qanad versin, quşa döndərsin, göyə uçub Yusifi tapıb peyğəmbərə çatdırsınlar. Tanrı onların hər ikisini quşa döndərir və onlar Yusifi axtarmağa gedirlər. İndi onlara Yusif-Nəsib quşu deyirlər.

Yenə Yusif-Nəsiblə bağlı başqa bir əfsanə də vardır ki, burada onların bacısı da quşa dönərək qardaşlarını axtarır. Yusiflə-Nəsibin qardaşlarının hərəsinin bir atı varmış. Bir gün o atları axtarmaq üçün çölə gedən qardaşlar bacılarından xahiş edirlər ki, onlar gələnəcən südlü aş bişirsin, gəlib yeyəcəklər. Fatimə südlü aşı bişirir, lakin nə qədər gözləyir qardaşları gəlib çıxmır. Dərdli bacı onları axtarmağa gedir, nə qədər axtarır, tapa bilmir. Qardaşlarını tapmaq üçün Fatimə arzu edir ki, bir quş olsun, uçub göyə qalxsın, qardaşlarını tapsın. Bu əfsanədə də, Yusif-Nəsib əfsanəsində də, İsaq-Musaq əfsanəsində də və yazıçının qələmə aldığı əsərin süjetində də oxşarlıq vardır. Bu da onu göstərir ki, müxtəlif variantlı, lakin eyni süjetli bu əfsanələr xalq təfəkkürünün məhsuludur və İ.Əfəndiyev onlardan yararlanmaqla xalqının

məişətini, əfsanələrə dönmüş keçmişini, bu gününü, gələcəyini folklorla əlaqəli şəkildə verməklə dəyərli sənət əsəri yaratmışdır.

Yazıçının qələmə aldığı əsərin süjeti və obrazları ilə Yusif-Nəsib, İsa-Musa əfsanələrinin süjetlərində, obrazlarında oxşarlıq vardır. Xalq təfəkkürünün məhsulu olan bu əfsanələrdəki süjetlərə, obrazlara yazıçı yaradıcı surətdə yanaşmaqla qələmə aldığı mövzunun ideya-məzmununu daha da zənginləşdirmiş, əsərlərinin bədii təsir gücünün artmasına nail olmuşdur.

İ.Əfəndiyev real aləmdə gördüyü insanları, onların sevgisini, kədərini qələmə alarkən xalqının əfsanələrdə yaşayan keçmişinə nəzər salır, oxşar izlər tapır, onlara bir yaradıcı sənətkar kimi yanaşır, bədii təfəkkürünün süzgəcindən keçirir, yeni bir bədii don geyindirir, yeniləşdirir, müasirləşdirir, zamanın tələblərini özündə əks etdirən yeni bir əsərə çevirir.

«Qarı dağı» əsərinin süjeti də rəvayətlərdən götürülmüşdür. Torpaq sevgisi, vətən məhəbbəti, işğalçılara nifrət şifahi xalq ədəbiyyatının bir sıra nümunələrinin süjetlərində əsas yer tutur. Şəhəri ələ keçirmək istəyən hökmdar xalqın müqavimətini qırmaq üçün uzun müddət onu mühasirədə saxlayır. Ələ keçirdikdən sonra şəhər camaatını qılıncdan keçirir, elin-obanın sinəsinə dağ çəkir. Xalqın ah-naləsi üzərində öz qalibiyyət şənliyini quran hökmdarın sevinci uzun çəkmir, ona xəbər çatır ki, oğlu Məliktac ağır xəstədir. Şah öz adamlarını şəhərə tökür, sağ qalmış insanlar arasında oğluna təbib axtarır. Onun adamları məhv olmuş şəhərin xarabalıqları arasında bir qarı yaşadığını, xəstəni öz hüzuruna çağırdığını şaha bildirirlər. Başqa vaxt olsaydı, şah o qarını qətlə yetirərədi, lakin əlacsız qaldığından şahzadəni qarının daxmasına aparmalı olur. Ağrılar içində çabalayan cavan şahzadənin imdad dolu baxışlarına ananın ürəyi tab gətirmir. Dağlardan toplayıb gətirdiyi gül-çiçəkdən məlhəm düzəldib onu həyata qaytarır. Şəhərin camaatı bu qoca qarıdan üz döndərir. Oğlunun sağaldığını görən şah öz zəfər bayramını yenidən davam etdirmək üçün məclis qurulmasını tələb etdikdə ana dağılmış, virana qoyulmuş, əzizləri öldürülmüş torpağının, xalqının intiqamını bu şahdan almaq hissini boğa bilmir. Ana öz əllərilə hazırladığı cam dolu zəhəri şərbət kimi şaha təqdim edir və şah ilə oğlu bu içkidən yerindəcə ölürlər. Onların ölümündən sonra şahın adamları qarını daxmada qoyub, qapını onun üzünə bağlayıb, komanın üstünə o qədər daş-

torpaq tökürlər ki, uzaqdan bu daxma dağa bənzəyir və bu yer «Qarı dağı» adıyla tanınır.

Yazıçının qələmə aldığı bu əfsanədə böyük ideya-məzmun var. Xalq ədəbiyyatının tarında köklənmiş bu əsər bizim üçün doğma olan xalq sənətinin incilərini xatırladır. Yazıçı bu xalq əfsanəsinə yeni, bədii don geyindirir. Yadelli işğalçılar tərəfindən dağıdılan yurdu talanan xalqın yağılara olan sonsuz nifrətini qabarıq şəkildə verməklə yanaşı, bu günkü gəncliyin də qəlbində elə murdar işğalçılara qarşı nifrət hissi tərbiyə edir, xalqını, vətənini, elini sevməyə çağırır. Bu əfsanədə vətənə, elə məhəbbət, düşmənə nifrət hissi güclüdür və yazıçı hadisələri bədii reallıqla qələmə alınır və sənətkarlıq baxımından qüvvətli çıxmasına çalışır. Oxucu qəldbində vətənə məhəbbət, düşmənə nifrət hissini artırır. O, fikrini obrazlı şəkildə vermək üçün xalq ədəbiyyatının, eləcə də yazılı ədəbiyyatın bəzəyi olan bədii ifadə vasitələrindən məharətlə istifadə etmişdir. Qarının qaniçən hökmdarın oğlunu ölümdən xilas etməsi xalqının qəlbinə dəyir. El-obada böyükdən kiçiyə kimi hamı qarıya lənətlər yağdırır, onu «imansız» adlandırır, tənə ilə ondan soruşurdular: «-Ay falçı, bəs qızıl başmağın hanı?» (41, s.60) Bu bədii sual oxucu qəlbində satqınlara, vətən xainlərinəə qarşı nifrəti artırır.

«Qarı dağı» əfsanəsinə oxşar yerlə bağlı çoxlu əfsanələr vardır ki, bunlar da xalqın zəngin təxəyyülünün məhsulu olub bu günə qədər yaşamaqdadır. «Gəlin qayası», «Qarı sərnici», «Baba dağı», «Soltanbud təpəsi» və s. yer adları ilə bağlı əfsanələr xalq içərisində geniş yayılmışdır. (23)

«Qarı dağı» rəvayətinə yaxın olan «Qarı sərnici» (22, s.53) də bu mövzuya yaxındır. Əfsanəyə görə şahın kəndə gəldiyini eşidən camaat qaçıb kənddən çıxır. Kəndə girən şah camaatın qaçdığını, bircə qoca qarıdan başqa kənddə heç kimsənin olmadığını görür, qoca qarı şahdan bir qarış torpaq (bir sərnic torpaq, yer) istəyir. Şah qarının nə istədiyini başa düşür və qoşunundan tələb edir ki, hər kəs qarının başına bir at torbası torpaq töksün. Ordu onun əmrini yerinə yetirir. Qarının başına tökülən torpaqdan bir təpə yaranır və o vaxtdan Fizuli rayonunun Dilaqardı kəndi yaxınlığındakı bu təpəyə «Qarı sərnici» deyilir.

İ.Əfəndiyev öz əsərlərində hadisələrin əsasında duran qəhrəmanların daxili aləmini açmaq, əsərlərinə daxil etdiyi mövzuların ideya-məzmun

cəhətdən zəngin olması üçün nağılların, rəvayətlərin, əfsanələrin mövzu, süjet və obrazlarına bir yazıçı kimi yaradıcı yanaşır, folklor qaynaqdlarından bəhrələnməklə müasir həyatla səsləşən samballı sənət əsəri ilə yazılı ədəbiyyatımızın zənginləşməsinə xidmət edir.

Bildiyimiz kimi, Molla Nəsrəddin və Bəhlul Danəndə ilə bağlı xalq ədəbiyyatında çoxlu rəvayətlər vardır ki, bunlar da tədqiqatçılarımız tərəfindən tədqiq olunub. (55, 56, 120, 142) Onların ağıllı, müdrik kəlamları ilə bəzənən lətifələr uzun illər, əsrlər boyu xalqlar arasında geniş yayılmış, onları yaradıcı surətdə qoruyaraq dildən-dilə, ağızdan ağıza ötürməklə dövrümüzə qədər gəlib çatmasını, yaddaşlarda qalmasını təmin etmişdir.

İ.Əfəndiyevin yaratdığı əsərlərində folklorumuzdan tanıdığımız bir sıra obrazlar və onlarla bağlı rəvayətlər vardır. Molla Nəsrəddin və Bəhlul Danəndə ilə bağlı rəvayətlərin, lətifələrin çoxu yaradıcı xalqın bədii təfəkkürünün məhsuludur. Azərbaycan xalqının duzlu-məzəli lətifələri ilə yanaşı, ağıllı, müdrik nəsihətamiz rəvayətləri də dünyada məşhurdur. Yaxın Şərq xalqları içərisində folklor obrazı kimi tanınan Bəhlul Danəndə bəzi rəvayətlərə görə tarixi şəxsiyyət olub Harun-ər Rəşidin qardaşı olduğu söylənilir. Bəhlul Danəndə dünya folklorunda ağıllı sözləri ilə dəli kimi tanınmış obrazdır. Lətifələrdə biz onu ədalətsiz hökmdarlara, yalançı ruhanilərə, zalım, qəddar varlılara qarşı kəskin satirik eyhamları ilə qılınc çalan hazırcavab, tədbirli müdrik bir komik obraz kimi tanıyırıq. Xalq arasında məcazi mənada Divanə Bəhlul kimi tanınan Bəhlul Danəndəylə bağlı lətifələr geniş yayılmışdır. Yazıçı «Vəzir Allahverdi xan və Bəhlul Danəndə» əsərini bu lətifələrdən birinin süjeti əsasında yazmışdır. Dərin məzmunlu, realist əsərin qəhrəmanı xalq ədəbiyyatından bizə məlum olan vəzir və Bəhlul Danəndədir.

Bəhlul Danəndəylə bağlı lətifələrdən birində deyilir ki, padşah vəziri ilə səyahətə çıxır. Yol kənarında qabağına üç topa torpaq yığmış Bəhlul Danəndəni görürlər. Bəhlul Danəndənin bu torpağı satdığını eşidən vəzir maraqlanaraq pul verib həmin torpaq topalarını alır və hər birinin mənasını ondan soruşur. Bəhlul Danəndə torpağı ona satarkən deyir ki, aparıb bu torpağı varlı, zalım adamlara etibar edənlərin, nanəcibdən borc alanın, hər yetənə sirr verənin başına tökərsən.

Vəzir onun bu sözlərini sınamaq üçün padşahın qoçunu oğurlayıb gizlədir və arvadına bu sirri danışır, bir nanəcib varlıdan yüz tümən borc alır. Bir gün vəzir arvadıyla savaşır və arvad acıq edib onun şahın qoçunu oğurladığını camaata danışır. Xəbər şaha çatan kimi vəzirin dar ağacından asılmasını əmr edir, nanəcib varlı da ölüm ayağında ondan borcunu tələb edir. Nəhayət, Bəhlul Danəndənin dedikləri sözlərdəki həqiqəti başa düşən vəzir padşahdan ölümqabağı söz alıb əsil həqiqəti ona danışır və şahın qoçunu gətizdirir. Vəzir padşaha deyir: «- Mən sənə qırx il qulluq eləmişəm. Demə, bir qoç qədər də qiymətim yox imiş. Bəhlul dediyi söz doğru çıxdı. Məni azad elə.

Padşah çox yalvardı, vəzir razı olmadı. Vəzirlikdən çıxıb öz evinə getdi. O gündən arvadına sirr vermədi, heç bir varlıdan borc almadı…» (22, s.424)

Yazıçının «Vəzir, Allahverdi xan və Bəhlul Danəndə» hekayəsində əsərin qəhrəmanı Bəhlul Danəndənin üç sözündən şübhəyə düşüb onun sözlərindəki həqiqəti yoxlamaq qərarına gəlir. Üç kül təpəciyini Bəhlul Danəndədən alan ağıllı vəzir burada nə isə bir məna olduğunu anlayır. Üç qızıl verib kül təpəciklərin mənasını soruşur: «Bəhlul Danəndə birinci təpəciyi göstərib dedi:

-Bu kül təpəsi o adamın başına ki, padşaha inanır.

İkincisini göstərib dedi:

-Bu o adamın başına ki, arvadına inanır.

Üçüncünü göstərib dedi:

-Bu da o adamın başına ki, dostlarına inanır». (40, s.52)

Əsərdə Bəhlul Danəndənin sözlərindəki həqiqətə inam hissi əsas götürülür. Onun sözlərindəki mənanı aşkara çıxarandan sonra vəzir hökmdara deyir: «Bəhlul Danəndə o üç kül təpəsilə bizi fənalığa qarşı sayıq olmağa çağırır. Əlahəzrət, mən yenə də bu əqidəyə gəlmişəm ki, hər halda biz hökm edənlərin borcu daha doğrusu, çarəsi yaxşı insanlara inanmaq və bu inama istinad edərək cəmiyyəti ədalətlə idarə etməyə çalışmaqdır». (40, s.56)

Əsərdən çıxan nəticə, ideya bu sözlərdə öz əksini tapır: Ağıllı nəsihətlərdən yararlanmaqla, ağıllı şəxsiyyətlərin müdrik ideyalarından bəhrələnməklə, hakimiyyəti idarə edən şəxsin hakimiyyəti də uzun ömürlü olar, bu nəsihətləri unutmayan dövlət başçısı da xalqın rəğbətini qazana bilər. Çünki ağıllı nəsihətlərdən yararlanmaqla əldə edilən müvəffəqiyyətlər daha

uzun ömürlü, xeyirli, faydalı ola bilər və ondan istifadə edən hər kəsə ancaq xeyir gətirər. Nağıl, rəvayət janrından bəhrələnməklə yazılan əsərlərində təsirililik, səmimilik ön plana çəkilir. O, nağıl motivlərindən təkcə bəhrələnmir, eyni zamanda özü də hadisələrin, nağıl qəhrəmanlarının xarakterinə münasibətini bildirməklə yaratdığı əsərin ideya və məzmun orijinallığını, əsərinin bədii dəyərini, emosional təsir gücünü artırmağa çalışır.

«Geriyə baxma, qoca» əsərində biz tez-tez nağıl dünyamızın qəhrəmanı Məlikməmməd obrazına, qardaşlar arasındakı düşmənçilik süjetinə də rast gəlirik. Ümumiyyətlə, xalq yaradıcılığında rast gəldiyimiz süjetlərdən biri Qardaşlardır.

Qardaşlar süjeti dünya xalqlarının əfsanə və rəvayətlərində də yaşayır. Azad Nəbiyev yazır ki, dünya folklorşünaslarından biri olan Karl Kroon bildirirdi ki, «müxtəlif coğrafi regionlar üçün eyni olan səyyar süjetlər vardır və onlar bütün dünya xalqları içərsində mövcuddur» (95, s.50). Xalqlar arasında geniş yayılmış «Yusif və Züleyxa» dastanında Yusifin qardaşları ona paxıllıq etdiklərindən quyuya salıb məhv etməyə çalışırlar. Atası Yusifi çox istədiyindən, əzizlədiyindən qardaşlarının qəlbində ona qarşı kin yaranır. Yusifin ağlı, kamalı onu atasına nə qədər sevdirmişsə, o qədər də qardaşlarının qəlbində qısqanclıq, paxıllıq hisslərini artırmışdı. Dini əfsanə və rəvayətlərdə, eləcə də dünya xalqlarının folklorunda olduğu kimi Azərbaycan folklorunda da qardaşlar süjeti yaşayır. Yazıçı «Məlikməmməd nağılı»ndakı bu süjetdən yararlanmaqla dövrünün həyat hadisələrini, qəhrəmanıyla onun qardaşları arasındakı ixtilafları daha təsirli, bədii cəhətdən daha güclü, daha emosional verməyə çalışır və istəyinə nail ola bilir.

Məlikməmməd nağılı bunun bariz nümunələrindən biridir. Yazıçı əsərində qəhrəmanların daxili aləmini açmaq üçün tez tez Məlikməmmədin kəndirini kəsib onu qaranlıq dünyada qoyan nağıl dünyasının qəhrəmanları olan xain qardaşları xatırladır, Muradın atasının qardaşı Qubadın əməllərini açıqlayır. Bütün varını bir sandıqda qardaşına etibar edib onun yanına gətirməsi, Qubadın sandığı sındırıb içindəkiləri oğurlaması, Abdullanın qardaşından varidatı gətirib verməsini tələb etdikdə onları tutdurmaqla hədələməsi, Muradın əmiləri ilə atası arasındakı münasibətlər onun qəlbini göynədir və o, tez tez

Məlikməmmədin ipini kəsib onu qaranlıq dünyada qoyan qardaşları nifrətlə xatırlayır. Çünki yazıçının kiçik qəhrəmanı atasının Məlikməmməd kimi qardaşları tərəfindən aldığı zərbənin acısını özü də yaşamalı olmuşdur. Atası Abdullanın bütün varını bir sandığa yığıb qardaşına etibar etməsi və qardaşı Qubadla arvadının bu varidatın arxasına keçməsi onları aclıq, səfalət içərsində yaşamağa məcbur edir və o bacısıyla birlikdə əsgərlərin verdiyi yağsız, dadsız, ətsiz supla günlərini keçirir, acından ölməmək üçün əzablara qatlaşmalı olur.

İ.Əfəndiyevin qəhrəmanı qeyri insani keyfiyyətlərə malik qəddar, zalım qardaşlar haqqında ancaq nağıllarda oxumuşdu və inanmırdı ki, nağıllarda eşitdikləri həqiqət ola bilər. «Yol uzunu mən atamla Qubad əmim barədə fikirləşirdim. Həyatımda birinci dəfəydi ki, mən qardaşlar arasında belə münasibət görürdüm. Fatma nənəm qardaşlarının Məlik Məmmədi qırx arşın quyuya saldıqlarını nağıl eləyəndə mən inana bilmirdim «Adam da qardaşını quyuya salarmı?» -deyirdim. Fatma nənəm də uzun müştüyündəki papirosundan dərin bir qullab alıb deyərdi:

«-Vələdüzna qardaş salar!»... Qardaşın qardaşdan oğurluq eləməyi mənə Məlikməm-mədi qardaşlarının qırx arşın quyunun dibinə salmaları kimi dəhşətli və ağlasığmaz görünürdü». (46, s.231)

Qubad kimi qardaşların öz doğmalarına qarşı törətdikləri cinayət, onun ailəsini yoxsulluğa, fəlakətə düçar etməsi oxucu qəlbində nifrət yaradır. Sənətkarın nağıl qəhrəmanlarımızın başına gələn hadisələrlə bü günkü reallıq arasındakı oxşarlığı tapması, obrazların hadisələrin gedişində xalq ədəbiyyatından gələn ideyalarla onu qarşılıqlı şəkildə təsvir etməsi əsərin bədii dəyərini artırmış olur. Nağıl qəhrəmanı Məlikməmmədin qardaşları da onun göstərdiyi igidliyi öz adlarına çıxmaq, divləri öldürüb özüylə götürdüyü gözəlləri ələ keçirmək üçün onun kəndirini kəsib, qaranlıq quyuda qoyurlar. Doğrudur, nağıl yaradıcıları öz romantik duyğularını əsas tutaraq şər üzərində xeyrin qələbəsini təmin etmək üçün onu sehrli qüvvənin - Simurğ quşunun köməyi ilə işıqlı dünyaya çıxarıb, Məlikməmmədin tapdalanmış haqqını bərpa etməsinə şərait yaratmaqla, onun qələbəsini təmin etmiş olurlar. İ.Əfəndiyevin qəhrəmanları isə real həyatda belə sehrli qüvvələrin köməyindən uzaqdırlar. Onlar Abdullanın o biri qardaşı Zəbi tərəfindən də etibarsızlıq görürlər və

nəhayət, iki qardaşın əməlləri ucbatından bir vaxtlar cücə plovundan imtina edən Abdullanın iki körpəsinə onların evində yerləşmiş batalyon komandirinin yazığı gəlib «duzsuz-dadsız» çovdar aşı ilə onları doyuzdurur. Abdullanın sonrakı həyatı Məlikməmmədin əldə etdiyi qələbəyə tamamilə oxşamasa da, yazıçı nağıldakı buna bənzər motivlərdən yararlanmaqla, xalqın milli təfəkkürünün nadir incilərindən faydalanmaqla mövzunun bədiiliyini artırmışdır. Onun folklora bağlılığını araşdırarkən mənsub olduğu xalqa, doğma yurduna, onun mənəvi dünyagörüşünə nə qədər bağlı olduğunu aydın görürük.

İ.Əfəndiyev istifadə etdiyi folklor nümunələrinin ideyasında zalım hökmdara, qan tökən, işğalçı müharibələr apararaq ölkələr fəth edən, insanlara zülm, fəlakət gətirən şahlara, onların bəd əməllərinə qarşı ülvi, təmiz saf hisslər qoyur. O, qələmə aldığı folklor nümunəsini öz şəxsi yaradıcılıq təfəkküründən keçirərkən ona yeni, real, bədii don geyindirir.

İ.Əfəndiyev yazırdı: «Uşaq vaxtı eşitdiyim nağıllar, əfsanələr uzun illər boyunca həmişə mənimlə olmuşdur və qəribədir ki, illər keçdikcə də elə bil ki, onlar mənim üçün yeni boyalar, çalarlar əldə etmişdir. Sonralar məlum olmuşdur ki, mənim uşaq təfəkkürümü tamam sehrli bir aləmə çəkib aparan həmin əhvalatların bir qismi Azərbaycan nağıllarından, hətta «Min bir gecə»dən gəlir, bir qismi dastanlarımızdan, əsatirlərimizdən, qədim inam və ayinlərimizdən, bir qismi də hədislərdən, dini şərhlərdən gəlir, onların bəzisini qələmə alarkən mən ilkin mənbələri yox, öz yaddaşımı, hisslərimi əsas götürmüşəm». (40, s.10)

Sənətkarın nağıl qəhrəmanlarımızın başına gələn hadisələrlə bü günkü reallıq arasındakı oxşarlığı tapması, obrazların hadisə gedişində xalq ədəbiyyatından gələn ideyalarla onu qarşılıqlı şəkildə təsvir etməsi əsərin bədii dəyərini artırmış olur.

«Qəhrəman və bülbülün nağılı» əsərində xalq ədəbiyyatından gələn motivlər güclüdür. Bu hekayədə yazıçı qanlı döyüşlərdə düşmənlə vuruşmuş və bu döyüşdə ağır yaralanmış igid bir qəhrəmanın ömrünün son anlarını təsvir edir.

Xalqın hikmət və qüdrətinə söykənən sənətkar müharibədə düşmənə qarşı igidliklə vuruşan döyüşçülərimizin fədakarlığını göstərməklə yanaşı, onların

son anda öz saf duyğularını, hisslərini, sədaqətini də folklorda olduğu kimi romantik boyalarla əks etdirir.

Yazıçının qəhrəmanı «yeddi düşmən öldürüb yaralanandan sonra» huşunu itirib yerə yıxılır. Düşmənlə əlbəyaxa döyüşdən sonra son anlarını yaşayan qəhrəman ölümündən qorxmayan igid, cəsur bir döyüşçü olmaqla bərabər sevən aşiqdir. Ömrünün son anlarını yaşayan yaralı igid məhəbbət, sədaqət rəmzi olan bülbüllə qarşılaşdırılır. Bizə əfsanələrimizdən gül-bülbül mövzusu tanışdır. Vəfa, sədaqət mücəssəməsi olan bu iki məfhum xalqa doğmadır. «Qızılgül və bülbül» əfsanəsində deyilir ki, bu xanın gözəl bir qızı kasıb bir gəncə vurulur. Xan bunu eşitdkdə çox qəzəblənir və qızını varlı bir şəxsə nişanlayır, kasıb gənc bu xəbəri eşidib gecəsini-gündüzünü ah-fəğanla keçirir. Bir gün gizlincə onlar görüşürlər və öz əhdlərinə sadiq qalacaqlarına and içirlər. Aradan bir neçə gün keçir, xan toya hazırlıq görür. Qız çıxış yolu görmür, atasının insafsızlığından cana gəlir, üzünü tutub Tanrıya yalvarır ki, ya atamın qəlbinə insaf sal, ya da məni bu əzabdan qurtar. Tanrı qızın yalvarışlarını eşidir. Onu gözəl bir gülə çevirir, atasını isə tikana döndərir. Bu tikanlar gülün budağına yapışırlar.

Səhər açılır, nə qız, nə də xan tapılır. Həyətdə isə indiyədək heç kimin görmədiyi ətirli, üzərində tikanları olan gül kolu görürlər. Bu xəbər oğlana çatır, özünü xanın evinə çatdırır, gülə tamaşa edir, onun ətrindən başa düşür ki, bu gül kolu sevgilisidir, kasıb oğlan da Tanrıya yalvarır ki, onu da gül koluna çevirsin, Tanrı isə onu bülbül adlı quşa çevirir. Bülbülə dönmüş oğlan o vaxtdan bu gülün başına dolanıb öz mahnılarını oxuyur. Yazıçı «Qəhrəmanla bülbülün nağılı» əsərində qəhrəmanını bülbüllə qarşılaşdırmaqla əsərinin emosionallığını, bədiiliyini artıra bilmiş, yüksək bəşəri ideyaları özündə cəmləşdirən sənət əsəri yaratmışdır. Bülbüllə qəhrəmanı qarşılaşdırmaqla onlarda oxşar talelər axtaran, əfsanəvi dünyamızın qəhrəman-ları ilə öz vətəninin azadlığı uğrunda döyüşən igidin böyük ideyalar uğrundakı mübarizəsi insanların bəşəri duyğularını özündə cəmləşdirir: vətəninə, sevdiyi insana sədaqət, azad və xoşbəxt yaşamaq, arzulara qovuşmaq istəyi və bu yolda insanların sarsılmaz əqidəyə malik olması. İ.Əfəndiyevin qəhrəmanları öz sələflərinə oxşayır və bu da belə olmalıdır, çünki hxalqına bağlı hər bir

sənətkar öz əsərlərində xalqının istək və arzularını ümumiləşdirir. Bu ümumiləşdirmə zamanı yazıçı xalqdan gəlmə motivlərlə köklənməklə üzərinə götürdüyü işin öhdəsindən daha bacarıqla gəlir. Xalq öz milli mənəvi dəyərlərini yaşadan, onları yaradıcılığının qayəsinə çevirən sənət sahiblərinə o zaman yüksək qiymət verir ki, bütün yaradıcılığı boyu xalqdangəlmə ideyaları yaşadır, keçmişiylə bu günü arasında əlaqə yaradır, xalq sənətinə, bədii təfəkkürünə sağlam düşüncəylə yanaşır və bu yanaşmadan xalq, onun incəsənəti, mədəniyyəti nəsə qazanır. İ.Əfəndiyev məhz bu prinsipdən yanaşmaqla oxucu qarşısına torpağına, vətəninə, sevgisinə sədaqətli mərd bir döyüşçü obrazı çıxarır və onun keçdiyi həyat yolu gələcək nəsillərə, gəncliyə əsil dərsdir.

Meşənin sükutunda ürəkləri riqqətə gətirən bülbülün səsi eşidilir. Yazıçı əfsanəmizdə olduğu kimi burada bu dilsiz-ağızsız varlığa dil verir. Nağıllarımızda ən çətin anda qəhrəmanı azad, işıqlı dünyaya çıxaran, onları ölümdən xilas edən, xoşbəxt həyata qovuşduran Simurq, Zümrüd quşu deyil, gücü, sehri ancaq səsində olan bülbüllə qarşılaşdırılır. Al qanı içərisində yıxılıb qalmış oğlanı görüb fəryad qoparan, yanıqlı səsiylə onu oyadan bülbülün nə qüvvətli qanadları, nə də qəhrəmanı ölümün pəncəsindən qopara biləcək qeyri-adi sehrli qüvvəsi vardır. Onun ancaq insanlara mənəvi qida verən, onların acılı-şirinli xatirələrini oyadan ecazkar səsi vardır. Yaralı çiçəklər arasında oxuyan bülbülü gördükdə gülümsəyir. Sənətkar əfsanələrdə olduğu kimi dilsiz varlığa dil verir:

«Nəzərləri ona dikilmiş bülbülün səsində riqqətli bir ney ağladı. O zaman oğlanın da gözlərindəki duman incə bir billur təbəqəsi kimi parladı.

Bülbül səsini kəsərək:

-Nə oldu, oğlan, - dedi, -yeddi düşmən sinəsi parçaladın, on səkkiz yara aldın, uf demədin, bəs indi nədən gözlərin yaşardı?» (41, s.30)

Bəlkə də igidin gözlərini yaşardan bülbülü güllər arasında, özünü isə sevgilisindən uzaq düşməsi, bir də səadətə qovuşa bilməyəcəyini bildiyi üçün qəmli hisslərin beynində dolaşması idi və yazıçı qəhərmanını Zümrüd quşu ilə deyil, bülbüllə görüşdürməkdə əsas məqsədi vardı. Yazıçı yaralı, ömrünün son anlarında da sevgilisini xatırlayan aşiqi vəfa, sədaqət rəmzi olan bülbüllə

qarşılaşdırmaqla, əzəli və əbədi məhəbbətin dastanını yaratmış olur. Bülbüllə qəhrəmanın arasındakı oxşar talelərin heykəlini yaradır. Əfsanələrimizdə bülbül sevgisinə yetişməyən kasıb gəncin simvoludur və onun məhəbbətinə mane olan var-dövlətə hərislik idi. Bu igid döyüşçünün isə ömrünə balta çalan ədalətsiz müharibələr törədərək insanları məhv edən yırtıcı, qəddar xislətli müharibə fatehləri idi.

Yazıçı bülbülün sözündən ah çəkib otların üstündə çabalayan igidin ürəyindən keçənləri bülbülün dili ilə açır:

Yazıçı hadisələri daha təsirli, bədii cəhətdən daha qüvvətli verməк, güclü obraz yaratmaq üçün folklorumuzun ən incə qaynaqlarından istifadə edir. Ondan yaradıcı surətdə bəhrələnməklə əsərlərinin sənətkarlıq baxımından qüvvətli çıxmasına nail olur. Yazıçının əsərlərini sənətkarlıq baxımından araşdıran hər hansı bir alim, tədqiqatçı belə bir nəticəyə gələ bilər ki, bu əsər şifahi xalq ədəbiyyatından yararlanmaqla yazılan, yüksək bədii tə»sir gücünə malik bir əsərdir.

Yazıçı qəhrəmanının taleyinə acıyır, onun ülvi arzularını ürəyində qoymaq istəmədiyi üçün qəhrəmanını yuxularında öz sevgisiylə əbədi birləşdirir. Üzünə səpilən güllərin təmasından gözlərini açan qəhrərmanı yenə də sehrli qüvvələrlə qarşılaşdırır. Cənnət, sülh rəmzi olan Göyərçinin arxasınca göylərin sakit, mavi ənginliklərinə yol açan qəhrərman sanki ölmür, əbədiyyətə qovuşur. Yazıçının yarat-dığı bu qəhrəman obrazı Şəhidlik zirvəsinə yüksələn vətən övladıdır. Şəhidlər tanrı üçün daha əzizdir, onlar ölmür. Əbədiyyətə qovuşur. Ən yüksək amal uğrunda şəhid olan qəhrəmanın ruhunu yazıçı Tanrıya qovuşdurmaqla onu özünə qaytarmış olur. Qəhrəman son dəfə gözlərini açanda göyərçini görür və bu «Göyərçin qanadlarını çalaraq havaya qalxdı. Oğlan onu tutub saxlamaq istəyirmiş kimi əllərini qaldırdı və birdən bu qartal qanadlarına çevrilib onun ağır vücudunu qəribə bir yüngüllüklə yerdən üzdü. Onlar getdikcə bir-birlərinə yaxınlaşıb, nəhayət, qoşalaşdılar». (47, s.345)

V.Y. Propp yazır: «Adam öləndə ruhunu quş qamarlayır. Quş beləliklə ruhu axirət aləminə aparır». (166, s.190)

Yazıçı qəhrəmanını əfsanələrdən tanıdığımız Tanrının elçisi göyərçin timsallı gözəgörünməz varlığın arxasınca göylərin mavi ənginliklərinə yola

salır. Göyərçin obrazına «Kitabi-Dədə Qorqud» boylarından biri olan «Duxa qoca oğlı Dəli Domrul boyını bəyan edər, xanım, hey» boyunda rast gəlmişik və bu əsərdən Əzrayılı göyərçin timsalında da tanıyırıq: «Dəli Domrul aydır: «Mərə, al qanatlu Əzrayıl, sənmi-sən» dedi. «Əvət, mənəm!»- dedi. «Bu yaxşı yigitlərin canını sənmi alursın?» - dedi… «Mən səni öldürəyim, yaxşı yigidin canını qurtarayım!»- dedi. Qara qılıncın sıyırdı, əlinə aldı. Əzrayili çalmağa həmlə qıldı. Əzrayil bir gögərçin oldı, pəncərədən uçdı - getdi». (74, s.80) Xalq ədəbiyyatında göyərçin, Əzrayıl süjetləri yaşayır və yazıçı obrazlardan, süjetlərdən bəhrələnməklə əsərdə şəhidlik zirvəsinə yüksələn kamil bir obraz yaratmışdır. Onun yaratdığı iri həcmli əsərlərin bir çoxunda xalq qaynaqlarına məhəbbəti, ağlın, zəkanın işığında baxışı görürük. Elinə, torpağına, eşqinə sadiq məhəbbət mücəssəməsi kimi əbədiləşdirdiyi qəhrəmanının ölümünə yeni məna verən sənətkarın nəzərində o, cəsur vətən övladıdır, onda bülbül vəfası, sədaqəti var və bu igidin ölümünü yazıçı müqəddəs ideyalara bağlayır. Əfsanəvi varlıqlarla əhatə olunmuş qəhrəmanın qəmi, vüsala yetməmək ağrısı, insanlara ancaq səadət, xoşbəxtlik arzulamaq hissi əsərdə güclüdür, ölməzliyə qovuşan şəhidlərimizin əbədi məhəbbətinin rəmzinə çevrilən qəhrəmanının məzarı da əbədi varlıqların məbədgahına çevrilir.

İ.Əfəndiyev xalqımızın yaratdığı nadir incilərdən yararlanmaqla, «Apardı sellər Saranı», «Qarı dağı», «Qəhrəmanla bülbülün nağılı» və s. əsərlərini folklor nümunələrinə uyğun şəkildə qurmaqla, onları xalq ədəbiyyatına yaxınlaşdırmış olur. Bu da əsərlərin bədii təsir gücünün, emosionallığının artmasına, bir növ ideya-məzmun zənginliyinə də şərait yaratmışdır. «Qəhrəman və bülbülün nağılı» əsərində yazıçı hadisəni faciə üstündə kökləyir. Düşmənlə qanlı döyüşə girərək bu döyüşdən məharətlə çıxan, düşmənə əzmlə cavab verən döyüşçünün həyatı nağıl edilir. Onun yaratdığı iri həcmli əsərlərin bir çoxunda bu xalq qaynaqlarına məhəbbəti, ağlın, zəkanın işığında baxışı görürük.

İlyas Əfəndiyevin əsərlərində yaratdığı Ağsaqqal obrazları xalqımızın millimənəvi dəyərlərimizə söykənərək yaratdığı obrazlardır. Ağsaqqallı Xızır, Nurani qoca, Dədə Qorqud kimi obrazlar müqəddəsliyi, müdrikliyi ilə nağıl və dastanlarımızın bəzəyidir.

Ağsaqqal öyüdünə, məsləhətinə, ağsaqqal yaşına, qabiliyyətinə yazıçının əsərlərində də böyük ehtiram vardır. Onun qələmə aldığı eldə, obada Dədə Qorqud kimi ozanlar-ağsaqqallar vardır. Möhnət qoca, Kərbəlayı İbixan, Eyvaz kişi elin hörmətli şəxsləridir.

Yazıçının əsərlərində yaratdığı Ağsaqqal obrazı xalq ədəbiyyatının nağıl, dastan janrlarında süjetlərin mərkəzində dayanır.

«Kitabi-Dədə Qorqud» boylarının əsas qəhrəmanı xalq içərisindən çıxmış el ağsaqqalı, çətinliyə düşənin məsləhət verəni, düzgün yol göstərəni, qəmli və şad günündə yararlandığı ağzı dürlü, nur simalı, müqəddəs önümlü Dədə Qorquddur.

«Qorqut ata Oğuz qövminin müşkilini həll edərdi. Hər nə iş olsa, Qorqut ataya tanışınca işləməzlərdi. Hər nə ki buyursa, qəbul edərlərdi; sözin tutub təmam edərlərdi». (74,s.31) «Ğaibdən dürlü xəbərlər» söyləyən Dədə Qorqud xalq içərisində yaşamış qam-şamanlar kimi xalqın inamını qazanmışlardandır. Qam-şamanlar öz dövrünün, Dədə Qorqud öz dövrünün bilicisi, ağsaqqalı, mömin qocası olduğu kimi, İ.Əfəndiyevin qəhrəmanı Möhnət qoca da XIX əsrin sonu XX əsrin ilk illərinin dədəsi, ağsaqqalıdır. Möhnət qoca gördüyü hadisələri qələmsiz, dəftərsiz, qopuzsuz, ancaq dastanlarımızda olduğu kimi söyləyir. Necə ki, Dədə Qorqud məclislərə dəvət olunardı, müşkül məsələlərin həllinə öz ağıllı məsləhətləri ilə kömək edərdi. Məc-lislərdə o xalqına lazım olarkən görünərdi. Yazıçının əsərlərindəki ağsaqqallar da mömin, toxunulmaz insanlardır. Onlar haqsızlıqla qarşılaşanda, çətinliyə düşəndə müəmmalı şəkildə yoxa çıxa bilirlər. Kamırxan qarı («Geriyə baxma, qoca») Nadiri taxtda görən qarıdır. Nadir qoşun çəkib Qarabağın üstünə gedəndə camaat qaçıb Ərgünəş meşəsinə pənah aparır. Kamırxan qarının babası çox qoca və ağır xəstə olduğu üçün o heç yana getməyəcəyini bildirir və xahiş edir ki, onun yanına «bir bardaq su, bir az da çörəkdən-zaddan» qoyub çıxıb getsinlər. Kəndləri dağıdan, adamları qılıncdan keçirən Nadirin qorxusundan başını itirmiş arvad-uşaq onun dediyinə əməl edir. Nadirin qoşunu çəkilib gedəndən sonra «gəlib gördük ki, damın qapısı qoyub getdiyimiz kimi örtülüdü. Amma qoca yoxdu. Kişilər gedib meşələri, çölləri qarış-qarış gəzdilər ki, bəlkə babamdan bir əsər-əlamət tapsınlar, amma heç nə tapmadılar. O vaxt ağsaqqallar fikirləşib dedilər ki, kişi

allahın mömin bəndəsi olduğu üçün mələklər gəlib onu aparıblar göyə». (45, s.19) Qoca Xızır da yaşının müdrik çağında gözəgörünməz varlığa çevrilir, qəhrəmanlar çətinliyə düşəndə, yol azanda ağsaçlı nurani qocalar onların köməyinə çatır. Bir çox nağıllarda, əfsanələrdə müqəddəs varlıqlar qoca simasında görünürlər. Folklor nümunələrində ağsaqqal Tanrı yanında da müqəddəsdir. İnsanların qocalanda ömrünün müdrik çağlarını yaşamasını, onların bu yaşda ən aqil, ən dəyərli insan olduqlarını xalqımız öz milli təfəkküründə yaşatmaqla bədii təfəkküründə də bunu əbədiləşdirmişdir. İ.Əfəndiyev yaradıcılığında da bu ənənə yaşayır və lazım gələndə yazıçı öz ağsaqqallarını ilahi qüvvələrlə bağlamaqla onların toxunulmaz, hörmət və qayğıyla əhatə olunduğunu xalqımızın yazılmamış, lakin həyatında biçimlənmiş bir qanun kimi qəbul etməsini folklordangəlmə köklərə bağlayır, ondan bədii qida almaqla yaşadır.

İ.Əfəndiyev yaradıcılığında nağıl, dastan süjeti ağsaqqallarla da bağlıdır. Qələmə aldığı həyat hadisələri «Kitabi-Dədə Qorqud» boylarında olduğu kimi müxtəlif boylara, əhvalatlara bölünür. «Kürdobadakı Səkinə ilə Mahal Murovun əhvalatı», «Xanım arvadla Damlıca mülkünün əhvalatı», «Nadiri taxtda görmüş Kamırxan qarının əhvalatı», «Cavan tacirlə pristav qızı əhvalatı», «Qızyetərlə Çoban Mahmudun əhvalatı» və bu kimi başqa başlıqlar altında təsvir olunan hadisələr dastan hadisələrini, nağıllarda əksini tapan əhvalatları xatırladır, müxtəlif həyat hadisələrindən bəhs edir və bu hadisələrin əksəriyyəti Möhnət qocanın dili ilə verilir və bu hadisələr «Dədə Qorqud» dastanlarında olduğu kimi oğuz ellərində cərəyan edir, ancaq Dədə Qorqud dövründə yox, min illər sonrakı dövrlərdə cərəyan edir. Burada da insanların həyat, tale, bəxt, xoşbəxlik haqqında baxışlarında oxşar cəhətlər çoxdur. Yalnız insanların təfəkkür tərzində, yaşadığı cəmiyyətlər arasında fərq vardır və yazıçının özünün dram və nəsr əsərlərində yaratdığı Alxan, Möhnət qoca, Kərbəlayı İbixan obrazları elin başbiləni, ağsaqqalı kimi bizim xalq ədəbiyyatından gələn köklərimiz üzərində təşəkkül tapır.

Alxan obrazı bizim «Dədə Qorqud» dastanının başçısı xanlar xanı Bayandır xanı xatırladır. O da qocalanda dövləti idarə etmək üçün qabiliyyətli, qoçaq, mərd, həm də qolunda gücü, təpəri olan cavanlara tapşırmağı

məqsədəuyğun sayır və onların içərsində bacarıqlı, qeyrəti ilə seçilən Qazanı daha münasib bilir. İg Əfəndiyevin əsərində də yaşlı Alxan öz yerinə təsərrüfatı idarə etmək üçün kəndə gələn «elmli oğlanlar»ın təyin edilməsini istəyir.Onların gücünün özünkündən artıq olduğunu duyduğu üçün bu qənaətə gəlir. O, öz çıxışında özündən əvvəlki ağsaqqallar kimi eldən gələn bir rəvayəti misal çəkməklə müsbət insani keyfiyyətələrə malik olduğunu sübut edir. Həcmcə kiçik, lakin dərin məzmunlu əfsanə və rəvayətlərdən yararlanmaqla yazıçı bitkin bir obraz yaratmış olur.

«A l x a n  Ey qardaşoğlu… deyir, qartallar bir gün cəm olub, qoca qartalı özlərinə ağsaqqal seçdilər. Qoca qartal da onlar üçün nə ki lazımdır etdi. Körpələrinə isti ceyran qanı içirtdi. Dəlilərinə yol göstərdi. Günlərin birində uzaqları seyr edib qayıdan cavan bir qartal qoca qartala dedi: «Niyə sən bizi bu dar qayalığa sıxışdırıb durmusan? Heç bilirsənmi dünyada necə geniş yerlər, əzəmətli qayalar var?» O zaman qoca qartal ah çəkib quşları çağırdı: «Əzizlərim, -dedi, -mən daha qocalmışam. Gözlərim yaxşı görmür. Özünüzə ayrı bir başçı seçin» Quşlar səs səsə verib, «biz sənsiz dolana bilmərik!» dedilər. Dünyagörmüş qoca qartal: «Yox, səhv edirsiniz, -dedi, -bax, bu cavan qartalı özünüzə başbilən seçin. İndi onun qanadları mənimkin-dən qüvvətlidir. Onun gözləri daha uzaqları görür». (42, s.182)

Möhnət qoca, Kərbəlayı-İbixan kimi ağsaqqallar bu elin hörmətli şəxsləridir. Ata-babadan qalma adət-ənənələrini yaşadırlar. «Dədə Qorqud» dastanlarında, digər folklor nümunələrində hər kəsə yaşına, qabiliyyətinə görə qiymət verilir. «Kərbəlayı İbixan on min qoyunu, səkkiz yüz atı olan Hacı Alış qədər dövlətli olmasa da, ondan ağıllı, çörəkli, qonaqlı-qaralı bir adam idi. Qapıya gələn aşığı, ozanı boş yola salmazdı, köməksizə kömək olardı, kasıba əl tutardı. Mahal murovu Kərbəlayı İbixanın ad-sanını eşidib onu Arazboyu tərəkəmələrinə vəkil təyin elədi». (45, s.8)

İ.Əfəndiyev yaradıcılığında xalq ədəbiyyatından gəlmə süjetlərdən və obrazlardan biri çobandır. Çoban Ərşad bu cəhətdən bütün çalarları ilə sələflərinə bənzəyir. Yazıçı yaratdığı obrazını xalq ədəbiyyatının çoban obrazlarına məxsus keyfiyyətlərlə zənginləşdirmişdir.

İnsanların həyat və şəraiti ilə bağlı olaraq vəhşi heyvanları ovlayan və yaxud onları əhliləşdirməyi bacaran ovçular-çobanlar rəğbətlə qarşılanmış, bacarıqlı şəxs-lər kimi tanınmışlar. İndiki türk xalqlarının, eləcə də Azərbaycan xalqının ulu babaları hesab olunan şumer kitabələrində, «Bilqamıs» dastanında (Hər şeyi bilən adamın dastanı) çobanlardan, ovçu çobanların fəaliyyətindən, yenilməz gücə malik olmalarından bəhs olunur. Bacarığı, ağlı, zəkası ilə vəhşi heyvanlar arasından çıxan, qəhrəman Enkudu onların sakit həyatını, yaşayışını təmin etmək üçün vəhşi heyvanlara qarşı mübarizədən çəkinmir. Buradan belə aydın olur ki, ovçu-çobanlar, onların bacarığına inamlar ən qədim çağlardan xalq içərisində formalaşmışdır. Nağıl və dastanlarımızda da çobanlara olan inam rəğbət, məhəbbət hissi güclüdür. Məsələn, «Cıntaq» nağılındakı çoban surəti, «Bəxtiyar nağılı»ndakı çoban surətləri müdrik xalqın yaratdığı obrazlardır.

İlk heyvandarlıqla məşğul olan çobanlar folklorumuzun qəhrəmanları olmuşlar. Onlar haqqında əfsanələr, rəvayətlər yaranmış, onların arzu və istəkləri, nəcib əməlləri şifahi şəkildə yaranan ədəbiyyatımızın mövzusu olmuşdur. Minilliklər boyu xalq onların zəkasını, ağlını müqəddəsləşdirmiş, bir çox sənətkarlarımız əsərlərində onları bacarıqlı, müdrik obrazlar kimi yazılı ədəbiyyatımıza gətirmişlər.

Dini rəvayətlərdə də Çoban müdrik, ağıllı, müqəddəsdir. Məhəmməd peyğəmbərin, Musa peyğəmbərin çoban olduqları haqqında çoxlu rəvayətlər vardır. Onların peyğəmbərlik, çobanlıq fəaliyyətləri ilə əlaqədar yaranan sayaçı sözlər ən qədim dövrlərin məhsulu olub müəyyən bir inkişaf dövrü keçmişdir. Peyğəmbərin ilk öncə çoban olması özü çobana xalqın müqəddəs, saf baxışlarının nəticəsi kimi qiymətləndirilməlidir. Məhəmməd Peyğəmbər 9-10 yaşlarında olarkən çobanlıq etmişdir. Öz ağlı, zəkası ilə bu yaşında onu kifayət qədər yaşa dolmuş bilən xalq qoyun-quzunu nəinki Məkkənin ətrafında, hətta şəhərdən xeyli uzaqdakı otlaqlarda otarmağı ona etibar edirdilər.

Musa peyğəmbərin çobanlıq fəaliyyəti ən qədim sayaçı nəğmələrin də bəzəyidir:

Bu saya kimdən qaldı?
Adəm atadan qaldı,
Adəm ata gələndə,

Qızıl öküz duranda,
Qızıl buğda bitəndə,
Dünya binnət olanda,
Musa çoban olanda,
Şişliyimiz erkəcdi. (22, s.97)

Yazıçı «Bizim qəribə taleyimiz» adlı dram əsərində bununla bağlı bir rəvayəti obrazın diliylə verərkən bir tərəfdən onun çobanlıq fəaliyyətini, digər tərəfdən isə onun ən yüksək səbr, təmkin sahibi olduğunu gözəl insani keyfiyyətləri özündə əks etdirdiyini təsvir edir.

«D a v u d (*qəzəblə*) Musa Musa peyğəmbərin adıdır, bildinizmi? Musa peyğəmbərin əvvəli çoban idi. Bir gün quzularından biri təziyib qaçaraq dağı dörd dolandı. Musa da onu tutmaq üçün dörd dəfə həmin dağı dolanmağa məcbur oldu. Quzunu tutanda isə üzündən öpüb mehribanlıqla: - ay allahın heyvanı, -dedi, -niyə özünü də, məni də incidirsən». (49, s.174)

«Dədə Qorqud» dastanındakı «Başında yun börkümcə, əlində «qızılca dəyənək», «əyri çovkan», belində «ala qollu sapand» olan Qaracıq Çobana yazıçının qəhrəmanı çoban Ərşadın («Üçatılan») oxşarlığı çoxdur. Çoban Ərşad surəti Qaracıq Çobana məxsus geyimə, əqidəyə, görkəmə məxsusdur. «…başında qoyun dərisin-dən yekə, tüklü papaq, …belində qara qınlı enli xəncər, əlində sapı ceyran ayağından qamçı, sifəti mis kimi qızarmış ortaboylu, enlikürək bir oğlan…» olan Ərşad öz sələfləri olan Qaracıq Çobana oxşayır. (46, s.7)

Qaracıq Çoban oğuz elinin başçısı Qazan xanın çobanıdır. Qazan xan boyların birində göstərilir ki, ova çıxır. Elinə, obasına, xalqına sədaqətli çoban Qaracıq gördüyü «qaraqayğılı» yuxudan narahat olub, hər an baş verə biləcək təhlükəni dəf etmək üçün hazırlıq işi görür: üç yerdə qardaşlarını köməyə çağırıb daş yığır, uzunqollu sapandını əlinə alıb hazır olur. Yuxusu çin olan çoban düşmənin yağlı vədlərinə aldanmayaraq altı yüz düşmən qoşununu pərən-pərən salır, bu döyüşdə iki qardaşını da itirir, lakin təslim olmur, onları qaçmağa məcbur edir.

Çoban nağıllarda, dastanlarda el içindən çıxmış, çətin anda öz elinin köməyinə çatan, özündə xalq gücünü, qüvvətini saxlayan, lap qədimlərdən ulu

babalarımızın ağlı, bacarığı, səxavəti ilə yüksək qiymətlənidirdiyi bir şəxsiyyətdir. Ata-babalarımız nahaq yerə deməyiblər: «Yoruldun sarbana, acdın çobana üz tut». Çoban həmişə bərəkət, bolluq, xeyirxahlıq rəmzi kimi tanınmışdır və qəhrəmanlar ac olduqda, yorulduqda, çətinə düşdükdə məsləhət almaq üçün çobana üz tutur. Ömrünü dağlarda, düzlərdə keçirən xançoban, nökərçoban dünya malına gözucu baxmayan, yalnız bir çomağı, çuxası, qoyunu, quzunu, köpəyi, tütəyi olan xalqın sadə insanlarının yüksək insani keyfiyyətlərini özündə cəmləşdirən insandır.

«Kitabi-Dədə Qorqud» dastanında Qaraçuq Çobana belə müraciət edilir:

«Qaranqu axşam olanda qayğılu çoban!
Qarla yağmur yağanda çaxmaqlu çoban!
Ünüm anla, sözüm dinlə!» (74, s.45)

«Alı xan və Pəri xanım» dastanında da Budaq çobanı Qaraçuq çoban kimi yüksək əxlaqi və insani keyfiyyətlərə malik olduğunu görürük. İ.Əfəndiyevin «Üçatılan» romanının qəhrəmanı Ərşad da öz sələflərinə bənzəyir. O da uşaqlıqdan qoyun sürülərinin içində olub, Qaraçuq, Budaq çoban kimi qoçaqdır. «Bəlkə davası»nda heç kəs çoban Ərşadın qabağında dura bilməzdi.

Çoban Ərşad surətini yazıçı dastanlardan, nağıllardan tanıdığımız çobanlara məxsus geyimdə oxucuya təqdim edir və gözlərimiz qarşısında folklor nümunələrindən bizə məlum olan tipik çoban surəti canlanır.

Onun həyat şəraiti, yaşayış tərzi ilə tanış olduqda onun simasında mükəmməl bir çoban obrazını görürük. Ömrü-günü dağlarda, düzlərdə keçən Ərşad dayısı qızının gecəni onlarda qalması təklifini qəbul etmir:

«-Gecə düşüb, qal yat, səhər gedərsən.

-Mən belə tikinti altında yata bilmərəm, dayıqızı, gedəcəyəm.

-Bəs sən harda yatırsan? - deyə bacım təəccüblə soruşdu.

-Qoyunun içində. Qarın-yağışın altda. …Çoban Ərşad qamçısını götürərək pilləkənləri sürətlə düşdü. Sonra atını tövlədən çıxararaq, ayağını üzəngiyə qoymadan sıçradı yəhərin üstünə». (46, s.10)

İ.Əfəndiyevin «Tufandan sonra» əsərində də biz yol azmış gənc geoloqa və ovçuya kömək edən, gecəni qonaqların yerini öz komasında salıb, özü isə sürünün içində gecələyən nəcib çoban surətini görürük. Yazıçının yaratdığı

çoban surətləri nağıl dolu dünyamızdan-folklorumuzdan süzülüb gələn çoban obrazının yüksək keyfiyyətlərini özündə birləşdirən əsil çoban surətidir. Çoban Ərşad eposlarımızın qəhrəmanlarını xatırladır.

Xalq ədəbiyyatından tanıdığımız çoban obrazlarının xarakterində olan yüksək insani keyfiyyətlərdən bəhrələnən yazıçı onlarda qəlb açıqlığını, saflığı, qonaq pərvərliyi, düzlüyü, qeyrəti və digər müsbət keyfiyyətləri ümumiləşdirir. Şifahi xalq ədəbiyyatında olan çoban obrazını yazılı ədəbiyyata gətirməklə özündən əvvəlki sənətkarların yaradıcılıq ənənələrini davam etdirmiş, xalq yaradıcılığından yararlanmaqla bitkin çoban obrazları yarada bilmişdir. Folklor nümunələrinə dərindən bələd olan yazıçı qəhrəmanlarının daxili əhval-ruhiyyəsini, istək və arzularını oxucuya çatdırmaq, qəhrəmanını sevdirmək üçün ona xalq ədəbiyyatından istifadə etməklə min bir bəzək vurur, onu geyimində, xarakterində, həyat şəraitində nağıl, dastan, əfsanə qəhrəmanlarına bənzər bir şəkildə üzə çıxarır.

Yazıçının yaradıcılığında özünəməxsus yer tutan dastanlara məxsus xüsusiyyətlər onun bir çox əsərlərində vardır. Onun «Valehlə Sarıköynəyin nağılı», «Geriyə baxma, qoca», «Üçatılan» romanlarındakı bu xüsusiyyətlər xalq eposlarından-dastanlarından gəlmədir. Eposlar dastan şəklinə düşənə qədər xalqın bədii təfəkkürünün süzgəcindən keçir, təkmilləşir, cilalanır və qiymətli bir sənət nümunəsinə çevrilir. Azərbaycan xalqının ilk eposu «Dədə Qorqud»dur. N.Cəfərov «Koroğlu»nun poetikası» kitabında yazır: «Dədə Qorqud» dastanı artıq qeyd edildiyi kimi, ilk orta əsrin oğuz eposudur. Bu isə o deməkdir ki, «Dədə Qorqud» dastanında qədim türk eposu təfəkkürünün müəyyən əlamətləri mühafizə edilir; ikincisi, həmin dastanda son orta əsrlər Azərbaycan türk eposunun ideya-estetik əsasları müəyyənləşir» (33, s.65). İ.Əfəndiyevin yaratdığı əsərlərdə də bir sıra epos qəhrəman-larına oxşar obrazlar vardır ki, bunlar da bir növ XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranmaqda olan milli qəhrəmanlıq dastanlarımızın ənənərini özündə yaşadan obrazlardır.

İlk eposlarımızda olduğu kimi, İ.Əfəndiyevin realist nəsr əsərlərində də həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarına məxsus xüsusiyyətlər var. Qəhrəmanlıq və məhəbbət dastanlarımızın əksəriyyətində sevən aşiq çox

zaman varlı qızına vurulur, onun yolunda başı müsibətlər çəkir, axırda isə sevgilisinə qovuşur, öz arzu və ideyalarına çatır.

Çoban Ərşad da belə dastan qəhrəmanlarımızı xatırladır. O, Dədə Qorqud eposundan çox «Koroğlu», «Qaçaq Nəbi» qəhrəmanlarına bənzəyir. Bununla belə onun özünəməxsus orijinal xüsusiyyətləri vardır. Ərşad dəliqanlıdır, çılğındır, mərddir. Onda xalq qəhrəmanlarımız Koroğluya, Qaçaq Nəbiyə, Qaçaq Kərəmə oxşayan xarakterlər çoxdur.

Şifahi xalq ədəbiyyatının ən iri, geniş həcmli qəhrəmanlıq dastanlarından biri olan «Qaçaq Nəbi» dastanının qəhrəmanı Nəbi xalq içərisindən çıxmış sadə bir kəndli balası olub istismarçı siniflərin zülmünə, ədalətsizliyinə qarşı üsyan edərək evindən-eşiyindən qaçaq düşür. O, xalq içərisindən çıxdığına, xalqın mənafeyini müdafiə etdiyinə görə sevilir. Belə oğullara olan məhəbbətini qoşduğu nəğmələrdə, qoşmalarda yaşadan xalq qorxmaz el oğullarına arxalanırdı. Hansı dövrdə yaşamasından asılı olmayaraq xalq həmişə öz qəhrəmanını sevir, onun şəxsiyyətinə məhəbbət bəsləyir. Qeyd etmək istərdim ki, yazıçının yaradıcılığında diqqəti cəlb edən əsas məsələlərdən biri də elə bu idi ki, yaratdığı obrazlara, igidin qeyrətinə hörmətlə yanaşır. Bir vaxtlar Qaçaq Nəbinin at oynatdığı bu Gorus dağlarının yollarına nəzər salan qəhrəman onu gözləri qarşısına gətirir. «Aynalı tüfəngi əlində silkələyərək üzüaşağı Gorusa tərəf qışqırıb naçalniki hədələyən, qara bığları eşmə-eşmə olan qaçaq Nəbini» görür, onun igid adına hörmətini gizlətmir. «Biz dolayları çıxa-çıxa mən soruşdum:

-Nəbinin heç basıldığı vaxt olmayıb?

Əhmadalı dedi:

-Olub... Niyə olmayıb? Ancaq igid elə basılanda da igiddi. Sonra Əhmadalı əvvəl «Qaçaq Nəbi» havasını fışdırıqda çaldı, sonra papağını qaldırıb oxudu. Mən gözümü Əhmadalıdan çəkmirdim. Mənə elə gəlirdi ki, bir zamanlar igid Nəbinin səngər elədiyi bu qaya əsrarəngiz canlı bir məxluqdur». (45, s.108)

İ.Əfəndiyev gözünü açandan xalqının igid oğullarının mübarizə dolu həyatından bəhs edən nağılların, dastanların ona verdiyi mənəvi zövqün işığında böyümüşdü və qələmə aldığı hadisələrin qəhrəmanlarının bir çoxunun həyatı onların həyatı ilə oxşarlıq təşkil edir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda kəndlilərin bəylərə, xanlara, çar məmurlarına, istismarçı siniflərə qarşı mübarizə formalarından biri qaçaqçılıq hərəkatı idi. Əsrin əvvəllərində də ölkəni geniş bürüyən bu tüğyanın qəhrəmanları yetişirdi.

İ.Əfəndiyevin qəhrəmanları öz sələfləri kimi hakim siniflərin ədalətsizliklərinə dözməyərək dağlara sığınır. Onlar çoxdur və harada olmalarından asılı olmayaraq xalqının himayədarlarıdırlar.

Bayram bəy qəzaya pristav göndəriləndən sonra qəza naçalniki Volkov onun xalq içərisində hörmətini görüb paxıllığı tutur və onu burunlamağa başlayır. Bayram bəyə qarşı naçalnikin ədalətsiz hərəkətlərindən xəbər tutan, çar hökumətinin əlindən qaçaq düşmüş Qaçaq Süleyman onun layiqli dərsini verir. Bir gecə naçalnik evində əyləşib xanımı ilə söhbət elədiyi zaman qapını taybatay açıb, əlində onatılan içəri girir. Süleyman onun qorxmuş arvadını görüb tapançasını qobura qoyur və naçalnikə deyir ki, «əgər bu mahaldan sağ-salamat getmək istəyirsənsə, kürdobalı Bayramla işin olmasın». Naçalnik onun sözünə əməl edəcəyini bildirir.

Qaçaq Süleyman eyni zamanda gözüaçıq, sərvaxt, diqqətlidir. O otaqdan çıxmaq istəyəndə naçalnikin stolun yeşiyindən tapançanı götürüb onu vurmaq istədiyini duyur və onun arzusunu gözündə qoyur. Bu hadisədən sonra qorxuya düşən naçalnik Bayram bəyə toxunmaqdan qorxur. Qaçaq Süleymanın nəcib hərəkət-ləri ilə dastan qəhrəmanı Qaçaq Nəbinin hərəkətləri arasında oxşarlıq çoxdur. Qaçaq Nəbi əzilən, istismar olunan xalqın arxası, dayağıdır. Çar zülmünə, istismarçı siniflərin azğınlığına qarşı çıxan Nəbi vergi verə bilməyən məzlum camaatın hüquqlarını müdafiəyə qalxır. Səlim bəylərin, niftalı bəylərin və digər zalım bəylərin, pristavların lazımi cavabını verən Qaçaq Nəbi onların gözünün odunu elə almışdı ki, adı çəkiləndə tir-tir əsirdilər. Tək bir adamın yox, minlərlə kasıb insanların vergidən azad edilməsi üçün Nəbinin göndərdiyi sifarişə əməl edən istismarçılar onun və silahdaşlarının əlindən zəncir çeynəyirdilər. Xalqın qeyrətini, namusunu şərəflə qoruyan Qaçaq Nəbi ədalətsizliklərə qarşı mübarizə aparan qəhrəman qaçaqların ümumiləşdirilmiş obrazıdır. İ.Əfəndiyevin qəhrəmanları Qaçaq Nəbi kimi oğullarla fəxr edir. Onların qəhrəmanlığından bəhs edən şerlər obrazlarının dilinin əzbəridir. Xalq

öz qəhrəmanını sevir. Yazıçı dastan qəhrəmanlarını xatırlamaqla həm əsrin sonunda yayılan geniş qaçaqçılıq hərəkatının səbəblərini açır, ictimai-siyasi həyatda hələ də hökm sürən ədalətsizlikləri təsvir edir, həm də Qaçaq Nəbi obrazından bəhrələnməklə xalqın taleyüklü məsələlərini öz üzərinə götürməyə məcbur olan qaçaqların daxilən zəngin mənəviyyata malik olduqlarını daha təsirli, emosional şəkildə təsvir etmək üçün istifadə edir.

İ.Əfəndiyevin qələmə aldığı mövzularda qaçaq surətləri çoxdur. Xalqımızın qanına-canına hopmuş haqq-ədalət, mərd-namərd məsələsinə bəslənən münasibətlərin kökləri dərindir. Çoban Ərşad da sələfləri kimi basdığını kəsən igidlərdən deyildir. Sarıqaçaqla görüşdükdən sonra onun Sovet hökumətindən məcbur olub qaçıb İran tərəfə keçən tərəkəmə çamaatından - Nurunun qardaşı Fərhad olduğunu gördükdə öldürmür, buraxır. Qarşısındakı igidin də ölümün üzünə dik baxdığını görüb, mənsub olduğu tərəkəmə - kürdoba camaatının yanına üzüqara qayıtmaq istəmir.

Dövlətin qanununun nə qədər ciddi olduğunu başa düşsə də, elin qınağından çəkinir, el-obasının qarşısında daha çox məsuliyyət daşıdığını duyur. Burada folklorla səsləşən motivlər vardır. Basdığı qəhrəmanları və yaxud düşmənləri öldürməmək Azərbaycan igidlərinə məxsus keyfiyyətdir. Tarixən ulu babalarımızdan bizə miras qalan dastanlarımızda bu xüsusiyyətlər geniş əksini tapmışdır. İstər «Koroğlu», istər «Qaçaq Nəbi», istərsə də ən qədim dastanımız «Kitabi-Dədə Qorqud»da belə qəhrəmanlar çoxdur.

Beyrəyin ölüm xəbərini çatdırıb onun nişanlısı Banıçiçəyə sahib olmaq üçün yalan danışan Yalıncığı da Beyrək qılıncının altından keçirir, öldürmür: «Yalançıq oğlu Yalıncuq bunı eşitdi. Beyrəgin qorqusından qaçdı, özini Tana sazına saldı. Beyrək ardına düşdi, qoa-qoa saza düşirdi. Beyrək aydır: - Mərə, od gətürin. Gətürdilər. Sazı oda uradılar.

Yalınçıq gördi kim, yanar, sazdan çıqdı Beyrəgin ayağına düşdi. Qılıcı altından keçdi. Beyrək dəxi suçından keçdi». (74, s.66)

Yazıçının yaratdığı Qaçaq obrazlarının ayaqlarında uzunboğaz çəkmə, başında bahalı buxara papaq, belində üç qatar patron, böyründə qırmızı ağac qoburlu onatılan vardır. Xalq Qaçaq Nəbi kimi oğulların simasında bu bədii portreti şifahi şəkildə yaradıb təfəkkürünə, yaddaşına həkk eləmişdi.

İ.Əfəndiyev isə Qaçaq obrazını bu qiyafədə realist nəsr əsərlərinə gətirməklə uzunömürlülüyünü təmin etmiş, yazılı və şifahi xalq ədəbiyyatının bir-birilə qırılmaz tellərlə bağlı olduğunu göstərmişdir. Onun Qaçaq Süleymanı da, Qaçaq Təhməzi də, Qaçaq Xanmuradı da Qaçaq Nəbi kimi kasıb-kusubun qayğısını çəkən, nəzakətli, səxavətli el oğullarıdır. Xanmuradın başına gələn hadisələr xalq dastanımız «Koroğlu» dastanında baş verən hadisələrlə oxşarlıq təşkil edir.

İ.Əfəndiyevin qəhrəmanı Xanmuradın («Geriyə baxma, qoca» əsərində) da evindən, eşiyindən didərgin düşüb dağlarda, daşlarda məskən salmasına səbəb dövlət məmurlarının ədalətsiz hərəkətləri, onun atını əlindən alması və Xanmuradın onların murdar əməllərinə qarşı çıxması olmuşdu.

Koroğlu kimi, Xanmurad da ata-anasının yeganə övladı olub, onun kimi kasıb ailədən çıxmışdı. Dədə-babadan Alı kişi kimi at saxlamaqla məşğul olan atasının mahalda adla deyilən atı vardı. Kəndə gələn naçalnikin ata gözü düşür, onu almaq istəyir, lakin «nəsillikcə at həvəslisi» olmuş atası «o atsız mən nəyə lazımam» - deyərək onun təklifini qəbul etmir. Belə olduqda naçalnik yasovullarını göndərib zorla atı çəkib apartdırır. Atasının bu hadisədən sarsıldığını görən Xanmurad gecə ilə şəhərə gedib atı tövlədən götürüb gətirir. Bu əhvalatdan sonra oğlunun Sibirə sürgün ediləcəyindən qorxan ata həyəcan keçirir. Xanmurad isə heç kimdən qorxmayaraq atı minib Alyanlı obalarına üz tutur. Az keçməmiş atasının Koroğlunun atası kimi təhqir edildiyini eşidən Xanmurad onun qisasını yerdə qoymur. Naçalnikin yanına gedib, başına üç güllə çaxır. «Arvadı əriylə, kişini atıyla sayarlar» məsələsini əsas tutaraq qeyrətinin tapdalanmasına yol vermir. Ata bu münasibətin dərin kökləri vardır. Bu mövzunun kökləri əcdadlarımızın ilk qəbilə tayfa şəklində yaşadığı dövrlərdə yaranmış əsatirlərdən tutmuş dastanlarımızda, nağıllarımızda da vardır və yazıçı bu mövzuları qələmə alarkən folklor motivlərindən də istifadə etməklə qəhrəmanın həyatında, taleyində atla bağlı mövzuların bədiiliyini, hadisələrin estetik təsir gücünü artırmağa çalışmışdır. Xalqımızın soykökündə duran ilk türk tayfalarından olan saqlarda da at insanın yaxın dostu, sirdaşı kimi qəbul edilir. Saqların qəhrəmanı Siraqla onun atını istəyən Dara arasına ziddiyyət də at üstündə düşür və Siraq Daranın qoşunlarına ağır zərbə endirir. Ən qədim rəvayətlərin birində də Çin xaqanı Türk xaqanının torpaqlarına sahib

durmaq üçün, onu qıcıqlandırıb müharibəyə təhrik etmək, torpaqlarını zəbt etmək üçün onun atını tələb edir. (117, s.48) Türk xalqları içərsində igidin, xaqanın atını tələb etmək mütləq qanlı müharibələrin başlanğıcından xəbər verən bir hadisə idi. Atın xalqımızın mifik təfəkküründə özünəməxsus yer tutması və bu gün də atla bağlı mövzuların ədəbiyyatda bu və ya digər şəkildə yaşaması, yazıçının qəhrəmanlarının həyatında, taleyində atla bağlı hadisələr bu mövzuda bədii yaradıcılıq imkanlarının zənginliyini göstərir. Yazıçının həyatından bəhs etdiyi qəhrəmanların ata səmimi münasibəti folklorda geniş, əhatəli bir mövzudur.

Yazıçının qəhrəmanlarının həyatında, məişətində at mühüm rol oynayır: «Kürdobalılar ceyran ayaqlı Qarabağ atları minərdilər… Gəyən deyilən düzdə igidlər cıdıra çıxardılar. Bütün atları ötüb keçən at mahalda ad çıxardardı, sorağı ellərə yayılardı.

-Ə, -deyərdilər - Hacıquluoğlu Şahbazın səmənd atı yüz seçmə atı yarı yolda qoyub.

Səmənd ata elçilər gələrdi, amma Hacıquluoğlu:

-Səmənd atı min erkəyə də vermərəm,-deyib onları boş yola salardı». (45,s.7)

Xalq ədəbiyyatında atla bağlı süjetlər, obrazlar qədimdir. Atın ümumiyyətlə, qəhrəmanların həyatında oynadığı rolun kökləri türk xalqlarının mifik görüşləri ilə bağlı olduğundan qədimdən xalqımız öz nağıllarında, əfsanələrində, dastanlarında atı sevmiş, onu əzizləmiş, onlarda özünə bir doğmalıq axtarmış, hətta lazım gələndə yolunda min bir əzab-əziyyətə dözmüşdü. «Ərşad qaşqa ürgənin üstündə «Altın taxta»ya çatanda oradakı atlılar arasında Nurunu da gördü. Onun altındakı göydəmir ürgənin yaraşığına söz yox idi. Ərşad onun atının məğrur boy-buxununa baxıb bir anlığa Nuruya olan kinini unudaraq elə bil ki, fərəhləndi. Bu göydəmir ürgənin öz altındakı qaşqa ürgə ilə qardaş olması onun özündə də qəribə bir əqrəbalıq hissi oyatdı». (46, s.61)

İ.Əfəndiyevin əksər əsərlərində ata olan münasibətlərinin kökü «Dədə Qorqud» dastanlarından da lap əvvəlki dövrlərə gedib çıxır. «Bərk, yüksək ata namərd adam minə bilməz, əgər minsə, mindiyindən, minməməsi yaxşıdı», «At yeməyən acı otlar bitməsə yaxşıdır», «İgidin ağır yüngüllüyünü atı bilər» kimi

öyüdlərdən görürük ki, at türk dünyasının, eləcə də oğuz soylarının ən yaxın, ən vəfalı dostu olub.

«Kitabi-Dədə Qorqud» dastanlarının qəhrəmanlarından olan Beyrəyin atı da Alı kişinin şaha hədiyyə gətirdiyi dəniz ayğırlarının nəslindəndir. Çünki bu dastanda da Boz ayğır dəniz qulunu kimi təqdim olunur: «Beyrək aşağa baqdı. Kəndözin yer yüzində gördi. Allaha şükr eylədi. Yola düşdi. Gedərək kafərin ilqısına gəldi. «Bir at bularsam, tutayım binəyim!» dedi. Baqdı gördi kəndünin dəniz qulunı Boz ayğır bunda otlanub turar. Boz ayğır dəxi Beyrəgi görüb tayandı iki ayağının üzərinə turdı, kişnədi. Beyrək dəxi bunı ögmiş, görəlim, xanım, necə ökmiş…At başını yuqarı tutdı, bir qulağın qaldırdı, Beyrəgə qarşı gəldi. Beyrəg at köksin qucaqladı. İki gözin öpdi. Sıçradı, bindi…» (75, s.60)

Ata belə səmimi münasibəti «Koroğlu», «Qaçaq Nəbi» dastanlarında da görürük. «Koroğlu» dastanında Həsən xan Alı kişinin gözlərini atlara görə çıxarır. Alı kişi gözləri çıxarılandan sonra da o atlara qulluq etməyi, onlardan ayrılmamağı oğlu Rövşənə məsləhət görür və onların köməkliyi ilə də Koroğlu atasının və atası kimi minlərlə günahsız yerə əzilən insanların qisasını Həsən xandan və onun kimi digər zalımlardan alır. Koroğlunun Qırata, Dürata münasibəti onlara qarşı qayğıkeşliyi, atlara olan sədaqəti göz qabağındadır. Koroğlu Qıratını götürüb qaçan keçəl Həmzənin arxasınca gedir:

Ah çəkərəm, hərdən köysüm ötürrəm,
Yola düşüb mətləbimi bitirrəm.
Ya ölərəm, ya Qıratı gətirrəm,
Aylar dolansa da, ilə qoymaram. (22 s.409)

İ.Əfəndiyevin qəhrəmanı Xanmuradın atası da «o atsız mən nəyə lazımam» deyərkən Ürgənin qədir-qiymətini bilirdi. O at da ona Koroğlunun Qıratı ona əziz olduğu kimi əziz idi. Qəhrəmanların daxili əhval-ruhiyyəsinin açılmasında, onların xarakterik xüsusiyyətlərinin daha qabarıq şəkildə verilməsində Qırat Koroğlunun, Boz at Qaçaq Nəbinin, Boz ayğır Beyrəyin həyatında nə kimi rol oynayırsa Xanmuradın Ürgəsi, Ərşadın Qaşqa ürgəsi, Şahların Boz ürgəsi də yazıçının qəhrəmanının həyatında müəyyən rol oynayır.

«Geriyə baxma, qoca» əsərindəki qoca Qaçaq Təhməz surəti ömrü boyu yağılara qan udduran Koroğlunun qocalıq dövrünü xatırladır.

Qoca Qaçaq Təhməzin xalq içərisində böyük nüfuzu vardır. Ondan cavan qaçaqlar çəkinirdi, yanında döşək üstündə oturmazdılar, həmişə stulda oturan Bayram bəy də hörmət əlaməti olaraq onun yanında stulda əyləşmir. O, qocalmasına baxmayaraq, gözlərinin hələ işıqlı olduğunu sərrast atdığı güllələrinin hədəfə dəyməsi ilə sübut edir. Qəhrəmanlıq, igidlik, mərdlik bu millətin qanındadır.

Yazıçının «Üçatılan» romanının qəhrəmanı çoban Ərşad hökumət adamlarının ədalətsiz əməllərindən üz döndərərək evindən qaçaq düşüb bir müddət gününü dağlarda, daşlarda keçirir. Quldurların əlindən Ərşadın göməkliyi ilə qurtaran kassir kəndli naçalnikin yanına gəlib onun igid bir insan olduğunu etiraf edir:

«-Nəçərnik, düzü, mən hökumətin yerinə olsaydım, onu bağışlardım. Heyf döyül heylə oğlanı qaçaq eyləyib salasan düzlərə?» (46, s.157)

Bu yerlərdə «Bəlkə davası», «Dirədöymə» kimi xalq içərisində igidlərin qüvvət və cəsarətinin, qoçaqlığını nümayiş etdirən oyunlarla yanaşı «Cıdır» atçılıq oyunu da geçirilir. Atsürmə yarışları qədimdən xalq içərsində məşhurdur və yazıçının qəhrəmanlarının həyatına daxil olmuşdur. Dünya xalqları arasında da bu oyunun özünə məxsus formada yaşaması və bilavasitə atla bağlı olması Cıdır oyunun çox qədim köklərlə bağlı olduğunu göstərir. E. ə. 648-ci ildə Olimpiya oyunlarına daxil edilmiş cıdır yarışları bu oyunun idman növü kimi qədimdən mövcud olduğuna gətirib çıxarır. Yazıçının qəhrəmanları bu yarışı «yaşıl dağların arasında ta üfüqə qədər uzanıb gedən bir düzənlik»də keçirir: «Cıdıra Kürdobadan on altı seçmə at çıxarmışdılar. Boz atın belindəki enlikürək oğlan Əhmədalı dedi:

-Hazırlaşın, uşaqlar.

Atlılar cərgələndilər. O zaman Əhmədalı pencəyinin altındakı qoburdan köhnə bir naqan çıxarıb, havaya bir güllə sıxdı və atlılar da eyni anda tərpənib güllə kimi getdilər. «Altın-taxt»da atların ayaq tappıltıları uzaq üfüqə doğru uzaqlaşdıqca tamaşa eləyən adamların da həyəcanı artırdı…» (45, s.62)

Bildiyimiz kimi, insanlar Tunc dövründən at saxlamağa başlamış və Azərbaycanda Qarabağ atı, Şirvan atı, Qazax atı, Quba yorğası at cinsləri saxlanılmış, atla bağlı mövzular mifologiyamızda da özünə yer tapmışdır.

Qəhrəmanların atlarının qeyri-adi qüvvəyə malik olması ata tapınmanın, at süjetinin folklorda lap qədimdən olduğunu sübut edir.

Yazıçının öz soykökünə bağlı qəhrəmanları ata baba adətlərini, məşğuliyyətlərini qoruyub saxlayır. Xalqımızın inam və etiqadlarına hörmətlə yanaşma yazıçının əsərlərinə dolğunluq gətirir. Xalq yaradıcılığından gəlmə bu motivlər İ.Əfəndiyev yaradıcılığına rövnəq verir, əsərlərinin bədii təsir gücünü artırır, sadəliyinə, səlisliyinə, mükəmməl bitkin əsər kimi ərsəyə gəlməsinə, yazıçının sənətkarlıq baxımından bacarığını göstərə bilməsinə kömək etmiş olur.

Qazan xanın atı «Qonur at», Beyrəyin atı «Boz ayğır», «Toğlu başlı dür ayğır», «keçi başlı keçər ayğır», və s. at adları onu göstərir ki, tarixən igidlərimiz öz görkəminə, təpərinə, qüdrətinə görə atlara ad vermişlər. Koroğlunun Qıratı, Düratı, Qaçaq Nəbinin Boz atı, Qazan xanın Qonur atı, İ.Əfəndiyevin qəhrəmanlarının Göydəmir ürgəsi, Qaşqa ürgəsi də obrazların daxili aləmini açmaqda ən təsirli vasitələrdən biridir.

Çoban Ərşad həm də sevən aşiqdir. Sevgi, məhəbbət, haqq aşiqləri məhəbbət dastanlarımızın süjetinin əsasını təşkil edir. Ərşad məhəbbət aşiqləri kimi saz götürüb şer qoşub, çəkdiyi əzabları, yar yolundakı «cövrü-cəfasını» vəsf etmir. O, öz səadətinə qovuşmaq üçün əzmlə mübarizə aparır.

Dünya ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da məhəbbət mövzusunda çoxlu dastanlar yaranmışdır. Bu dastanlarda xalqın zülmə, istismara qarşı çıxması, azad sevgi uğrunda çəkdiyi əzab-əziyyətləri, xarici və daxili düşmənlərə qarşı mübarizəsi, insanın öz arzu və istəklərinə çatması üçün apardığı mübarizələr əsasdır. Məhəbbət və qəhrəmanlıq motivlərini özündə əks etdirən dastanlar ilk növbədə xalq içərsində şifahi şəkildə yayılmışdı və yazıçının qəhrəmanları da dastanlara yaxından bələd idi. Xalq ədəbiyyatının bu nümunələrinə dərindən bələd olan yazıçı qəhrəmanını sevdirmək, obrazın daxili aləmini açmaq üçün qəhrəmanlarının başına gələn hadisələri dastan hadisələri ilə qarşılaşdırmaqla, onlar arasında oxşar süjetlər tapmaqla, bu priyomdan istifadə etməklə, hadisələri folklor üstündə kökləməklə əsərlərinin bədii keyfiyyətini artırmağa nail olur. Xalqın yaratdığı məhəbbət dastanlarının meyarı yoxdur. İnsanların arzuları, xoşbəxt həyat

qurmaq hissi, yaratmaq, yaşatmaq ideyaları, humanizm prinsipləri ilə zəngin olan bu məhəbbət dastanlarını xalq yaratmışdır, o əsrlərin zamanın sınağından çıxaraq xalqın müəlliflik şəhadətnaməsini almışdı. Çünki bu məhəbbət dastanlarının işığında, nurunda Ərşad kimi təmiz qəlblə sevən insanlar böyümüşdü. Məhəbbət dastanlarında olduğu kimi İ.Əfəndiyevin əsərlərində də azad sevgi ön plana çəkilir və bu məhəbbətə qarşı çıxan qüvvələr pislənir.

İ.Əfəndiyev qəhrəmanlarının daxili əhval-ruhiyyəsini oxucuya daha obrazlı, bədii cəhətdən daha qüvvətli şəkildə çatdırmaq üçün folklor qəhrəmanlarına, dastanlardan, nağıllardan tanıdığımız məhəbbət aşiqlərinin obrazlarına müraciət edir.

Onun qəhrəmanları da sələfləri Məcnun kimi, Kərəm kimi atəşin, alovun istisində əriyirdi. Ona görə də yazıçı Ərşadın ağzından çıxan alovu Ziyadxan oğlu Kərəmin ağzından çıxan alova bənzədirdi. Çünki bu alov təmiz məhəbbətlə sevən, eşq atəşi canına düşən aşiqlərə məxsus idi və yazıçı xalq ədəbiyyatından gələn bu motivdən yararlanmaqla igid, qorxmaz bir insan olmaqla bərabər, həm də sevgisinə böyük hisslərlə yanaşan qəhrəmanını daxili hisslərini, incə duyğularını daha qabarıq, daha qüvvətli, daha təsirli verir. Hər axşam Sərvinazın eşqilə obaya qayıdan Ərşad məhəbbəti yolunda hər cür əzablara sinə gərir. Bütün varlığıyla öz sevgisinə qovuşmaq üçün mübarizə aparır.

«Çoban Ərşad göz-gözü görməyən qış gecəsində qar basmış çöl-biyabanla ulduzları tuş tutub, Kürdobaya tərəf payi-piyada addımlayırdı. Yaman soyuq idi, amma çoban Ərşadın ağzından Ziyadxan oğlu aşıq Kərəm kimi alov çıxırdı. Kərəm Əslinin eşqinə yanırdı, çoban Ərşad da Sərvinazın eşqinə yanırdı…» (46, s.14)

Azərbaycan dastanları içərisində «Leyli və Məcnun»da Məcnunun, «Əsli və Kərəm»də Kərəmin ağzından od motivləri yazıçının əsərlərində də vardır. «Əsli və Kərəm» dastanında Kərəmin çəkdiyi ah oda dönüb onu yandırır:

«...Bir də baxdılar ki, dan ulduzu doğub Kərəm dərindən ah çəkdi. Onun ağzından bir od qalxıb, öz canına düşdü. Kərəm yanmağa başladı. Əsli bunu görən kimi özünü itirdi, dad-fəğan eləyib ağlamağa başladı». (39, s.72)

və yaxud:

«Leyli və Məcnun» dastanında da Leylini böyük bir məhəbbətlə sevən Məcnun anasının suallarına cavab verməkdə aciz qaldıqda «içindən elə bir ah çək»ir ki, ağzından od çıxır. Atası Məcnunu evə salıb qapını bağlamaq istəyəndə də, Zeyd onu çay kənarında tapanda da bu məhəbbət aşiqinin ağzından od çıxdığını görür: «Zeyd bir müddət yol gedib, bir çayın kənarına çatdı. Gördü ki, burada bir şey od tutub yanır. Tez özünü yetirib gördü burda yatan binəva Məcnundu, hər ah çəkdikcə ağzından od çıxır». (25, s.343)

Çoban Ərşad da Sərvinaza qovuşmaq həsrətilə od tutub yanır. Onun da sevgisinə mane olan qüvvələr var. O, Məcnundan, Kərəmdən fərqli olaraq mübariz aşiqdir. Məhəbbətinə qovuşmaq üçün heç nədən çəkinmir. Yazıçının məqsədi onu dastan qəhrəmanları, haqq aşiqləri kimi təmiz ürəklə sevən Kərəmlə, Məcnunla qarşılaşdırmaqla qəhrəmanının daxili aləmini daha qabarıq verir. Folklordan bəhrələnməklə bu igid, qorxmaz insanda həm də sevgisinə sədaqətli böyük bir ürək də olduğunu bildirir, qəhrəmanını yaxşı keyfiyyətlərinə görə oxucuya sevdirməyə çalışır. Sevgi, məhəbbət, haqq aşiqləri məhəbbət dastanlarımızın süjetinin əsasını təşkil edir. Ərşad məhəbbət aşiqləri kimi saz götürüb şer qoşub, çəkdiyi əzabları, yar yolundakı «cövrü-cəfasını» vəsf etmir. O, öz səadətinə qovuşmaq üçün əzmlə mübarizə aparır.

Yazıçı qələmə aldığı həyat hadisələrini, yaratdığı obrazın daxili aləmini, əhval-ruhiyyəsini belə folklor motivlərindən istifadə etməklə daha maraqlı, bədii cəhətdən daha qüvvətli verməyə nail olur.

Kərəm Qara Keşişin, Məcnun Leylinin atasının ucbatından öz məhəbbətlərinə qovuşa bilmir. İ.Əfəndiyevin qəhrəmanı onların başına gələn müsibətləri xatırlayır, Qara Keşişi lənətləyir və özünün də məhəbbət yolunda oda düşüb yanmasında dayısı Eyvazı günahlandırır. Kərəmin halına acımaqla keçirdiyi həyəcanları, narahatçılıqları, çəkdiyi daxili iztirabları, sarsıntıları da açmış olur: «Səni cəhənnəm oduna yanasan, Qara keşiş!», «Sənin bağrın od tutub yansın, Eyvaz dayı!» -deyir.

Ərşad Sərvinazı Hacı kimi bir dövlətlinin oğlu Nuruya nişanlayan və onu hicran odunda yandıran dayısı Eyvazı öz bacısı oğlunu şəxsi marağının qurbanına çevirdiyi üçün lənətləyir və onun tamahı ucbatından başı bəlalar çəkdiyi üçün Əslini Kərəmə qovuşmağa imkan verməyən Qara keşişə oxşadır.

Yazıçı bu priyomdan istifadə etməklə sevən aşiq Ərşadın fikirlərini, istək və arzularını çox ustalıqla qələmə ala bilir və yaddaqalan obraz yaratmağa nail olur. Aşiqlər həmişə öz sevgisinə qovuşmaq uğrunda mübarizə apararkən mürtəce qüvvələrlə rastlaşır. Bir zamanlar övlad həsrətiylə alışıb yanan Qara Keşiş Ziyadxanla bağladığı əhd-peymanı uşaqları dünyaya gələndən, böyüyüb boya-başa çatandan sonra unudur. Qəflətən Kərəmin Əslini görüb ona vurulduğunu eşitdikdə verdiyi sözü yerinə yetirmək əvəzinə, qızını götürüb eldən qaçır. Diyarbadiyar məmləkətləri gəzib Əslini soraqlayan Kərəm axırda Əsliyə qovuşmaq anı çatdığı zaman yenə də Qara kişinin törətdiyi cinayətin qurbanı olur, arzusuna çata bilmir. Əsliylə Kərəmin birləşməsinə mane olan Qara keşişi xatırlatmaqla, dastanlarımızdan gələn ənənələrdən bəhrələnməklə, insanların xoşbəxtliyinə mane olan qüvvələri lənətləməklə, iki gəncin faciəsinə səbəb olan dastan obrazlarından da yararlanmaqla sənətkarlıq baxımından samballı bir əsər ortalığa çıxaran yazıçı var-dövlətə, şöhrətə həris insanların hər bir zaman, hər bir cəmiyyətdə insan xoşbəxtliyinə mane olan qüvvələr olduğu fikrini də təsdiq-ləmiş olur. Hacı Tanrıverdi köklü nəsildən olduğundan, var-dövləti ilə tanındığından və oğlu Nuru da Bakıda böyük məktəbdə oxuduğundan qızı Sərvinazı «Ərşad kimi ömrü boyu dağda-daşda əynində keçə cürcənə qoyunun dalında hərlən»ən bacısı oğluna-çobana vermək istəmir. «Keçə cürcənə» libaslı Ərşadın daxili aləminə diqqəti artırmaq, onun arzu və istəklərinin saflığını üzə çıxarmaq üçün İ.Əfəndiyev folklor motivlərinə üz tutur; məhəbbət dastanlarının qəhrəmanlarını yada salan, Ərşad onlar kimi sakitlik tapa bilmir. Hər gün uzaqdan tamaşa elədiyi «lap «Qızılboğaz»ın zirvəsindən gördüyü Sərvinaz onu dəli eləyirdi. «O, Kərəm kimi mahnılar oxumaq istəyirdi. O, Əsli-Kərəm dastanını dörd-beş il qabaq obalarında toyda saz çalıb-oxuyan aşıq Humaydan eşitmişdi. O zaman Ziyadxan oğlu Kərəmin bir erməni keşişinin qızının dərdindən çöllərə düşərək gedib uzaq-uzaq ölkələrə çıxmasına inanmamışdı. «Nə olmuşdu, ay Tarısız? -demişdi. -Bəyəm sənin kimi Xanoğluna el-obada qız tapılmırdı?» Amma özü Sərvinaza vurulandan sonra Kərəmin halını, çəkdiyi əzabları başa düşür, halına yanır. Yazıçı qəhrəmanın Kərəm oğrazından istifadə etməklə çəkdiyi əzabları, mə nəvi sarsıntıları, daxili tsiək və arzularını emosional cəhətdən daha güclü verir.

İ.Əfəndiyev məhəbbət dastanlarından gələn motivlərdən istifadə etməklə yaratdığı obrazın zəngin daxili aləmə malik olduğunu, boyük arzularla yaşadığını, özündən əvvəlki dövrlərdə yaranan folklora məhəbbətini daha real boyalarla verir.

İ.Əfəndiyev yaradıcılığında diqqəti cəlb edən obrazlardan biri də şifahi xalq yaradıcılığında da özünəməxsus xüsusiyyətləri ilə seçilən Qadın Ana obrazıdır. İ.Əfəndiyevin qadın qəhrəmanları müəyyən qədər islam adət-ənənələrinə baş əyməli olsalar da, onlar o qədər də müti, qorxaq deyil. Onlar açıq fikirli, öz arzu və istəkləri uğrunda mübarizə aparmağı bacaran cəsarətli, yeri gələndə düşmənindən qisasını almağı bacaran el qızlarıdır. Yaqut Məmmədə nişanlansa da cavan taciri könlündən çıxara bilmir. Bir-birlərinin hisslərinə bələd olandan sonra başqasına nişanlı olduğunu, nigahı kəsildiyini, artıq onların birləşəcəyinə güman yeri qalmadığını qəmli-qəmli cavan tacirə söyləyən Yaqut onun «gəl, səni götürüm qaçım» təklifini eşitdikdə qorxmadan bu təklifi qəbul edir. Yazıçı qəhrəmanın bu qorxmazlığını xalqımızın soykökündə duran qəhrəman ürəkli qadınlarımızla bağlayır və onun xarakterindəki qorxmazlığı bu sətirlərdə əks etdirir. «At minib tüfəngatan Səkinə nənəsinin, atasının düşmənini güllə ilə vuran Xanım nənənin qanı qızın damarında qaynamağa başladı və o, oğlana yazdı ki, «səninlə lap Tilsimli Qaf dağına gedərəm». (45, s.30)

Azərbaycan qadınlarının islamiyyətə qədər və ondan sonra xalqımızın yaşadığı bir çox ərazilərdə də tam hüquqlu bir şəxs olduğunu qədim nağıl və rəvayətlərdə, eləcə də «Dədə Qorqud» dastanlarında da görürük. Burada qadınlarımızın ağa qeyrəti, qabiliyyəti, hünər və cəsarəti diqqətdən yayınmır. Ağıllı, hünərvər Burla xatun, Banıçiçək, Selcan xatun kimi qadınlarımız həm gözəl, qayğıkeş ana, həm də qoçaq, at minən, ox atan yağılarla döyüşdə igid ərlərdən geri qalmayan ümumiləşmiş Azərbaycan qadınlarının obrazlarıdır. Burla xatun əri Qazanın gəlib çıxmadığını gördükdə narahatçılıq keçirir, igid oğlan və qızlardan ibarət bir dəstə qoşun götürüb, qılıncına qurşanıb «Başımın tacı Qazan gəlmədi», -deyib onun arxasınca döyüş meydanına yollanır.

İ.Əfəndiyevin qəhrəmanı Sərvinaz, Yaqut Banıçiçək, Selcan xatun kimi at çapmaqda, cıdıra çıxmaqda kişilərdən geri qalmır. Hər dəfə el yaylağa köçəndə

Sərvinaz üçün yəhərli at seçilirdi. Yaylağa köç zamanı adət idi Çinarlı düzə çatanda atlılar cıdıra çıxardılar və Sərvinaz da onlardan geri qalmazdı .

Qaçaq Nəbi xalqın qanını, qisasını almaq üçün dağlara pənah aparanda onun birinci qaçaq yoldaşı Həcər olur. Ömrü boyu ərinin sədaqətli silahdaşı olan Həcər Nəbinin ölümündən sonra onun qisasını yerdə qoymayacağına and içir və bu andına sadiq qalır.

Yazıçının qələmə aldığı yüksək insani keyfiyyətlərə malik qadınlarımız qürurda, qeyrətdə də kişilərdən geri qalmır. Onun qadın qəhrəmanları da Həcər kimi at minməyi, yeri gələndə düşmənindən intiqamını da almağı bacarır.

Damlıca mülkünün yiyəsi olan Bağdad bəy («Geriyə baxma, qoca») onun mülkünə göz dikmiş Şahmar bəy tərəfindən öldürülür. Evdə bir başı papaqlının olmamasından, ərinin qanının batmasından dərd çəkən Gülnisə də, qızı Xanım da atasının qatilini tanıyır, lakin dinə bilmir. Quru yerdə qalan Gülnisə dərd çəkir.

Atalardan miras qalan «Oğul düşmən çəpəridir» atalar sözünü xatırlayır. Tarix boyu oğullarımız elin, obanın, vətənin, ailənin, ananın, bacının qeyrətini, təəssübünü çəkən bir qüvvət sahibi kimi xalqımızın təfəkküründə yaşamışdır. Damlıca mülkünün sahibi Bağdad bəyin oğlunun olmamasından sarsıntı keçirən ananın qəlbini oğulsuzluq dərdi göynədir. Onun nəzərində əgər Bağdad bəyin oğlu olsaydı heç bir düşmən onun başına belə bir faciə gətirib torpağına sahib durmağa ürək etməzdi və onun qanı da yerdə qalmazdı. Ona görə də o dünyanı lənətləyir ki, əgər Bağdadın oğlu olsaydı, qanı yerdə qalmazdı, Şahmar bəy də Damlıcada at oynatmazdı.

Lakin Gülnisə qızı Xanımın sinəsində yatan intiqam hissindən xəbərsizdi. O, atasının qatilindən intiqam almaq odunda yanırdı. Bir dəfə Şahmar bəy «alt tərəfin dərin uçurum olan meşəli dağın döşündəki dar cığırla atını sürdüyü zaman Xanım qalın qarağat kollarının arxasından qəfil çıxıb şax dayandı onun qabağında. Bəy bunu görüb təəccüblə atın başını çəkdi:

Qız soruşdu:

-Bəy, məni tanıyırsan?

Şahmar bəy dedi:

-Bağdadın qızı döyülsən?

(Bağdad kasıb olduğu üçün Şahmar bəy onu «bəy» adlandırmağı şəninə sığışdırmadı.)

-Bəli, sənin namərdliklə öldürüb mülkünə yiyə durduğun Bağdad bəyin qızıyam.

-Qız bunu deyib, Şuşadan aldığı ipək çarğatın altında gizlətdiyi tapançanı çıxarıb bəyin düz sinəsinə sıxdı.

Bəy, ürəyindən vurulmuş qarğa kimi, atdan səssizcə aşıb uçurum aşağı yuvarlandı». (45, s.12-13)

Xanım əvvəlcə Şahmar bəyi gizlincə vurmaq istəsə də, sonra fikrindən dönür. Atasının qatili ilə üzbəüz durmağı və onun kim tərəfindən öldürüləcəyini öz gözləri ilə görməsini daha üstün tutur. Xanım kimi qadınlarda kişilərə məxsus qorxmazlıq, cəsarət, mərdlik xarakteri olanlar az deyildir. Xalqımızın folklor nümunələrində yaratdığı qadın qəhrəmanlarımıza məxsus yüksək keyfiyyətlərin yazıçının qəhrəmanlarında da olması və bu oxşarlığın yazıçının əsərlərində öz əksini tapması, bu ideyaların həm şifahi xalq ədəbiyyatında, həm tarixdə, həm də yazılı ədəbiyyatımızda milli məişətimiz, adət-ənənəmiz fovqündə təsviri İ.Əfəndiyevin xalqına, onun milli mənəvi irsinə hörmətinin nəticəsidir. O yaratdığı hər bir nəsr əsərində də, dram əsərlərində də xalqına, millətinə bağlı olduğunu, dərin məzmunlu əsərləri ilə milli ideyalara xidmət etdiyini göstərir. Dil sadəliyi, mövzu axıcıllığı, bitkin obrazlar silsiləsi və bunların xalqının məişətində, həyatında və bədii təfəkküründə yaratdığı, qoruyub saxladığı ideyalarla əlaqəli şəkildə verilməsi yaratdığı əsərlərin bədii dəyərini artırmış olur. Yazıçının yaratdığı qadın qəhrəmanlar xalq içərsindən çıxmış insanlardır. «Kitabi-Dədə Qorqud» dastanlarında və digər bədii abidələrimizdə, eləcə də xalqımızın tarixində qadın qəhrəmanlarımız olmuş və onlar müəyyən bir zaman keçəndən sonra xalqı bədii təfəkküründə biçimlənmiş öz igidlikləri ilə dastan, əfsanə qəhrəmanlarına çevrilmişlər. Torpağını zəbt etmək istəyən Kirin qoşunlarına qarşı çıxan Tomrisin yeganə oğlu onunla döyüşdə həlak olarkən Tomris düşmənindən intiqam almaq, onu məğlub etmək üçün böyük rəşadət və qəhrəmanlıq göstərir. Kirin qoşunlarını döyüşdə məğlub edir və qana susamış Kiri öldürüb, onun başını qanla dolu tuluğa atdırır. İ.Əfəndiyev qəhrəmanını xalqdan gələn bu

motivlərlə «silahlandırır», Xanım Şahmar bəyi öldürüb intiqamını almaqla kifayətlənmir və eyni zamanda böyük bir cəsarətlə mübarizə meydanına girib ata baba torpaqlarını qaytarmağa çalışır. Ata mülkünü geri qaytarmaq üçün adını belə yaza bilməyən Xanım Tiflisə gedərək orada canişinliyə müraciət edir və Şahmar bəyin yiyələndiyi torpağın ona məxsus olduğunu və geri qaytarılmasını tələb edir. «Uzaq Qarabağ meşələrindən» gələn bu qarayanız arvadın təmkinindən, cəsarətindən, iradəsindən xoşu gələn canişin əlahəzrət imperatordan xahiş edib onun mülkünü özünə qaytaracağına söz verir. Xanım öz istəyinə nail olur.

İ.Əfəndiyevin qadın qəhrəmanları iradəli, mətin olmaqla yanaşı, həm də Həcər kimi güllə qabağından qaçmayan kişi xarakterli qadınlardır. Qoyun sürülərini aparmaq istəyəndə quldurların gülləsindən, patronundan qorxmayan Səkinə qarının hərəkətləri nağıl, dastan qəhrəmanlarımızı yada salır:

«-Ehey, ey selbasarlılar, cahıllar obada yoxdur deyin kişiləşmisiniz? O qoyunların birinin əvəzinə onunu verəcəksiniz». (45, s.128)

Kim idi Səkinə qarı? Kürdoba elinin hörmətlə, izzətlə xatırladığı Kərbəlayı İbixanın qızı, cavan yaşında dörd oğul, bir qızla dul qalan Səkinə «Kürdoba»nın başbiləni, qonaq qabağına çıxanı, qan bağlayanı, elçi gedəni oldu. «Ağılda, kamalda atası Kərbəlayı İbixana çəkən Səkinə qarı oğlu bayramı Şuşa qalasına aparıb məktəbə qoyur. Xan, bəy uşaqlarından geri qalmayan övladlarına verdiyi tərbiyəni, öyüdü əsas tutaraq: «Kərbəlayı İbixan bəy olmasa da bəylərdən, xanlardan əskik kişi döyüldü, niyə onun nəvəsi də oxuyub nəçərnik olmasın», -deyərək Şuşaya aparır və oğlunun təhsil almasında, Kürdoba camaatının içərisində adlı-sanlı bir şəxs kimi şöhrət tapmasında mühüm rol oynayır.

Ümumiyyətlə, qadın-ana obrazı xalq yaradıcılığında geniş, əhatəlidir.

Nağıllarımızın əsas obrazlarından biri də Ögey anadır. Qədim dövrlərin əski təfəkkürünün nəticəsində yarandığından, o dövrün zidiyyətli hadisələrinin nəticəsi kimi qəbul edilmişdir. Nağıllarımızda qəddar, amansız ögey anayla bağlı süjetlər vardır. «Göyçək Fatma», «İncilər saçır, güllər açır» nağıllarımızda, ögey ananın qeyri-insani keyfiyyətləri bizdə onlara nifrət yaradır. Bu nağıllarda və digər xalq ədəbiyyatında mövcud olan ögey ana

surətləri insan təfəkkürünün, canlı həyatda görüb-götürdüyü hadisələrdən çıxardığı nəticədir.

İ.Əfəndiyevin qələmə aldığı balaca Bəhlulun da qismətinə ögeylik doğmalıq düşüb. Anası öləndən sonra atasının gətirdiyi qadın Bəhlulun qayğısına qalmır. «Analığı əmim oğlu Bəhlula gün vermirdi. Hey döyüb ağladırdı. Bəhlul daim ac olurdu. Mən evimizdən yağlı çörək, kişmiş aparıb verirdim ona və onun içində adam yaşamayan damların dəhlizində bu şeyləri acgözlüklə yediyinə tamaşa edirdim». (45, s.179)

Bəhlulun acınacaqlı taleyi bizə «Göyçək Fatma» nağılındakı yetim Fatmayla qardaşının taleyini xatırladır. Gecə-gündüz onları işlədən, qarın dolu çörək verməyən ögey ana axırda onları doğma atalarının əliylə evdən çıxarıb, meşədə azdırmağa müvəffəq olur.

Bəs Bəhlulun atası yetim qalmış körpəsinin taleyinə niyə biganə yanaşırdı? O da Fatmanın atası kimi övladının vəziyyəti ilə maraqlanmır. Yazıçının söylədiyi kimi, hər axşam tarladan qayıdıb, dəstəmaz alıb, ayaqlarını yuyub namaz qılan Qubad palaz üstünə salınmış döşək üstündə bardaşqurma əyləşərək arvadının gətirdiyi yeməyi şirin-şirin yeyər, balaca Bəhlulun əhvalını soruşmaz, ac-tox olub-olmadığı ilə maraqlanmazdı. Bütün bunların canlı şahidi olan yazıçının balaca qəhrəmanı Murad kədərlənər, anasının tez-tez xəstələndiyini xatırladıqca təşvişə düşərdi və fikirləşərdi ki, əgər anası olmasa onun da atası bu cür edər. Bəhlulun ögey anasından gördüyü bu pislikləri götür-qoy edən uşağın qəlbində ögey ana dünyanın ən qəddar məxluqu idi.

Ümumiyyətlə, yazıçının yaradıcılığında xalq ədəbiyyatından gəlmə bir-birinin əksi olan Doğma ana - Ögey ana münasibətləri insanların həyatı, məişətdə baş verən hadisələrin fonunda verilir. Ögey ana məfhumu ilə bağlı folklor nümunələrində də ögey analar yetimlərə zülm edirlər. Nağıllarda ögey ana ilə ögey övladlar arasındakı ziddiyyət, konflikt -psixoloji ailə dramı, ailənin dağılmasının nəticəsi olmayıb, qəbilənin parçalanması üzündən əmələ gələn ictimai faciə kimi üzə çıxır. Bu da göstərir ki, ögey ana obrazı xalq ədəbiyyatında çox qədimdir və xalqın bədii təfəkküründə kök salmışdır.

Ögey ana obrazı kimi doğma ana obrazı da xalq ədəbiyyatından gəlmədir. «Kitabi-Dədə Qorqud» dastanlarından biri olan «Buğacın dastanı»nda Buğacın

anasını xatırlayaq. Oğlunun ovdan qayıtmadığını görən ananın ürəyinə xal düşür. Ahu-zar içində çabalayan ana tab gətirmir, qırx incə belli qızlarla oğlunun arxasınca gedir. Balasını al-qan içində görən ana ürəyi lərzəyə gəlir və onu ana südü və dağ çiçəyindən hazırladığı məlhəmlə ölümün pəncəsindən qurtarır. «Salur Qazan» boyunda Şöklü Məlik onun oğlu Uruzun ətindən qovurma edib onlara yedirəcəyini, Qazan xanın arvadının kim olduğunu ortaya çıxardacağını eşitdikdə Burla xatunun ana fəryadını xatırlamaqla Azərbaycan ədəbiyyatında doğma ana obrazının müqəddəs bir obraz kimi yaşadığının şahidi oluruq.

Yazıçı da əsərlərində qədim xalq nağıllarımızdakı, dastanlarımızdakı ənənələri yaşadaraq öz əsərlərində gözəl ana surətləri yaratmışdır. Əri Gülməmməd rəhmətə gedəndən sonra Səkinə dörd oğlunu və bircə qızını ögey ata əlinə verməyərək, eldə namus, qeyrət mücəssəməsi kimi ad-san qazanaraq balalarını böyüdür, ərsəyə gətirir, oğlu Bayramın təhsil alması üçün əlindən gələni əsirgəmir.

Ümumiyyətlə, İstər folklor nümunələrində olsun, istərsə də yazılı ədəbiyyatda Ana məfhumu müqəddəs hisslərlə bağlı şəkildə təqdim olunur. Türk mifologiyasında Anayla bağlı əfsanələrdə soykökümüz olan oğuzların ulu anası Ayqağan yarımmüqəddəs qüvvədir. Bu adın tərkibindəki «ay» tanrılığı bildirir. İlk türk qəbilələrindən biri olan saqlar yaradıcı ana ilahəyə ay demişlər.

Mifoloji kökləri araşdırarkən biz bir daha əmin oluruq ki, mifologiyamızdan bizə məlum olan türkdilli qəbilə birləşmələrinin birgə tanrısı, ilahəsi olan, ana məfhumunu, yaxşı ana məfhumunu bildirən.Umay ana, Ay ana doğma ana körpələri dünyaya gətirən, uşaqları himayə edən, insan yaradan, ruh verən bir ilahi qüvvə kimi insanın yaradıcısıdır: «Oğuz qəbiləbirləşmələrində Ay, Ayı» yaradıcı tanrı da deməkdir. «Ay» yalnız qəbilə adlarında deyil, tanrı, onqon, antropomorfik ilahə adlarında da tərkib kimi iştirak etmişdir». (117, s.30)

Beləliklə, ana uşaqları dünyaya gətirən, onu qoruyan, ilahi bir varlıq kimi mifik keyfiyyətlərini bu gün də saxlayır və yazıçı anaya məhəbbətin dərin köklərini ön plana çəkir, ana məhəbbətinin ülviliyini, müqəddəsliyini qorumağa çalışır və xalq ədəbiyyatında da biz bunun dərin köklərini görürük. Çünki

xalqın yaratdığı hər bir folklor nümunələrində onların keçdikləri həyat yolu, arzu və istəkləri yaşayır. Səkinə ana ömrü boyu öz balalarının qayğısını çəkir, onların təhsil alması üçün belə əlindən gələni əsirgəmir.

Fatma nənə oğlu Nurunun qayğısını çəkir. Həm mənəvi, həm maddi cəhətdən yardımçısı olduğu övladından layiqli qiymətini almayan ana belə çəkdiyi bütün zəhmətləri özünün analıq borcu hesab edir. Hətta əri Bayramın ölümündən sonra mülkü satıb anasını qapılarda qoyan Nuruya qarşı kin yoxdur.

Cənnət, cəhənnəm süjeti folklorumuzda da yaşayır. Yazıçının nağıllarda eşitdiklərini həyatda görməyən, lakin onu tamam yeni bir formada öz arzularına uyğun görməyi arzulayan bir uşaq düşüncələrini ümumiləşdirir. «Mən gecələr yatağıma girəndə gözümü pəncərədən bayırdakı qaranlığa zilləyərək Fatma nənəmi öz cənnətimdə, qızıl taxt-rəvan üstündə əyləşdirib, qabağına qızılgül ətri verən çay və qızıl qutuda, Bayram babamın vaxtilə çəkdiyi zəfəran kimi sapsarı, ipək kimi saçaqlı tütün qoyurdum, nənəm də indiki kimi qarğı müştükdə deyil, qızıl müştükdə bu tütündən çəkib nəşə ilə güllərə, çiçəklərə tamaşa edirdi. Mənim cənnətimdə bütün hurilər, mələklər, adamlar və mən özüm həmişə bir sevinc içindəydik. Xoşbəxt idik…» (45, s.259)

Cənnət, cəhənnəm mövzusu dünya xalqlarının və eləcə də Azərbaycan xalqının mifik təfəkkürünün məhsulu kimi onun yaradığı folklorda da öz geniş əksini tapmışdır. Cənnət - bir bağ mənasında olub, qədim insanların ideologiyasına görə ruhların xoşbəxt, firavan, dərdsiz-qayğısız yaşadığı, hər cür naz-nemətlə təmin olunduğu əfsanəvi bir yerdir. Cənnət haqqında təsəvvürlər insan öləndən sonra ruhunun yaşaması haqqında ilk ibtidai inam və etiqadlarda öz əksini tapmışdır. Bu ideyalar buddizm, xrisianlıq, iudaizm və islam dini ideyalarında da yaşayır. İslam dini cənnətin səkkiz təbəqədən ibarət olduğunu və orada Allahın məskəni olduğunu iddia edir. İslam dininə görə cənnət bağında misilsiz gözəlliyə malik meşələrlə, ən sərin duru çeşmələrlə, nar və xurma ağacları ilə zəngindir. Yaxşı xislətli insanların, mö min şəxsiyyətlərin, əməlisaleh insanların ruhu orada əbədi xoşbəxtliyə qovuşur. İ.Əfəndiyevin qəhrəmanı da nağıllardan eşitdiyi bu cənnəti arzulayır. Yaşadığı cəmiyyətdə çəkdiyi əzablardan, gördüyü haqsızlıqlardan bezmiş bir insanın daxili əzablarını, sarsıntılarını daha mənalı, daha güclü vermək üçün yazıçı cənnət

süjetindən yararlanır. Qəhrəmanın arzuladığı cənnətdə insan səadəti, xoşbəxtliyi və firavan həyat vardır. Orada qəm, kədər, qayğı, əzab yoxdur. Balaca Murad («Geriyə baxma, qoca») ətrafında baş verən hadisələrlə, ədalətsizliklərlə barışa bilmir, ona görə də cənnəti axtarır. Çünki cənnətdə pis insanlar yoxdur və onlar əməllərinə görə cəhənnəmdə məskunlaşıblar. Dünyada xəbis ürəklilər, pislər, insanlara qarşı ədalətsizliklər törədənlər öləndən sonra ruhları Allah tərəfindən əbədi əzab-əziyyətlərə düçar edilir. İslam dininə görə yeddi təbəqədən ibarət olan Cəhənnəm üzərində qıldan nazik körpü vardır. O körpüdən keçərkən kim günahkardırsa mütləq yıxılır və cəhənnəmə vasil olur. İ.Əfəndiyevin qəhrəmanı yaşadığı cəmiyyətdə uşaq qəlbi ilə cəhənnəm əzabı çəkir, ona görə də Murad uşaq qəlbində sevinc içində ömür sürə biləcək bir cənnət axtarır. Onun yaşadığı cəmiyyətlə yuxularında gördüyü cənnət arasındakı təzadlı fikirlər qəhrəmanın daxili əhval ruhiyyəsini daha qabarıq şəkildə, daha təsirli verilməsi üçün yazıçının köməyinə çatır.

İ.Əfəndiyevin yaradıcılığında diqqəti cəlb edən, folklorumuzun ən nadir inciləri olan əfsanələrimizdə, rəvayətlərimizdə və nağıllarımızda yaşayan əfsanəvi yer adlarıdır. Qarabağda ən gözəl səfalı yer adlarının folklorumuzda, yazıçının yaradıcılığında mühüm yer tutması təsadüfi deyildir. Bildiyimiz kimi Qarabağ əzəli və əbədi Azərbaycan torpaqlarıdır. Böyük alim və mütəfəkkirlərimiz neçə-neçə «Qarabağnamə» yaratmışlar və onlarda Qarabağ, onun tarixi, müxtəlif siyasi-içtimai hadisələrin dərin kökləri yaşayır. İ.Əfəndiyevin «Geriyə baxma qoca» və sanki bu əsərin davamı olan «Üçatılan» romanlarına diqqət yetirsək, onları «Qarabağnamə» adlandırsaq səhv etmərik.

Mənsub olduğu Azərbaycan xalqının milli soykökü ilə bağlı şəkildə qələmə aldığı Qarabağ mövzusu, xalqımızın milli mənəviyyatı ilə bağlı şəkildə real təsviri özü bir elmi əsərin mövzusudur. Ata-babalarımızın məskən saldıqları bu cənnət guşələr bu gün ürəyimizi ağrıdan acı tarixini yaşasaq da, yazılan tarixin pozulmazlığı bəşəriyyətin qanunlarının tərkib hissəsidir. «Qızıl boğaz», «Altın taxta», «Əyri qar», «Haramın düzü», «Enişək bulağı», «Göndələn çay», «Ərgünəş meşələri», «Güzdək», «Cıdır düzü», «Şuşa» və başqa bu kimi yazıçının əsərlərində öz əksini tapan yer adları tarixi baxımından xalqımızın yurd yerləridir, yazıçı öz əsərlərində bu yerlərin xəritəsini

çəkmişdir. «Cıdır düzünün bir tərəfi «Xəzinə qayası» deyilən dərin bir uçurum idi. Uçurumun dibində «Daşaltı» deyilən çay axırdı. Cıdır düzündən üzüaşağı baxanda çayın qırağındakı adamlar güclə seçilirdi. Çaydan o tərəfə ta uzaqlarda gümüşü duman içində görünən Ziyarət, Girs dağlarına qədər qalın meşələr uzanıb gedirdi. (46, s.76)

Qarabağ camaatın istirahət yeri olan bu gözəl, səfalı yerlərdə lap qədimlərdən qalaların olması, oralarda xalqın yadelli işğalçılardan qorunması, müdafiəsi üçün tikililəri təsvir edilir və bu da sübut edir ki, buradakı tarixi əfsanəvi yer adları xalqımızın lap qədimlərdən məskunlaşdığı, dədə-baba yurdlarıdır. «Şuşa qalasının o biri tərəfində Arana gedən yolun üstündə qədim qala hasarının yanında başqa bir gəzmək yeri var idi. «Bura «Ərimgəldi» deyirdilər. Ona görə Ərimgəldi deyirdilər ki, yazda aran kişiləri arvad-uşaqlarını gətirib dünyanın ən səfalı yaylaqlarından olan Şuşa qalasında qoyub, əkin-biçinlərini yığıb-yığışdırmaq üçün, kimi də ticarət işləri üçün arana qayıdardı. Cavan gəlinlər də axşamçağı «Ərimgəldi»də oturub göz işlədikcə uzanıb gedən arana tamaşa eləyə-eləyə ərlərinin yolunu gözləyirdilər». Qədim əfsanələrlə bağlı yer adları Qarabağda çoxdur və yazıçı öz əsərlərindəki hadisələri işıqlandırarkən onları milli - mənəvi təfəkkürümüzün qiymətli incisi olan folklorla qarşılıqlı şəkildə qələmə almışdır. Qələmindən çıxan bu əsərlər də xalq ədəbiyyatının - xalq yaradıcılığının ən qədim nümunələrinə əsaslanmaqla yaranırdı.

«Qarı dağı» deyilən yerin adını çəkən sənətkar bu yerin adıyla bağlı xalq içərsində yayılmış əfsanəni qələmə almaqla bir tərəfdən xalq arasında yer, torpaq, çay, dağla bağlı çoxlu əfsanələrimizin olduğunu yadımıza salır, xalqdangəlmə bu motivləri bizə sevdirir, digər tərəfdən bu motivlərdən yararlanmaqla əsərlərinin bədii qüdrətini artırmış olur. Bu yer adlarının hər birinin adında bir məna yatır və xalqın yaşayış yerləri olan bu ərazilərdəki qədim yer adları özü Qarabağ torpaqlarının əzəli əbədi Azərbaycan xalqının yaşayış yerləri olduğunu sübut edir. Hər çay, hər bulaq, hər qaya, hər dağ adı xalqımızın bədii təfəkkürünün, onlara inamının məhsuludur və yazıçı bu yer adlarını əsərlərinə gətirməklə onun məna duyumunu artırmışdır.

Bir zamanlar balaca Muradın nağıl dolu dünyası bu gün müdrik bir qocanın qələmindən realist-sehrli qüvvələrin qüdrətini birlikdə əks etdirmək şansı əldə etmişdi. Əsrarəngiz nağıllarımızla səsləşən real həyat hadisələri İ. Əfəndiyev qələmində birləşərək bir-birinin sənətkarlıq qüdrətini əsas tutmaqla, bir-birinə ülvi məhəbbətlə bağlanmaqla, bir-birini tamamlamaqla sənət abidəsinə çevrilir.

İ.Əfəndiyev yaradıcılığı təpədən-dırnağa folklorla, onun qəhrəmanlarının əməl və ideyaları ilə silahlanmışdı. Şifahi dildə əsrlər boyu yaşamış bir xalq xəzinəsindən bəhrələnmiş, varlanmışdır. Bu mənəvi varlanmaq İ.Əfəndiyev qələminin gücünü, sehrini üzə çıxaran folklorun qələbəsidir. «Geriyə baxma, qoca» romanı bu cəhətdən xüsusilə seçilir. Bu biblioqrafik bir əsər olsa da folklor ənənələri üzərində köklənmişdir.

Xalqının yaratdığı milli mənəvi dəyərlərə üz tutan, onu dərindən öyrənən, ondan bəhrələnən sənətkarın yaratdığı əsər uzunömürlü olar. Çünki mənbəyini xalq yaradıcılığından götürmüş yeni sənət əsəri keçmişimizlə bu günümüz arasında əlaqə yaradırsa, onları doğmalaşdırırsa, xalq sənətindən bəhrələnirsə, bu vəzifəni yerinə yetirən hər bir sənətkar qələmi xalqa xidmət edirsə belə əsərlər oxucu üçün, kütlə üçün ən qiymətli məxəzə çevrilmiş olur.

İ.Əfəndiyev qələmə aldığı əsərlərdə dünya folklorundan seçmələrə də yer verir. Onları xatırlatmaqla ümumiyyətlə, bəşəriyyətin müxtəlif dövrlərdə yaratdıqları folklora olan münasibəti əks etdirmişdir və çar hökumətinin taxtdan salınması bolşeviklərin hakimiyyətə gəlməsi ilə onlarda qalan sənədlərin dəftərxanada dağı-dılması səhnəsini xatırlayan, padşahın taxtdan salındığını eşidən balaca Murad ömründə padşah görmədiyi üçün onu «Min bir gecə» nağıllarında eşitdiyi padşahlarla müqayisə edir:onun nəzərində padşah anasının danışdığı «Min bir gecə» nağıllarındakı kimi, tilsimli bir qalada qızıl taxt üstündə əyləşmişdir. Onun o tərəf - bu tərəfində qüvvətli pəhləvanlar dayanmışdılar və bu pəhləvanlar da Rüstəm Zal kimi güclüdürlər.

İ.Əfəndiyev istər Azərbaycan folklorundan, istərsə də dünya folklorundan istifadə edərkən əsərlərinin ideya və məzmun cəhətdən, bədii sənətkarlıq baxımından qüvvətli çıxmasına çalışmış, folklordan gələn süjet, obraz və motivlərindən bəhrələnməklə əsərlərində milli ruhu, xəlqiliyi qoruyub saxlamağa çalışmışdır.

## 1.2. Bayatı, aşıq şeri və xalq mahnılarından bəhrələnmə

Bayatı İ.Əfəndiyev yaradıcılığında da özünəməxsus yer tutur. Bayatı şifahi xalq ədəbiyyatının qədim nümunələridir. Xalq ədəbiyyatının ən maraqlı mövzu və ideyalarını özündə yaşadan bayatılar çoxəsrlik bir tarixə malikdir. O, xalq içərsində geniş yayılmış, dillər əzbəri olmuş, cilalanmış, unudulan unudulmuşsa da böyük bir hissəsi bizim dövrümüzə qədər yaşamış və bu gün də xalqın hafizəsində yaşayır. Poeziyamızın ən incə, qiymətli nadir nümunələri olan bayatılar haqqında böyük ədiblərimiz, folklorşünaslarımız, ədəbiyyatşünaslarımız qiymətli fikirlərini söyləmişlər. (81) Hələ X1X əsrin əvvəllərindən folklor məsələlərini öyrənən Qrimm qardaşları poeziyanı milli həyat faktoru, xalqların kollektiv şəkildə yaratdığı bir qiymətli folklor nümunəsi kimi qiymətləndirir, eyni zamanda onun mənşəyini ilahi qüvvə ilə bağlayır və bildirir ki, poeziyadakı ilahi ruh bütün xalqlarda demək olar ki, eynidir və eyni bir mənbə ilə bağlıdır, buna görə də hər yerdə oxşarlıq, daxili uyğunluq, gizli qohumluq, başlanğıcı itirilmiş bir mənbə birliyi əks olunur; inkişaf oxşar şəkildə davam edir, lakin onların törətdiyi xarici şərtlər müxtəlifdir.

Poeziyamızın qədim nümunələrindən olan bayatılarlar yaranandan, insan təfəkkürü inkişaf edəndən, öz ürəyindən keçənləri dili ilə izhar etməyə başlayandan onların sinəsində qaynamış, öz məcrasından çıxıb elin fikir və duyğularının ifadəsinə çevrilmişdir. Çünki bəşər övladının hansı sinifdə, hansı cəmiyyətdə yaşamasından asılı olmayaraq, onların demək olar ki, bütün dövrlərdə ürək çırpıntıları, istək-arzuları eynilik təşkil etmişdir-xoşbəxtliyə qovuşmaq səadətə yetişmək, ağrılı-acılı ömürdən uzaq olmaq hissiylə yaşamış yaratmışlar.

Onların toplanması, nəşr edilməsi yolunda mühüm işlər görmüşlər. S.Mümtaz, Ə.Çəmənzəminli, Vəli Xuluflu, A.Şaiq və başqaları bu bayatıları toplayıb kitab şəklində nəşr etdirməklə yanaşı, özləri də bayatılar yazmış, bu xalq ədəbiyyatı nümunələrinin sənətkarlıq baxımından qiymətli izahını da vermişlər: «On minlərlə gözəl nümunəyə malik zəngin bayatı xəzinəmizdə adı heç bir yerə qeyd olunmamış yüzlərlə qadın və kişinin, oğlan və qızın, layla

deyən ananın, ağı deyən arvadın, cüt sürən hodaqın, sözün əsil mənasında xalq şairi və şairəsinin, yazılı ədəbiyyata mənsub adlı-sanlı sənətkarın payı vardır». (7, s.56)

Bayatılar lirik el yaradıcılığının məhsulu olub ən qədim, geniş yayılmış folklor növüdür. Az sözlə dərin fikir aşılamaq bayatılarda güclüdür.

İ.Əfəndiyevin əsərlərində milli koloriti artırmaq üçün bir bədii priyom kimi bayatılardan istifadə edir. Bayatılarda əsrlərin, qərinələrin qucağında uyuyan bir millətin, xalqın kədəri, sevinci, qəmi, arzusu, istəyi, cövrü-cəfası öz əksini tapmışdır.

Əzizim, ağlamazdım,
Gülərdim ağlamazdım,
Bilseydim vəfan budur,
Sənə bel bağlamazdım. (22, s.285)

Eşq dərdindən çöllərə düşən Məcnunlar, pərvanə tək eşq odunda yanan Leylilər, Şahsənəm dərdindən qərib ellər gəzən, yurdundan-yuvasından cəlayi-vətən olan Qəriblər, Əsli dərdindən yanıb kül olan Kərəmlər, onların hiss-həyəcanları yazıçının qəhrəmanlarının hiss-həyəcanları ilə yaxındır və onların yaddaşına həkk olunmuş bu bayatılar onların ürəyindən xəbər verən duyğuları özündə birləşdirir. Bir bayatı vasitəsilə yazıçı bütöv bir insanın daxili aləmini açmış olur. Dərin məzmunlu, hər biri qalaq-qalaq qiymətli sənət əsərlərinə bərabər, zəngin ideyaları özündə yaşadan, xalq hikmətinin xəzinəsindən olan bayatılardan bəhrələnməklə yazıçı real qəhrəmanının nə kimi arzu və ideyalarla, istəklərlə yaşadığını gözümüz önündə canlandırır.

Eləmi dərdə sərəm,
Bağlanıb dərdə Kərəm.
Qoşaram qəm kotanın
Sürərəm, dərd əkərəm.

Qəhrəmanın diliylə verilən bu bayatıya qəriblik, vətən həsrəti, sevgi, vüsal, intizar, insanın kədəri, qəmi hopmuşdur. O, bəşəri ideyaları, arzu və istəkləri özündə yaşadır, onun yaranmasından əsrlər keçməsinə baxmayaraq bu gün də yaşayan insanların fikir və duyğuları ilə üst-üstə düşdüyündən yazıçı

qəhrəmanının daxili aləmini oxşayan, ümumxalq malına çevrilmiş bu qaynaqlardan yararlanır:

Dağlar marala qaldı,
Otu sarala qaldı
Soyuq bulaq, göy çəmən,
O da marala qaldı. (45, s.257)

Yazıçının qəhrəmanı «qanrılıb boş qalmış yurda baxıb dağlarda əks olunan» dərdli-qəmli səslə bu bayatını çağırır. Yurdundan ayrılmaq istəməyən kürdobalıların ürəyindən keçən hissləri onların gözlərindən oxuyur, el köçüb yurdu qalan pərişan camaatın ağrı-acılarını qoca ağsaqqal öz ürəyində yaşadır və söylədiyi bu misralarda ən səmimi, ən dərin insani hisslər ümumiləşdirilir. Yuxarıda deyilən bu bayatını yazıçının qəhrəmanı öz daxili qəminin nəticəsi kimi söyləyir. Eldən gələn bu dörd misra qəhrəmanın daxili aləmini açmaq, onun zəngin mənəvi əxlaqi keyfiyyətlərə malik olduğunu, öz milli mənəvi dəyərləri üzərində kökləndiyini oxucuya çatdırmaq üçün qiymətli mənbədir. Vətəninə, yaşadığı məkana bəslənən sonsuz məhəbbəti hər şeydən üstün tutan yazıçı bu kiçik lakin dərin məzmunlu bayatıdan yararlanmaqla qəhrəmanının qəlbindəki ayrılıqdan doğan səmimi hissləri daha obrazlı şəkildə verir.

Bayatılardan istifadə etməklə yaratdığı əsərin bədii-estetik dəyərini artırmışdır. İ.Əfəndiyev şəxsində bu el ədəbiyyatına qırılmaz tellərlə bağlılıq görürük. Böyük sənətkarımız Vaqif, Vidadi Qarabağda yaranan bayatıların kamil söz sənətimizin əvəzsiz nümunələri olduğunu, «külli-Qarabağın abı-həyatı, nərmə-nazik bayatıdır-bayatı» misrasıyla bayatıların beşiyi olan Qarabağda onun geniş yayıldığını söyləyirdilər. İ.Əfəndiyev də öz əsərlərində bu qədim sənət nümunələrindən yararlanmaqla yaradıcılıq imkanlarını genişləndirmiş olur. Folklorumuzun ən geniş yayılmış, qiymətli inciləri olan bayatılar haqqında F.Köçərli, A.Şaiq, M.Hüseyn və başqaları qiymətli fikirlər söyləmişlər. Bayatılar həmişə aşıqların da dilinin əzbəri olmuş və bir çox dastanlarımızda onlardan məharətlə istifadə edilmişdir. M.H.Təhmasib yazırdı ki, dastan şerləri qoşma və gəraylılarla yanaşı, bayatılardan da ibarət olmuşdur: «Bizdə şerləri ancaq bayatılardan ibarət dastanlar da olmuşdur ki, bu formanın ən yaxşı nümunəsi adını çox eşitdiyimiz «Arzu Qənbər»dir». (140, s.232) Bu

dastan haqqında S.Paşayevin də qiymətli fikirləri var. (103) Bunlar da onu göstərir ki, bayatılar xalq içərsində həmişə yaşamış, xalqın dillər əzbəri olmuşdur. İ.Əfəndiyevin qəhrəmanlarının dilində bu bayatılar yaşayır. Xalq şüurunun zənginliyini aydın və səmimi şəkildə ifadə edən bayatılardan yararlan-maqla, İ.Əfəndiyev qəhrəmanlarının daxili əhval-ruhiyəsini, hisslərini, arzu və istəklərini daha dolğun, daha canlı, daha təsirli verməyə müvəffəq olur.

Hansı dövrdə yaşzıb-yaratmasından asılı olmayaraq böyük sənətkarlarımız bu sənət nümunələrinə məhəbbətlə yanaşmış, onun zəngin məna dərinliyindən əsərlərinin zəngin bir sənət əsəri kimi ərsəyə gəlməsi üçün bədii bir vasitə kimi istifadə etmişdir. İ.Əfəndiyev də öz müasirləri kimi, eləcə də özündən əvvəlki dövrlərdə yazıb-yaradan klassiklərimiz kimi bayatılara məhəbbətlə yanaşırdı. Obrazın daxili aləmini açmaq, onların qəlbindən keçən arzu və istəklərini əks etdirmək, psixoloji duyumları zənginləşdirmək üçün bayatılar onun karına gəlirdi:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

Yığcam, qısa, konkret bir şəkildə həsrət, ayrılıq dərdinin yaratdığı əzabları ümumiləşdirən bu bayatı qəhrəmanın daxili aləminə nüfuz etməkdə oxucuya kömək edir. Ən yaxın adamların ayrılığından doğan kədər oxucu qəlbinə yol tapır. Bayatıdan yaradıcılığında istifadə priyomu özü də İ.Əfəndiyev yaradıcılığına göydən düşmə deyil. Onun ömrünün ən gözəl çağları olan uşaqlıq illəri bu bayatıların həzin zəngulələri üstündə köklənmişdir: «köç hündür dağın döşündən sallanmış el yolu ilə getdikcə mənə elə gəlirdi ki, ulduzlu göyün bir parçası, dəvənin yırğalana-yırğalana getməsi... mənə yuxu gətirirdi. Hardan gəlirik? Hara gedirik?... bilinmirdi. Birdən köçün qabağıncan nərin üstündə gedən Səkinə nənə bu ulduzlu göyün altında, bu ulduzlu dərənin üstündə uca səslə bayatı çağırdı:

Aşıq gecələr gələr,
Yatıb dincələr, gələr.
İllər mübah keçəndə

Karvan gecələr gələr» (45, s.158)

Səkinə nənə ilə yaşıd olan Mustafaoğlu da köçün arxa tərəfindən başqa bir bayatı çağırır.

Bu bayatılardakı məna tutumu, axıcılıq, ürəyə yatımlılıq güclüdür. Yazıçı qəhrəmanın daxili aləmini bu misralar üzərində kökləyir. Hadisələri danışan qəhrəmanın köç gedərkən sükut içində dinlədiyi zınqrov səslərinin getdikcə onun nəzərində Cahargah muğamına çevrilməsi, xəyalını dərk edə bilmədiyi, ancaq «əsrarlı şirinliyini hiss etdiyi» uzaqlara aparması və «bu naməlum uzaqlarda eynilə belə aylı-ulduzlu qaranlıqda çöllərdə gedən Qızyetəri, gah qızıl taxtda əyləşən», özü də anası kimi gözəl olan pərilər padşahını və onun qabağında rəqs eyləyən qızları görməsi və bayatıdakı həzinlikdən-musiqidən istifadə etməsi xalq yaradıcılığından gəlmə musiqi fantaziyasının insan xəyalında əksi hadisələrin bədii cəhətdən qüvvətli verilməsinə, qəhrəmanların daxili aləminin zənginliyini üzə çıxarılmasına kömək edir.

İ.Əfəndiyev yaradıcılığı bu kamil sənət nümunələrini yaradan xalq təfəkkürünün zəngin xəzinəsi üstündə yaranmışdır. Əsərlərində müraciət etdiyi bayatılar da onun yaratdığı obraza doğmadır və eldən gələn bu misralarla qəhrəmanının daxili aləmi açılır, yüksək bədii təsir gücünə malik olan sənət əsəri yaradılmış olur.

Aşıq sənəti Azərbaycan xalqının ən çox sevdiyi, hörmət bəslədiyi, sevə-sevə yaşatdığı sənətdir. Əsrlər boyu xalq bu sənəti yaşatmış və bu gün də yaşatmaqdadır. Aşıqlıq sənətinin kökləri dərinliklərə gedib çıxır. Türk xalqları ümumiyyətlə musiqiyə, sözə yüksək qiymət vermiş, aşıq sənətinə, onun qopuzuna, sözünün qüdrətinə inanmışlar. Sözlə musiqi sənətinin birlikdə çox böyük gücə malik olduğuna inamın nəticəsidir ki, Oğuzlar döyüş meydanlarına özləri ilə birlikdə qopuz da aparармışlar. Xaqanlar rəsmi qəbullarında silahlı döyüşçü ilə yanaşı yanlarında qopuzçu da sax-larmışlar. Dədə Qorqudun və onun qopuzunun gücünə inanan xalq onları Günəşlə, Tanrıyla bağlı bilirdilər. (82, 93, 105, 119)

İ.Əfəndiyev bütün əsərlərində demək olar ki, aşıq sənətinə çox meyl göstərdiyini açıq hiss etdirir. İri həcmli əsərlərindən olan «Sarıköynəklə Valehin nağılı» əsəri aşıq yaradıcılığı fonunda inkişaf edir. Əsərin nağıl

adlandırılması, on beş nağıla - hissəyə bölünməsi və burada iştirak edən obrazların söylədiyi hadisələri aşıq yaradıcılığı stilində verməklə dastanlara məxsus keyfiyyətlərin də əsərə gətirilməsi, «aldı Sarıköynək», «aldı Valeh» şəklində qurulması xalq yaradıcılığımızın-folkloruuzun bir çox nümunələrini özündə birləşdirməsi əsərin bədii keyfiyyətini artırır. Öz improvizəsində ozan kimi çıxış edən yazıçı bir üslubdan digərinə keçir, dramatik üslub manerallarına gəhd göstərir, təhkiyəni lirik ricətlərlə bəzəyir.

Aşıq yaradıcılığı üslubların sinkretizmi, lirik, epik və dramatik üslubların bir şəxsin ifasında birləşməsidir.

Aşıq yaradıcılığı İ.Əfəndiyevin milli-mənəvi həyatında mühüm rol oynamışdır. M.N.Təhmasib yazırdı ki, «Aşıqlar əməkçi xalqın arzu və istəklərini, fərəh və sevinclərini, kədər və iztirablarını, mübarizələrini tərənnüm etmişlər. Aşığı xalqdan ayrı təsəvvür etmək mümkün deyildir. O, həmişə xalqla, ellə, yaşadığı kəndlə bir yatmış, bir oyanmış, birgə sevinmiş, birgə kədərlənmişdir. Buna görə də Azərbaycanda aşığa həsr olunmuş, «aşıq elin arxasıdır», «aşıq haqqın aşığıdır»…və s. onlarca belə ifadə aşığın xalqa nə qədər bağlı olduğunu aydın göstərir» (140, s.55).

Görkəmli sənətkarımız aşıq şerindən bəhrələnməklə yaratdığı obrazın daxili, mənəvi psixologiyasını açır, bədii cəhətdən qüvvətli arzu və istəklərinə qovuşmaq həsrətilə yaşayan surətlər yaradır. Yazıçının nəsr əsərlərində məhəbbət dastanların-da olduğu kimi iki sevən aşiqin məhəbbəti təsvir edilir. İ.Əfəndiyev yaradıcılığında ozan-aşıq sənətinə bağlılıq vardır. O sanki dövrünün öndə gedən ozanı, improvizatorçu sənətkarı idi. Ozan sözünün özünü tədqiqatçılar cəmiyyətdə qabaqda gedən, öndə gedən ifaçı sənətkar kimi qiymətləndirmişdir. (150, 131-145) və (170, 31-43) S.Paşayevin ozan-aşıq yaradıcılığına aid elmi araşdırmaları da bu baxımdan dəyərlidir. (108, 109)

Yazıçı insanın daxili aləmini, mərdliyini, qəm-qüssəsini, şirin duyğularını aşıq şeri ilə oxucuya çatdırmaqla qədim xalq dastan və nağıllarımıza uyğun olan bədii nəsr əsəri yaratmış olur. Bunu yazıçının xalq ədəbiyyatına, aşıq sənətinə olan sonsuz məhəbbətinin ifadəsi kimi qiymətləndiririk:

Dağların üstündə qar nişanası,
Gül üstə görünür xar nişanası,

Ölürəm, qəlbimdə yar nişanası
Gözüm yolda, intizara yetmədim. (45, s.153)

Qoşma üstündə verilmiş bu misralarda saf məhəbbəti, lirik qəhrəmanın istək və arzularını, sevən gəncin qəlbindəki eşqin ilahiliyini görürük. Romanda diqqəti cəlb edən hadisələrdən biri Qızyetərin («Geriyə baxma, qoca» əsərində) həyatı ilə bağlı hadisələrin ənənəvi nağıl formulları ilə verilməsidir. «Allah Qızyetərə bir gözəllik vermişdi: böyüyüb ərkən yaşına çatanda aya deyirdi sən çıxma, mən çıxaram, günə deyirdi sən çıxma, mən çıxaram». (45, s.150)

Yazıçı burada əhvalatları şirin dillə, cəlbedici və poetik struktura malik şəkildə təsvir edir. Folklorun epik qolunun ecazkar nümunəsi olan nağıllar xüsusi formaya malikdir. Yazıçının əsərində də nağıllarda olduğu kimi hadisələr romantik, əlvan boyalarla verilir.Bu hadisələrin arxasında real insani münasibətlər dayanır və nağıllarda oluğu kimi sədaqət-xəyanət, mərdlik-namərdlik, ögeylik-doğmalıq kimi keyfiyyətlər qütbləşdirilir.

Qızyetər nişanlanandan sonra el yaylağa köçür, yaylağa köçəndən sonra əmisi oğlunun ona - nişanlısına baş çəkməməsi qızın qəlbinə dəyir. Yazıçı Qızyetərin ona göndərdiyi məktubu dastanlarımızda gördüyümüz formada təsvir edir: «Güllər, çiçəklər arasında Qızyetər hey gözlədi, əmisi oğlu gəlmədi». (45, s.151)

Bundan sonra hadisələr yenə nağıl çərçivəsindən çıxıb aşıq stilində verilir:

«O vaxt qız bir namə yazıb göndərdi nişanlısına; aşıqlar da o naməyə hava qoşub oxudular:

Əmim oğlu məndən heç utanmadın?
Üç ay keçdi, bir yaylağa gəlmədin!
Yüz min cəfa ilə köks ötürdüm mən,
Ordan yendin Ağbulağa gəlmədin!

Mən səni istədim hamıdan əziz,
Neyləyim yanında oldum bir kəniz.
Ətir can bəslədim güllərdən təmiz,
Namərd oğlu bir yayalağa gəlmədin». (45, s.151)

Qızyetər əmisi oğlunun xəyanətindən sonra Kərbalayı İbixanın nəvəsi Alməmmədə qoşulub qaçır. Əmisi oğlu Alməmmədi öldürdükdən sonra gözəl Qızyetərə bir çoban vurulur. Çobana biganə qalmayan Qızyetərlə çoban Mahmudun görüşlərini yazıçı elə bir tərzdə qələmə alır ki, sanki «Abbas və Gülgəz», «Aşıq Qərib», «Əsli-Kərəm» kimi hansısa bir dastanı oxuyursan. Yazıçının yaradıcılığındakı bu axıcılıq bizə dastanları xatırladır. Bu nümunələrin incəlikləri yazıçının əsərlərinin canındadır. Bu da onun əsərlərinin bədii gözəlliyini, təsir gücünü artırır, əsərlərini oxucuya sevdirir. Dastan yaradıcılığının kökləri qədimdir və xalqımızın ən çox sevdiyi folklor janrlarından biridir: «Azərbaycan dastan yaradıcılığının yaşını müəyyən etmək çətindir. Əgər bu zəngin, çoxçeşidli, əlvan nümunəli xəzinədə qədim Atropaten-Midiya, Arran-qafqaz və Oğuz-türk ünsürlərinin süjet və motivlərinin, ilmə və düymələrinin mövcudiyyəti nəzərə alınarsa, bu yaşı çox qədimlərə aparmaq olar». (24, s.21)

Yazıçının qəhrəmanı çoban Mahmudun adı da xalq ədəbiyyatından gəlmədir. «Əsli və Kərəm» dastanında Kərəmin ilkin adı da Mahmuddur. Əsliylə görüş səhnəsindən sonra Mahmud onun əsl adı Məryəmi Əsli adıyla əvəz etdikdən sonra öz adını da dəyişdirib Kərəm qoyur. Atasından icazə alıb ova çıxmış Mahmud tərlanını axtararkən Əslini görür:

«Mahmud ona yaxınlaşıb dedi:

-Qız, mənim tərlanım elə sənsən. Mən Ziyadxanın oğluyam. Gəl əhd-peyman eləyək.

Qız dedi:

-Oğlan Kərəm eylə, çıx get burdan, keşiş babam gəlib bizi görməsin.

Mahmud dedi:

-Məryəm, görürəm, «Kərəm» sözü xoşuna gəlir, qoy bu gündən mənim adım Kərəm olsun, sənin adın Əsli.

Kərəm barmağındakı üzüyü qıza, qız da ipək əl dəsmalını Kərəmə verdi. Ordaca əhd-peyman eləyəndən sonra ayrıldılar». (39, s.10)

Folklor nümunələrindəki bir sıra obrazların adlarını yazıçının ədəbiyyata gətirməsi özü də maraqlı cəhətlərdən biridir. Onun qəhrəmanı Ovçu Pirim, Mahmud, Sara, Xan çoban, Pəri, Xızır, Şeytan obrazları xalq ədəbiyyatı

qaynaqlarından süzülüb gələrək yazıçının qələmindən yeni səpgidə real donuna xalq ədəbiyyatından gələn incilərlə bəzədilmiş şəkildə təqdim olunur. Ovçu Pirim folklorumuzda olduğu kimi yarımmifik obraz olub sehrli qüdrətə malik olan bir surət deyil, yazıçının əsərində şəhərdən gəlmiş xeyirxah bir qonağın onun üçün qoyub getdiyi hədiyyəni qəbul edən sadə bir insandır. Heç bir qüdrətə malik olmasa da bu sadə ovçu obrazını bizə sevdirən onun xalq ədəbiyyatından gələn motivlərlə ilişgəli şəkildə verilməsidir. Ovçu Pirim də, Mahmud obrazı da nağıl, dastan obrazları kimi xalq içərsində tanınır və yazıçı da bu obrazlardan bəhrələnməklə mükəmməl obraz yaratmışdır. Bu xəlqilik yazıçının yaradıcılığında mühüm yer tutur. Onun bir sıra əsərlərini oxuyarkən xalq ədəbiyyatı ənənələrini yaşatdığının şahidi oluruq.

Mahmud Qızılboğaz yaylağında Qızyetəri görüb «bir könüldən min könülə» ona aşiq olur «Qızyetər «Eşşək bulağı»ndan səhəngini doldurub çıxanda gördü ki, çoban Mahmud qayanın üstündə durub ona baxır…:

«-Ay gəlin, -dedi, -bilirəm, dulsan, amma aşiqəm sana, mana gələrsənmi?

-Buy, başıma xeyir, oğlanın yalanına bax…

Çoban dedi:

-Yalanı yoxdu, düz sözümdü.

Qızyetər dedi:

-Sən belə cavan, gözəl oğlansan, üç uşağın anasına necə aşiq ola bilərsən?

Çoban dedi:

-Lap doqquz uşağın da olsa, keçmiyəcəm səndən.

Hə ... aşıq da burda vəcdə gəlib dedi:

Gözəl, səndə nə qaydadır,
Gedəni yoldan eylərsən?»

və yaxud,

Səhəri gün Dəvəuçan dağının pünhan yerində Qızyetər sevgilisinə baxıb yanıqlı-yanıqlı dedi:

Dağların üstündə qar nişanası,
Gül üstə görünür xar nişanası,
Ölürəm, qəlbimdə yar nişanası,
Gözüm yolda, intizara yetmədi.

Çoban Mahmud gördü ki, nəysə Qızyetərin dərdi tərpənib, dedi:

-Nə olub? Niyə yaralı danışırsan?

Qızyetər dedi:

-Fələk bizi bir-birimizdən ayıracaq!

…Çoban dedi:

-Yaxşı, hara aparım səni?

Qızyetər yanıqlı-yanıqlı dedi:

Şamamanın gülü sarı,
Üzməmişəm, gülü sarı,
Apar məni, canım çoban,
Gün çıxmamış Aran sarı». (45, s.152 -153)

«Əsli və Kərəm» dastanında Kərəm də Əslini gördükdən və ona vurulduqdan sonra çəkdiyi əzabları Sofi lələyə belə izhar edir:

Gedibdi başımdan kamalım, huşum,
Əlimdən uçubdu bir tərlan quşum,
Çox xoş ikən, nəsə dönübdü işim,
Fələk işlərimi daşa salıbdı.

və yaxud,

Əslidən ayrı düşən Kərəm dərdini qarıya belə söyləyir:

Sinəm üstə düyün dağlar,
Görənlər hərcayı çağlar,
Kərəm Əsli deyib ağlar,
Yar məni sevdaya saldı! (23, s.78)

Qəhrəmanların sonrakı taleyində də bir oxşarlıq var. Əsliylə Kərəm, Qızyetərlə Mahmud xoşbəxtliyi tapa bilmirlər. Əsliylə Kərəmin xoşbəxtliyinə mane olan xəbis qüvvələr Qızyetərlə Mahmudun da faciəli şəkildə məhvinə bais olurlar. Çoban Mahmud kimi namərd sevgilisindən intiqam alan Qızyetərin müəmmalı yoxluğu, onun Möhnət qocanın söylədiyi nağılların sehrində əriyib getməsi bir ideyaya xidmət edirdi ki, bu da nakam məhəbbətin faciəsinin insan taleyində oynadığı rol idi. Qızyetərin çoban Mahmudla arasında olan sevgi münasibətlərinə həqarətlə baxan, azad sevgi münasibətlərinə qarşı çıxan xalq içərsində bu münasibətlərə baxışlar eyni deyildi. Əvvəldən sevgidə baxtı

gətirməyən Qızyetərin faciəsi təkcə onun özünün deyil, bir zaman atadan, sonra isə anadan yetim qalan Qaracanın da faciəsi idi. Real həyat həqiqətlərinə nağıl donunu geyindirərək Möhnət qocanın diliylə verən yazıçı insan taleyinin, kədərinin, nisgilinin istər bu gün, istərsə də min illər, milyon illər bundan qabaq da eyni olduğunu ümumiləşdirir: arzusu, istəyi puça çıxmış hər bir insanın nisgilli həyatı dastanlara, nağıllara, musiqiyə, bayatılara hopub. Belə epizodik səhnələr dastanlarımızda olduğu kimi İ.Əfəndiyev yaradıcılığında da çoxdur. Onun əsərlərində folklor motivləri güclüdür. Elə bilirsən hansısa realist bir romanı deyil, dillərdən-dillərə, ağızlardan-ağızlara keçib bu günümüzə gəlib çatan bir xalq dastanını oxuyursan və hadisələr getdikcə özündə nağıl dolu dünyamızı da birləşdirir. Bir zamanlar dastan-nağıl süjetləri bir-birinə yaxın olduğundan xalq onlar arasında fərq qoymamış, gah dastan, gah nağıl ifadələrini işlətmişdir ki, bunun da köklərindəki bağlılıqdan irəli gəldiyini bilirik. Təhmasib yazırdı ki, «Məlumdur ki, epik əsərlərin növləri, janrları içərsində bir-birinə yaxın olan dastanlarla nağıllardır. Daha dəqiq deyilsə dastan əsatirdən, əfsanədən, rəvayət, təmsil, lətifə və sairdən daha çox nağıla yaxındır. Dastanlar çox zaman hətta birbaşa nağıllardan istifadə yolu ilə yaradılır». (140, s.59) Yazıçı da dastanla nağıl janrlarını eyniləşdirir. Lap qədimlərdə olduğu kimi söylənilən hadisələri gah nağıl, gah dastan adlandırır.

Yazıçının əsərlərində xalqdangəlmə bu ənənələr yaşayır. Onun qocası, ozanı qəhrəmanlarının başına gələn hadisələri ənənəvi nağıl-dastan formasında söyləyir. Yazıçının qəhrəmanı gah dastanlarda olduğu kimi öz hiss-həyəcanlarını şerlə, gah da nağıllarda olduğu kimi təhkiyə yolu ilə verir. Xalq ədəbiyyatı ənənələrini sənətinə gətirən, ondan bəhrələnməklə sevən aşiqlərin mükəmməl obrazını yaradan, qəhrəmanını xalqına sevdirən yazıçı öz qələmini xalq ədəbiyyatı üstündə kökləməklə yaddaqalan zəngin obrazlar silsiləsi yaratmışdır. Yazıçı Qızyetərin başına gələn fəlakətləri izləyə-izləyə nağıllarımızda olduğu kimi qorxunc röyalar qoynunda uyuda-uyuda aparıb onu xəyanətin qoynuna atır «sevgilisini əğyarla qol-boyun» olduğu səhnəyə çıxarır. Sanki nağıllarda, dastanlarda olduğu kimi, Qızyetər öz məhəbbətinin intiqamını alaraq yoxa çıxır. Sonrakı hadisələr Möhnət qocanın-el aşığının, ozanının diliylə əfsanə, nağıl dolu bir hekayətlə başa çatır.

Xalqımızın ən qiymətli folklor nümunələrindən biri də yaddaşlardan süzülüb gələrək bu günümüzə qədər gəlib çatmış, xalqımızın qızıl fonduna daxil olmuş xalq musiqisidir. Azərbaycan musiqi beşiyidirsə, Qarabağ onun anasıdır. Biblioqrafik məzmunlu «Geriyə baxma,qoca» əsərində yazıçı Qarabağda eşitdiyi xalq musiqisindən bəhs edir: «Qarabağ xanəndələr, sazəndələr yurdudur. Yayda Şuşa qalasının hər gəzməli yerində bir dəstə sazəndə oxuyub-çalırdı. Onda görərdin ki, Xəzinə qayasının ən uca zirvəsi olan «Üçmıx»dan kimsə zil səslə bir qatar oxudu. Buna cavab olaraq «Ərimgəldi»dən kimsə bir şikəstə çağırdı. Qulaq asardın, deyərdin bəs bu səslər dünyanın o tayından, yəni bizə məlum olmayan ayrı bir dünyadan gəlir. Özü də nə qədər möhkəm adam olsaydı, ürəyini yumşaldıb muma döndərərdi. «Topxana meşəsi»ndə, «Ərimgəldi»yə gələn aran yollarında o səslər hələ də durur... Bəli… bəli, durur! Mən o səsləri zaman-zaman eşidirəm». (45, s.17)

Yazıçı dediyi kimi bu qiymətli xalq ədəbiyyatının sehrində dünyaya gəlmişdi və əzəli-əbədi bir gözəlliyin, mənəvi el sərvətinin abı-havasında böyümüşdü. Ona görə də yaradıcılığında da, xalq musiqisinə dərin köklərlə bağlı idi. Yaratdığı surətlər ona məlum olan möcüzə dolu əfsanə və əsatirlərinin içində yaşayırdı. Bu xalq musiqisində sevinc də, qəm də, səadət də, fəlakət də var və yazıçının qəhrəmanları da baba-nənələri kimi bu hissləri yaşayırdı.

Xalqımızın musiqisindəki qeyri-adilik, daş qəlbləri belə muma döndərən sehrli qüvvənin nədə olduğunu hələlik uşaq qəlbində duya bilməyən İ.Əfəndiyevin qəhrəmanı, qoca sənətkarın uşaqlığının obrazı Murad özü də bilmədən bu sehrin «cadusunda» əriyirdi və anlamağa çalışırdı ki, bizim muğamlarda, dahi bəstəkarların əsərlərindəki o anlaşılmaz, əbədi kədər hardandı? Təbiətən çox sərt bir adam olan atası necə olur ki, Qur an oxuyanda qəmli görünür. Necə olur ki, bir gülləyə iki ceyran vuran Bayram babası Həbibin astadan oxuduğu həzin muğama qulaq asanda o cür dərdli görkəm alır.

XIX əsrdə Yasaul, P.Vostrikov, Y.Polonski və başqaları Azərbaycan xalq mahnılarının bu emosional təsirini, ideya-məzmun xüsusiyyətlərini tədqiq etmişlər. P.Vostrikov yazır: «Azərbaycanın mənəvi siması güzgüdəki kimi mahnılarında əks olunur. Hansı mövzuda olursa-olsun, Azərbaycan mahnısında

əksər halda həzin bir kədər özünü göstərir…nəğməkar öz mahnısını böyük məhəbbətlə, səmimi, təbii hisslərlə oxuyur. O, öz nəğməsinin təsirinə böyük inam hissi duyur. Doğrudan da, bu mahnı çox gözəl təsir bağışlayır. Dinləyicilər nəğməkarı böyük gərginliklə, diqqətlə, başlarını aşağı salıb dinləyirlər». (171, s.85)

Əlbəttə, İ.Əfəndiyev bilirdi ki, xalqımızın kəşməkeşli tarixi, yadellilərə qarşı apardığı mübarizələrdə çəkdiyi əzablar, başı müsibətlər çəkmiş ikiyə bölünmüş Azərbaycanın qəmli taleyi, qərinələr ötdükcə çox zəngin təxəyyülə, təfəkkürə, mənəvi qabiliyyətə, fitri istedada malik olan bir xalqın dərdi-səri onun musiqisinin, bayatısının, ağısının mövzusu olmalı idi. Səbəbsiz nəticə yoxdur. Hər şeyin nəticəsi səbəbdən doğur. İ.Əfəndiyev də musiqimizdə «Segah»ımızda, «Rast»ımızda «Cahargah»ımızda yaşayan o qəmin, kədərin həzin naləsini duyurdu. Xalq musi-qisinə dərindən bağlı olan sənətkar onları - «Segah»ı, «Rast»ı, «Cahargah»ı bir musiqişünas kimi bir-birindən seçməyi, fərqləndirməyi də bacarırdı, çünki o «dumanlı dağlarda» gözəl səsli xanəndələrin, bu mahnıların ifaçılarının səsini eşidə-eşidə böyümüşdü.

Mən qurbanam gözlərə,
Şirin-şirin sözlərə,
Bir qonaq gəl bizlərə,
Qarabağın maralı.

misraları ilə xalq içərisində geniş yayılmış «Azərbaycan maralı» xalq mahnısı kimi də tanınır:

Gəzmə məndən aralı,
Könlüm səndən yaralı.
Gözlərinə heyranam,
Azərbaycan maralı. (22, s.442)

və yaxud:

Bu dərənin uzunu,
Çoban qaytar quzunu.
Get dədəmə qurban ol,
Bəlkə verə qızını.

misraları qədim xalq mahnısındakı ürəyəyatan həzinlik könül oxşayır.

Dəryada gəmim qaldı,
Sona bülbüllər!
Biçmədim zəmim qaldı,
Saçı sünbüllər!

misralı «Sona bülbüllər» xalq mahnısınından bəhrələnməklə, yuxarıda nümunələr gətirdiyimiz xalq mahnılarından istifadə etməklə qəhrəmanlarının daxili aləmini açır, bitkin obrazlar yaradır, təsvir etdiyi hadisələri canlı, ürəyəyatımlı bir şəkildə oxucuya çatdırır. Əsərlərində müraciət etdiyi xalq mahnıları nəsr əsərlərinin,eləcə də dramatik səhnə əsərlərinin zəri-libası, tacıdır:

Aç xurcunu, kəs almanı,
Ver yara dilim-dilim, dilim-dilim.

misraları ilə başlayan el mahnısı da, xorla oxunan qədim bir Azərbacan mahnısı:

Mənim adım sarı laçın,
Gəl səni götürüm qaçım…
Üç telli, dörd telli,
Beş telli, durna...(43, s.333)

misraları ilə könülləri oxşayan, insan qəlbinə su kimi axan xalq mahnılarını hansı mövzuda yazmağından asılı olmayaraq qələmə aldığı əsərə daxil edib, yaratdığı surətlərin daxili aləmini açmaqda onlardan istifadə edən sənətkarın xalq sənətinə, mədəniyyətinə, onun qüdrətinə heyranlığını göstərir. Musiqi xalqın ən qədim folklorudur. Hələ insanların dil açıb danışa bilmədiyi bir zamanda çıxardığı müxtəlif səslərin ən zərifi, ən incəsi, ən füsunkarı, ən ecazkarı idi və o sözlə birləşdikdə İ.Əfəndiyev düşündüyü kimi xalqın bədii və estetik təfəkkürünün xəzinəsi olub, bizə doğmadır. Belə olmasaydı o özü də xalqının yaratdığı bu gözəl musiqilərdəki həzin ritmi tuta bilməzdi. O, hər dəfə əsərlərində musiqidən söz salanda elə bil ürəyinin tellərinə toxunulur və ona bəslədiyi sonsuz məhəbbətin qüvvəsiylə öz bədii əsərlərini bu tellərin zilində, bəmində bəzəyirdi. Aşıq musiqisinə necə məhəbbətlə yanaşırdısa, xalqın musiqisinə də o məhəbbətlə yanaşan İ.Əfəndiyev Azərbaycan xalqının psixoloji nəsr əsərlərinin ozanı idi. O, lirik, insan qəlbini ehtizaza gətirən xalq musiqisindən istifadə etməklə onlara bir axıcılıq, poetiklik vermiş olur.

Əsərlərində bədii bir priyom kimi istifadə etdiyi bayatılar, istər aşıq musiqisi, istər xalq mahnı və muğamları ən qədim, ən zəngin sənət inciləri kimi yazıçının yaradıcılığına əlvan boyalar vurur. Folklor süjet, obraz və motivlərindən bəhrələnməklə yazılan hər bir yazılı əsər uzunömürlü olub, hansı dövrdə yaranmasından asılı olmayaraq sevilir, bədii əsər kimi qiymətini itirmir.

# II FƏSİL
# YAZIÇININ YARADICILIĞINDA ADƏT ƏNƏNƏ VƏ XALQ DEYİMLƏRİ

Azərbaycan xalqının özünəməxsus zəngin adət-ənənələri vardır.

İ.Əfəndiyev yaradıcılığında folklorla bağlı əsas cəhətlərdən biri də məhz xalqımızın bu adət-ənənələrinin, mərasimlərinin öz sənət əsərlərində canlı verə bilməsidir.

Onun yaradıcılığının kompozisiya və quruluşu, süjeti xalq ədəbiyyatı nümunələrinə bənzəyir. Əsərlərindəki məişət həyatı, adət-ənənələr, inamlar ən qədim dövrlərin təsəvvürlərinə yaxındır. Xalq özündən əvvəlki dövrlərdən qalan adət-ənənələrini qoruyub saxlayır, inamlarını yaşadır. «Ağ» və «qara çadırlar», tayfa, qohum birliklər onun qələmə aldığı cəmiyyətdə də mövcuddur, əsas məşğuliyyətləri qoyun, at, dəvə saxlamaqdır. «Kürdobalılar «Qarabağ cinsi» adlanan quyruqlu qoyunlar, hər biri iyirmi put yük götürən nərlər saxlardılar. Ceyran ayaqlı Qarabağ atları minən insanlar qışda qışlaqda, «yazda hər tərəfi qıpqırmızı lalə olan, min çiçək dolu otu dizə çıxan, göz işlədikcə uzanıb gedən haramılara köçərdilər. Qoyunlar südlü-sünbüllü otlardan yeyib

doğardılar, arvadlar pendir tutardılar, nehrə çalxardılar, bulama, suluq bişirərdilər». İstilər düşəndə, «fərməşlər qovlanıb dəvələrə yüklənərdi, atlar yəhərlənərdi» və el sərin yaylaqlara köçərdi.

Qələmə aldığı insanların həyat tərzi, ətrafda baş verən müxtəlif hadisələrə münasibəti, arzu və istəkləri, dərdi, qəmi, sevinci İ.Əfəndiyev qəhrəmanlarının adət-ənənələrində yaşayır. Bədii əsərə emosionallıq gətirən, onu zənginləşdirən, onun bədii dəyərini artıran xalq ənənələrindən, folklordan yazıçı sənətkarlıqla istifadə edə bilmişdir. Xalqın milli şüurunun zənginliyi onun yaratdığı sənətdə parlaq əksini tapdığından min illər keçsə də unudulmur və bu xalqın hansı cəmiyyətdə yaşamasından asılı olmayaraq yazıçısı, şairi, qələm ustası onun gözəlliklərindən bəhrələnməklə mənsub olduğu xalqın milli-mənəvi dəyərlərindən faydalanmaqla onun qəlbini, ruhunu oxşayan kamil sənət əsərləri yarada bilir. İ.Əfəndiyev də yaradıcılığında folklordan, adət-ənənələrindən yararlanmaqla yaratdığı sənət əsərlərinin bədii keyfiyyətini artırmağa çalışmışdır.

### 2.1. Adət-ənənələr, inanclar, alqış və qarğışlar

İlyas Əfəndiyev yaradıcılığında bütün çalarları ilə geniş əksini tapan, bu günümüzə qədər xalq içərisində yaşayan xalqımızın ən qədim adət-ənənələrindən olan qonağa hörmət və ehtiramdır.

Qonağa kimliyindən asılı olmayaraq hörmətlə yanaşır, onu ən əziz adam kimi qəbul edirik. Qonağa hörmət və ehtiram ulu babalarımızdan bizə mirasdır.

Qonağa hörmət Şərq xalqlarına məxsus ən qədim gözəl adətlərdəndir: «Axşam bazar yığışıb, dükan bağlananda Şeyx cavan tacirə:

-Ağa! -deyə müraciət etdi. - Mən səyyaham, qalmağa yerim yoxdur, bir gecə Allah qonağı saxlamazsınız?

O zamanlarda Azərbaycanda da başqa şərq ölkələrində olduğu kimi səyyahların, dərvişlərin bəzən karvansarada boş hücrə tapılmayanda Allah qonağı olmaq üçün xüsusi evlərə müraciət etmələri məcbur idi. Ona görə də gənc tacir dedi:

-Allah qonağına həmişə qapı açıqdır». (40, s.72)

Adət-ənənələrin yazılı və şifahi ədəbiyyatda öz əksini tapması yeni deyildir. Qədim eposlarımızda, dastanlarımızda bu adət-ənənə yaşayır.

Xanlar xanı Bayandır xan gələn qonaqları hörmətlə qarşılayır, böyük qonaqpərvərlik göstərir. Dədə Qorqud öz öyüdlərində qadınların ən yaxşı keyfiyyətlərindən biri kimi onun qonaq qarşılamasını əsas götürür». Ozan, evin tayağı oldır ki, yazıdan-yabandan evə bir qonaq gəlsə, ər adam evdə olmasa, ol anı yedirər, içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyıdır, xanım. Anun bəbəkləri bitsün. Ocağına buncılayın övrət gəlsün». (75, s.33)

Məhəbbət dastanlarımızda, nağıllarımızda olduğu kimi «Qaçaq Nəbi» və «Koroğlu» dastanlarında da biz yüksək qonaqpərvərlik hissinin şahidi oluruq.

İ.Əfəndiyevin əsərlərində də qonağa kimliyindən asılı olmayaraq hörmətlə yanaşılır, ən əziz adam kimi qəbul edilir, bu elin camaatı «qonaqlı-qaralı»dır. Yaqutu götürüb Ağdama gətirən Abdulla onu Bəndalı kişinin evinə aparır. Bəndalı kişini qonağın kim olduğu, hardan gəlib həra getdiyi maraqlandırmır. Birinci növbədə adətinə uyğun olaraq onu gülərüzlə, xoş sifətlə qarşılayıb içəri aparır, xalılar-gəbələr döşənmiş qonaq otağında, ipək döşəkçələr üstündə əyləşdirir. Evin qadınları qazan asır, xörəklər bişirir, qonağın qulluğunda durur.

Burada evinə gələn qonağın kimliyindən asılı olmayaraq onu qəbul edən ev sahibi adət-ənənələri əsas tutaraq, birinci növbədə öz halal süfrəsində onu otuzdurur, qulluğunda durur, yedirib-içizdirir və yalnız kəsilən çörəkdən sonra onun kimliyini xəbər alır. Yazıçının yaratdığı Bəndalı kişi obrazı xalqımızın qonaqpərvər obrazlarından biridir.

Dövlət məmurlarının əlindən cana doyub pristavı öldürərək, öz intiqamını alıb dağlara çəkilmiş Xanmurad ağır xəstələnir. Qızdırma içində yandığını görüb yoldaşları onu pristav Bayram bəyin ailəsi olan obaya gətirir. Xalqın qonaqpərvərliyi sayəsində o sağalıb yenidən silahdaşlarının yanına qayıdır. Obanın ağsaqqalı kimi tanınan Eyvaz dayı «dərhal öz sürüsündən bir toğlu kəsdirib qaçaqları qonaq eləyir». Hakim təbəqələrin əlindən dağlara çəkilmiş Xanmuradın belə səmimi qarşılanması yerli hakim təbəqələri də təəccübləndirmir. Çünki xalqın adət-ənənəsinə yaxşı bələd idilər və bilirdilər ki, qapısına gələn insanın kimliyindən asılı olmayaraq qonaq edilməsi bu xalqın

ən müqəddəs adətlərindən biridir və bunu heç kim onlara qadağan eləyə bilməz.

Yazıçı bu adət-ənənələrdən, onların insanlığa xidmət edən keyfiyyətlərindən bəhrələnməklə təsvir etdiyi həyat hadisələrini, yaratdığı qəhrəmanların, obrazların, xalqının milli keyfiyyətlərini, müsbət xarakterlərini üzə çıxarmaq, sənətkarlıq baxımından samballı əsər yaratmaq üçün bədii vasitə kimi istifadə etmişdir. Onun qəhrəmanları milli adət-ənənələrini yaşadan, onlara hörmətlə yanaşan insanlardır. Onlar özlərindən əvvəl yaşamış ulu babalarının qoyub getdiyi hər cür yaxşı ənənələri, adətləri onlar kimi yaşadırlar. Bu adət-ənənələr, yazılmamış qanunlar kimi onların həyatının mənasıdır. Tarix boyu xalqımız qapısına gələni boş qaytarmayan, yolunu azmış və yaxud mənzilbaşına vaxtında çata bilməyən yolçuları, dünyanı gəzməkdə olan səyyahları öz evində qonaq etmiş, əlindən gələn hörməti öz qonağına göstərmiş, qapısına gələn hər bir qərib insanı qonaqpərvərliklə qarşılamış və yola salmışdır. Bu da qədimdən bir ənənə şəklini almış, xalqımızın həyatına daxil olmuş və bu gün də müqəddəs bir adət-ənənə kimi qorunur, xalqın təfəkküründə, məişətində yaşayır. İ.Əfəndiyevin qələmə aldığı insanlar Azərbaycanın hansı bölgəsində yaşamasından asılı olmayaraq bu adət-ənənəyə sadiqdirlər və bu qonaqpər-vərlik hissini onun bütün əsərlərində görürük. Şeyx Həbib Təşrifførma («Sən ey böyük Yaradan») diyarbadiyar gəzir, hər yerdə hörmətlə qarşılanır, qonaq saxlanılır, hörmət izzət görür. Hətta ən kasıb dəmirçi də, varlı da onu evinə qonaq aparır:

Düşdükləri evlərdə xanımlar da qonağı «Allaha da qurban olum, qonağına da» deyərək qarşılayır.

İ.Əfəndiyevin «Tufandan sonra» əsərində də biz yol azmış gənc geoloqu və ovçunu qonaq edən çoban surəti ilə tanış oluruq. Hətta gecəni qonaqların yerini öz komasında salan, özü isə sürünün içində gecələyən nəcib çobanın da qonağa hörmətində adət-ənənələrinə bağlı olduğunu görürük.

Ovçu Pirim şəhərdən gələn ovçunun («Şəhərdən gələn ovçu) kim olduğu ilə maraqlanmadan, onun adını belə soruşmadan, evinə dəvət edir, əziz qonaq kimi qulluğunda durur. Gülgəz arvad da gələn adamın yad bir insan olmasına

baxmayaraq səmimiyyətlə qarşılayır, mütəkkə-yastıq gətirir, çay, xörək hazırlayır.

«Dağlar arxasında üç dost» əsərində də qonağa hörmətlə bağlı gözəl adətlərimiz təsvir edilmişdir. Yazıçının demək olar ki, bütünlüklə yaradıcılığında xalqımızın gözəl adət-ənənələri geniş əksini tapmış və yaratdığı əsərlərdə bu adət-ənənələrə bəslədiyi məhəbbəti görürük. Hər bir xalqın zəngin mədəniyyəti onun adət-ənənə-lərində, məişətində öz əksini tapmış olur. İ.Əfəndiyevin qələmə aldığı insanların həyatında, məişətində, adət-ənənəsində bu zəngin, yüksək insani keyfiyyətləri qələmə almış, xəlqilik prinsiplərinə bir sənətkar kimi sədaqətlə yanaşmış və bu xəlqilik onun yaratdığı əsərlərin bədii dəyərini, əhəmiyyətini artırmışdır.

Xalqımızın adət-ənənələri arasında mühüm yer tutan toy, nişan mərasimi İ.Əfəndiyevin əsərlərində də öz əksini tapmışdır. Dəlisoy Gülmalının qızı Qızyetərin nişanına «dəvə yükü sarı buğda unu, bir dəvə yükü əkula düyüsü, yeddi erkək» gətirilir. Xalq içərisində qıza elçi getmə, qızseçmə, qızalma, qızqaçırma, toydan sonra paltaraparma, xınayaxma kimi adətlərimiz vardır və bunlar yazıçının qələmə aldığı insanların həyatına, məişətinə həkk olunmuş milli adət-ənənələrdir. Bu mərasimlərin hər birinin özünəməxsus gözəlliyi vardır. Onların yazıçının yaradıcılığında geniş əksini tapması milli adət-ənənlərimizə hörmət və məhəbbətin ifadəsidir. Bunları qələmə aldığı hadisələrin daxilində verməklə əsərlərində xalqına, onun adət-ənənələrinə bəslədiyi məhəbbəti ifadə etmiş yazıçı həm də könüloxşayan sənət əsəri yaratmağa müvəffəq olmuşdur. Hər bir qüdrətli sənətkar xalqının folkloruna, onun sənətinə, mədəniyyətinə, adət-ənənəsinə hörmətlə yanaşmaqla, onlardan səmərəli şəkildə bəhrələnməklə dünya mədəniyyətinə əvəzsiz sənət inciləri bəxş etmiş, bəşəri duyğuların uzunömürlülüyünü xalq sənətində görmüş və öz sənətini də bu sənət incəlikləri ilə kökləmişdir.

Yazıçının əsərlərində təsvir etdiyi toy, nişan mərasimləri uzun bir təkamül, təkmilləşmə dövrü keçmişdir. Görkəmli folklorşünaslarımız yazırdılar ki, toy xalqın məişətinə, həyatına, adət-ənənələrinə daxil olmuş əyləncələrin ən kütləvisi və məşhurudur. Toy adi evlənmə mərasimi olsa da o ayrı-ayrı şəxslərin deyil, ümumiyyətlə həmin ərazidə yaşayan insanların ictimai-mədəni

bir əyləncəsinə çevrilə bilir. Toyun öz daxili aləmi və tarixi kökləri vardır. Toy mərasimləri «Kitabi-Dədə Qorqud» dastanlarında, nağıllarımızda, başqa xalq dastanlarında mühüm yer tutur. «Dədə Qorqud»da Qan Turalla Selcan xatunun toyunda da «Oğlilə, gəlinlə Qanlı qoca Oğuza girdi. Gög ala görklü çəmənə çadır dikdi. Atdan-ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. Dügün etdi. Dədəm Qorqut gəlüb, şadlıq çaldı. Boy boyladı, soyı soyladı». (75, s.93) «Xanlar xanı Bayandır ildə bir kərə toy edib Oğuz bəylərin qonaqlardı». Burada toy bir növ ümumxalq şurası, dövlət tədbiri kimi də nəzərə çarpır. Çünki Bayandır xanın yığdığı toy məclisi sosial-siyasi mənzərə daşıyır. Burda kiməsə toy edilmir, sadəcə olaraq Oğuz elinin igidləri dəvət olunur, hər kəsin vəziyyəti öyrənilir. Oğullu-uşaqlıların vəziyyəti yaxşı, sonsuzların vəziyyəti xanın özünün dediyi kimi Allah yanında günahları ucbatından pisdir. Burada bir məsələ diqqəti cəlb edir. Oğuz igidləri varına-dövlətinə görə nəcabətli hesab olunmur. Əgər hər hansı bir Oğuz igidinin övladı varsa, deməli, o dövlətlidir. Amma bu toy məclisinin bəzi keyfiyyətləri ümumidir. Yemək süfrələrinin açılması, çadırlar qurulması, adlı sanlı Oğuz bəylərinin yığılması, xalq məclisinə çevrilməsi. Toylar özü sosial məişət xarakteri daşıyır və Dədə Qorqud dastanlarında belə məclislərin toy adlanması da təbii sayılmalıdır. Toylar inkişaf edərək bir sıra keyfiyyətlərini kənara qoyaraq daha çox xalqın şadlıq məclisi kimi qəbul edilmiş və İ.Əfəndiyev yaradıcılığında da onun özünəməxsus xüsusiyyətləri (nişan qoyma, toy şənliyi) öz əksini tapmışdır. «Eşşək bulağının üstündə böyük mağar quruldu, neçə döngə, neçə erkək kəsildi. Göyçə mahalından Aşıq Vəli dəstəsilə gəldi. Səkinə ilə Məmmədə üç gün, üç gecə toy elədilər, gəl görəsən». (45, s.10)

Xalqın həyatında ən gözəl adətlərdən biri olan toy mərasiminin İ.Əfəndiyev yaradıcılığında da bədii boyalarla geniş əksini tapması əsərdəki hadisələrin, obrazların qüvvətli çıxmasına xidmət edir. Amma bu əsərə qondarma şəkildə daxil edilmir. Hadisələrin cərəyan etdiyi mühitdə yaşayan insanların, qəhrəmanların həyatının bir hissəsi olan mövzularla bağlıdır və bu incə çalarların da öz əksini tapması əsərin bədii keyfiyyətinə xidmət edir. Bu toy mərasimlərinin təsviri bir tərəfdən xalqımızın özünəməxsus milli koloritini, digər tərəfdən qədimliliyini əks etdirir.

Toy mərasimləri bildiyimiz kimi uzun təkamül, inkişaf dövrü keçirmişdir və bir çox dəyişikliklərə məruz qalmaqla dövrümüzə qədər gəlib çıxmışdır. Bir məsələ diqqətdən yayına bilməz və bu da toylarda səslənən musiqi alətləridir. Bildiyimiz kimi, toy musiqi ilə müşayiət olunan mərasimdir. Lap qədimlərdən türk xalqları və bunlardan biri olan oğuzlar simli musiqi alətləri yaratmış və bu alətlər məclislərin yaraşığı olmuşdur. Qopuz, dutar, nağara, zurna, kimi musiqi alətlərinin adları ən qədim eposlarda, dastanlarda toylarda, şən məclislərdə çalınan musiqi alətləri kimi təsvir olunur. Şadlıqlarda, şən məclislərdə bu musiqi alətlərindən eləcə də tar, kamança, balabandan istifadə etmək belə bir fikrə gəlməyə əsas verir ki, həm bu alətlər ən qədim musiqi alətlərimizdəndir və həm də bu musiqi alətləri yarandığı zamandan bəri həmişə toyların aparıcı qüvvəsi olub və bu gün də mərasimlərimizin yaraşığıdır. Axşam toy yenə davam edir. Zurnaçılar dəstəsinə tarzən, kamança çalan və xənəndədən ibarət olan tar dəstəsi də qoşuldu.

Heç bir qüvvə - nə tarixi şərait, nə dövrlər bu musiqi alətlərini xalqımıza unutdura bilməmiş, hər vaxt, hər zaman məclislərimizin yaraşığı olmuşdur. İ.Əfəndiyevin təsvir etdiyi toy məclislərində aşıqlar öz dəstəsiylə, zurnaçılar öz dəstəsiylə, tar, kamança və xanəndə öz üçlüyü ilə iştirak edir və bu məclislərin necə keçə biləcəyi hər bir azərbaycanlı kimi, bu xalqın övladı kimi hamımıza mə lumdur. Yazıçı milli adət-ənənələrimizin bəzəyi olan toy mərasimlərində çalınan qara zurnanın sədalarından qəhrəmanın ürəyində yaratdığı hissləri daha qabarıq şəkildə təsvir etmək üçün istifadə edir. «Xanışgilin həyətində yanları açıq böyük mağar qurulmuşdu. Hələ uzaqdan qara zurnada çalınan «Koroğlu» çöllərə səs salmışdı. Həmişə «Koroğlu» çalınanda məndə qəribə bir coşqunluq əmələ gəlirdi. Mən özümdə bir şir gücü hiss edirdim. Mənə elə gəlirdi ki, nağıllardakı kimi bir qılınc zərbəsi ilə yeddi düşmən başını birdən vurub bədənindən ayıraram! Mən qılınc deyirəm. Çünki Koroğlu qılıncla vuruşardı. Üzbəüz mərdi-mərdanə! Düşmənə daşın dalından güllə atmazdı!». (44, s.96)

Xalqımızın yaratdığı musiqi alətlərindəki bu coşqunluq, toy məclislərində bu musiqilərin səsləndirilməsi toylarımızın mövzu cəhətdən zənginliyinə də işarədir. Çünki toy xalqın yaratdığı, həyatına, məişətinə daxil etdiyi bir mərasim olmaqla yanaşı mövzu, ideya cəhətdən də zəngin olmalıdır. Bayağı,

mənasız musiqi hansı məclisdə olur-olsun insan qəlbini oxşaya bilməz. Bəşər tarixində xalqın yaratdığı musiqi, musiqi alətləri, onlardan istifadə olunan mərasimlər həmişə öz dəyəri, qiyməti ilə seçilir. Lap qədimlərdən xalq döyüşlərə gedəndə musiqi alətlərini də özüylə döyüş səhnəsinə apardı. Oğuzlar qopuzu ən müqəddəs alət kimi qəbul edirdilər və onun gücünü ilahi qüvvəylə bağlayırdılar. Bu musiqi alətlərinin toylarda da səslənməsi insanlara xoşbəxtlik, səadət arzulanması kimi bir şeydir. Xalq sevinməyi, şadlıq etməyi bacarmaqla yanaşı, xoşbəxt gələcəyi, azad, müstəqil yaşaması naminə mübariz, qəhrəman, döyüşkən olmağı da bacarmalıdır və bu onun musiqisində də əbədidir. Həmişə mərdliyi, düzlüyü, cəldliyi, qəhrəmanlığı ilə sevilən, seçilən igidlərimizin yüksək keyfiyyətlərini özündə birləşdirən Valeh («Valehlə Sarıköynəyin nağılı») bu musiqi alətlərinin laylasının səsində böyümüşdü. Yaşadığı insanlar arasında düzlüyü, saflığı, mərdanəliyi ilə seçilən Valeh kimi oğullar bu xalqa çox lazımdır və onların nəcib xüsusiyyətlərindən, paklığından, mübarizliyindən gələn gənclik çox şey öyrənə bilər. Bir tərəfdən bu əsəri oxuyan hər hansı bir vətəndaş xalqımızın gözəl adət-ənənələrini, Koroğlu kimi qəhrəmanlarının qorxmaz, igid bir insan olduğunu unutmur, o biri tərəfdən bu toy mərasiminin təsviri, adları çəkilən musiqi alətlərinin sədaları altında keçirilməsi milli adət-ənənələrimizə məhəbbəti artırmaqla bərabər, bu əsəri bədii cəhətdən dəyərli bir əsər kimi qiymətləndirməyə də imkan yaradır. Yazıçının əsərlərində adlarını çəkdiyi ən qədim milli xalq rəqslərimiz olan «Tərəkəmə», «Ceyranı», «Vağzalı», «Uzundərə» və bu milli rəqslərin təsviri də əsərin milli keyfiyyətlərini, bədiiliyini artırmışdır.

İ.Əfəndiyevin əsərlərindəki «nişan qoyma» mərasimi, elçigetmə adəti ilə «Dədə Qorqud», «Koroğlu» və başqa dastanlarda öz əksini tapmış nişanqoyma mərasimi, elçigetmə adəti oxşarlıq təşkil edir. Qız üçün gətirilən başlıq, nişan üçün ayrılan nemətlər və bunun xalqımızın adət-ənənələrindəki dərin kökləri Dədə Qorqud zamanına da gedib çıxır. «Bin buğra gətürün kim, maya görməmiş ola. Bin dəxi ayğır gətürün kim, heç qısrağa aşmamış ola. Bin dəxi qoyun görməmiş qoç gətürün. Bin də quyrıqsız-qulaqsız köpək gətirin. Bin dəxi bürə gətirürün mana», -dedi. (75, s.56) Bütün bu müqayisələrdən görürük ki, milli adət-ənənələrimizdən olan toy və onun xüsusiyyətlərinin öz tarixi kökləri

vardır. Bu ayinlər, adətlər digər xalqların folklorunda da vardır və C. Freyzer «Zolotaya vetv» (175) əsərində bunun geniş şərhini verir, ilk insanların inamlarının, etiqadlarının, ayin və mərasimlərinin yaranmasından bəhs etmişdir. E. Taylor da bunların oxşarlığını sivilizasiyanın yaranma modelində görür. (173) Yazıçı da qələmə aldığı həyat hadisələrində, xalqının bu gözəl adət-ənənələrini yaradıcı şəkildə qələmə almaqla milli mədəniyyətimizin ən gözəl incəliklərini yaşatmağa çalışmışdır. İ.Əfəndiyevin əsərində də nişanaparma mərasimində düyü, yağ, motal, yüklənmiş dəvələr, qaradiş erkəklər, mötəbər ağsaqqallar qız qapısına gedir. Yaquta qızıl, zinət, zər-xara parça aparırlar.

Qızqaçırma adətinə də qəhrəmanların həyatında rast gəlirik. Bu qızqaçırma adətinin kökləri lap qədimlərə gedib çıxır. Bir eldən digər ellərə atını çapıb gedən türk oğulları gözü gördüyü, könlü seçdiyi hər hansı bir elin qızını götürüb obasına gətirər, Opgeliş məclisi düzəldər, gəlini bəzəyər, məclis qurub şənlənərdilər. Qızqaçırma məhz o dövrlərdən qalma adətlərimizdəndir. İ.Əfəndiyevin qəhrəmanı Ərşad Sərvinazı, çoban Mahmud Qızyetəri götürüb qaçır. Pristav Bayramın qızı başqasına nişanlı olmasına baxmayaraq könlü tutduğu Abdullaya qoşulub qaçır. Bayram bəyin nökəri Güllü İmaşa qoşulub qaçır.

Yazıçının yaradıcılığında elçigetmə, nişanlama mərasimləri də vardır ki, bu mərasimlərin «Dədə Qorqud» boylarında da öz əksini tapdığını görürük. Bu işi də görənlər el ağsaqqallarıdır. Onun yaradacılığında ən gözəl xarakterik cəhətlərdən biri də ağsaqqal sözünə, öyüdünə, ağsaqqal obrazına yüksək qiymət verilməsi və dastanlarımızda bizə məlum olan belə milli keyfiyyətlərə məhəbbətlə yanaşılmasıdır. Elin xeyir-şərində ağsaqqal öyüdünün, nəsihətinin oynadığı rolu «Dədə Qorqud» dastanından tutmuş bu günümüzə qədər bizə gəlib çatan bütün folklor nümunələri-mizdə açıq-aydın görürük. Banıçiçəyi Beyrəyə almaq üçün ata bütün oğuz bəylərini evinə də vət edir, məclis qurur, onlarla məsləhətləşmə aparır və qızı istəmək üçün Dədə Qorqud kimi bir el ağsaqqalının getməsini məsləhət bildikdə onların dediklərinə hörmətlə yanaşır.

Dədə Qorqud qıza elçi gedərkən, gəlməsinin səbəbini bildirərkən xalq içərsində yayılmış adət-ənənələrə uyğun olaraq fikrini bildirir:

Qarşu yatan qara tağını aşmağa gəlmişəm.

Aqındılı görklü suyını keçməgə gəlmişəm.
Gen ətəgünə, tar qoltuğına qısılmağa gəlmişəm.
Tənrinin buyuruğilə, peyğəmbərin qövlilə
Aydan arı, gündən görkli qız qardaşın Banıçiçəgi
Bamsı Beyrəgə diləməgə gəlmişəm! - dedi. (75, s.56)

Dədə Qorqudun göndərilməsi özü də elin ağsaqqalı, həm ozanı olan xalq içərisindən çıxmış müdrik qocalara məhəbbətin ifadəsidir. Xalq içərisində böyük-kiçik yerinin gözlənilməsi, bir çox adətlərin yazılmamış qanun kimi xalq içərisində biçimlənməsi, möhkəmlənməsi bu xalqın yüksək milli-mənəvi dəyərlərlə zənginliyindən xəbər verir. «Xalqın ruhunu, mənliyini, mənəviyyatını yaxşı başa düşmək və yaxşı başa salmaq üçün belə qədim adətlər çox zaman ən gözəl vasitə rolu oynayırlar. Cəsarətlə demək olar ki, açılması namümkün görünən bəzi tarixi sirləri çox zaman ancaq bu açarla açmaq mümkün olur. Belə adətlər eyni zamanda xalqın dünyagörüşünü, müxtəlif məsələlərə münasibətini, əxlaqi keyfiyyətlərini başa düşmək üçün də ən yaxşı vasitə rolu oynayır». (140, s.386)

İ.Əfəndiyevin əsərlərində də yaşayan ən gözəl adətlərdən biri məhz elə ağsaqqal sözünə, ağsaqqal yaşına, bir sözlə, böyüklərə bəslənən hörmətdir. Yazıçı əsərlərində yaratdığı Alxan surətində, Kərbalayı İbixan, Möhnət qoca kimi obrazlarda ağsaqqallara məxsus gözəl keyfiyyətləri əks etdirmişdir. Onun yaradıcılığında qədim adətlərimizlə səsləşən ən yaxşı keyfiyyətlərdən biri də ata-anaya, qadına hörmətdir. Oğuz ellərində bu adət lap qədimdəndir: O zamanda oğul ata sözin iki eləməzdi. Böyüyə baş əymək, onun əlindən öpmək, böyük yanında döşəkçə üstündə oturmamaq, qaynata, qaynana, qayın yanında süfrədə oturmamaq kimi adət-ənənələr xalqımızın yüksək mədəniyyətə malik olduğuna canlı nümunədir.

Ağsaqqalların müdrik məsləhətləri, onlara səmimi münasibətlə yanaşı İ.Əfəndiyev yaradıcılığında bir adət də diqqəti cəlb edir ki, bu da baş yaylığıyla, örpəyilə bağlı adətdir. Lap qədimdən araya dava düşdükdə, savaşlar qan tökülməklə nəticələndikdə tayfalar arasına düşən qan davasını analarımız ortalığa atdığı baş örpəyi ilə kəsərdilər. Örpəyə-anaya, qadına hörmət milli adət-ənənələrimizdə əsrlərin qaynağından keçərək bu günümüzə qədər də

gəlib çatmışdır. İmaşla Güllünün münasibətlərinə qarşı çıxan Nuru İmaşı döyür, bunu görən Güllü irəli atılır, Güllünün əl çəkmədiyini görən Nuru onu «zoğal ağacının altına salanda» İmaş özünü irəli verir, ağanın əlindən ağacı alır. Bunu görən Nuru «evə yüyürərək mauzer tapançanı ayağa çəkəndə Fatma nənə yaylığını başından sivirib onun qabağına ataraq baş verəcək dəhşətli cinayətin qarşısını alır.

Əlbəttə, görünür xalqımızın adət-ənənələrində tarixi köklərinə görə ən qədim dövrlərimizdə qorunub saxlanılan, hörmət edilən qadın örpəyinə belə müqəddəs münasibəti İlyas Əfəndiyev yazılı ədəbiyyata gətirməklə xalq içərisində indi də qorunub saxlanılan belə adət-ənənələrə, onların yaxşı keyfiyyətlərinə bəslədiyi hörmətin təzahürüdür.

Azərbaycan qadınının ortalığa atdığı bir yaylıq ən qanlı-qadalı döyüşləri yatırtmış, bir-birinə düşmən kəsilən iki qohum tayfa arasında barışdırıcı rol oynamışdır.

İ.Əfəndiyev yaradıcılığında «Dədə Qorqud» dastanlarından bizə məlum olan qohumlar arasında mövcud olan qan intiqamı hadisələrinə də rast gəlirik. Aruzla Qazan xan arasında mövcud olan ziddiyyətlər, qohumların bir-birinə qarşı yaşatdığı ədavətlər onun əsərlərində (xüsusilə «Üçatılan» və «Geriyə baxma, qoca» əsərlərində) diqqəti cəlb edir. O dastanlarla birlikdə yazıçının əsərlərində də diqqəti cəlb edən aralığa düşən qanı yatırtmaq, düşmənçiliyi aradan qaldırmaq üçün görülən tədbirlərdir. Burada da ağsaqqallar dövlət səviyyəsində deyil, öz milli adət-ənənələri çərçivəsində bu qanı yatırırlar. Qan intiqamından, qohumlar arasına düşən düşmənçilik hisslərindən qaçmaq meylini öz yaradıcılığında yaşadan xalq və yazıçı insani keyfiyyətləri ön plana çəkməklə birliyə yüksək qiymət verirlər. Qəbilə, tayfa ziddiyyətlərinin qalıqlarını özündə hələ də yaşatmaqda olan bu məişət hadisələri gördüyümüz kimi insan faciəsinə gətirib çıxarır. Qəbilə tayfa münasibətlərinin məişətini, ənənlərini, mərasimlərini özündə yaşadan şifahi xalq ədəbiyyatının bir çox mövzularını İ.Əfəndiyev qəhrəmanlarının həyat və məişətində rol oynayır, xalq içərisində yaşayır.

İ.Əfəndiyevin əsərlərində yaşayan bir adət də qədim xalq bayramlarından biri olan Novruz bayramında səməni halvası bişirib qonşulara paylamaq,

varlıların öz evlərində asdıqları qazanlar, bişirdikləri xörəklərdən ehsan verilməsi, kasıb-kusublara paylanmasıdır. İldə bir dəfə Xanlar xanı Bayandır da xanımının əlindən tutub evdən çıxardı, mal-mülkünü kasıblara, ehtiyacı olanlara paylayardı. Ən qədim bayramımız olan Novruz bayramı, bu bayramda öz əksini tapan bir sıra ayin və adətlər e. ə. IV-V əsrlərdə xalq içərisində yayılmağa başlamış və bu günümüzə qədər adət-ənənələrimiz içərisində yaşamaqdadır. Yazın ilk günü ilə ilişgəli olan Novruz bayramı haqqında Bahəddin Ögəl «Türk mifolojisi» (149) əsərində, qədim türk eposlarında, Oğuznamələrdə xeyli məlumatlar vardır. Yazıçının qəhrəmanı da bu bayramın xalq içərisində yaşadığını və Novruzun ayinlərindən biri olan səməni halvasının bişirilməsini, camaata paylanmasını təsvir edir. Yazıçının balaca qəhrəmanı hər Novruz bayramında Xan qızının, hərəsi səkkiz-doqquz vedrə su tutan böyük mis qazanlarda zəfəranlı plov bişirib camaata payladığını, bayramda yoxsulların evinə un, düyü, şirniyyat göndərdiyini xatırlayır. Səməni halvası bişirilməsi və qonum-qonşuya göndərilməsi, Novruzda evlərə qonaq gedilməsi, bu bayramın digər ən incə xüsusiyyətlərinin yazıçının yaradıcılığında öz əksini tapması əsərin milli ruhunu qüvvətləndirir.

Yazıçının yaradıcılığında diqqəti cəlb edən bir adət də insanlara bu və ya digər xüsusiyyətlərinə görə ad qoymadır. Məsələn, Taygöz Yusif, Xanlıq Muxtar, Məşədi Qurban, Qızılbaşoğlu Alı, Çarvadar Həbib, Ağgöz Cabbar, Pullu Fəttah, Dəlisoy Gülmalı adlarına artırılan bu ləqəblər hər kəsin işinə, əməlinə, görkəminə görə verilən adlardır. Hələ «Dədə Qorqud» dastanlarından bizə məlumdur ki, insanlara ad qoyarkən göstərdiyi hünərə, qeyrətə və sairə görə ad qoyulurdu. Boyu Uzun Burla Xatun, Bamsı Beyrək, Salur Qazan və digər adları buna misal göstərmək olar. Zaman keçdikcə insanlara öz görünüşünə, xasiyyətinə, əməllərinə görə adlar verilirdi ki, buna xalq içərisində ayama deyilirdi. Ayama qoşmaq xalqımız içərisində geniş yayılmışdır. Bu ayamalar çox vaxt adamların sənəti, peşəsi, yaşadığı, getdiyi müqəddəs yer adları ilə bağlı olsa da, ən çoxu xasiyyətlərinə, əməllərinə, görünüşünə görə verilən adlardır və yazıçıların, şairlərin əsərlərində bunlara çox rast gələ bilərik. Məsələn, Keçi Məmməd, Simic Həsən, Çolaq İsa, Taygöz Həsən, Toyuq Musa, Qalayçı Musa, Kişi Əhməd və s.

İ.Əfəndiyev xalqımızın milli geyimlərini də şairanə tərzdə qələmə almışdır: «Arabir Cıdır düzünə seyrə çıxan Qarabağ gözəllərinin» gözəlliyinə min zinət verən geyimlərini qələmə alır və gözümüz qarşısında «Ayaqlarında güzgü kimi parıldayan uzunboğaz çəkmə», əynində qızıl vəznəli sürməyi çuxa, belində gümüş xəncər, başında sur dərisindən papaq, sağ yanağında qoşa xal, qumralbığlı, qumralsaçlı bir oğlan» Azərbaycanlı bir igid canlanır.

Və yaxud «Anam da ən gözəl paltarını geyib, qızıllarını, daş-qaşlarını taxaraq məclisdə, qız-gəlin arasında əyləşmişdi. Onun mirvari tacı altından çıxan xurmayı saçları, enli qızıl kəmər çəkilmiş incə beli, durna boynu kimi uzun, ağ boğazı mənə o qədər gözəl görünürdü ki, mən məclisdəki başqa qadınlara deyil, ancaq anama tamaşa edirdim» (45, s.154), cümlələrində biz gözəl bir Azərbaycanlı qızının surətini görürüksə, aşağıdakı təsvirdə milli Azərbaycan qadınının geyimini görürük: «Mən anamın üzərində qızıl zərli güllər olan gilənar rəngli uzun məxmər tumanına, qolları enli qanovuz arxalığına, ortasında iri yaqut yanan enli qızıl kəmərinə, boynundan asılmış aypara şəkilli qızıl silsiləyə və bütün bunların ona necə gözəl yaraşdığına heyranlıqla tamaşa edirdim». (45, s.67)

İ.Əfəndiyev yaradıcılığında inanclar da mühüm yer tutur. Bunların içərisində yuxuya inam da vardır. İnanclar, yozum, yozma, inam adlarıyla xalq arasında yaşayır və İ.Əfəndiyevin yaradıcılığında da öz əksini tapmışdır. Soykökümüzün əsasında duran tayfalar inam və etiqadlarını yaratdıqları folklor nümunələrində yaşatmışlar. Yuxu istər xalq ədəbiyyatında, istərsə də yazılı ədəbiyyatda öz əksini tapmış, bununla bağlı çoxlu nağıllarda, dastanlarda qəhrəmanların həyatında görülən yuxuların çin olmasıyla əlaqədar mövzular yaranmış, xalq içərisində geniş yayılmışdır. Bunun da öz gökləri var. Bildiyimiz kimi, ən qədim dövrlərdə yaşayan insanlar həyatda baş verən hadisələrin, təbiət sirlərinin açılmasında aciz qaldıqlarından bunu başa düşmək, dərk etmək qüdrətinə yiyələnə bilmədiklərindən dərk edə bilmədikləri hadisələrdə qeyri-adi başqa bir qüvvənin olduğunu düşünürdülər və bunu qəbul edirdilər. Yuxuda gördüklərini həyatda başlarına gələcək hadisələrin əvvəlcədən xəbərdarlığı kimi başa düşməklə yanaşı, yuxunun real həyat hadisələri ilə bağlılığına inamı da, yuxuda gördüklərinin əksi olacağına inamı da özlərində yaşadırdılar.

Məsələn, İ.Əfəndiyevin qəhrəmanlarının şüurundə, məişətində, həyatında bu qədim inamların qalıqları yaşayır və artıq bu inam onların həyatına, məişətinə daxil olmuşdur. Çünki xalq bunları əsrlərlə sınaqdan keçirmiş və nəhayət bu inam milli psixologiyaya çökmüşdür. Onun qəhrəmanı («Valehlə Sarıköynəyin nağılı») öz arzu və istəklərinə uyğun olaraq yuxuda qovuşmadığı sevgisinə həyatda qovuşacağına inanır və əski inamlara sığınaraq yuxunun tərsinə yozulduğunu, nənə və babaların da belə söylədiklərini bildirir. Yazıçı qəhrəmanının hiss və həyəcanlarını, narahatçılığını, daxili istək və arzularını folklorda yaşayan, bu folklor ənənələrindən gələn yuxuyla əlaqəli şəkildə təsvir etməklə gənclərin xoşbəxt həyat uğrunda apardıqları mübarizədəki cəsarətini, qətiliyini daha tutarlı əks etdirməyə çalışır, onların sağlam mənəviyyata malik olan sarsılmaz iradə sahibləri olduğunu göstərir, gəncliyi onlardan öyrənməyə çağırır.

Yuxuya inam ən qədim minilliklərdə təşəkkül tapmış türk epos təfəkkürünün müxtəlif mənbələrində zəmanəmizə qədər gəlib çatmışdır. Şifahi şəkildə xalq içərsində təşəkkül tapmış sonralar yazıya alınmış bu türkdilli mənbələrin birində «Alp Ər Tonqa» (36) dastanında yenilməz gücə, qabiliyyətə malik olan Alp Ər Tonqa döyüşə hazır olmasına baxmayaraq yuxu görür və gördüyü yuxuya inam el arasında güclü olduğundan döyüşə girməkdən imtina edir. Yuxu, ona inam xalq arasında güclü idi. Çünki gördüyü yuxuya inam hissi mifik təfəkkürün güclü tərəfidir, yuxuya bütün iradəsiylə inanmanın nəticəsidir. Yazıçının qəhrəmanı da çətinliklər içərisində qalanda, daxili narahatlıq keçirəndə gördükləri yuxulardan təskinlik tapır və yazıçı yuxuya inamın ifadəsi kimi xalq içərsində bu gün də yaşayan, folklorda da öz əksini tapan bu ənənələrdən istifadə etməklə fikrini bədii çəhətdən qüvvətli verə bilmişdir. Etdiyi günahı özünə bağışlaya bilməyən Durna («Durna») gördüyü dəhşətli yuxunun təsiri altından çıxa bilmir və ona elə gəlir ki, cəbhədə ağır döyüşlərdə mühasirəyə düşüb uzun müddət evə məktub yaza bilməyən əri Eldar onun bütün əməllərindən xəbərdardır. O yuxudan sonra artıq Durna Eldarın anasının gözlərinə də cəsarətlə baxmaqdan məhrum olur. Durnanın gördüyü yuxu əsərin ideya və məzmununu öz üzərində kökləyir və qəhrəmanın gördüyü yuxu səhnəsi əsərin bədii təsir qüvvəsini artırmaqla yanaşı, qəhrəmanın çəkdiyi

əzabları, sarsıntı-ları da üzə çıxarmaqda mühüm vasitə olur. O yuxuda Eldarı nə qədər səsləyirsə Eldar onu eşitmir, ona yaxınlaşmır. Durna gördyüy yuxunun real olacağına əmindir, çünki hansı ailə ona edilmiş xəyanəti bağışlar?

Yuxuya inamın kökləri qədimdir. Quranda da yuxu ilə bağlı hadisələr öz əksini tapmışdır. İnsanların mifik təsəvvüründə yuxuda görülən həyatda baş verəcək həqiqətlər haqqında insanlara xəbərdarlıqdır. Lap qədimlərdən insanlar öz aralarında, sonralar şahlar, xaqanlar saraylarında yuxu yozanlar saxlayardılar və onların yozduqları yuxuların əksəriyyəti həqiqətəuyğun olduğu üçün onlardan istifadə edərdilər. Məsələn, «Alı xan və Pəri xanım» dastanında Alı xan gördüyü yuxunun təsiri nəticəsində haqsız yerə böhtana düşmüş Pərini tapır və onun xoşbəxtliyə qovuşmasına yardımçı olur. Yuxuya inam nəticəsində hökmdarlar, xaqanlar hətta öz taxt-tacından əl çəkirdilər. «Astiaqın əfsanəsi» ndə yuxuya inam, yuxu yozma, yuxu yozan maqların (Azərbaycan xalqının soykökündə duran tayfalardan biri öz ağlı, zəkası, qabiliyyəti ilə seçilən maqlar idi) mövcudluğu bir daha sübut edir ki, yuxuya inam milli təfəkkürün məhsuludur. «Yuxu» nağılında padşah gördüyü yuxudan qorxur və yuxuyozanın dediklərini həqiqət olacağına və yuxuya inandığından taxt tacından əl çəkir. Çünki bir yuxunu təkrar-təkrar görən şah onu xəbərdarlıq kimi qəbul edir və inamına sığınaraq hökmdarlığından əl çəkir.

İ.Əfəndiyev xalqının mifik təfəkkürünün yaşadığı folklor nümunələrinə dərindən bələd olmaqla bərabər onun işığında böyümüşdü. Nənə-babalardan, müdrik insanlardan eşitdiyi nağıllar, əfsanələr, dastanlar onun bədii təfəkküründə özünün qələmə aldığı real həyat həqiqətləri ilə qaynayıb-qarışmışdı. Bütün dünya xalqları arasında yaşayan yuxuya inam xalqımızın inam və etiqadlarında özünəməxsus yer tutur və bu onun nağıllarında, rəvayətlərində, dastanlarında da yaşayır. Yazıçı xalqını, millətini, onun müxtəlif zamanlarda yaratdı-ğı, özündən sonra gələn nəsillərə qoyub getdiyi milli-mənəvi dəyərlərə də bələd idi. O, bir yazıçı, sənətkar kimi yetişməmişdən əvvəl xalq ədəbiyyatını öyrənmiş və görmüşdü ki, folklor nümunələrində yuxuya və digər sirri bilinməyən hadisələrə inam yaşayır. Oxuduğu dastanlarımızda qəhrəmanlar yuxuda onlara verilən Butanın arxasınca diyar-badiyar gəzir, onu tapıb, mətləbinə nail olur. Məsələn, «Aşıq Qərib», «Abbas və Gülgəz»,

dastanlarında da belədir. «Aşıq Qərib» dastanında Qərib yatıb yuxuda Tiflis şəhərində cənnətə bənzər bir bağda Şahsənəmi görür və ona vurulur və butasına çatmaq üçün Tiflisə yola düşür, sevgilisinə qovuşur.

«Oğuznamələr» (58, 102) və «Dədə Qorqud» dastanlarında qəhrəmanların gördükləri yuxulara inam, bunla-rın yozulması fikrimizi misallarla əsaslandırmağa kömək edir. «Salur Qazanın evinin yağmalanması» boyunda obasından xeyli aralanmış, Qazan xan yatıb yuxu görür, gördüyü «qayğulu yuxu» onu narahat edir. Qardaşı Qaragünəni yanına çağırıb deyir: «Bilürmisin, qarındaşım Qaragünə, düşimdə nə göründi? Qara qayğılu vaqeə gördüm. Yumruğımda talbınan şahin bənim quşımı alur gördüm. Gökdən ildırım ağ-ban evim üzünə şaqır gördüm. Düm qara pusarıq ordımın üzərinə tökülü gördüm. Quduz qurtlar evimi dəlir gördüm. Qara dəvə ənsəmdən qarvar gördüm. Qarğu kibi qara saçım uzanır gördüm, uzanıban gözümi örtür gördüm. Biləgümdən on barmağımı qanda gördüm. Necə kim bu düşi gördüm, şundan bərü əqlim usım dərə bilmən. Xanım qardaş, mənim bu düşimi yorğıl mana!» - dedi.

Qaragünə aydır: «Qara bulıt dedigin sənin dövlətindir. Qar ilə yağmur dedigin, ləşkərindir. Saç qayğudır. Qan qaradır. Qalanısın yora bilmən, allah yorsun!», - dedi». (75, s.44)

İ.Əfəndiyev yaradıcılığında xalq ədəbiyyatından gələn bu əlvan çalarlardan istifadə etməklə rəngarəng, yadda qalan, sevilən, obrazlar yaradır. Bu obrazlar da yuxularda da olsa öz arzularına çatmaq, xoşbəxtliyə qovuşmaq hissilə yaşayır. Onun romantik qəhrəmanları real aləmdə tapa bilmədiyi səadəti yuxularda da olsa əldə etməyə hazırdır. İnsan gözəl həyat, istəyinə çatmaq arzusuyla dünyada yaşayır, mübarizə aparır. İ.Əfəndiyevin qəhrəmanları da bu bəşəri duyğularla yaşayır. Yazıçının əsərində qələmə aldığı yuxular ən çox qəhrəmanların, surətlərin daxili əhval-ruhiyyəsinin təsvirinə xidmət edir. «O gecə…yuxu gördüm. Görürdüm ki, qollarımı yana açıb qanad kimi tərpədərək, buludların altından baxıb gülümsəyən Sarıköynəyin yanına qalxmaq istəyirəm. Ancaq nə qədər uçuramsa, ona çata bilməyib düşürəm. Görürəm, Sarıköynək də hey mənə baxıb gülümsəyir. Mən isə təkrartəkrar göyə qalxıb, yenə də ona çata bilməyərək düşürəm yerə. Qoca arvadlardan eşitmişəm ki, yuxunu gərək tərsinə yozasan». (44, s.26)

Yuxuyozma dünya xalqlarının, eləcə də xalqımızın yaratdığı folklor nümunələrində yaşayır. Misirdə, Qədim Yunanıstanda hətta yuxuyozma kitabları yazılmışdır və bunlardan birinin müəllifi yunan alimi Antifondur. Hər bir xalqın milli-mənəvi keyfiyyətləri, milli dəyərləri ilə bağlı yuxuyozma düşüncəsi mövcuddur. İ.Əfəndiyevin qəhrəmanlarının gördükləri yuxular epizodik xarakter daşımasına baxmayaraq hadisələrin gedişinə, qəhrəmanın daxili aləminə, əhval-ruhiyyəsinə oxucunun diqqətini artırmaqla yanaşı, yuxuya inam, onun yozumlarının (folklorda olduğu kimi) yazılı ədəbiyyatımıza gətirməsi, klassik sənətkarlarımızın bu sahədə yaradıcı ənənələrinin İ.Əfəndiyev kimi XX əsrin ən böyük sənətkarları tərəfindən davam etdirilməsi, müsbət hal olub yazıçının folklorun bütün incəliklərinə dərindən bələd olduğuna dəlalət edir. Xalq yaradıcılığında olduğu kimi yazıçı da yuxudan bir priyom kimi istifadə etməklə, hadisələrin daha təsirli verilməsinə, əsərin bədii dəyərinin artırılmasına çalışır.

«Qəhrəman və bülbülün nağılı» əsərində ömrünün son anlarını yaşayan, bülbülün yanıqlı səsindən gözlərini açan, son anda arzuladığı real həqiqəti yuxusunda yaşayan qəhrəman döyüşçünün daxili istək və arzularının şahidi oluruq:

«Oğlan qəribə bir yuxu gördü; gördü ki, kəndlərinin üst tərəfindən axan çayın qırağında dayanmışdır. Hara isə tələsir, lakin yerindən tərpənə bilmir. Birdən çayın gümüşü suyu içindən ağ paltarlı bir qız çıxıb ona yanaşdı. Oğlan qızı tanıdı: bu, o idi». (41, s.31)

Yuxuda gördüyü yazıçının qəhrəmanın böyük bir məhəbbətlə sevdiyi qızdır. Real həyatda arzularına çatmayan, ömrünün son anlarında məhəbbətinə qovuşmaq istəyən qəhrəmanın istək və arzuları, daxili nigarançılığı gördüyü yuxu vasitəsilə oxucuya əyan olur. Yazıçı bir tərəfdən qəhrəmanını ömrünün sonunda sevgi, vəfa, sədaqət mücəssəməsi bülbüllə qarşılaşdırmaqla, o biri tərəfdən gördüyü yuxu vasitəsilə yazıçını nakam sevgisilə qovuşdurmaqla qüvvətli bir bədii səhnə yaratmış, yuxu vasitəsilə qəhrəmanının daxili aləmini vermiş, ölüm ayağında da öz sevgisinə sadiq bir gəncin dolğun obrazını yaratmışdır. Xalq ədəbiyyatından bəhrələnməklə yaratdığı bu qəhrəman obrazı vətəninə, sevdiyi insana sədaqətli bir gəncin, döyüşçünün ümumiləşdirilmiş

obrazıdır. Yuxu və digər inam və etiqadlardan yararlanmaqla, xalq təfəkkürünün xəzinəsindən bəhrələnməklə kamil sənət əsərləri yaratmaq mümkündür və İ.Əfəndiyev də bir yazıçı, sənətkar kimi bundan bəhrələnmişdir. Bütün bunlar göstərir ki, yuxu xalq ədəbiyyatının ən geniş yayılmış mövzularından biridir və bu mövzu ətrafında kamil sənət əsərləri yaradan böyük sənətkarlarımız var.

Sınamalar xalq ədəbiyyatında olduğu kimi yazıçının yaradıcılığında da öz əksini tapmış və yazıçı bunlardan istifadə etməklə bitkin obrazlar, qüvvətli sənət əsərləri yaratmağa çalışmışdır.

Xalq arasında yaylıqla bağlı başqa bir adət də (buna sınama da demək olar) vardır ki, doğma, əziz insanlar bir-birinə heç vaxt yaylıq bağışlamır, yaylığı ayrılıq rəmzi kimi qəbul edirlər. Keçmiş müşahidələr, inamlar əsasında formalaşan bu adət indinin özündə də vardır və İ.Əfəndiyevin qəhrəmanları xalqdan gələn bu inamlarla köklənmişlər. Xalqına bağlı sənətkar yaratdığı sənət əsərlərində xəlqilik prinsiplərini əsas götürür və bu prinsiplərə əməl etməklə yazılan əsərlərin, sənətin uzunömürlü olduğunu bilir. Xalqdan gələn ideyalar, inamlar bəşəri hisslərə hörmət edir və hər bir xalq sənətkarı da öz yaratdığı sənət əsərlərində onlara hörmətlə yanaşmalıdır. Yazıçının qələmə aldığı obrazlar sağsağanı xalq içərsində xeyirli xəbər verən bir quş kimi tanıyır. Sağsağanın səsi gələndə hamı sevinc, şad bir hadisə baş verəcəyini sınamış və bu gün də inanır. Özü də bu inam bir körpə uşağın inamı deyildir, dünya görmüş Fatma nənənin sınamasıdır. Tut ağacına qonan sağsağanı görən Fatma nənənin «-Xeyir xəbər sağsağan, oğluyun oğlu olub, qızıyın da oğlu olacaq» sözləri onun xeyirxəbər gətirdiyinə inamının yaratdığı sevinclə bağlıdır. Bu inam başqa qəzada pristav işləyən əri Bayramın evdən uzaq düşməsindən, oğlu Nurunun yolunu gözləməkdən, ondan xəbər almadığından yaranan narahatçılığın insan qəlbində yaratdığı ümidin ifadəsidir.

Balaca Murad da nənənin ürəyindən keçəni duyur və fikirləşir ki, sağsağan babasının gələcəyini ona xəbər verir. Xalq içərisində yaşayan belə inamlar qəhrəmanların daxili istək və arzularını, nigarançılığını daha qabarıq şəkildə vermək üçün yazıçıya imkan yaradır.

«Sağsağan» hekayəsində də qədim mifik sınamalara böyük inam hissi vardır. Əsərin qəhrəmanı kiçik yaşlarında atasının tüfəngi ilə sağsağanı vurur. Lakin nənəsindən eşidəndə ki, sağsağan xeyir xəbər verən quşdur, onu vurduğuna, günah işlədiyinə görə peşimançılıq hissi keçirir. Dilxor olmuş qəhrəman zaman keçdikcə, böyüyüb yaşa dolduqca sağsağana güllə atmaqdan çox, ona güllə atmağın günah olduğunu söyləyən nənəsinin sözlərindəki inamın qüvvəsindən çəkinir: «Hər dəfə sağsağanın həyəcanlı, şən qışqırığını eşidəndə əsəbləşirdim, tez susmağını istəyirdim. Özümü inandırmağa çalışırdım ki, sağsağan heç kəsə xeyir xəbər gətirmir, qarğa qarıldayan kimi o da o cür səslənir. Lakin onun səsində açıq duyduğum sevinc, şən nida və nənəmin şəksiz bir inamla dediyi söz ürəyimin dərinliyində məni hey günahkar hesab edirdi». (40, s.65) Yazıçının qəhrəmanları nə qədər çalışıb-çarpışsa da xalqdangəlmə bu inamı özündən uzaqlaşdıra bilmir. Sağsağan xeyirxəbər gətirən, insanlara sevinc bəxş edən bir quşdur. Xeyirxah qüvvələrə qarşı çıxmaq isə günahdır. İnsanın xoşbəxtliyini istəyən yaxşı nə varsa Tanrı yanında, Allah yanında da müqəddəsdir və ona əl qaldırmaq olmaz. Yazıçının sağsağana güllə atan qəhrəmanı illər keçsə də bu əməlini unuda bilmir və nə qədər istəsə də nənəsinin sözlərindəki inamın qüvvəsindən yaxasını qurtarammır. İ.Əfəndiyev bu hekayəni qələmə alarkən folkordan, xalqdangəlmə bu inamlardan istifadə etməklə insanı yaşatmağa, öz şəxsi istəyindən çox xalqın istək və arzularına əməl etməyə çağırır. İnsan həyatda yalnız özü üçün yaşamamalı, həyatda yaxşı nə varsa onu qorumalı, özündə humanist duyğular tərbiyə etməli, xalqın inam və etiqadlarına hörmətlə yanaşmalıdır.

Folklorumuzda bu inanclar öz əksini tapmış, insanın bədii təfəkkürünün məhsulu kimi zəmanəmizə qədər gəlib çatmışdır. Bu inamların yazılı ədəbiyyatda da öz əksini tapması onun uzunömürlülüyünü təsdiq edir. Xalq içərisində yayılan və uşaqlığından inamları hafizəsində yaşadaraq bunu qələmində yeni bir formada sənətimizə gətirməsi yazıçının xalqın adət-ənənələrinə, inam və etiqadlarına olan hörmət və məhəbbətin nişanəsidir, «Göydə ulduz var, səhər gün çıxacaq» («Üçatılan»). Buradan aydın olur ki, qədim zamanlardan havanın necə olacağını, fəsillərin necə keçəcəyini, qışın

sərt və ya mülayim olacağını söyləyənlər ata-babalarımızın həyat təcrübəsinə əsasən gəldikləri nəticəyə əsaslanırdılar.

Azərbaycanda Cinlə bağlı inamlar olmuş və insanların inamında bu gün də yaşamaqdadır. «Qaynar suyu yerə töksən cinləri hirsləndirərsən, sənə bəla gətirər» məsələsi bu gün də xalq qaynaqlarında, adət-ənnələrində yaşayır. Görkəmli folklorşünas, yazıçı A. Şaiq yazırdı: «Mən uşaq olanda anam bizi yedizdirib, içizdirib yatmağa uzandırmışdı. Birdən-birə bayırda dəhşətli səs-küy qopdu, hər yerdə tüfəng, tapança atırdılar, qadınlar mis qabları bir-birinə vururdular. Mənim qorxudan titrədiyimi görən anam: «qorxma, oğlum, cinlər ayın üzünü tutub, onları qovurlar», -dedi və üzünü qara bir pərdə qapamış, yalnız kənarları parıldayan ayı göstərdi. Bu athaatdan, vurhavurdan bir az sonra «cinlər qovuldu», ayın üzü açıldı. Hamı sevinə-sevinə evinə çəkildi». (7, s.23)

İ.Əfəndiyevin qəhrəmanları da Eyvazın qoyunlarının hər gün qaytarılıb öz qapısına gətirilməsini «Cin dərəsi»nin cinlərinin əməlləri bilirlər.

İnam mifik təsəvvürlərin əsasını təşkil edir. Bütün Tanrıların, onqonların, totemlərin yaradıcısı inamdır, təbiət qorxu və qorxunun insan şüurunda yaratdığı fantastika inamın yaranmasına təsir etmişdir və yazıçının qələmə aldığı hadisələr onun vətənində cərəyan edir və buna görə də o, bu və ya digər formada onların inamlarını da özləri ilə bərabər əsərlərində yaşatmağa çalışır. Çünki bu inamlarda yalnız insanın xoşbəxtliyini istəyən hisslər yaşayır.

Suyun saflığı, uğurluğu haqqında inamlar bu gün də məişətimizdə, həyatımızda yaşayır. İ.Əfəndiyev də əsrlərdən bəri xalqımızın suyla bağlı inanclarına öz əsərlərində müəyyən qədər yer vermişdir. Fatma nənə səfərə yola düşən Nurunun arxasınca su atır. Buradan görünür ki, İ.Əfəndiyevin qəhrəmanları öz mifik inamlarına tapınaraq öz əski mifologiyasına sığınaraq, əcdadları kimi suya inanır, şüurunda, təfəkküründə öz kökünə qayıtmış olur. Yazıçı yaradıcılığında suya, torpağa, daşa inam hisslərini verməklə, ondan yaradıcı surətdə istifadə etməklə əsərlərinin bədii tə sir gücünü artırmağa, zəngin daxili aləmə malik obrazlar yaratmağa çalışmışdır.

İ.Əfəndiyevin qəhrəmanlarının dilində işlətdiyi alqış və qarğışlar nəsillərdən-nəsillərə keçərək bu günümüzə qədər gəlib çıxmış xalq içərisində

formalaşmış, inkişaf etmiş, məişətimizdə, həyatımızda özünə möhkəm yer tutmuş ifadələrdir. (2, 90)

Yazıçı əsərlərində xalq içərisində yayılmış bu qarğışlardan və alqışlardan elə məharətlə istifadə etmişdir ki, bu priyomlar əsərin bədii təsir gücünü artırmaqla yanaşı, yazıçının əsərlərini folklora yaxınlaşdırmış olur. Diqqətimizi cəlb edən sənətkarlıq məsələlərindən biri elə həmin folklor nümunələrindən yazıçının yaradıcı surətdə bəhrələnməsidir. Surətlərin dilindəki alqışlar, qarğışlar milli dilimizdə lap qədimdən bu günə kimi cilalanmış, büllurlaşmış ağız deyimləridir.

-Xoş günün olsun, Gülgəz.

-Gözün aydın, bacı, deyirlər qardaşın gəlib.

-Allah ömrünü uzun eləsin, dayı.

-Allaha şükür ki, Nuruya bir zərər yetməyib.

-Allah oğlanlarını saxlasın, Hacı.

-Allah amanatında ol.

-Allah köməyin olsun.

-Xeyir olar, inşallah…

Alqış və qarğışlar ən qədim folklor nümunələridir. Bu alqışlar, qarğışlar «Kitabi-Dədə Qorqud» kimi dastanlarda, nağıllarda, ayrı-ayrı obrazların dilində, canlı xalq danışıq dilində gəlib bu günə çatmışdır. Onların bəzi nümunələri XIX əsrdə çap olunmuşdur. Bu gün də gündəlik həyatımızda rast gəldiyimiz alqışlar və qarğışlar xalq içərisində toplanır və tədqiq edilir.

İ.Əfəndiyevin qəhrəmanlarının dilindəki alqış və qarğışlara epos qəhrəman-larımızın dilində də çox rast gəlirik. «Kitabi-Dədə Qorqud» dastanlarında, nağıllarda, başqa məhəbbət dastanlarında istifadə olunan alqışlar və qarğışlar poetik cəhətdən tədqiqatçılarımız tərəfindən qiymətləndirilmiş və tədqiq edilmişdir. Alqışlara, dualara və qarğışlara inam yazıçının qəhrəmanları arasında deyil, xalq arasında lap qədimdən mövcuddur. Dədə Qorqud dövründə də bəglərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcəb olardı. İ.Əfəndiyevin həyatını qələmə aldığı müasir dövrdə də xalq içərisində belə bir inam var ki, qarğış, alqış yerdə qalmır, mütləq yerinə yetir.

İnsanlar arasında belə bir inam yaşayır ki, bir halda ki, alqışlar, dualar və qarğışlar yerinə yetir, insan yaxşı işlər görməyə çalışmalı, pis əməllərdən qaçmalı, yaxşı işlər görməlidir ki, mənəvi saflığını təmin etmiş olsun. «Dədə Qorqud» dastanlarında bizə məlum olan qarğış və alqışlar Dədə Qorqudun öz dilindən də verilir. Diqqət yetirək

Dastanın digər boylarında istənilən qədər alqışlardan, dualardan nümunələr vardır: Ağbirçəklü anan yeri behişt olsun!

Qadir tənri səni namərdə möhtac eyləməsün, xanım, hey! (75, s.41)

Qarğışlar da dastanlarımızda çoxdur. Xüsusilə Dədə Qorqud boylarında.

Bu evi xərab olası! Ərə varalıdan bərü dəxi qarnım doymadı, yüzim gülmədi. (75, s.33)

«Ağzın qurısun, çoban! Dilün çürüsün, çoban! Qadir sənin alnuna qada yazsun, çoban». (75, s.45)

Dədə Qorqud Beyrək üçün elçi gedərkən Banıçiçəyin qardaşı Dəli Qaçar Dədə Qorqudu qılıncla vurmaq istərkən ona «Çalırsan, əlün qurısun!» -dedikdə qarğışı onu tutur və qılınc tutduğu əli yuxarıda asılı qalır.

Alqış və qarğışların ruhlarla da əlaqəli şəkildə olduğunu təsəvvür edən insanlar qədim zamanlardan qarğışlardan qorxarduğu kimi yazıçının qəhrəmanları da onların çin olacağından qorxaraq qarğışdan çəkinirlər. Xalqın mifik təfəkküründə kök salan alqış və qarğışlara inam onların yaratdıqları folklorun canındadır. İstər nağıllarımızda olsun, istərsə də dastanlarımızda biz bu inamın yaşadığının, hətta bəzən qarğışların bir anda həyata keçdiyinin də şifahi ədəbiyyatımızda nümunələrini görürük. Məsələn, «haqq aşığı» kimi tanınan Qurbani Vəzirə belə qarğıyır:

«Vəzir səni qarğıyıram,
Haqq diləyin yetirməsin!
Göydən min bir bəla ensə,
Birin səndən ötürməsin!

Qurbani qaldı burada,
Çağır allah yetsin dada,
Meyidin qalsın arada,

El yığılıb götürməsin!

Bu zaman göy guruldadı, bir ildırım şığıyıb Qara Vəzirin evinin üstünə düşdü. Ev gurhagurla uçub yerə töküldü. Nərilti, gurultu hər yeri bürüdü. Cəlladlar Qurbanini qoyub qaçdılar. Qara Vəzir evinin, uşağının hayına qaldı. Qurbani yadından çıxdı». (24, s.247)

İ.Əfəndiyevin qəhrəmanlarının da alqış və qarğışlara inamı çoxdur. Yazıçı obrazların dilində alqış və qarğışlardan istifadə etməklə yaratdığı əsərlərin daha canlı, daha maraqlı olmasına çalışmış, onların təfəkküründə yaşatdıqları xalqdangəlmə bu inamların təbiiliyini qorumağa çalışmışdır. «Bax, mənim sözlərimin hamısını qardaşına çatdırmayan, ərsiz qalsın.

və yaxud:

-Bizə qarğıyanı görüm heç oğul - uşağından yarımasın. (46, s.176)

Bu deyimlərdən görürük ki, İ.Əfəndiyev qarğışlardan istifadə edərkən onların deyilmə məqamına da diqqət yetirmiş, hər obrazı öz xarakterinə, fikirlərinə, arzularına uyğun qarğışlarla «silahlandırmışdır». O elə qarğışlardan istifadə edir ki, bunlar obrazların dilində elə bir forma kəsb edir ki, bu da yazıçının bacarığından, bədii priyomlardan istifadə qüdrətindən xəbər verir.

Bütün bunlar göstərir ki, insanların həyatında, məişətində qarğış və alqışlar mühüm yer tutur və bunlara inam yazıçının yaradıcılığında da bədii boyalarla işlənmiş, obrazların daxili zənginliyini, bitkin xarakterə malik obrazlar aləmini yaratmasında onlardan sənətkarlıqla yararlanmışdır.

Alqış və qarğışlar xalqın həyatının tərkib hissəsi olduğu üçün İ.Əfəndiyevin qələmə aldığı obrazların dilində çoxdur:

-Boyuna qamış ölçüm sənin kimi oğulun ki, gəlib qapısından qoyun oğurlayırlar. (46, s.18)

-Cavan gülləyə gəlmiş də gərək ipə-sapa yatsın, ya yox? (46, s.36)

-Səni görüm, səni görüm o səmənd madyan kimi gülləyə gələsən. (46, s.79)

-Onu görüm ciyəri yansın. (46, s.159)

-Ay sənə qara yaman dəysin! (46, s.163)

A l m u r a d - Demə! Demə, gözündən gəlsin. (46, s.229)

G ö z ə l (*ağzını dəstəyə yaxınlaşdıraraq*) - Burnunun iki deşiyindən tökülsün. (46, s.221)

Alqış və qarğışların həyata keçməsinə inamın nəticəsidir ki, insanlar o ifadələri yaşatmış, özlərinin daxili hiss və həyəcanlarını, qəzəb və sevinclərini, istək və arzularını, dost-düşməninə nifrət və məhəbbətini göstərmək üçün tez-tez bu sözlərə müraciət etmişlər.

Əsrlərin yaddaşından süzülüb dövrümüzə qədər gəlib çatan alqış və qarğışlar bu gün də xalq içərisində yaşayır. Yazıçı və şairlərimiz, o cümlədən İ.Əfəndiyev kimi görkəmli sənətkarımız əsərlərinin bədii təsir gücünü yüksəltmək, qəhrəmanın öz aləmində baş verən hadisələrə münasibətini açıqlamaqda bu ifadələrdən yararlanmışdı. N.Xəlilov «Ə.Haqverdiyev və folklor» mövzusunda yazdığı elmi əsərində Ə.Haqverdiyevin obrazlarının dilində alqış və qarğışların geniş elmi təhlilini verir, xalq içərisində geniş yayılmış və xalq ədəbiyyatının ən qədim nümunələri kimi onlardan əsərlərinin bədii təsir gücünü, emosionallığını artırmaq üçün istifadə etməsini açıqlayır, hər obrazın öz xarakterinə uyğun bunlardan istifadə etməsinin dərin elmi təhlilini verir. Canlı danışıq dilinə aid olan bu ifadələrdən Ə. Haqverdiyev əsərlərinə gətirməklə əsərlərinin milli koloritini artırmaqla, alqış və qarğışlara inam hissinin xalq içərisində yaşadığını qeyd etməklə bərabər yazıçının onlardan sənətkarlıqla istifadə etməsini, «müxtəlif məqamlarda, müxtəlif məqsədlərlə» işlətdiyini və «həmin sözlər həm də işlənərkən yeni məna ifadə etdiyini» bildirir. Hər bir sənətkar yaratdığı əsərlərin bədii cəhətdən qüvvətli əsər olması üçün özünün bədii təfəkkkürünün imkanlarından istifadə etməklə yanaşı, xalqdan gəlmə, xalq təfəkkürünün yaratdığı zəngin materiallardan istifadə etməyin də əhəmiyyətini başa düşdüyündən bu qiymətli mənəvi xəzinədən istifadə etmiş, gözəl sənət əsərləri yaratmağa müvəffəq olmuşlar. Bu cəhətdən Nizaminin, Füzulinin, Ə.Haqverdiyevin, A.Şaiqin, S.S.Axundovun və digər görkəmli sənətkarlarımızın yaradıcılığı araşdırılmış, xalq ədəbiyyatıyla bağlı yaranan əsərləri folklorşünaslıq baxımından tədqiq edilmiş, təhlili aparılmış və folklordan bəhrələnməklə yaranan əsərlərin uzunömürlü, qüdrətli sənət əsərləri olduğu qənaətinə gəlinmişdir. İ.Əfəndiyev də bu böyük sənətkarların yaradıcılığına dərindən bələd olduğundan, xalqının yaratdığı zəngin folklor

mənbələrindən istifadə etməklə danışıq dilimizin zəngin mənbələrindən bəhrələnməklə əsərlərinin məna dəyərini artırmış və buna görə də folklorşünaslıq baxımından əsərlərinin təhlilinə imkan yaranmışdır. Onun yaradıcılığında xalqdangəlmə hansı mənbələrə nəzər salsan, özünəməxsus təbiilik, yığcamlıq diqqəti cəlb edir. O, ifadələri obrazın dilində fərdi xüsusiyyətlərinə uyğun işlədir.

Qədim etiqadlarla, inamlarla bağlı olan andlar da folklorumuzda olduğu kimi İ.Əfəndiyevin yaradıcılığında mühüm yer tutur. Bu andlar vasitəsilə yazıçı bir çox obrazların daxili aləmini, ətrafda baş verən hadisələrin kökünü tapmağa çalışır. Andlar folklorumuzda çox qədimdir və bunların ən qədim dastanlarda, nağıllarda nümunələri çoxdur. «And içirəm», «Anamın südünə and olsun», «Gün haqqı», «Çörək haqqı», «Duz-çörək haqqı», «Allaha and olsun», «Başın üçün» və başqa ifadələrlə başlayan andlar istər şifahi, istərsə də yazılı ədəbiyyatda işlənməsindən asılı olmayaraq tarixi köklərinə görə ən qədim dövrlərə gedib çıxır. Lap qədimlərdə insanlar mifik təfəkkürlərinə uyğun əşyalara, varlıqlara and içərdilər. «Qılıncıma doğranım», «Oxuma sancılım», «Torpaq gözümü yumsun» kimi andları buna misal göstərmək olar.

İ.Əfəndiyevin qəhrəmanlarının andları yuxarıda adlarını çəkdiyim ifadələrlə başlamasa da bu andlar kəsərlidir:

-Bura bax, dayıqızı, sən öl, iki dünya bir ola, biri də heç -sən mənimsən! (46, s.32)

Yazıçının yaradıcılığında obrazların dilində «andvermə» xarakterli andlardan da istifadə edilir. Canlı danışıq dilində verilən bu andlar obrazların daxili aləmini açmaqla yanaşı əsərə bir bədiilik, əlvanlıq gətirir. Xalq danışığının zəngin irsindən istifadə etməklə əsərlərinin təsir qüvvəsini, bədii dəyərini artırmağa çalışan yazıçı istəyinə nail ola bilir:

«-Dayıqızı, mən ölüm, de görüm sən doğrudan o matışka Nuruya getmək istəyirsən?»

və yaxud,

-Yaxşı, yaxşı, sən atayın goru, sən də belə deyib ağızlarına dil atma. (46, s.50)

Qədim türk xalqları qəbilələr arasında dostluq, qohumluq, qardaşlıq kimi gözəl keyfiyyətləri qoruyub saxlayar, and içər və bu anda sadiq qalardılar. İ.Əfəndiyevin qəhrəmanları da onlar üçün əziz olan qohumun canına and içirlər: «Dayımın əziz canı üçün xəbərim yoxdu» -deyən Narıngül bu and vasitəsi ilə bir yandan doğrudan da bu işdən xəbəri olmadığını sidq ürəklə bildirirsə, o biri tərəfdən dayısının Ərşada qarşı haqsız münasibətlərinə baxmayaraq onun üçün bir qohum kimi, dayısı kimi əziz insanı olduğunu bildirir. Yazıçı Narıngülün dilində verdiyi bu andın xalq içərisində çox işləndiyini nəzərə alaraq, onun dilində bu ifadəni işlətməsi bu obrazın daxili aləmini açmağa, həm dayısına, həm də qardaşına, onlar arasındakı ziddiyyətə biganə olmadığını, daxili narahatçılıq keçirdiyinə inamı artırır və bu inamın əsərin emosionallığının artırılmasına xidmət etdiyini görürük. Hadisələrin sönük, quru şəkildə verilməklə əsəri oxucuya sevdirə bilməz. Hər bir bədii əsərin dəyəri hadisələrin, əhvalatın folklor mənbələrində olduğu kimi su kimi axıcı, rəvan, oynaq bir dillə verilməsindədir. Xalq canlı danışıq dilindən gəlmə priyomlardan istifadə bu sahədə yazıçının köməyinə çatır. Xalqının yaratdığı zəngin mənəvi irsə bələd olan yazıçı, sənətkar xəlqilik prinsiplərini öz əsərlərində yaşada bilir və belə əsərləri yazan sənətkar sevilir. Kiçik bir bədii priyomdan istifadə öz bədii dəyərini göstərmiş olur. Qazan xana qarşı çıxan Aruz oğuz bəylərini öz tərəfinə toplamaq üçün onları çağırıb and verirsə də Beyrək onların içərisində içdiyi andda Aruza deyil, Qazan xana sadiq qalacağını bildirir. Bu kiçik, lakin dərin məzmunlu and Beyrək kimi xalqına, xaqanına, dostuna sədaqətli, mərd, qorxmaz oğulların daxili aləmini saflığını göstərir. Səkinə («Geriyə baxma, qoca») əri Gülmalının qolu kəsiləndən sonra da onu əvvəlki tək sevəcəyinə, məhəbbətinə sadiq qalacağına and içir və bu andına da sadiq qalır. Gənc yaşlarından dul qalan Səkinə içdiyi anda sadiq qalır və ərinin ölümündən sonra da ərə getməyib balalarını namusla, qeyrətlə böyüdür, oxudur. Onun içdiyi and yazıçının qəhrəmanını həm öz əhdinə sədaqətli bir insan kimi, həm də Azərbaycan qadınının milli müsbət keyfiyyətlərini özündə cəmləşdirən zəngin mənəviyyata malik obraz kimi oxucunun yaddaşına yazır.

«Dirsə xan oğlı Buğac xan boyu»nda ana ovdan qayıdan atanın, igid dostla-rının arasında oğlu Buğacı görməyəndə «qara bağrı sarsıldı» və Dirsə xana belə and verir, oğlunu soraqlayır.

«Qaçaq Nəbi» dastanında da andlar qəhrəmanın öz işinə, əməlinə, əqidəsinə sadiq qalacağından xəbər verir:

«Həcər tüfəngin qundağından bərk tutub Nəbinin qəbri üstündə hamının qarşısında and içdi:

-Qəbrinə and içirəm, Nəbi! Ölüncə sənin düşmənlərinlə barışmayacağam!..-deyib, gözlərinin yaşını sel kimi tökdü. Camaatla görüşdü, atını minib Gözəli də tərkinə aldı... Gözəli kənddə qoydu, beş nəfərlə dağlara çəkildi. Mübarizə davam edirdi. (80, s.370)

İ.Əfəndiyev yaradıcılığında andlardan istifadə etməklə, baş verən hadisələrin bu və ya digər cəhətdən izahını verməklə yanaşı əsərin daha oxunaqlı, daha təbii çıxmasına nail olur:

-Ay Hacı, vallah, atamın goru haqqı, mən özüm də bu işə məəttəl qalmışam. Əgər bunu eliyən düşmən köpək oğludursa, ona nə düşüb ki, dörd saz erkəyi Haramıdan gətirib bir də salsın sənin ağılına. (46, s.29)

və yaxud:

«A l ı k i ş i (*gələ-gələ*) - Başın üçün, lap ağıllı fikirdir». (42, s.195)

və yaxud:

«A l m u r a d - Səxavət, Səxavət, o yediyimiz çörək haqqı o, bir nanəcib imiş, özü kimisi yox imiş». (46, s.220)

«N a r ı n g ü l (*səhnə arxasından*) -And olsun Allaha, bu təzə sədr də bunların qabağını almasa, ətəyimi əlimə alıb birbaş mərkəzə gedəcəyəm». (42, s.195)

«-Eyvaz da gəlib qoyunları Hacının ağılında görəndə lap yerində dondu. Az qaldı, kişinin başına hava gəlsin.

-Hacının başı üçün, -dedi, -dünən Şamxal özü bunları aparıb Haramıda qatıb qoyuna». (46, s.29)

### 2.2. Atalar sözü və məsəllərdən istifadə formaları

İstər adlarını çəkdiyimiz ifadələr, istər atalar sözü və məsəllər yüksək bədii keyfiyyətə, qüvvətli təsir gücünə malik olduğu üçün yaranan hər bir sənət əsərinin bədii gözəlliyini təmin etmiş olur.

Atalar sözü xalq hikmətinin ifadəsidir. Folklorşünaslarımız bu hikmətli el ifadələrini nadir incilərə bənzətmişlər. (8, 65, 69) İ.Əfəndiyevin həm nəsr əsərlərində, həm də dram əsərlərində güclü xalq koloriti vardır. Onun yaratdığı obrazların dilində xalq hikmətləri çoxdur və yazıçı onlardan istifadə etməklə həm surətin daxili aləmi-ni açır, onun xarakterik xüsusiyyətlərini oxucuya, tamaşaçıya çatdırır, həm də bu el yaşartılarının yazılı ədəbiyyatımızda qalmaqla əbədi yaşamasına təmin etmiş olur:

«Q u l u (*Nəcəfə*) Ay canım, ona nə baş qoşursan? Deyir, «qarğanın min oyunu var, bir qozun başında». Bu küy-kələkdən məqsəd odur ki, heç kəs Mədədə dinməsin. Adı olsun kolxozçu, amma özü səhərdən axşamacan öz xüsusi təsərrüfatında işləsin. Vəssalam!

M ə d ə d - «Meymun baxdı güzgüyə, adını qoydu özgəyə». (42, s.177)

və yaxud:

Hirsindən özünə yer tapmayan Nəcəf bu deyilənlərin yalan olduğunu əsaslandırmağa çalışır və onların bu işdə günahkar olduğunu sübüta yetirmək üçün atalar məsəllərindən istifadə edir:

«N ə c ə f - Yaxşı deyiblər: «Kor kora lağ eləməsə, bağrı çatlar». (42, s.199)

və yaxud:

«N ə c ə f - Atalar yaxşı deyib ki, «təzə ay çıxanda köhnəni doğrayıb ulduz edərlər». (42, s.203)

«Sən ağa, mən ağa inəkləri kim sağa» kimi atalar sözləri qiymətli, nadir sənət inciləridir. «Alimlərimizin topladıqları atalar sözü həyatın müxtəlif məsələlərinə aid ibrətamiz, məzmunlu qısa kəlam, hikmətli sözlər», «Xalq müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi», «xalqın dühasını», yaxud «xalq müdrikliyini, xalq zəka və düşüncəsini, xalqın həyat təcrübəsini əks etdirən», «xalq dünyagörüşünün, onun əməli həyat fəlsəfəsinin xülasəsi, qısa və dolğun, yığcam və mənalı bir şəkildə, aforizimlər halında ifadəsi», «ictimai-tarixi həqiqətlərin bədii ifadəsindən ibarət olan son dərəcə yığcam, konkret,

hakimanə aforistik ifadələr» (11, s.5) kimi qiymətləndirilmişdir. Xalqımızın adət-ənənəsinə, mədəniyyətinə, mifologiyasına dərindən bələd olan yazıçı atalar sözü və məsəllərdən istifadə edərkən onları bəzən olduğu kimi, bəzən də müəyyən formaya salaraq əsərlərinə daxil etmişdir. İnsanlara düz yol göstərən, onları bəd əməllərdən uzaqlaşdıran, ancaq xeyirxah işlər görməyə çağıran, düzlüyü, sədaqəti əziz tutan atalar sözü və məsəllər İ.Əfəndiyev yaradıcılığında xüsusi rol oynayır. O, hər bir atalar sözünü yerində işlətməyə xüsusi diqqət yetirir.

Kərbəlayı İbixanın süfrəsində çörək kəsən Murov hər dəfə onun evinə düşüb hörmətlə, qarşılanmasına baxmayaraq öz murdar əməlinə görə layiqli cavabını alır. Ev sahibinin qızı Səkinə özündən qırx yaş kiçik olmasına baxmayaraq onu ələ keçirmək istəyir. Kərbəlayı İbixan onun bu hərəkətinin layiqli cavabını verir. Yazıçı Murovun pis əməlini «abırlı abrını gözləməsə, axırı it axırına dönər» (45, s.9) atalar sözü ilə ümumiləşdirir, «atının quyruğunu kəsib, lümə toyuğa döndərib» onu obadan qovdurur.

Yazıçı atalar sözlərindən istifadə edərək əsərlərin bədii-estetik təsir gücünü artırmışdır. Xalq fikrinin ən gözəl ifadələrini əsərlərinə gətirməklə, əsərlərinin sənətkarlıq baxımından da qüvvətli çıxmasına çalışmışdır.

-Amanata xəyanət olmaz, başına dönüm.

-Ərənlər üçəcən deyib, əmi.

-Odur ki. atalar deyib: «yaxşılıq itməz».

-Atalar deyib: arxalı köpək qurd basar.

-Yaxşı deyiblər ki, yetimin fağırı olmaz

-Atalar deyib, «ziyanın yarısından …»

-Avazın yaxşıdır, oxuduğun Quran olsa. (45)

İ.Əfəndiyevin əsərlərində işlətdiyi atalar sözlərinin və məsəllərin bir çoxunu olduğu kimi deyil, onlara yaradıcı surətdə yanaşmaqla istifadə edir.

-Mən öhdəsindən yaxşı gələrəm. Ancaq dost-düşman var. Nə qədər də olsa, mənim bacım oğludur. Yuxarı tüpürürsən bığ, aşağı tüpürürsən saqqal. (46, s.45)

-Deynən, ay heyvan, dayım deyir ki, o mənim özümünküdür. Ətini yesəm də, sümüyünü atmaram. (46, s.52)

-Heç qardaş qardaşla bir yerdə dolana bilmir, ayaqları yer tutan kimi ayrılıb deyirlər, səninki səndə, mənimki də məndə. (46, s.55)

-Əgər üzüyü qaytarasıdırsa, bəs nəyi gözləyir? Dəvənin quyruğu yerə dəyəndə qaytaracaq?! (46, s.59)

-Keçəl suya getməz, söz əvvəlki idi. (46, s.118)

-Bir daş altdan, bir daş üstdən. (46, s.145)

-Yerində qulağı var, -deyirlər, -əmisi qızı da kiməsə danışdı. (46, s.146)

-Ə, toxun acdan xəbəri olmaz, dur, qonağa çörək qoy. (46, s.169)

-İlanın ağına da lənət, qarasına da, qaqaş, hamısı bir köpək oğludu, hamısı! (45, s.79)

-Atalar məsəlidir: El malına kəm baxanın gözünə ağ düşər. (46, s.91)

İ.Əfəndiyev yaradıcılığında atalar sözü və məsəllərdən istifadədə bir səciyyəvi xüsusiyyət vardır ki, bu atalar sözünün bir variantı kimi «İgidin başı qalda gərək», «İgiddən qada əskik döyül» kimi məsəllərin variantını yaratmışdır. Ona görə də, «Kürdobaya ayaq basmadı. Amma igiddən qada, canlıdan cəfa əskik deyil», - deyərlər:

-Hacı onu da fikirləşdi ki, qız ağacı, qoz ağacı hərə bir selbə atar, vermirlər, cəhənnəmə versinlər. (46, s.19)

Atalar sözləri xalq sözünün məna çalarlığının artmasına şərait yaradır. Yazıçı bu hikmətli el kəlamlarının dərin məna kəsb etdiyini duyaraq, onlara ehtiyatla yanaşmış və onlardan səmərəli şəkildə faydalanmışdır.

-Bala, vaxta ki, bizim obaya pənah gətirmisən, qorxma, qoymarıq başından bir tük əskik olsun. Ancaq gərək elə eliyək ki, nə şiş yansın, nə kabab. (46, s.11)

Yazıçı «Sənin sözün yerə düşüncə, qoy düşmənin gözü çıxsın» ifadəsini xalq ləhcəsinə uyğun şəkildə işlədir: «Sənin sözün sınınca, qoy düşmənin boynu sınsın». (45, s.153).

Elin qınağına gələn Qızyetərlə Mahmudun münasibətlərinə öz təfəkkürü ilə yanaşan yazıçı onlara xalqın bəslədiyi tənələri atalar sözünün qüvvəsiylə verməklə hadisələri daha qabarıq şəkildə əks etdirməyə çalışır: «El ağzı, çuval ağzı», «Elin gözü tərlan gözü». (45, s.152)

M.Rzaquluzadə atalar sözünün bədii əsərlərdə istifadə edilməsinə öz münasibətini bildirərək yazırdı ki, «Atalar sözü yazıçıya yalnız əsərin bədii təsirini artırmaqda kömək etməkdən qalmayıb, eyni zamanda onun özünün bədii təfəkkür tərzinin də inkişafına kömək edir. (113, s.9)

İ.Əfəndiyev yaradıcılığında bu atalar sözü və məsəllərə, geniş yer verməklə xalqımızın misilsiz sənət incilərindən, müdrik kəlamlarından əsərlərini bədii təsir gücünü artırmaq, qüdrətli ideya-məzmun əldə etmək üçün yararlanmışdır.

«Ayağını yorğanına görə uzat» məsələsi xalq içərisində yaşayan hikmətli ifadələrdən biridir. Yazıçı bu ifadənin köməkliyi ilə yaratdığı obrazın fikirlərinə oxucunu, tamaşaçını cəlb edir:

B ə d ə l (*hirslənir*) - Ə, Alı kişi, bir qoysana, hər nə oldu başlayırsan, «mümkündür». ...Adam gərək ayağını yorğanına görə uzatsın!

«Atayevlər ailəsi» əsərinin qəhrəmanı Xosrov Atayev ailə münaqişələri çərçivəsində təmiz adı ləkələndiyindən, ikinci həyat yoldaşı Dilşadın saxta məhəbbətinin şöhrət divarları arasında yalnız hiylə, fitnəylə yoğrulduğundan xalqın gözü qarşısında nüfuzu itdiyini gördükdə özü-özünü ittiham edir: «xalqın etimadını məlun bir qadının saxta məhəbbətinə qurban verən adamlar öz layiqli cəzasını almalıdır» qənaətinə gəldikdə qardaşı İldırım onu ruhdan düşməməyə, səhvini düzəltməyə çağırır və fikirlərini daha tutarlı, daha mənalı vermək üçün atalar misalına üz tutur:

«İgid odur atdan düşə atlana!
İgid gərək hər əzaba qatlana!» (42, s.294)

Bu atalar sözü və məsəllərdən xalq ədəbiyyatında olduğu kimi istifadə edərkən «Atalar deyib ki», «Məsəl var, deyərlər», «Deyərlər», ifadələrini də əsərə gətirməklə əsərin bədii təsir qüvvəsinin yüksəlməsində əhəmiyyətli rol oynamış olur. Aşağıdakı misallara nəzər salaq:

-Atalar deyib: «Arxalı köpək qurd basar». (45, s.11)

-Atalar deyib ki, ağıl yaşda döyül, başdadı. (45, s.15)

-Kərbalayı İbixan babam havayı deməyib ki, həmişə yüz ölç, bir biç. (46, s.21)

-Neynək, borclu borclunun sağlığını istər. (46, s.105)

Burada yazıçı personajların dilində istifadə etdiyi atalar sözü və məsəlləri daha qüvvətli vermək üçün onlara yeni ifadələr artırmış, bəzi sözləri dəyişdirmiş və bunlar əsərin daha oxunaqlı çıxmasına kömək etmişdir. Bu priyomdan istifadə edən bütün qüdrətli sənətkarlar kimi İ.Əfəndiyev də atalar sözlərindən və məsəllərdən yararlanmaqla, yaratdığı əsərlərdə ifadələrin çox olmasına, əsərlərinin zənginliyinə də fikir vermişdir. Onun əsərləri xalq yaradıcılığı ruhuna çox yaxındır. Folklordan gəlmə motivlər onun yeni ruhda yazılan əsərlərinin poetikliyini çoxaltmış, əsərlərinin mövzu və ideya zənginliyini artırmış, bir sənətkar kimi xalq tərəfindən əsərlərinin sevilməsiniə, oxucunun ruhunu oxşayan əsərləri üzə çıxarmasına şərait yaratmışdır.

Yazıçının əsərlərində obrazların dilində verilən «Tanrıya bəndəlik eləməmək» (46, s.34), «ağızlarına dil atmaq» (46, s.51), «başına ağıl qoymaq» (46, s.53), «sümüyünü it sümüyünə calamaq» (46, s.20), «qanıb-qandırmamaq» (46, s.21), «Tanrısına təpik atmaq» (46, s.98), «Ətəyində namaz qılmaq» (46, s.99), «yerini şirin salmaq» (46, s.162), «quşu qonmaq» (46, s.162), «gülləyə gəlmək» (46, s.36), «ipinin üstünə odun yığmaq» (46, s.58), «başını piyləmək» (46, s.58), «başına ip salmaq» (46, s.66) kimi ifadələr də atalar sözü və məsəllər kimi İ.Əfəndiyevin əsərlərinin dilinin rəvanlığına, səlisliyinə, axıcılığına, sənətkarlıq baxımından qüvvətli çıxmasına kömək edir.

Möhnət qocanın, Ərşadın, Fatma nənənin və digər obrazların dilindəki xalq danışıq deyimlərinə diqqətlə baxsaq, görərik ki, aforistik ifadələr, aşıq yaradıcılığı xalqın təvəkkürünün məhsulu olan digər nümunələrimiz əsərin bədii cəhətdən mükəmməl olmasında əsas rol oynayır. Bu deyimlər əsərin dilinin rəvanlığını, sadəliyini biçimləməklə yanaşı, onu xalq ədəbiyyatına yaxınlaşdırır, həm də əsərin bədii təsir gücünü artırmağa xidmət edir. Yaratdığı əsərlər də öz dil və üslubuna görə hamımıza doğmadır. Qələminin məhsulu olan əsərləri istər epik, istər dramatik səpkidə olsun, burada əsas cəhət onun əsərlərində xalq müdrikliyinin ön plana çəkilməsidir. O çatdırmaq istədiyi fikirlərin məna dərinliyində xalq düşüncəsinin sərrastlığına söykənir. Ona görə də onun əsərlərindəki deyimlər alqışlar, qarğışlar, idiomatik ifadələr folklorla pərçimlənib.

Dil, üslub bədii əsərlərin məna gözəlliklərini xatırladır. Canlı danışıq dilində ən böyük sənət əsərləri yaradan şair və yazıçılarımız Sabir, C.Məmmədquluzadə, S.S.Axundov və başqaları da əsərlərində xalq dilini ədəbiyyata gətirməklə həm dilimizin gözəlliyini qoruyub saxlamış, həm də onun yad ünsürlərdən təmizlənməsinə çalışmışdır. XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycan mətbuatında öz sadəliyi, gözəlliyi ilə şöhrət qazanan «Molla Nəsrəddin» jurnalının nəşri maarifpərvər ziyallılarımızın xalqımızın gözəl, sadə xalq dilinə olan hörmət və məhəbbətinin ifadəsi idi.

Dil sadəliyi, dil gözəlliyi, təbiiliyi həmişə onları düşündürmüş və onlar əsl sənət hikmətini, xalq dilinin incəliklərində, şirinliyində, ümumiyyətlə, canlı danışıq dilində axtarmışlar. Bunu təkcə öz yaradıcılıqları üçün kifayət saymamış, həm də təbliğ etmişdilər.

İ.Əfəndiyev də bu ənənələri davam etdirən görkəmli sənətkarlardan biri olmuşdur: «Ay Tarısız, yağlı ye, ürəyində qüvvət olsun dayna, armud qaxı kimi qurumusan». (46, s.25)

Əsərlərində işlədilən xalq deyimləri, ifadələr onun bədii dəyərini artırmaqla yanaşı, dil baxımından emosional və axıcı olmasını təmin edir. Bütöv bir obrazın daxili aləmini, müsbət xarakterlərini üzə çıxarmaq üçün eldən gələn bir kəlmə kifayətdir ki, qəhrəmanının daxili və xarici keyfiyyətlərini, mənəvi aləmini də üzə çıxarsın.

İ.Əfəndiyev Qarabağ torpağında böyümüş böyük sənətkarımız Q.B.Zakir, Ü.Hacıbəyov, Ə.B.Haqverdiyev kimi xalqının dilinə, zəngin mənəvi irsinə hörmətlə yanaşıb, onlardan istifadə etməklə yazılı ədəbiyyata zəngin töhfələrini vermişdir. Ədəbiyyatşünaslarımız həmişə canlı danışıq dilinə öz əsərlərində üstünlük verən kamil sənətkarlarımızın əsərləri haqqında qiymətli fikirlərini söyləmişlər və bunu yüksək qiymətləndirmişlər.

İ.Əfəndiyev də bu qəbildən olan sənətkarlarımızdandır. Yazıçı əsərlərinin dilini danışıq dilinə, ruhuna uyğun şəkildə qurir:

«Anam dedi:

-Qalırsan qal, amma dədəyin acığı tutacaq.

Nənəm dedi:

- Mağıl dayna… tay dabanıçatdaq Xəlsənin oğlunun acığı tutdu, dünya dağılacaq, uşağın üzünü o qədər danlayır ki, evdən-eşikdən də perikir». (45, s.73)

və yaxud:

«-Hə,- deyə Eyvaz dayı davam etdi, - qaça-qaça qanrılıb gördüm ki, nər yerə çöküb yapıncını dizləyir, sonra qalxıb yenə dalımca cumdu. Bayramın canı üçün, əyər əmioğlu Zülfüqargilin pəyəsi yaxında olmasaydı, əlindən qurtara bilməyəcəkdim, elə məni haxla-haxlada özümü saldım pəyəyə. Gəlib pəyənin qapısında yerə xıxıb başını qoydu pəyənin qapısının düz ağzına. Axırda uşaqlar pəyənin dalından külfəni genişləndiriblər, ordan çıxmışam». (45, s.197)

Eyni zamanda yaratdığı obrazların dilində işlətdiyi ağız ədəbiyyatının hər qoluna, budağına müraciət edərkən mətləbə uyğun olanları seçib sanki hər cümləsinə memar gözüylə baxır, qələmini canlı sənət əsərinin fırçasına çevirir.

Yaqub İsmayılov «İlyas Əfəndiyevin yaradıcılıq yolu» əsərində yazır ki, «Geriyə baxma, qoca» əsərində təsvir-təcəssüm formasından tutmuş ümumi ruha qədər əfsanə, rəvayət və nağıldan faydalanma xüsusiyyətinə qədər folklorla təbii bir bağlılıq vardır». (72, s.140)

Məsələn: «Xanım arvadla Damlıca mülkünün əhvalatı», «Cavan Bəhramla gözəl Fatmanın əhvalatı», «Qızyetərlə çoban Mahmudun əhvalatı necə nağıl oldu?» və s. Yazıçı bu əsərdə hadisələri «indi sizə kimdən deyim, Xanım arvadın qızların-dan»

və yaxud:

«...Qara Əmrah Xanımın ən gözəl qızı Fatmaya elçi göndərdi. ...Xanımı od götürdü, elçiləri söyüb qovdu, ancaq Qara Əmrah bir könüldən min könülə qıza aşiq idi, dedi öldü var, döndü yoxdu»

və yaxud:

«Gün «Ziyaratın» üstündən o tərəfə aşanda Fatma da, bacısı Bəyazla zərxara geyən, müşk-ənbər saçan qız-gəlinlə Cıdır düzündə seyrə çıxmışdı. Bir də gördü ki, bir oğlan gəlir, yemə, içmə, tamaşasına dur. Fatma ürəyində: «İlahi! Bu, Həzrət Yusifdi, kimdi», -deyir». (45, s.17)

Folklor nümunələrindən olan «Əsli və Kərəm» dastanında deyilir: «Kərəm ilə Sofi gecəni keçirib səhər tezdən Qars tərəfə yola düşdülər. Dərələrdən sel

kimi, təpələrdən yel kimi gedib günlərin birində Qars şəhərinə çatdılar. Burda bir qarıya qonaq oldular». (39, s.36)

və yaxud

«Həcər on beş yaşına çatıb yetkin bir qız olmuşdu. O, göyçək, kök, totuq bir qız idi. Nəbi Dülüsdən qayıdan gündən, bir gönüldən min könülə Həcərə vurulmuşdu». (80, s.4)

Yazıçının qəhrəmanı Qızyetərin gözəlliyi də ənənəvi - nağıl formullarına oxşar şəkildə söylənilir. «Allah Qızyetərə bir gözəllik vermişdi: böyüyüb ərkən yaşına çatanda aya deyirdi sən çıxma, mən çıxıram, günə deyirdi sən çıxma, mən çıxıram. Qarılar ona rast gələndə «Ay batmış, -deyərdilər, -laləni niyə yanaqlarına sürtüb qızartmısan?!» Amma Qızyetərin yanaqları elə qüdrətdən lalə tək alışıb yanırdı, boyu təzə pöhrələnmiş sərv ağacı idi. El Qızılboğaz yaylağına qalxanda, Qızyetər səhəng götürdü, «Eşşək bulağı»na enəndə deyərdin bəs o yandan bəri maral gəlir». (45, s.150)

Yazıçının xalq ədəbiyyatı üslubunda köklədiyi bu təsvir obyektinə münasibətini bildirən Yaqub İsmayılov yazır: «Duyğu, zövq incəliyinə, sadə xalq təfəkkürü və canlı ifadə tərzinə dair bu cür parçalar romanın ayrı-ayrı yerlərində işlədilmiş bəzək, naxış elementləri deyil, bunlar mahiyyətcə qaynayıb-qarışdığı ümumi mətnin lirik-emosional üslub axarını səciyyələndirməyə köməkedici vasitələrdəndir». (72, s.141)

və yaxud:

«-Qardaşın gedib şəhərdə söz öyrənib. Az-az, yəni mən Burcalının qızıycan olmuyacam? O gedəndə heç on dörd yaşı tamam döyüldü. Ay canıyanmış, sən qardaşını başa sal, dayna. Denən, Sərvinaz uşaq niyə olur? Bir də denən ki, mən iki il necə gözləyim? İnsafı olsun. Özü də bax, o mamam oğlundan özünü gözləsin. Cinli şeydi... De ki, Nuru mənim canım-ciyərimdi. Bax, mənim sözlərimin hamsını qardaşına çatdırmayan ərsiz qalsın». (46, s.48)

Fikrin sadə və aydın ifadəsi, obrazların dilinin sadəliyi, şirinliyi, obrazın istəyinin, düşüncəsinin xalq danışıq dili üstündə kökləməklə sənətkarlıq cəhətdən qüvvətli sənət əsəri yaratmaq İ.Əfəndiyevin dilinin al-əlvanlığından, gözəlliyindən xəbər verir. Xalq içərisində işlənən ifadələrin obrazların dilində yeni bir səpgidə verilməsi yazıçının yaradıcılığında istənilən qədərdir.

«- Eyvaz dayı asta - asta deyirdi:

-Başa düşmürəm bu Şura hökuməti çoluq-çobanı, lütləri niyə eləyib töhfə təbərcehi.

Dayısının sözləri Ərşadın xətrinə dəydi:

-Əşi, dayı, -dedi, -lüt olanda nə olar. Varlılar analarının qarnında vəzir olmayıblar ha. Elə götür o nəçərnik Veysəli. Dünənəcən Kərim ağanın nökəri döyülmüş?! Amma indi əməlli-başlı nəçərniklik eləyir. Özün bilirsən ki, çobançoluğun içində oğullar var, meydan versən lap Koroğlu kimi də ad çıxarar...

-Nahaq yerə sən kolxozun beş-on qoyunundan ötrü bizi o qaçağın obası ilə qanlı saldın.

Ərşad hövlanak dedi:

-Kolxozun malı yağı malı döyül ki? Bizim özümüzünküdü dayna. Qaçaq köpəkoğlunu vurmayıb qoyaydım, qarət eləyib aparaydılar? Biz də bir kişiyik, ya yox». (46, s.128)

Buradakı hadisələr də adi danışıq dilində verilir. Bu kiçik parçada xalqın həyatı, yaşayışı, obada baş verən hadisə ilə bağlı söhbət yazıçı təfəkküründən süzülür. Obrazın daxili aləminin, əhval-ruhiyyəsinin xalq danışığı üslubunda verilməsi əsərlərinin daha oxunaqlı olmasına imkan yaradır.

İ.Əfəndiyev obrazlarının hər birini öz dilində danışdırır. Burada bəlkə də elə ifadələr var ki, ilk dəfə elə İ.Əfəndiyev yaradıcılığında yazılı ədəbiyyata gəlib: «Qardaşın güldü, üz qoy ürəyinin başına! Mən ölüm, ona yaz ki, ölürəm səndən ötrü, tez apar məni». (46, s.48)

və yaxud:

«-Deyəsən, hökumət malı mala qatacaq…Surxay ona da demişdi ki:

-Əşi, elə elə ki, camaat arasına səs-küy düşməsin. Özünü orta kəndli dərəcəsində saxla.

- Necə yəni, orta kəndli?

- Yəni qırx-əllidən artıq qoyunun olmasın. Bir dəvə, bir at…» (46, s.53-54)

Bir zamanlar «ortabab» kəndlilər XX əsrin əvvəlində mövcud idi. Xalq öz arasında ortabab sözünün orta kəndli kimi çox sadə, canlı danışıq dilində necə işlətmişlərsə İ.Əfəndiyev də o sözü olduğu kimi ədəbiyyatımıza gətirmiş, bir

növ sözə vəsiqə vermişdir. «Babat», «qoskontrol», «podsud» kimi sözlər də yazıçının qəhrəmanlarının dilində işlənir və əsərlərin məna dəyərini artırır, bədiiliyini qüvvətləndirir. Obrazların fərdi nitqi, idiomatik ifadələrdən, frazeoloji birləşmələr-dən geniş şəkildə istifadə yazıçının əsərlərinin də dilinin zənginliyini artırır.

Yazıçı hər surəti öz təbiətinə uyğun şəkildə danışdırır. Ötkəmlik, mərdlik, qorxmazlıq, sərtlik, əhval-ruhiyyəsinə məxsus olan Ərşadın işlətdiyi ifadələr, xalq deyimləri, folklor nümunələri, əsərin daha axıcı və təbii bir dillə yazılmasına kömək etmişdir:

-Dayım dünyagirin biridi. Hacı Tanrıverdi dövlətlidi deyin səni verir onun matışkasifət oğluna. (46, s.32)

-Bax, dayıqızı, budur deyirəm, əgər məni qoyub ona getsən, qan su yerinə axacaq! (46, s.33)

-Onu-bunu bilmirəm, dedim, mətləbimi eşitdin, -iki ayağını dirə bir başmağa, deynən ki, ona getmirəm, vəssalam. (46, s.33)

Bu ifadələr, deyimlər yazıçının yaradıcılığının orijinallığına xidmət edir. Obrazların diliylə verilən hər bir ifadə xalq ifadələrinin bəhrəsidir, yeni obrazlar silsiləsinin sənətə gətirilməsinə kömək edən bədii priyomlardandır. Xalq yaradıcılığından sənətkarların necə, hansı vasitələrlə bəhrələnməsi yaratdığı əsərin bədii dəyərinin gücündədir, milli ruhunun qüvvəsindədir.

Ərşadla Sərvinazın («Üçatılan» romanı) məsələsi, bu barədə ortalığa çıxan narazılıqlar, obrazların daxili əhval-ruhiyyəsi, baş verən məişət-həyat hadisələri bu tərəkəmə obasının canlı danışıq dilində söylənilir.

Bu xalq deyimləri Ərşaddan başqa digər surətlərin də dilində işlədilir. Folklorla bağlılıq Ərşad, Sərvinaz, Nuru, Eyvaz, Şahmar və digər surətlərin nitqində fərdiliyi gücləndirir və burada işlədilən xalq nümunələri surətlərin dilinin sadəlikdən çox yığcam, axıcı olmasına, əsərin bədii təsir gücünə də xidmət edir.

-Yaxşı, yaxşı, sən atayın goru, sən də belə deyib ağızlarına dil atma. (46, s.51)

-Az, lap bu gecə onu tapdır, denən şeytanın daşını ətəyindən töksün. (46, s.52)

Yazıçının dilinin bu qədər su kimi axıcı, sadə olması onu xalq arasında yayılan deyimlərdən, alqışlardan, qarğışlardan, atalar sözü və məsəllərdən, idiomatik ifadələrdən yaradıcı surətdə yararlanmasıyla yanaşı, öz nəsr əsərlərini şifahi xalq ədəbiyyatı ənənələri üstündə kökləməsində, dastan, nağıl, əfsanə ruhunda qələmə almasın-da, oxucuya çatdırmasındadır.

Ən böyük nasirlərimiz S. Rəhimov, Ə. Vəliyev, M. Hüseyn və başqaları kimi, onun da əsərlərində xalq ədəbiyyatıyla köklü surətdə bağlılıq çoxdur. Bu «Üç atılan», «Geriyə baxma, qoca» və başqa əsərlərində daha güclüdür. Bu əsərlər bir-birinin davamı kimi, bəlkə də eyni vaxtda bir elin, camaatın xalq sənətinə yaxın bir formada qələmə alınmış qüdrətli sənət əsərləri sırasında özünə layiqli yer tutmuşdur.

## III FƏSİL

## İLYAS ƏFƏNDİYEV VƏ MİFOLOGİZM

Hər bir xalqın maddi və mənəvi xəzinəsinin əsasını xalq yaradıcılığı, folklor təşkil edir. İlk anlardan onu özünün primitiv təfəkküründə yaşadan, sonralar isə qayalara, daşlara həkk edərək öz düşüncə, inam tərzinə uyğun olaraq mifoloji mənəvi dünyamızın əsasını qoyan əcdadlarımız əsrlərin sınağından çıxaraq bu günümüzə qədər gəlib çatmış zəngin sənət xəzinəsi yaratmışdır. Bütün dünya xalqları kimi Azərbaycan xalqının da öz inkişafının ilk dövründə formalaşan mifoloji təsəvvürləri, sonralar müxtəlif dövrlərdə özünün yüksəliş mərhələlərini keçmiş və öz zənginliyi ilə dünyada şöhrət qazanmışdır. «Mifi nə təbiət, nə toplumsal (ictimai) fikir dünyası, nə də yarandığı gündən yaxşı gün-dirilik üzünə həsrət qalan insan təkbaşına yaratmamışdır. İbtidai insan təbiətlə dost, eləcə də yağı kimi qarşılaşdıqca təbiətlə onun arasındakı ziddiyyətdən, anlaşmadan ilk inam və sonra mif yaranmışdır…İlk inam, ilk mif isə öz növbəsində doğulan gündən bətnində istər-istəməz ibtidai, ilkin toplumsal-fəlsəfi fikri yaratdı». (118, s.20)

Tarixin müxtəlif mərhələlərində yaşayan insanların həyatı, məişəti, daxili hiss-həyəcanları, mənəvi iztirabları, sevincləri folklorun bütün nümunələrinə həkk olunmuşdur. Kifayət qədər sirrini aça bilmədiyi kainat-həyat məsələləri, həyatın bir-birinin əksi olan ziddiyyətləri insan şüurunda, təfəkküründə mövzu

və məzmun yenilikləri yaradırdı və bu da soyköklərimizin əsasında duran türk dilli xalqların mifologiyasında öz əksini tapırdı. Tədqiqatçılar miflər toplusunu hər şeylə maraqlanan insan zəkasının inkişafının erkən mərhələlərində doğulan və dünyanın izahını sadəlövhcəsinə canlandırılmış şəkildə hifz edən xalq fantaziyasının nümunələri adlandırırlar. (16, 54, 89, 123, 124, 125, 126, 127, 160, 163, 178)

Rus tarixçisi və folklorşünası A.S. Tokaryev yazır ki, «Mif hər şeydən əvvəl dünyanın və insanın yaranması haqqında antik, Bibliyadan gələn və başqa qədim «nağıllar»dır. Əski allahlar və qəhrəmanlar-yunan və roma allahları, qəhrəmanları üstünlük təşkil edir-haqqında poetik, primitiv, qəribə hekayələrdir. (174, s.11)

Azərbaycan ədəbiyyatının elə bir janrı yoxdur ki, miflərdən yararlanmasın. Mifi ulu əcdadlarımız yaratmışdır. Azərbaycan xalqının mifləri ilkin ədəbi-tarixi abidələrdə, dini təsəvvürlərdə, vətənimizin tarixi, mədəniyyəti ilə bağlı yunan, ərəb, hind, Çin, İran mənbələrində, folklor nümunələrimiz olan nağıllarda, əfsanələrdə, dastanlarda və digər qaynaqlarımızda, yazıya köçürülmüş eposlarımızda, qədim dövrlərdə yaşamış, yaratmış şairlərimizin, böyük mütəfəkkirlərimizin əsərlərində yaşayır. Xalqımızın bu dünyanın ən qədim sakinləri olduğunu sübuta yetirən mifləri, Azıx mağarası, qobustan qayalıqları, daş qayalar üzərində ulu əcdadlarımızın yonduqları günəş, insan, heyvan şəkillərində yaşayır. Əmək alətləri üzərindəki mif motivlərini əks etdirən işarə və naxışlar sonralar nənə-babalarımız tərəfindən xalçaların, ev əşyalarının üzərinə köçürülmüşdür. Eyni zamanda musiqiyə, şerə, sənətə hər şeydən çox üstünlük verən xalqımızın yaratdığı «Avesta»da və digər qiymətli sənət nümunələrində toplanmışdır.

Mif ilk insanların dünya, həyat, ölüm, yaşayış və ümumiyyətlə, kainatda baş verən hadisələrə bədii baxışıdır: «Mif hərfi mənada dünyanın və insanın yaranması barədə əfsanələr, erkən etnosların tanıdığı dünyanı idarə edən allahlar, tanrılar, xatunlar haqqında hekayətlər, dünyanın bu günü və sabahı, dağılıb yenidən yaranması barədəki bədii yaradıcılığıdır». (95, s.129) Ona görə də şifahi xalq ədəbiyyatı kimi yazılı ədəbiyyatın da elə bir janrı yoxdur ki, miflərdən yararlanmasın. Ən kiçik folklor janrları, çoxşaxəli süjetlərə malik

dastanlar, «Avesta», «Dədə Qorqud» mifizmi özündə yaşadır. Yazılı ədəbiyyat özü miflərlə zəngindir və klassik ədəbiyyatımızın ən qədim nümunələrində bunu görürük. Böyük sənətkarlarımızdan Nizami, Xaqani, Qətran Təbrizinin əsərlərinin başlanğıclarına (minacat, tovhid, nət, sitayiş, yaradan haqqında) nəzər saldıqda dünyanın yaranması haqqında ən qədim inamlarımıza da diqqət etməliyik. Bu böyük sənətkarların yaratdıqları əsərlərin süjetindəki hadisələr miflərlə zəngindir.

İ.Əfəndiyev yaradıcılığında da mifik elementlərinin zənginliyi bu xalqın çox qəditm ənənəyə malik olduğunu göstərir. Dünyanın bir çox tədqiqatçıları mifologiyanı araşdırarkən xalqımızın mifologizminə də yer ayırmışlar. F.R.Dits yunan Siklopunu Təpəgözün törəməsi kimi təqdim edirdi. Vilhelm Qrim oğuznamənin miflərə söykənməsini təsdiqə çalışırdı. E.B.Taylor «İbtidai mədəniyyət» əsərində Günəş miflərindən danışarkən massagetlərin (Tomrisin mənsub olduğu şimali Azərbaycan ərazisində yaşayan qədim tayfanın) rituallarına, kultlarına müraciət edirdi. (173, s.351).

Freyzer «Qızıl budaq» və digər əsərlərində Azərbaycan türklərinə aid bir sıra mif sistemlərininin mövcudluğundan bəhs edir. Bütün bunlar Azərbaycanın zəngin mif mətnlərinə malik olduğunu göstərir və İ.Əfəndiyevin yaratdığı əsərlərdə bu mətnlərlə zəngindir.

Azərbaycan xalqının bədii fikrinin ən qiymətli abidələri olan əsatirlərimizdə, nağıllarımızda, əfsanələrimizdə və digər irili-xırdalı bütün folklor nümunələrimizdə Azərbaycan xalqının milli varlığını əks etdirən həqiqətlər çoxdur. Dünyanın, həyatın mənşəyi, təbiət hadisələri, allahlar, ruhlar, əfsanəvi qəhrəmanlar haqqında insanların ən qədim təsəvvürlərini özündə əks etdirən əsatirlər, miflər dünya xalqlarının, eləcə də Azərbaycan xalqının ədəbiyyatında, folklorunda, incəsənətində yaşamaqdadır. Fetişizm, totemizm, animizm mifologiyanın ilkin formaları olmuş və bu dövrlərdə qədim insanlar baş verən təbiət hadisələrini, əşyaları, heyvanları, bitkiləri ruhlarla bağlamış, onları canlı hesab etmişlər və bu canlandırma meyli xalqın bədii təfəkkürünə də daxil olmuş və yaradıcılığında özünə möhkəm yer tutmuşdur.

Mif yaradıcılığında insanın iradəsindən asılı olmayan təbiət hadisələri və bu hadisələrin qarşısında insanın aciz qalması, qorxu hissi keçirməsi də əsas

amillərdən biri olmuşdur. Bu qorxu hissinin nəticəsi insanın təbiət hadisələrinə müxtəlif don geydirərək onu özü üçün ilahiləşdirməsi oldu.

Onun qələmə aldığı insanların mifində həmin insanların mənsub olduğu xalqın psixologiyası, adət-ənənələri, ictimai-siyasi, dini-əxlaqi görüşləri, dünyaya baxışı yaşayır.

İstər əfsanələrimiz, nağıllarımız, istərsə də başqa folklor nümunələrimizdəki əksliklərin ziddiyyətinin ön plana çəkilməsi və baş verən həyati hadisələrin bu fonda təcəssümü, duyğu və düşüncələrin təbliği miflərimizdə, ən möhtəşəm abidələrimizdə, İlyas Əfəndiyev kimi böyük sənətkarlarımızın əsərlərində yaşayır. Hansı dövrdə yaşamasından asılı olmayaraq Azərbaycan ədəbiyyatının sənət korifeyləri həmişə kürəyini milli xalq ədəbiyyatına-folkloruna söykəyərək ən qüdrətli sənət əsərini yaratmış və yaratdıqları bu dünya mədəniyyətinin nadir incilərində milli mədəniyyətimizin köklərini qoruyub saxlamışlar.

Yazıçının qəhrəmanları bəzi məsələlərin həllini tapa bilmədikdə gecələr baş verən hadisələri cinlərlə, özlərinin mifik obrazlarının hərəkəti ilə bağlamaqla axtardıqları sualların cavabını tapırdılar. «Cin dərəsi»nin cinlərinin üstünə atılan bu «böhtan»da ən maraqlısı bu idi ki, oba camaatı belə bir qənaətə gəlmişdi ki, «tanrı razı döyül Sərvinaz Hacının gəlini olsun. Kimi deyirdi, Eyvazın əməlidir, allah çıxarır qabağına… Uzun götür-qoydan sonra bu qərara gəldilər ki, qoyunları qaytarıb gətirən «Cin dərə»sindəki cinlərdir». (46, s.30)

İ.Əfəndiyev qəhrəmanlarının şüurunda kök salmış bu mifik obrazlar, onların xalqın yaddaşında buraxdığı silinməz izlərin kökü qədim mifologiyamızla və bu mifologiyanı yaşadan nağıl-əfsanələrimizlə bağlıdır. Yazıçının yaratdığı əsərlərin estetik bədii duyumunda bunlardan istifadə etməklə qələmə aldığı mövzuya oxucu marağını artırmaqla yanaşı gözəl bədii sənət əsərləri yaratmışdır.

Yazıçının əsərlərindəki «cinlər» insanın köməkçisi kimi nağıllarımızda təbliğ olunursa, xalqın etiqadında həm yaxşılığın, həm də pisliyin icraçıları kimi yaşayır. Cinlər kimi şeytan da diqqətimizi cəlb edən mifik obrazdır. Nağıllarımızdakı Şeytan obrazları bəzən qəhrəmanların köməkçisi olurlar. Belə Şeytan obrazına «Vəfalı at», «Keçəl» və digər nağıllarda rast gəlmişik.

Mifoloji dünyagörüşümüzdə sonralar nağıllarımızda öz yerini Divə verən Şeytan surətinə, ümumiyyətlə, nağıllarımızda az təsadüf olunur, başqa sözlə desək, şeytanın iştirak etdiyi nağıllar bizə az gəlib çatmışdır. Görünür Şeytanla bağlı nağıllar lap qədim zamanlarda yarandığından, çoxu xalqımızın hafizəsindən silinib getmişdir.

İ.Əfəndiyevin müraciət etdiyi Şeytan obrazı onun bütün yaradıcılığında tez-tez cildini dəyişib insanlar arasına nifaq salan bir obraz kimi təqdim olunmur. Biz onun əsərlərində eyni zamanda daha qədim dövrün məhsulu olan, yəni insanların qayğılarına şərik olan, çətin anda onlara kömək edən yaxşı-xislətli Şeytan obrazına da rast gəlirik. Nağıllarımızda da bunu görürük. Orada iştirak edən surətlər də cilddən-cildə girməyi bacarırlar.

«Vəfalı at» nağılında rast gəldiyimiz Şeytan surəti xalqımızın yaratdığı mifoloji surətdir. O qəhrəmanlara pislik etmir, insanlardan ağıllı da deyil. Məlik Məhəmməd ağıllı hərəkətləri ilə Şeytana qalib gəldikdə Şeytan tutuquşunu ona verib, ondan ayrılanda da xeyirxahlıqla ayrılır və Məhəmmədə deyir:

«-Bu quş bütün sehirləri bilir. Sənə qismət imiş. Apar ürəyinin yağını buna yedir. Sənə kömək eləyəcək, səni ölümdən qurtaracaq.

Məlik Məhəmməd quşu ondan alıb qəfəsə saldı. Şeytanla salamatlaşıb yola düşdü». (18, s.113)

A.Nəbiyev bu nağıllardakı surətlərə, baş verən hadisələrə münasibətini bildirərək yazır: «Xalq fantaziyasının qüdrəti elə bir möcüzə yaratmışdır ki, bu möcüzə insanı sehrli, sirli-düyünlü bir aləmə aparır…insanlara fəlakət gətirən əcdahalar, su başında dayanıb, gündə elin bir gözəl qızını udan kəlləgözlər, qorxunc divlər, minbir felli küpəgirən, küpəminən qarılar…haradan gəlmişdi onlar, kim yaratmışdı onları?…» (94, s.3-4)

Nağıllarda həyat eşqi güclüdür, yaşamaq-yaratmaq hissi xalqın fantastik zəkasının gücündədir. Xalq istədiyi həyat həqiqətini əldə etmək üçün ölüsünü də dirildə bilir. İ.Əfəndiyev də qəhrəmanını-qəlbi, izzəti-nəfsi tapdalanmış, məhəbbəti oyuncaqlara çevrilmiş Qızyetəri aparıb pərilər məclisinə çıxarır, Pəri və Şeytanla görüşdürür. Pəri obrazı mifologiyamızda çox qədimdir. N.Xəlilov yazır ki, «Pəri» sözünün lüğəti mənası gözəllik olsa da «pəri» əslində sehrkar, cadugər, əfsunçu, cin, şeytan, əcinnə deməkdir». (70. s.67)

Buradakı şeytan Pəri xanımın buyruğunu yerinə yetirən Kor Şeytandır. O əmrləri, buyruqları yerinə yetirir və qəhrəman onu da bu ədalətsiz dünyanın haqsızlıqlarından intiqam almaq üçün Qızyetərə köməkçi verir. Sevgililərinə xəyanət edənlərdən intiqam almaq istəyən Qızyetərin köməkçisi Kor Şeytan olur:

«Qızyetər dedi:

-Nə qədər bu dünyada sevgililərinə xəyanət eliyən oğlanlar var, ürəyim soyumaz. Dünya durduqca mən onlardan intiqam almaq istərdim.

Pərilər padşahı olan o gözəl qız Kor Şeytanı çağırtdırıb dedi:

-Bu gündən sən bu arvadın ixtiyarındasan, nə əmr etsə yerinə yetirərsən». (46, s.156)

İ.Əfəndiyevin əsərlərindəki Div, Şeytan, Cin obrazları dini-mifik görüşləri özündə yaşadır. Cin, şeytan «Quran»da Allahın oddan yaratdığı əfsanəvi varlıqlar kimi göstərilir. Şeytan Allahın iradəsinə qarşı çıxan obrazdır. Tanrı Adəm peyğəmbəri gildən yaradıb, ona can verir, bir çox sirləri öyrədir və mələklərinə buyurur ki, ona səcdə etsinlər. Allahın rəhmli əlilə yaratdığı məxluqa Şeytan səcdə etməkdən boyun qaçırır və buna səbəb də özünün «odun yanar cövhərindən» yarandığını və buna görə də qara gil tərkibindən yaranan Adəmdən üstün olduğunu bəhanə gətirir. Allah onu behiştdən qovanda Şeytan Qiyamət gününədək ona ömür verməsini xahiş edir. Onun bu istəyinə əməl edən Allahdan intiqam alacağını. Adəmi və onun nəslini yolundan azdıracağını bildirir. Allah isə Şeytanı və onun yoluna düşənləri cəhənnəmlə hədələyir. Allah Adəmlə onun arvadı Həvvaya behiştdə yer verir, onları Şeytandan uzaq olmağa çağırır.

«Adəmlə Həvvanın mehribançılığına dözməyən Şeytan onların qılığına girir və Allahın onlara qadağan etdiyi Ağacın meyvəsindən dadmağa təhrik edir və onları aldadır ki, «Allahın bu ağacı sizə qadağan etməsinin yalnız sirri bundadır ki, əgər ondan istifadə etsəniz ya mələk olacaqsınız, ya da əbədilik behiştdə qalacaqsınız» Şeytanın hiyləsinə uyub Adəm və Həvva o ağacın meyvəsindən daddılar. Allah Təala onları behiştdən məhrum etdi və yer üzündə məskən salmağı əmr etdi. Tanrı Adəmlə Həvvaya xatırlatdı ki, onlarla Şeytan

arasındakı düşmənçilik davam edəcəkdir. Buna görə də onun fitnə-fəsadına uymasınlar. İlahi göstərişinə əməl etsinlər». (87, s.6-7)

Şeytan öz tarixi-mifoloji inkişafı prosesində rolunu dəyişir, hiyləgər donunu geyinir. Burda da qəribə mülahizələrə inanılmalıdır. Şeytan bir zamanlar öz xeyirxahlığı ilə nağıllarda yaşamışdırsa da sonralar bəzi nağıllarımızda zaman keçdikcə insanların qəlbinə girib onları düz yoldan döndərib pis işlər görməyə cəlb edən bir mifik obraz kimi də nağıllarımızda tanınmışdır. İ.Əfəndiyev də öz əsərlərində hadisələrə uyğun şəkildə bundan istifadə etmişdir. Yazıçı Şeytanın cildlərə düşməsinin, bəzi insanların şeytan xislətli xarakterə malik olmasının səbəbləri üzərində oxucunu düşünməyə vadar edir. «Mən birinci dəfəydi ki, «şeytanlamaq» sözünü eşidirdim və təəccüb edirdim ki, nə üçün insanlar şeytana çevrilir. Fatma nənəm Kor Şeytan haqqında mənə çox nağıllar danışmışdı. Fatma nənəm demişdi ki, Şeytan da bir zamanlar mələklərdən biri imiş. Bir gün Allahın ona qəzəbi tutur və Şeytanı lənətləyərək qovur. İndi o vaxtdan bəri Şeytan da allahın yaratmış olduğu insanlara daima pislik eləməklə, ondan intiqam alır». (47, s.498) Yazıçının qəhrəmanı da belə düşünür.

Qəlbində Şeytan xofu gəzdirənləri, insanlar arasına çaxnaşma salanları, hətta qan töküb faciələr törədənləri Şeytan sifətli əməllərindən uzaq olmağa çağırır.

«Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» povestində də yazıçı kor Şeytanın surətini yaradır. O, saf, məsum qəlbli Gülsənubərin qəlbinə yol tapmağa çalışır. Ancaq nifaq, ədavət sevən şeytan bir anlıq eşqi, məhəbbəti təhqir olunmuş qızı həqarətli əməllərə təhrik edir. Ailəsinə, iki övladına sadiq qalan Sadıqcan Gülsənubərə, onun şərəfinə, adına, nəsl-nəcabətinə hörmətlə yanaşaraq sevgisini rədd edir. Bundan tamamilə sarsıyan Gülsənubərin qəlbində intiqam hissləri oyanır. O, bir tərəfdən dəhşətli leysan yağışından aldığı zədədən, o biri tərəfdən Sadıqcan tərəfindən rədd edildiyindən həyatdan bezir və özünə qəsd etmək istəyir. Yazıçı qəhrəmanının qəlbinə dolan bu pis niyyəti nağıllar dünyasının şər qəlbli şeytanıyla bağlayır. Öz ağlı, savadı, qabiliyyəti ilə seçilən və yazıçının özünün hörmət və məhəbbətlə yanaşdığı Gülsənubərin beynində dolaşan fikirləri şeytan, iblis əməliylə bağlamaqla onu

qorumağa çalışır. Məsum, saf qızcığazın qəlbinə girən kor şeytan onu faciəyə sövq edir: «Sən Xan qızısan! Qara camaat içindən çıxan o tarzən səni rədd edib təhqir etdi, sənin məhəbbətini alçaltdı. O, sənin ən ağır intiqamına layiqdir. Hamısı birdir. Sən onsuz yaşaya bilməyəcəksən, o səni sehrləyib. Öldür özünü. Özün də yaz qoy ki, atangil bilsin sənin ölümünə səbəb onun eşqidir». (40, s.28)

«Lənət sənə, kor Şeytan» kimi ifadələr yazıçının qəhrəmanlarının dilindədir və xalq arasında da yaşamaqdadır. Bunun köklərinin mifizmlə sıx bağlı olduğunu bilirik. Yazıçı da xalqımızın yaratdığı mənəvi dəyərlərdən yararlanır və əsərlərində xalq arasında işlənən «Kor Şeytan» ifadəsindən və bu mövzuda miflərdən yararlanmaqla hadisələri bədii cəhətdən daha təsirli verməyə çalışır.

Mifoloji dünyagörüşümüzdə, sonralar nağıllarımızda öz yerini Divə verən Şeytan surəti xalqımızın folklorunun zəngin mirasıdır. Bir müddət insanların mifik təfəkküründə «at oynadan» Şeytan «Çıraqlı İsa» nağılında odla da bağlı bir surət kimi diqqətimizi cəlb edir. Bu, nağıllarımızda azdır və bəlkə də xalqımızın dini dün-yagörüşünün əsasında duran atəşpərəstlik etiqadları ilə bağlıdır. Çünki İ.Əfəndiyevin qəhrəmanları da çox vaxt oddan yanıb qaralmış «tirlər arasından» qorxunc bir vahimə yayan aləmi görürdü.

İ.Əfəndiyevin qəhrəmanının beynində dolaşan Cin-Şeytan haqqındakı fikirlər deyildi. Yatdığı damın, ocağın hisindən qaralmış «nəhəng tirlərə baxarkən, beynində dolşdırdığı vahiməli duyğular idi. O nəhəng tirlərin uçub onların üstünə töküləcəyindən qorxmurdu. O, qaranlıq aləmdən o tərəfdə axtardığından vahimələnirdi. Onun şüurunda eşitdiyi nağılların ikili dünyası yaşayırdı və o sirli, möcüzəli dünyanın həqiqət olub-olmamasından eymələnirdi və nağıl qəhrəmanlarının məskəni bilirdi.

İ.Əfəndiyevin qəhrəmanının qara tirlər arasında gördüyü qüvvələr cinlərdir. Cinlər və ya tüstüdən ibarət bir məxluq olduğuna görə öz şəklini dəyişə bilir. Cinlər yer ilə göyün aşağı təbəqələri ilə kifayətlənməyib göyün yeddinci təbəqəsinin sərhəddinə qədər qalxmağa cəsarət edirlər. Lakin mələklər çoxlu daş atıb onları oradan qovurlar». (95, s.210)

Yazıçının qəhrəmanları miflərdə qoyulan suallara cavab axtarır; dünya necə yaranmışdır? İnsanlar niyə doğulur və sonra ölür? İnsanların xoşbəxtliyinə mane olan qüvvələr haradan gəlmədir? Cinlər niyə Eyvaz dayının qızı Sərvinazın Nuruya ərə getməsinə mane olur? Bəhlulun anası niyə ölüb ki, o ögey ananın umidinə qalıb? Bu və ya digər hadisələri baş vermə səbəblərinin kökləri axtarılır. Hər şeyi əhatə edərək, izah etməyə çalışan mif İ.Əfəndiyevin yaratdığı qəhrəmanların təfəkküründə, dünyagörüşündədir. Ətrafda baş verən hadisələrin mahiyyətini anlamağa çan atan («Geriyə baxma, qoca») gözünə görünən, duyulan hər şeydə bir mövcudluq gəzən obrazlar yüksək düşünmə qabiliyyətinə malik olduğundan fikrində mövcudatın animistik (ruhun varlığı) modelini yaradırdı. Ruhları, qeyri-adi gücə malik yarımtanrıları sevdiyi insanlarla, qəlbinə, şüuruna yaxın olanlarla əlaqədə düşünür və bunların kökləri miflərə bağlıdır: «Hacının doxsan beş yaşlı anası Ballı qarı azca qəddi əyilmiş halda irəli yeriyib:

-Ay Hacı, -dedi, -bəlkə uşaqlardan biri gedib Molla Həsənquluya baxdırsın? Yadıqdadırmı neçə il bundan qabaq sənin Göydəmir atını hər gecə aparıb, çapıb dildən salırdılar. Eyzən səhər durub görürdün ki, heyvan qan-tərin içindədi. Özünün də yalını xırda-xırda hörüblər. Onda bəyəm Molla Hüseynqulu demədi ki, «cin dərəsi»ndəki hallardı gecələr atı minib çapan?» (46, s.29)

Yazıçının «Ana div» adlandırdığı Nisə qarı nağıllardakı «Div qarı»sıdır. Bu surət bir sıra xüsusiyyətlərinə görə Al-arvadı (buna el arasında Hal anası da deyirlər) xatırladır və qəhrəmanın ana div kimi təsvir etdiyi gödək Nisənin xarakterində Hal - anasına da oxşar cəhətlər görürük. «Qırx adamı bir-birinə qırdıran Gödək Nisə isə hər dəfə qabağıma çıxanda mən Fatma nənəmin nağıllarında eşitdiyim ana divi xatırlayırdım. Bu arvadın ana div kimi sarı balta dişləri, buynuzu yox idi... Bu ana div insan cildinə girmişdi. İnsan cildinə girdiyi üçün də bütün evlərə asanlıqla yol tapıb, uşaqları anasız, anaları uşaqsız qoya bilərdi». (45, s.179)

İ.Əfəndiyev yaradıcılığında Al-arvadı yamanlığı təmsil edir. Bu, tarixi-mifoloji köklərlə folklorumuzda yaşayır. «Al tərkibindən yaxşı və yaman ruhlar, personajlar, inamlar, ilahələr yaranmışdır. Al adətən sarı, sarışın qız,

hərdən isə keçi şəklində, hərdən isə sallaq döşlərini dalına atmış qadın kimi təsəvvür edilirmiş». (114, s.71)

Şeytanı əvəz edən Div mifik obrazı İ.Əfəndiyev yaradıcılığında da öz əksini tapmışdır. Div kultu da qədim əcdadlarımızın əski inanclarının, əski təfəkkürünün məhsulu olub mürəkkəb xarakterli obrazlardan biridir. Bir sıra nağıllarımızda öz eybəcər görkəmi ilə dəhşət doğuran divlərdən ana div surətinə müraciət etməsi də onun div kultunu əski ədəbiyyatımızdan dərindən bilməsindən doğur. Yazıçı mifoloji obrazlara müraciət etməklə yaratdığı obrazın daxili aləmini açmaq, zəngin xarakterlərə malik surətlər yaratmaq, baş verən hadisələrin səbəbində duran bu obrazların tipik obrazlarını yaratmağa nail olurdu.

Görkəmli alimlərimizin fikrincə «Avesta»ya qədərki dövürdə div kultu müqəddəs, xeyirxah bir qüvvə kimi nağıllarımızda təsvir olunmuşdur. İ.Əfəndiyevin yada saldığı div obrazı atəşpərəstilikdən sonra yaranmış divlərə oxşar obrazdır. Çünki Zərdüştilikdə div şər allahı Əhrimənin köməkçisi kimi göstərilir. Yazıçının bəhs etdiyi divlər də elə Zərdüştilikdən sonrakı dövrdə nağıllarda şöhrət qazanmış insanlara pislik, əzab, ölüm gətirən divlərdəndir. Qırx adamı bir-birinə qırdıran gödək «Nisə» hər dəfə qabağına çıxanda yazıçının qəhrəmanı onu divlərlə qarşılaşdırır, müqayisə edir. Nisə qarının əməlləri nağıllarımızdan tanıdığımız şər qüvvələrin əməllərinə bənzəyir. Yazıçı onu o bədheybət divlərlə müqayisə etməklə surətin daxili aləmini açmağa, gözümüz önündə dolğun bir obraz yaratmağa nail olur.

Yazıçı, yaratdığı obrazları sehirli qüvvələrlə qarşılaşdırmaqla obrazın daxili aləmini, əhval-ruhiyəsini daha qabarıq, daha təsirli verməyə nail olurdu. Bu da əsərin bədii dəyərini artırmış olur.

İ.Əfəndiyevin yaratdığı Gödək Nisə surəti bizə qədim nağıllarımızda eşitdiyimiz üç cür qarıdan birini xatırladır. Nağıllarda ipək, köpək və napak qarı kimi bizə təqdim olunur. Gödək Nisə öz xarakterinə görə ikinciyə yaxındır. Eyni zamanda Gödək Nisə ifritə qarılara da bənzəyir ki, bizim nağıllarımızda evlər yıxan, xoşbəxt ailəyə faciələr gətirən Div, hal anası, cadugər, ifritə qarılar haqqında bir-birindən maraqlı, qorxunc nağıllar eşitmişik. Gödək Nisə qarı yazıçının qəhrəmanları yaşayan real həyatda yaşayırdı. Bir çox keyfiyyətlərinə

görə hadisələri danışan qəhrəmanın bu qarıdan xoşu gəlmir. Çünki bu qarı «Qarı dağı» əfsanəsindəki qoca qarıdan tamamilə fərqli qarıdır. Bu qarı qorxunc nağıllarımızdakı qəhrəmanları yolundan eyləyən, onları tilsimə salıb min cür əzablara, mərhumiyyətlərə dözməyə məcbur edən, əlindən yaxşılıq əvəzinə ancaq pislik gələn, şər işlər görən eybəcər qarılara bənzəyir. O, nəhəng olmasa da, gödək canıyla acı, sərt diliylə bir elin - obanın cavanlarının arasına qan salır. Onun atdığı böhtan nəticəsində onlarla igid bir-birinin qanını tökür və bu qan iki nəsil arasında düşmənçilik toxumu səpir, elin-obanın dinc, sakit həyatına zəhər qatır. Hər şey də o Gödək Nisənin şərçi, böhtançı əməlləri nəticəsində baş verir. Yazıçı belə insanlara qarşı mənfi münasibətini kiminsə işiylə, diliylə açmır, ona uşaqlıqdan verilmiş ikili dünyasının qəhrəmanlarının əməllərinə uyğun şəkildə canlandırır. Yazıçının bu ikinci dünyası, onun real həyatda deyil, xəyallarında kök saldığı nağıl dünyası və onun sahibləri idi. O, nağıl dünyasında eybəcər ifritələr, ağzından od püskürən əcdahalar, insanları susuzluqdan çatladan vəhşi simalar, cadugərlik yolu ilə insanlar arasına ədavət salan şər xislətli məxluqlar və bir də almaz kimi parıldayan, Günəş kimi nur saçan, nəcib, sadə əməllər sahibi, gücsüzlərin, kimsəsizlərin dostu, ağıllı nəsihətləri, hikmətli kəlamları ilə tanınan, xalqın sevimlisi olan insanlar idi.

Onun əsərlərində Tanrıçılığa meyl güclüdür. O, bu əsərlərində Allahı, yerdəki elçisi Müqəddəs Məhəmməd Peyğəmbərin, Davud, İsa, Musa, Xızır, Süleyman Peyğəmbərin, Tanrının mələkləri Cəbrayılın, Əzrayılın obrazlarını da yaratmışdır. Yaratdığı əsərlərində mifik obrazların köməkliyi ilə insanlarda yüksək keyfiyyətlərin tərbiyə edilməsinə çalışır, onları çirkin ehtiraslardan, ədalətsiz hökmlərdən uzaqlaşdırmağa xidmət edir. «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» povestin-də Gülsənubəri doğru-düzgün yola qaytaran Cəbrayıl surətinə bir çox xalqların folklorunda, eləcə də xalqımızın yaratdığı əfsanə və rəvayətlərdə də rast gəlirik.

Cəbrayıl islamda və monoteist dinlərdə Allaha yaxın olan mələkdir. Quran bizim üçün nazil olanda Məhəmməd Peyğəmbər ilk dəfə Cəbrayılı görmüş və o, Allahın iradəsini bu Quran vasitəsilə ayrı-ayrı vəhylər şəklində Məhəmməd Peyğəmbərə çatdırmışdır. O, başqa dinlərdə də (məsələn, Müqəddəs Məryəmə İsa peyğəmbərin doğulacağını xəbər vermişdir) yaşamaqdadır.

Yazıçı Cəbrayıl surətini yazılı ədəbiyyata gətirməklə bu surət vasitəsilə qəlbində sevdiyi insana qarşı kin-küdurət alovu cövlan edən Gülsənubərin daxili aləmini saflaşdırmağa, onu pis əməllərdən uzaqlaşdırmağa çalışır. Onun qəlbinə girib: «Öldür özünü, özün də yaz qoy ki, atangil bilsin, sənin ölümünə səbəb onun eşqidir» fikirlərilə beynini dolduraraq cinayətə sürükləməyə çalışan qara qüvvələrə qarşı nəcib əməllər sahibi olan Cəbrayılın gözəl nəsihətlərini qoyur: «…və bu zaman Allahın xeyir xəbərlər carçısı həzrət Cəbrayıl onun ürəyinə daxil olub dedi: «Sən kor şeytanın sözünə qulaq asma! Onu qov! O, səni Allahla düşmən etmək istəyir, tarzən özünü, illərdən bəri üstündə əlləşərək təkmilləşdirmək istədiyi tarını məhv olmaq təhlükəsi qarşısında qoyaraq səni dəhşətli ölümdən xilas elədi! O gecənin xatirəsi səni yüz il yaşatmağa layiqdir!» (40, s.28)

Məhəbbətinə cavab almayan gənc qızın qəzəbi Həzrət Cəbrayılın pıçıltıları altında əriyib yox olurdu. Tanrının elçisi tarzənin çaldığı muğamın sədası altında gənc qızın qəlbinə ülvi bir rahatlıq, təskinlik gətirirdi və «Axı o gün Allah səninlə, o tarzənlə birlikdə sənin məhəbbətini də xilas etdi» kəlməsindəki həqiqəti duyduqca könül rahatlığı tapırdı. Yazıçının qəhrəmanı tarzən Sadıqcana vurğun idi və onu gözləyən hər cür təhlükənin qarşısını almaq üçün onu sevən, eşqi uğrunda mübarizəyə qalxan qızın qəlbinə Allah xofu salmaqla hər ikisini fəlakətdən uzaqlaşdırmağa çalışırdı. Tarzən Sadıqcanın sənətinə və gözəlliyinə vurulmamaq mümkün deyildi və qız zaman keçdikcə o tarzənin çaldığı muğamları dinlədikcə nakam məhəbbətinin əbədiyyətə qovuşduğunu hiss edirdi. Yazıçı tarzənin muğamlarında yaşatdığı iztirab və ələmi o sevən aşiq qədər dərində duyurdu: «O muğamlar bu nakam məhəbbətin iztirablarını, ələmlərini tərənnüm edir. Onu da hiss edirdi ki, Böyük Allahın seçib, ülvi ruh bəxş elədiyi o tarzən özü də bu nakam məhəbbətin nisgili ilə mütəəssirdir». (40, s.29)

İslam Şərqində Cəbrayıl Quranı Məhəmməd Peyğəmbərə çatdıran Allahın elçisidir. (86) Allah, onun mələkləri, Əzrayıl, Cəbrayıl, div, şeytan, cənnət, cəhənnəm, bu dünya, o dünya barədə düşünməklə yanaşı yazıçı dini mifik təsəvvürlərimizdə insanlığa xidmət edən, insan qayğısı çəkən, insanı işıqlı, aydın, xoşbəxt həyata qovuşdurmaq, yaxşılıq etmək kimi nəcib keyfiyyətləri də

əsas götürür: Allahını sevən zülmə, ədalətsizliyə, özbaşnalığa qarşı çıxmalıdır. İnsan yaxşı işlər görmək, xeyirxah əməllər arxasınca getməklə Allahına yaxınlaşmış olur. Tanrı insanın özün-dədir, insandan kənar tanrı yoxdur. İnsan özünü saflaşdırmalıdır. O yaxşılığı, insan-sevərliyi, tanrını içində bəsləməlidir.

Fironla bağlı əfsanələri xatırlayan qəhrəmanın dilinə dünya folklorundan nümunələri gətirməklə müəyyən mövzularda ümumbəşəri folklorun birləşdiyinə istinad edir, «Geriyə baxma, qoca» əsərində Fatma nənə nağıl eləyir ki, «Firon qərara gəlib ki, gərək yer üzündə də Allahın behişti kimi bir behişt düzəltsin. Firon həmin behiştin torpağını mirvarid, ləl-cəvahir elətdirir, meyvə ağaclarının yarpaqlarını qızıl elətdirir, ab-kövsər kimi şirin bulaq düzəltdirir. Bir sözlə, əsil cənnət yaradıb, dünyanın gözəl qızlarından da gətirdib, huri elətdirir. Və bu cənnət Allahın o qədər xoşuna gəlir ki, əmr edib onu göyə çəkdirir»

Yazıçı «Büllur sarayda» dram əsərində qəhrəman Aynurun yaşadığı evi, bağı bağçanı firon Nəmrudun behiştinə bənzədir və bu bənzətməylə fikrini daha təsirli verməyənail olur.

Xalqımızın keçdiyi həyat yolu, baş verən tarixi hadisələr, qəhrəmanlıq dolu həyat səhnələri fantaziya ilə bəzənən, insana mənəvi və estetik zövq verən folklor qaynaqlarında əbədidir. Qüdrətli sənətkar olmaq üçün ancaq xalqının yaratdığı mifologiyaya söykənən, ondan mənəvi qida alan Nizami, Ə.Haqverdiyev, S.Vurğun, S.Rəhimov və başqa sənətkarlarımız kimi İ.Əfəndiyev də bizə doğma, əziz olan, ruhumuzda yaşayan gözəl sənət əsərləri yaratmağa nail olmuşdur. Onun əsərlərində adları çəkilən İsa-Musa quşuyla bağlı epizodik hadisələr, Qızılquş, Zümrüd quşunun xatırlanması və s. bütün bunlar onun mifik görüşlərimizi əks etdirən əfsanə, əsatirlərə dərindən bələd olmasından irəli gəlir.

Dünya ədəbiyyatında, eləcə də Azərbaycan ədəbiyyatında quşlarla bağlı əfsanə və rəvayətlər mövcud olmuş və bu gün də yaşamaqdadır. Onlar xalq yaradıcılığında mühüm yerlərdən birini tutur. Bu totemizmin quşlarla bağlı olan bir hissəsidir. Xalqımızın folklorunda, eləcə də qədim türk mənbələrində quşlar müqəddəs varlıqlar kimi ilahiləşdirilir. Onlar qeyri-adi gücə, qüvvəyə, qabiliyyətə malikdirlər. Bu quşların nağıllarımızda özünəməxsus adları vardır.

Biz «Məlik Cümşüdün nağılı»nda, «Məlikməmmədin nağılı»nda, «Simanın nağılı»nda Simurq, Zümrüd, Ağ quş, Qızıl quş, Qarğa, Göyərçin, Səməndər quşu haqqında, onların müqəddəs varlıqlar kimi təqdim olunduğunu əks etdirən əfsanələrdən görürük ki, onlar uzun müddət xalq ədəbiyyatımızın əsas mövzularından olub. Bu quşlar nağıllarımızda qeyri-adi gücə, qabiliyyətə malikdirlər. Onlar qəhrəmanları ölümdən qurtarırlar, ağıllı insanları ölkəni ədalətlə idarə etmək üçün şahlıq taxtına çıxarırlar. Bu quşlar lələklərini yandırıb qəhrəmanın kor olmuş gözlərini («Əhməd-Mirzə nağılı»nda) açır, ona işıqlı həyat bəxş edir, çətinə düşən qəhrəmanın (Məlikməmmədin ehtiyacı olduqda Zümrüd quşunun verdiyi tükü yandırması, quşun onu qaranlıq dünyadan işıqlı dünyaya öz qanadları üstündə gətirməsi, tüpürcəyi ilə Məlikməmmədin yarasını sağaltması və s.) yaxın köməkçisi olur. Bu quşların insanları xoşbəxtliyə çatdırmaqda rolunu əks etdirən çoxlu əfsanə və nağıllarımız vardır ki, bunlar xalqın zəngin təfəkkürünün, bədii təxəyyülünün məhsuludur.

Şifahi xalq ədəbiyyatında Zümrüd quşu xeyirxahlıq hamisi kimi tanınır. Nəhəng, sehrli gücə malik, uzaq məsafəni bir anda qət edən bu quşun məskəni qədim «Avesta»ya görə dənizin ortasında bitmiş bir ağacın başındadır. Azərbaycan və ərəb folkloruna görə Zümrüd quşu Qaf dağında yaşayırmış. Onun Qaf dağında tilsimə salındığı haqqında rəvayətlər də xalq içərisində yaşayır. Yazıçının «Xurşidbanu Natəvan» pyesində Qaf dağında tilsimə salınmış Zümrüd quşu xatırlanır. Dərdli şairə ikiyə bölünmüş əsarət zəncirində inləyən millətinin, xalqının taleyinin Zümrüd quşunun taleyinə bənzədir. Zümrüd quşunun məskəni Qaf dağıdır. Deyilənə görə Qaf dağında tilsimə salınmış Zümrüd quşu insanların başına gələn fəlakətləri gördükcə qanadlarını çalıb fəryad qoparır. Onun qəlbi insanlara kömək etmək eşqi ilə yanır, lakin ahı bir kimsəyə çatmır. Qaf dağının başı həmişə dumanlı, çiskinli olub, qəmli bir diyarı xatırladır. Zümrüd quşunun başına gələn faciələri xatırlayan Xan qızı ikiyə bölünmüş Azərbaycan xalqının taleyinə acıyır, onu özü kimi azadlıq aşiqi olan, Cənubi Azərbaycandan gəlmiş seyid hüseynlərə bənzədir. O seyid hüseynlərə ki, onlar da bu Zümrüd quşu kimi imperialistlərin buxovunda inləyir. Seyid Hüseyn Banunu təmiz bir qəlblə sevir, lakin bütün var-yoxunu

Cənubi Azərbaycanda qoyub gəlmiş bu azadlıq fədaisi izdivacın baş tutacağını qeyri-mümkün hesab edir və Banuya ancaq uzaqdan hər gün bağçanın qaranlığında dayanıb baxmaqla təskinlik tapır. Banu isə bundan xəbər tutduqda sarsılır və onun məhəbbətini yüksək qiymətləndirdiyini cəsarətlə ona bildirir və özünün də, onun da öz vətənində əsir olduğunu, Zümrüd quşu kimi tilsimə salındığını ürək yanğısıyla etiraf edir:

«X u r ş u d B a n u (*əsəbi*) Bəsdirin, məgər mən də öz vətənimdə kimsəsiz deyiləmmi? Məgər bizim səsimiz Qaf dağında tilsimə salınmış əfsanəvi Zümrüd quşunun səsi kimi bir yana çıxırmı? Yox, Seyid Hüseyn tale bizi əbəs yerə bir-birimizə rast gətirməmişdir». (49, s.40)

Bu quşlar arasında ağıllı, ədalətli insanları taxta çıxaran Dövlət quşu da, «Naşükür qız» nağılında öz qisməti ilə razılaşmayan qızı cəzalandıran Bəxt quşu da, «Simanın nağılı»ndakı Simurq quşu da, «Ovçu Pirimlə Qızıl quşun nağılı»ndakı («Geriyə baxma, qoca») Qızıl quş da zoomorfik bir obraz kimi tanınan quşlardır. Türk mifoloji modelində quşlar da özünəməxsus səciyyəvi keyfiyyətlərə malik obrazlar qrupuna aiddir. Onları şərti olaraq əfsanəvi və məişət quşları kimi iki qrupa ayırmaq olar. Əfsanəvi quşlar qrupu daha əski mifoloji təsəvvürlər məcmuyunu təşkil edib silsilə quş obrazları ilə səciyyələnir: Humay, Simurq, Səməndər quşu, Dövlət quşu, Van, Ağ quş, qara quş və s. bu qəbildəndir. (95, s.171) Bir zaman heyvanları, bitkiləri, quşları müqəddəs varlıqlar kimi qəbul edən insanlar zehni və şüur cəhətdən inkişaf etdikcə, öz əqli, zəkasıyla hər şeyə qalib gələ bilmək qüdrətinə malik olduğunu anlayır. İnsan bu müddətdə öz qüdrətini başa düşənə qədər anladığı, inandığı tərzdə təbiət qüvvələrinə, günəşə, aya, ulduzlara, heyvanlara, quşlara, bitkilərə, ağaclara öz bədii prizmasından yanaşaraq onları müqəddəsləşdirməklə yanaşı, mənəvi təfəkküründə onlara bədii don geyindirmiş, insan kimi onları danışdırmış, onları yaradana bərabər tutmuş, yaşatmışdı. Zaman keçdikcə, dünyanı, təbiət qanunlarını dərk etdikcə özündən qüvvətli bir məxluqatın olmadığını duyur, artıq yaratdığı nağıllarda totemin yox, özünün daha yüksək olduğunu görür. Mif qədim insanlara yaşamaq, yaratmaq, yaratmaq üçün təsəlli idi. İnsan min cür fəlakətlə üz-üzə qalanda, təbiətin sərt qüvvələrinə təsir etmək, onu dəyişdirmək qüdrətinə malik olduqda, həyatla ölüm arasında

qalanda belə mifik obrazların yardımına güvənmişdi. Mifləri yaratmaqla insan dünyanın ən güclü varlığına çevrilirdi. «Əhməd və Sona nağılı»nda daha onun qəhrəmanı Əhməd güclüdür, tüfəng götürüb heyvanlar üzərində hökmranlığa başlayan Əhməd nağılın həm güclü, həm də əsas obrazıdır. Deməli, insan özünün icad etdiyi silahınköməkliyi ilə getdikcə illərlə psixologiyasında yaşatdığı totemizmi unutmağa başlasa da özünün varlığını, bütün canlılarla bağlı olduğunu isə unutmur, güclü, ağıllı insan heyvanları, quşları yenə də sevir, öz ömrünü, həyatını onlarla əlaqədə dərk edir, yaratdığı nağıllarda onlara məhəbbətini yenə də yaşadır. «Ovçu Pirim və qızıl quş» nağılını biz yazıçının əsərində oxuyuruq. Ovçu Pirim Əhmədin sələfidir. Bu nağıl Möhnət qocanın («Geriyə baxma, qoca» əsərində) diliylə verilir. Ovçu Pirim Camal qayasının qayaları arasında ovçunun yaraladığı qızıl quşu görür, onu öz komasına gətirib sağaldır və ov quşu kimi ondan istifadə edir. Qızılquş ovçu Pirimə sədaqətlə qulluq edir, ovçu Pirim də ona doyunca ət yedizdirir. Lakin qızıl quş həmişə kefsiz görünür. Bir gün onun nə üçün dərdli olduğunu soruşur. Qızılquş ah çəkib uca dağların, qıcıltılı çayların həsrətini çəkdiyini söyləyir. Ovçu Pirim təəccüblə soruşur ki, sən hər gün mənimlə ova gedəndə o dərələri, çayları, dağları görmürsənmi. Ovçu Pirim qızılquşun susduğunu görüb o dəqiqə mətləbi anlayır və onu azad edir. Lakin qızılquş getmək istəmir: «Qızılquş getmək istəmədi:

-Mən, -dedi, -sənin yaxşılığını necə əvəzsiz qoyub gedə bilərəm?!

-Mən elədiyim yaxşılığı sənə halal edirəm, uç istədiyin yerlərə!

Qızılquş qanadlarını çırparaq havaya qalxıb uzaqlarda zirvəsi ağaran qarlı dağlara tərəf uçaraq əlvan buludlar arasında gözdən itdi». (45, s.131)

Ulu babalarımızın ovçuluqla bağlı məşğuliyyəti də mifologiyamızda yaşayır. Bununla bağlı nağıllarımızda, əsatirlərimizdə yaşayan yarımmifik obraz olan Ovçu Pirim obrazı yazıçının yaradıcılığında öz əksini tapmışdır. İbtidai insanın ilkin təfəkkürünün yaratdığı Ovçu Pirim obrazı «Şəhərdən gələn ovçu» əsərindəki ovçu Pirinin əcdadıdır. Ovçu Pirimin heyvanların dilini bilməsi haqqında yayılan rəvayətlərin birinin biz yazıçının əsərində Möhnət qocanın dililə söylənən «Ovçu Pirim və Qızıl-quş» nağılında yaşadığının şahidi oluruq. Bu da onu göstərir ki, bu surət mifik dünya ilə ilişgəlidir. Pirim adının özünün

də görünür müqəddəsliklə bağlılığı vardır və tədqiqatçılarımızın dediyi kimi «pir» müqəddəs yerə, ocağa, dünyagörmüş, bilici qocaya da deyərmişlər. Ovçu Pirim -yəni nurani, müqəddəs ovçu deməkdir». (117, s.245)

Ovçuluğun bu gün də həyatımızda, məşğuliyyətimizdə yaşamasının tarixi köklərini «Kitabi-Dədə Qorqud» boylarında da görürük: Ovçu Bəkil mahir ovçudur. Bəkil ov zamanı atdan yıxılır, Qazan xan oğluyla ova çıxır. Bu boylarda ov səhnələrinin tez-tez xatırlanması, təsviri bir daha ovçuluğun xalq arasında geniş yayıldığını və bununla bağlı inamların, miflərin xalq içərisində yaşadığını göstərir.

Əsərlərində tez-tez qələmə aldığı hadisələrin baş verdiyi yer adlarının tarixiliyini, qədimliyini yazıçı qədim qaynaqlara söykənərək, əcdadlarımızdan qaldığını təsvir etməklə onun uzunömürlülüyünə rəvac verir: «Uca dağlı, bağlı-bağatlı, aranlı-yaylaqlı Qarabağda «Kürdoba» deyilən bir tərəkəmə obası var idi. Adamları təmiz azərbaycanlı olan bu tərəkəmə obasına niyə «Kürdoba» deyirdilər, məlum deyildi». (45, s.7)

Bu obalarda ən qədim adət-ənənələr qorunub saxlanılır. Bu yerlərdə sayılan, seçilən Ülkenlər yaşayır. Onların ağ keçədən qurulmuş alaçıqları, bu ağ alaçıq sahiblərinin Ulgenə məxsus əməlləri, işləri «ağıllı, çörəkli, qonaqlı-qaralı» olmaları, «qapıya gələn aşığı, ozanı boş yola salmama»ları, «köməksizə kömək olma»ları yadımıza qədim adət-ənənələrimizin fövqündə duran el ağsaqqallarına, ozanlarına, Dədə Qorqudlarına olan hörmət və izzəti xatırladır.

Yazıçının əsərdə tez-tez müraciət etdiyi «Kürdoba» və «oba» sözləri bu yerlərin tərəkəmə camaatının yaşayış yeri olduğunu açıqlayır. Azərbaycanın bütün ərazisində türk xalqlarının yaşadığı bütün yerlərdə oba sözləri yaşamışdır və xalqın dilində də bu söz öz qədim köklərini saxlamaqla bu gün də yaşayır. Burada Kürdoba yer və tərəkəmə obası ilə tərəkəmə camaatının toplandığı yer anlamındadır. «Oba» sözünə biz folklorumuzun ən qədim nümunələrində, o cümlədən «Dədə Qorqud» boylarında da rast gəlirik. Məsələn, «Dəli Domrul» boyunda deyilir ki, «Məgər bir gün köprisinin yamacında bir bölük oba qonmuş idi. Ol obada bir yaxşı-xub yigit sayru düşmüş idi. Allah əmrilə ol yigit öldi. Kimi «oğul» deyü, kimi «qartaş» deyü ağladı. Ol yigit üzərinə möhkəm qara şivən oldı». (75, s.79)

Bu sətirlərdən biz görürük ki, həmin oba qohum-əqrabanın birlikdə yaşadığı, işlədiyi, birlikdə ömür sürdüyü bir elin, camaatın bir yerə yığışması mənasındadır. Oba sözü ilə əlaqədar «Əsli və Kərəm» kimi ən qədim qaynaqlarımızda da epizodlar vardır: «Söz tamam olanda boran-çovğun yatdı, hava açıldı. Kərəmgil dağdan aşıb bir obaya getdilər. Kərəm ilə Sofi gecəni bu obada qalıb səhər tezdən yola düşdülər». (39, s.36) İ.Əfəndiyevin tərəkəmə adlandırdığı həmin camaat da bir yaşayış tərzinə, adət-ənənəsinə malik birlikdə müəyyən ərazidə (Kürdobada) yaşayan insanlardır.

Biz bilirik ki, xalqımızın soykökündə türkdilli xalqlar, tayfalar, qəbilə birləşmələri durmuş və bu xalqların yaşadığı ərazidəki etnik qrupların da qaynayıb-qarışması nəticəsində Azərbaycan xalqı formalaşmışdır. İ.Əfəndiyevin özünün dedi-yi kimi adamları təmiz Azərbaycanlı olan bu tərəkəmə obası da camaatın bir soykökünə bağlı xalqın yeri, obası kimi başa düşülməlidir. «Oba» sözü cilalanıb öz əsas indiki məzmununa vəsiqə alana kimi xalq arasında bu və ya digər baxımdan yer adı kimi yaşamış, müəyyən fərqləri özündə saxlasa da hamıya aydın olmuşdur ki, dağlı-aranlı insanların yaşadığı, məskən saldığı yer mənasını bildirmişdir. Gəlin diqqət yetirək ən qədim mifologiyamıza və burada ata-babalarımızın, həyatı, məişət tərzi ilə bağlı olaraq yaratmış «oba» sözünün təpə, insanlar, soylar toplusu, güclü, qoruyucu anlamı kimi izah edilməsiylə razılaşaq.

Kürdoba coğrafi cəhətdən həm uca dağlı, həm də aranlı-yaylaqlı yerlərdir. Bu yerlərin adı öz qədimliyini saxamaqla bərabər, adət-ənənələrində də bir qədimilik hökm sürür. «Hər obada böyük ağ keçədən qurulmuş bir ağ alaçıq, onun yan-yörəsində də qara keçəli komalar olardı. Ağ alaçıqda obanın sayılan, varlı adamı, qara keçəli alaçıqlarda kasıblar yaşardı. Obaya gələn yad atlı gərək biləydi ki, «bax bu ağ alaçıq hacı filankəsindir». Hacı filankəs də bütün obanın başçısı, ağsaqqalı olardı. Obanın bir adamına ayrı bir obadan sataşan olsaydı, demək o, oba başçısına sataşmış olurdu». (45, s.8)

«Kitabi-Dədə Qorqud» dastanlarında da ağ alaçıqlar düşərli, hörmətli, Tanrı yanında günahsız olanların yaşadığı yerlərdir. Dastanda deyilir ki, «Bayandır xan yerindən turmışdı. Qara yerin üstinə ağ ban evin dikdirmişdi». (75, s.52) Bayandır xanın öz evi ağban olmaqla yanaşı, o, ildə bir dəfə ağ, qızılı

və qara çadır qurdurmaqla ağ çadırda Tanrıya yaxın insanları oturdardı. Çünki onun nəzərində oğullu-uşaqlı insanlar Allah adamlarıdır və o da bəndələrini övladsız olmasını istəmir. Övladı olmayanı ona görə ağ çadırda oturmağa icazə vermirdi ki, onun nəzərində belə insanlar xeyirxahlıqdan uzaq, kimsəyə kömək əli uzatmayan insanlardır və allah da onları belə cəzalandırmışdır. Ağ çadır ucalığın, Tanrıya yaxınlığın rəmzidir.

«Oba» adət-ənənələri İ.Əfəndiyevin qələmə aldığı Qarabağ elində bu və ya digər şəkildə yaşayır, öz cizgilərini saxlayır. Burada ağ alaçıq, qara alaçıqların orta-sında qurulurdu və bir növ Günəş kimi öz «qaranlıqlarını» işıqlandırırdı. Ağ alaçığa-Günəşə olan hörmət-izzət bütün qara keçəli komaların, sakit, firavan həyatını təmin edirdi. Azərbaycan xalqı öz əski görüşlərində Günəşi müqəddəsləşdirmiş, «Oğuznamə»sində Oğuzun xanımı Günəşi insan kimi qələmə vermişdir. Günəş-nur-işıq mifi bizim üçün yeni deyildir. Ən qədim türk abidələrində bu mifizm bizə təqdim olunur. M.Seyidov yazırdı ki, «Günəş həyatın başlıca amili olduğundan mifikləşərkən, inama çevrilərkən, tanrılaşarkən ona çox mifik keyfiyyətlər verilmişdir. Günəş inamı, tanrısı əski xalqların çoxunda, eləcə də azərbaycanlıların ulu babalarında başlıca yaruq-şüa, zoomorfik etap, insan kimi təsvir olunmuşdur». (117, s.368) «Oğuznamə»lərimizdə biz buna çox rast gəlirik.

Obanın ağsaqqalına, başçısına-ağ alaçıq sahibinə nəinki oba daxilində, özgə el-oba arasında da hörmət vardı. M.Seyidov obayla, onların adət-ənənəsi, ayinləri ilə bağlı mülahizələrində oba başçısının ağ keçənin üstündəmi və yaxud ağ alaçıqda oturmasının ciddi mifoloji səbəblərinin olması ilə əlaqələndirir. O yazır ki, «Türk xalqlarında ən böyük şamanlarından biri Günəşə inam olmuşdur. Ağ rəng yerüstü Ülgenin rəngi sayılır, bu rəng düşümlüdür. Keçəni ağ rəngli etməklə Ülgeni yada salırmışlar və xaqanı ona tapşırırmışlar». (118, s.158)

İ.Əfəndiyevin qələmə aldığı oba ilə əlaqədar adət-ənənələr görünür öz əvvəlki mifoloji tarixinə dərin köklərlə bağlı olmuşdur. Çünki vaxtiylə obalar dağlarda yığılmış daş qalaqlarının yanında salınarmış. Onların öz başçıları olarmış, bu başçıları ağ keçə üstündə oturdub, Günəşin başına dolandırıb xaqan seçməkləriylə özlərinin yaradıcılığına görə «Günəş» istilik-ilkin insanı atanı,

ananı yaradandır. «Dədə Qorqud» boylarında da günəşlə tapıntılarımız yaşayır. İ.Əfəndiyevin qələmə aldığı eldə də bu yaşantı var və bu bizə öz qədim olaylarımızdan xəbər verir.

Yazıçı Alyanlı oba haqqında da söhbət açır və bu Alyanlı obasının da meşəli-dağlı bir ərazidə yerləşdiyindən və orada baş verən hadisələrdən söhbət açarkən Alyanlı, Altın-taxta, Daşaltı kimi yer adlarını və onların təbii mənzərəsini verir. Belə yer adlarının etimoloji təhlilə ehtiyacı olduğunu unutmamaqla yanaşı, onu deyə bilərik ki, Alyanlı, Altın-taxta sözlərindəki al «yuxarı», «yüksək» mənasını bildirir. «Al-al tərkibinə bir çox türkdilli xalqların yer, xüsusilə dağ adlarında rast gəlmək olur. Misal üçün Altay//Altay, Alaş//alaş və s. Bu dağ adlarındakı «al/al» tərkibləri türk dillərində yüksəkliyi, ucalığı, qüdrəti bildirir». (117, s.78)

İ.Əfəndiyevin əsərlərində adı çəkilən «Altın-taxta» adlı yerə «Kitabi Dədə Qorqud» dastanlarında da rast gəlirik. Qazan xanın evi bu yerdədir. «Salur Qazanın evinin yağmalanması» boyunun sonunda deyilir: «Qazan bəg ordusını, oğlanını-uşağını, xəzinəsini aldı, geri döndi altun təxtində. Yenə evini dikdi. Qaraçıq çobanı əmiraxur elədi, yeddi gün, yeddi gecə yemə-içmə oldı». (75, s.50)

İ.Əfəndiyevin qəhrəmanları da bu yerlərdə yaşayır və bu yerlərdə onlardan çox-çox əvvəl ulu babalarının yaşadığını, buraların onların əbədi həyat məskəni olduğunu da bilirlər, sadəcə olaraq yerlərə verilən adlar qəhrəmanı düşündürür.

İ.Əfəndiyevin yaradıcılığında Qarabağ camaatının həyat və məişətində qoyunçuluğun mühüm yer tutması bu yerlərdə yaşayan ən qədim azərbaycanlıların da bununla bağlı olduğunu sübuta yetirir. Dədə-babadan ən çox qoyunçuluqla məşğul olan bu camaatın Qarabağ deyilən cins qoyunlar yetişdirməsinin izlərinin yeddinci yüzillikdən qabaq mövcud olduğunu söyləyən M.Seyidov yazır ki, «qoç nəsli» anlamını verən Daraqoç məhz Qarabağ ərazisində mövcud olmuşdur: «VII yüzillikdən qabaq tanınmış Daraqoç da Azərbaycan dili və təfəkkürü ilə ilişgəlidir. «Dor» bir çox türk dillərində «soy», «nəsil» anlamındadır. «Qoç» isə qoyunun erkəyi deməkdir». (117, s.347)

Ümumiyyətlə, xalqımızın soykökündə duran qəbiləbirləşmələri qoyunçuluqla da məşğul olmuşdur. Mirəli Seyidov öz açıqlamalarında Musa Qağanqatlının tədqiqatlarına əsaslanaraq qoçla-qoyunla bağlı dil-təfəkkürümüz haqqında müfəssəl məlumat verməyə çalışmışdır. Dədə Qorqud dövrünün qəhrəmanları da qışda qışlaqlarda, yayda yaylaqlarda yaşayırlar, at, qoyun saxlayırlar, maldarlıqla yanaşı bağçılıqla, üzümçülüklə də məşğul olur, ata babalarından qalma adət ənənələri yaşadırlar. Bu da təbiidir. Bəllidir ki, Ağqoyunlular, Qaraqoyunlular qoça (qoyuna) tapınmış və qoyun onların onqonu olmuşdur. Hətta qoç insanların incəsənətinə də daxil olmuş, tanınmış adamlar öz qoçlarını «döyüş meydanında» sınamaqdan ləzzət alarmışlar. «Vəzir Allahverdi xan və Bəhlul Danəndə» əsərində padşahın «özünün çox döyüşlərdən çıxmış bir qoçu var idi. Yeddi il idi ki, bu qoç sarayda naz-nemət içində bəslənirdi. Şahın əzizi, ərköyünü idi. Şah bu qoçun vəzir tərəfindən oğurlandığını eşidəndə vəzirin qətlinə fərman verir, çünki «şahın qoçunu oğurlamaq onun taxt-tacına hörmətsizlik idi. Şəxsiyyətinə həqarət idi». (40, s.24)

İ.Əfəndiyevin qəhrəmanı nağıllarda eşitdiyi Məlikməmmədi tez-tez xatırlayır. O «Məlikməmmədin nağılı»nda iki bir-birinə qarşı duran qüvvələrin mübarizəsinin səbəblərini dərk etməyə çalışır.

Azərbaycanda mifoloji fikirlərin öyrənilməsi tarixi Mirzə Kazımbəyin xidmətləri ilə başlanır. O, «Severnoye obozreniye» jurnalında «Firdovsi əsərlərində fars əsatiri» məqaləsini çap etdirir və bu məqaləsində real, təbii və ictimai hadisələrin insan təxəyyülündə əksi qiymətləndirilir.

Türk xalqları atı ilahiləşdirərək, onu yer üzündə ən təmiz varlıq kimi qəbul edir. At kultu ilə bağlı dini təsəvvürlər bir çox xalqlarda olmuşdur və bu onların totemistik baxışlarıyla əlaqədar idi. Qədim hindustlarda, qədim Hind-İran xalqlarının dünyagörüşündə at obrazı mühüm yer tutur. S.P.Nesterov göstərir ki, Hind mifologiyasına görə, kainatın yeganə zoomorf obrazı at olmuşdur. (164, s.9)

Türk xalqlarının həyatı atla bağlı olmuş və onlar mifik keyfiyyətlərə malik sayılmışlar. Türk xalqlarında at kultu olmuşdur: «Türk mifoloyi sistemində özünəməxsus yer tutan kultlardan biri də at kultudur. At kultu və at obrazı

türkün estetik düşüncəsinin daha əzəli qatlarına məxsus olub, onun erkən cəngavərlik həyatı-tarixi həqiqətləri ilə bağlıdır». (94, s.177)

Dünya xalqlarının yaratdığı miflərdə qanadlı atlar olmuşdur. «Koroğlu» dastanında qəhrəmanın yardımçısı olan Dürat və Qırat qəhrəmanın səbirsizliyimi və yaxud marağımı ucbatından insan baxdığı üçün qanadlarını itirir.

Ən qədim nağıl və əfsanələrimizin qəhrəmanları atı məsləhətçi, yaxın dost və özünün yardımçısı kimi qəbul edir. Koroğlu dəfələrlə Qırata müraciət edir, «Bəxtiyar», «Qırx Qönçə xanım», «Məlik-Düçar», «Şah oğlu Bəhramın nağılı» və s. nağıllarda at igidlə danışır, ona məsləhət verir, yardım edir. «Maaday Qara» dastanının igidi Kögüdey-Merqen də atı ilə dəfələrlə məsləhətləşir, onun dediyi kimi hərəkət edir. Manas da atı ilə danışır». (117, s.282)

«Dağlar arxasında üç dost» əsərinin qəhrəmanı Şahlar da ən yaxın dost, rəfiq kimi öz atından kömək diləyir, onunla elə danışır ki, sanki bu dilsiz heyvan öz sevimli sahibinin arzu və istəklərini yerinə yetirmək üçün hər şeyə hazırdır: «Anam sənə qurban, boz ürgə! Bir tikə vaxtımdan sənə qulluq eləmişəm. Əlimə düşən pulu kişmişə verib sənə yedirtmişəm. Məni el içində xar eləmə!» Sanki boz ürgə onun bu səssiz yalvarışlarını eşidərək gədiyi ehtiyat və mərdliklə enirdi. (43, s.10)

Oğuz-türk qəbilə birləşmələrinin ata tapınmalarının əski kökləri «Reyhanın nağılı»nda da özünü göstərir. Bu ən qədim nağıllarımızdandır və burada görürük ki, Gülcahanın qızını divlər oğurlayır. Köməksiz dərdli ana çöllərə düşüb balasını axtarır. Susuzluqdan əzab çəkən qadın sürünə-sürünə də olsa bir gölməçə tapır və doyunca sudan içir. İçdiyi sudan hamilə qalır. Demə, Gülcahanın içdiyi su dərya atlarının ayğırının su içdiyi gölməçə imiş.

İ.Əfəndiyevin yaratdığı Xaniurad, Ərşad, Təhməz və digər obrazların həyatında, taleyində mühüm rol oynayan atlar türk-azəri xalqlarının Azad Nəbiyev dediyi kimi «erkən cəngavərlik həyati-tarixi həqiqətləri ilə bağlıdır….Onun müxtəlif tipləri -uçan, qanadlı atlar, od atlar (qanadsız, ağzından od püskürən), dərya cinsindən törəyən atlar, Şahbaz atlar, ərazi adı ilə şöhrətlənən Qarabağ, Quba atları, rəngi ilə seçilən və fərqlənən atlara və s. təsadüf edilir». (95, s.177)

Mifoloji cəhətdən təbii görünən bu möcüzədə dərya atının rolu böyükdür. V.Y.Propp yazır: «Belə olduqda hər hansı hadisə ibtidaii təfəkkürün ümumi bünövrəsi ilə əlaqədə uşağın doğulmasının səbəbi hesab edilə bilər». (169, s.206)

Atlar qədim mifologiyamızdan üzü bəri bu günümüzə qədər öz adlarının tərkibində «boz» və «ağ» sözlərini yaşadır. Ağ və boz rəngli atlar əski türk xalqlarında mifik keyfiyyətlərə malikdir. «Kaqanlar (xaqanlar) yalnız qəbilələri, onqonları, yaşadıqları şəhərləri, evləri deyil, hətta onlara aid heyvanları da ağ və boz rənglərlə fərqləndirirdilər. Xaqanlar, böyük sərkərdələr ağ, hərdən boz at minərmişlər. Misal üçün, Gültəkinin iki atı ağ, üçüncüsü isə boz olmuşdur. Dədə Qorqud boylarının məşhur qəhrəmanı Beyrək ağ-boz at minirmiş. Sonralar xalq da öz igidlərini ağ ata mindirmişdir. Azərbaycan nağıllarında bu hala tez-tez rast gəlirik. Başqırd xalq yaradıcılığındakı yarımilahələr, yarımtanrılar, adlı-sanlı igidlər ağ  boz, boz ata, eləcə də Altay mifik təbiət qəhrəmanları boz ata minirmişlər». (117, s.159)

İ.Əfəndiyevin qəhrəmanlarının da («Dağlar arxasında üç dost») atı boz ürgədir, Xanmuradı («Geriyə baxma, qoca) çöllərə salan qaşqa day da ağ sözüylə ilişgəli olub əski soyköklərimizlə bağlıdır. Qaşqa sözünün mənası alnında ağ tükü olan heyvan, at deməkdir. Ərşadın Qaşqa ürgəsi, Əhmədalının Boz atı, öz adının tarixi kökləri ilə mifologiyamızda yaşayır.

İ.Əfəndiyevin əksər əsərlərində xalqın həyatı, məişəti, ata olan münasibətlərin kökü mifologiyamıza, «Kitabi-Dədə Qorqud» dastanlarına gedib çıxır. Dədə Qorqudun öyüdləri içərisində atla bağlı fikirlər çoxdur.

Ən qədim abidələrimizdə xalqın müqəddəsləşdirdiyi ağ, qara, qırmızı, sarı rənglərə münasibəti müxtəlifdir. Ağ rəng soy kökümüzdə xoşbəxt, firavan həyat rəmzi kimi götürülüb. Folklorumuzun ən qədim nümunələrində ağ rəng xeyirxah qüvvələrin şər qüvvələr üzərində qələbəsinin təntənəsi kimi qiymətləndirilir. «Ağ atlı oğlan», «Məlikməmməd» nağılında, Cənubi Azərbaycanda hakimiyyəti öz əlinə alan Ağqoyunlular (Qaraqoyunlular da olmuşdur) tayfasının da adında ucalıq, müqəddəslik rəmzi olan ağ rəng vardır.

İ.Əfəndiyev yaradıcılığında da ağ-qara rənglərə münasibət onun mənsub olduğu xalqın mifik görüşləri ilə səslənir. Onun yaradıcılığındakı bu rənglərlə

bağlı mövzu türk xalqlarının mifoloji baxışlarına uyğundur, çünki ağ rəng lap qədimlərdən türk xalqlarının əfsanələrində ululuq, ucalıq, yüksəklik rəmzi kimi götürülmüşdür. Onlar ağ, göy, tünd qırmızı rənglərə üstünlük vermişlər. M.Seyidov yazır: «qam-şamanlar alqış (dua) etdikləri çadırların başından göyə ağac dikəldər və bu ağaclara göy (mavi), ağ, sarı (qırmızı) rəngli, dərilər, parçalar asarmışlar. Sözsüz ki, asılan dərilərin, parçaların rəngləri düşümlü, müqəddəs imiş. Deyildiyi kimi ağ-yaxşı, xeyir-yer üzünün Tanrısı Ülgenin bəlgəsidir». (117, s.156)

İ.Əfəndiyevin təsvir etdiyi bu obada da ağ rəngli çadır elin tanınmış ağsaqqal-larına məxsusdur. Dədə Qorqud dastanlarında da Xanlar xanı Bayandur ildə bir məclis düzəldib Oğuz qəhrəmanlarını başına yığır. Övladı olanı ağ, qızıl, olmayanı isə qara otağa yığardı.

Xalqımızın bu iki rəngə mifik münasibəti İ.Əfəndiyev yaradıcılığında da diqqəti cəlb edir. Kürdobada ağ rəngli çadırlar oğullu-qızlı nəsillərdən olan kərbəlayi ibixanların, eyvazlarındır. El arasında hörməti uca tutulan bu şəxslərin yaşadığı koma qara keçəli komalardan fərqlənir. Onlar ağ alaçıqda yaşayırlar. Ağ rəng lap qədimlərdə adlı sanlı Xaqanların özlərinə seçdikləri rəng olmuş və bununla da Ülgenə yaxın olduqlarını bildirmək istəmişlər. Kərbalayi İbixan da Kürdobada hörmətli şəxsiyyət olub elin ağsaqqalıdır, Ülgenidir. Ülgen isə mifologiyamızda, inamımızda yaxşılığın yaradıcısıdır.

Bəzi mifoloji baxımlarda qara güclülük, böyüklük mənasındadır. «Kitabi-Dədə Qorqud» boylarında da qara həm güclülük, böyüklük, həm də onun əksi mənasındadır. Qaraçuq çoban, Qazanın qardaşı Qaragünə, Qaragünə oğlu Qarabudaq surətləri Dədə Qorqud dastanında qəhrəmanlara gücünə, qüdrətinə görə verilən addır. Deməli, qara rəng bir zamanlar güclülük, böyüklük «erlikdir». «Erlik-kişilik, igidlik deməkdir. Görünür o, sonralar əksiliklər görüşünün təsirinə məruz qalaraq yamanlıq bəlgəsinə çevrilmişdir. ...Bizcə Erlik tamamilə ikili görüşlə, əkslik görüşü ilə ilişgəlidir. O da qardaşı kimi insan yaradan «ilk başlanğıcdır. Bu onun ilkin yaxşı yönüdür, sonralar mif görüşlər suyumunu dəyişmiş və Altay türklərində olduğu kimi ölülərin, ölülər dünyasının hakiminə də çevrilmiş, pisliyi də təmsil etmişdir». (118, s.47)

«Qara başım qurban olsun Çoban sana», «Qara poladüz qılıncını ver mana», Qarabudaq, Qaragünə kimi adlardan bəlli olur ki, bir zamanlar ucalığın, kişiliyin rəmzi kimi -Erlik kimi qəbul edilən qara rəng yuxarıda dediyimiz kimi Dədə Qorqud boylarında pislik, bədbəxtlik rəmzi kimi də qiymətləndirilmişdir. İ.Əfəndiyevin əsərində «qara keçəli alaçıqlarda kasıblar yaşayırdı. Eyvaz dayıgilin ağ alaçıqların ətrafında qara keçələrdən qurulmuş komalar düzülmüşdü. Bunlar kasıbların idi. Bunlar alaçıq kimi uca və geniş deyildir». (46, s.132)

Ağqoyunlularda ağ rəngin, Qaraqoyunlu tayfalarında qara rəngin ucalıq, müqəddəslik rəmzi olan ağ-qara rənglə bağlılığı bu gün də xalq arasında yaşayır. Ağ gün ağlığın, rahat həyatın, qara gün çətinliyin, ağır günlərin rəmzidir. Bunu xalq ifadələrində də aydın görürük.

«Ondan ötrü niyə günün qara olur?» və yaxud «Ay sənə qara yaman dəysin» qarğışı da, «günün qara olsun» ifadəsi də bizə qara rəngin pis, fəlakət məzmunu daşıdığına işarədir. Ümumiyyətlə, ağ rəngə bir, qara rəngə dual münasibəti nağıllarımızda da görürük. Məsələn, «Məlikməmmədin nağılı»nda üstünə oturduğu qara qoç onu qaranlıq dünyaya aparıb çıxarır. Ağ qoçun işıqlı dünyanın, qara qoçun qaranlıq dünyanın rəmzi daşıyıcısına çevrilməsi milli mifologiyamızda ziddiyyətli münasibətlərin hökm sürdüyünü göstərir. Yazıçının yaratdığı İman surəti də qara rəngə münasibətində ziddiyyətlidir. Dediklərimizi M.Seyidovun fikirləri ilə də yekunlaşdıra bilərik ki, Ağ rəng yer üzünün tanrısı Ülgenin, qara rəng ilkin insan gücünün, insan dözümünün, sonralar dəqiq deyilsə ikili təfəkürün yaratdığı cağdan əksli görüşün təfəkkürdə yer tutduğu yeraltı dünyanın tanrısı Erlikin rəngi kimi qəbul olunmuşdu. Qara daşla və ümumiyyətlə, daşla bağlı inamlara biz mifik görüşləri-mizdən bələdik. Azərbaycanın bir sıra bölgələrində daşa inam, onu tanrılaşdırmaq, müqədəsliyinə inam hisləri güclüdür. M.Seyidovun qeyd etdiyi kimi Laçında, Qubadlıda, Kəlbəcərdə və s. Azərbaycanlıların yaşadığı ərazidə Umay daşı adlı daş maraq doğurduğu kimi, mənim yaşadığım Oğuz rayonunun Kərimli kəndində də belə müqəddəs daşa inam güclüdür. Kəndimizdə «Ziyarətgah»ın sağ tərəfindəki qəbirstanlıqdan bir az aşağıda daş pir vardır. Bu daşın bir hissəsi torpağın içindədir və onun ortası oval şəkilində olmuşdur. Övladı xəstələnəni,

göz dəyəni, əqli zəif olanı bu daşın arasından keçirərdilər. Mən özüm uşaqlıqda belə bir hadisənin şahidi olmuşam ki, qonşumuzdan iki qadın (gəlin-qaynana) evin iki-üç aylıq körpəsini gətirib o daşın altında qucaqdan-qucağa ötürməklə keçirirdilər və bunun səbəbini mən onlardan soruşanda yaşlı qadın «əhd eləmişdim balamın bir övladı olsun, gətirib bu daşın altından keçirəcəyəm», - dedi.

Qədim türk tayfalarında dağlar, qayalar, daşlar, ağaclar uşaq, doğum piri kimi qəbul edilmişdir. Mifik baxışlara görə dağ göydən, günəşdən gəlmiş, elə buna görə də o müqəddəs başlanğıcdır, qoruyucudur.

Quraqlıq zamanı suya salınan daşlar indi də el-obalarda vardır və insanlar onun qüdrətinə inamı bu gün də yaşadır.

Qara daş məfhumu bu gün də xalq içərisində yaşamaqdadır və bu xalqın mifik tarixi ilə dərin köklərlə bağlılığını M.Seyidovun fikirlərinə əsaslanaraq təsdiq edə bilərik. «Daşa inamla ilişgəli maraqlı fakta da diqqəti yönəldək, Urumçu şəhərində 1915-ci ildə tapılmış «risalə»də yadaçılıq (yadaya inam)dan bəhs olunarkən deyilir ki, Cəbrayıl Adəmdən xahiş edir ki, ona qara və çar (boz) daş versin. O, bu daşlarla yada törəni keçirtsin və yağış yağdırsın». Bu misralar M. Seyidovun «Qam-şaman və onun qaynaqlarına ümumi baxış» kitabında verilmişdir və M. Seyidov S.E. Malovun «Risalə» əsərindən göstərilən fikirlərə istinad etmişdir.

Daşa, dağa inam türk, Azərbaycan, eləcə də Şərq xalqlarının mifologiyasında geniş yayılmışdır. İslamın əsas ziyarətgahı olan Məkkədəki Əl-Məscid əl-həramın həyətindəki binanın cənub-qərb bucağında divara Allahın göydən göndərdiyi «qara daş» hörülmüşdür. Bura ziyarətə gələnlər yeddi dəfə Kəbənin dövrəsinə dolanır və «qara daşı» öpürlər. Yazıçının qələmə aldığı «Qarı dağı» əfsanəsindəki Qarı dağı, Ərimgəldi qayası, Xəzinə qayası və digər dağ və yer adları dağa, daşa mifik inamların təzahürüdür.

Yuxu fizioloji hadisə olsa da mifologiyada ona qeyri- adi münasibət yaşayır. İlk insan təfəkkürünün primitiv inkişafı, şahidi olduqları hadisələrin köklərini aça bilməkdə aciz qalmaq, avamçılıq, savadsızlıq, təbiətdə, insan həyatında baş verən hadisələrin mənşəyinin törənmə səbəblərinin lazımınca dərk edilə bilməməsi yuxuya bir möcüzə kimi baxmağa gətirib çıxarmışdır.

İnsanlar gördükləri yuxunun «sehrinə» bənd olmuş, hətta onların möcüzələrindən də qorxmuşlar. Ömründə görmədikləri adamların onların yuxusuna girməsi, yuxuda gördükləri müəyyən hadisənin sonra həqiqətə çevrilməsi, yəni real həyatda baş verməsi yuxuya müxtəlif baxışların formalaşmasına gətirib çıxarmışdır. C. Frezer yazır ki, allahların yuxuda insana görünməsi və öz iradələrini bəyan etməsi inamı qədimlərdə geniş yayılmışdı. (176, s.267)

Çox vaxt yuxuya xəbərdarlıq kimi baxdıqlarından bu yuxuları müxtəlif cür yozmuşlar. Yuxu yozanların sarayda varlıların yanında saxlanması fikirlərimizi əsaslandırmaqda bizə kömək edir. Yuxu nağıllarda da öz əksini tapmışdır. «Yuxu» nağılında deyilir ki, bir gün padışah yuxuda görür ki, onu götürüb dəyirmanın boğazına atırlar. Qolu-qılçası paralandı, bədənini isə su apardı. Yuxudan hovlanak qalxır, lakin özünə təskinlik verir. İkinci gecə yenə yatıb həmin yuxunu görür, qorxuya düşür. Səhər açılan kimi saray əyanlarını vəzir-vəkili yanına cağırıb gördüyü yuxunu onlara danışır. Yuxunu onlar yoza bilmədikdə aciz qaldıqda rəmmalı cağırırlar. Rəmmal padşahın yuxusunu belə yozur ki, «sən taxdan düşəcəksən və el içində rüsvay olacaqsan». (29, s.151)

Padşah bunu eşidib fikrə gedir və belə qərara gəlir ki, padşahlıqdan əl çəkib başqa ölkəyə getsin və rüsvayçılıqdan qurtarsın. Padşahın səltənətindən əl çəkməsinə səbəb yuxuya inamıdır.

Heredotun «Tarix» kitabında öz əksini tapan «Astiaqın əfsanəsi»ndə də yuxuya inamın ilkin babalarımız arasında güclü olduğunu görürük. «Astiaq qızı Mandananı yuxuda görür. Hökmdar yuxuyozan maqları çağırtdırır. Maqlar yuxunun mənasını dəqiq izah edəndə hökmdar maqları anlayıb bərk qorxuya düşür. Qızı Mandananın ərə getmək vaxtı çatanda onu mənşəcə midiyalı olmayan, Kambis adlı bir farsa ərə verir. Bir il sonra Astiaq yenə yuxu görür. Bu dəfə görür ki, qızının bətnindən üzüm tənəyi çıxıb böyüdü və uzanıb bütün Asiyanı bürüdü. Hökmdar yenə maqlara müraciət edir. Yuxuyozan maqlar yuxunu belə yozurlar ki, «Qızının doğduğu oğul onun yerində hökmdar olacaq. (63, s.55) Burada maqlar Midiya dövlətinin mühüm xalqlarından biri, qeyri-adi zəka sahibi, müdrik xalq, gələcəyi əvvəldən görmək qabiliyyətinə malik olmuşlar. Bütün bunlar Azərbaycan xalqının formalaşmasında rol oynayan

tayfalarda yuxunun, yuxuyozmanın onların mifik görüşlərində dərin iz buraxdığını göstərir.

Yuxuya inam ən qədim minilliklərdə təşəkkül tapmış türk epos təfəkkürünün müxtəlif mənbələrində də zəmanəmizə qədər gəlib çatmışdır. Şifahi şəkildə xalq içərisində təşəkkül tapmış, sonralar yazıya alınmış bu türkdilli mənbələrin birində- «Alp Ər Tonqa»da İranlıların zülmünə qarşı qalxmış turanlıların döyüşçülərinin başçısı Alp Ər Tonqa Keykavusa qarşı döyüşə hazırlaşır. Keykavus Səyavuşla Rüstəmi onun üzərinə göndərir. Qorxmaz, cəsur Alp Ər Tonqa qalib gələcəyinə bütünlüklə inanmasına baxmayaraq gördüyü qara qayğılı yuxydan sonra döyüşdən əl çəkib. Ömrünü eyş işrət içərisində keçirib İran taxt-tacını, ordusunu zəiflədən Keykavusa qarşı çıxmaqdan çəkinir, onun ordusuyla sülh danışığına girir. Çünki gördüyü yuxuya inam hissi mifik təfəkkürün güclü tərəfidir. Burada maraqlı cəhətlərdən biri də odur ki, yuxunun təsiri nəticəsində sülh bağlanması Alp Ər Tonqanın xeyrinə olur. Keykavus sülh danışığına girdiyi üçün Rüstəmlə Səyavuşu acılayır və bundan inciyən Rüstəm öz ölkəsinə qayıdır, Səyavuş isə Alp Ər Tonqa ilə birləşir.

İ.Əfəndiyevin yaratdığı obrazların gördükləri yuxular epizodik xarakter daşımasına baxmayaraq hadisələrin gedişinə, qəhrəmanın daxili aləminə, əhval-ruhiyyəsinə, oxucunun diqqətini artırır. Xalqın qədim mifik təfəkkürüylə bağlı yuxu, onun yozumlarının (folklorda olduğu kimi) yazılı ədəbiyyatımıza gətirilməsi, klassik sənətkarlarımızın bu sahədə yaradıcı ənənələrinin İ.Əfəndiyev kimi XX əsrin ən böyük sənətkarları tərəfindən davam etdirilməsi müsbət hal olub, yazıçının folklorun bütün incəliklərinə dərindən bələd olduğunu göstərir. Şifahi xalq ədəbiyyatımızda, o cümlədən, «Dədə Qorqud» dastanlarında yuxu adətən romantik duyğularla bağlıdır. Xalq yaradıcılığında olduğu kimi yazıçının da yuxudan bir priyom kimi istifadə etməsi ötəri deyildir. Bununla müəyyən hadisələrin daha təsirli verilməsinə, əsərin bədii dəyərinin artırılmasına nail olmuşdur.

«Qəhrəman və bülbülün nağılı» əsərində ömrünün son anlarını yaşayan, bülbülün yanıqlı səsindən gözlərini açan, son anda arzuladığı real həqiqəti

yuxusunda yaşayan qəhrəman döyüşçünün daxili istək və arzularının şahidi oluruq.

Quranda da yuxu ilə bağlı hadisələr öz əksini tapmışdır. Bütün bunlar göstərir ki, yuxu xalq ədəbiyyatının ən geniş yayılmış mövzularından biridir və bu mövzu ətrafında kamil sənət əsərləri yaradan böyük sənətkarlarımız var. M.F. Axundov «Aldanmış Kəvakib» əsərində yuxuda görülmüş bir hadisənin yozulmasıyla bağlı baş verən hadisələri təsvir edir. Ə.B. Haqverdiyev «Xortdanın cəhənnəm məktubları», Y. Vəzir «Cənnətin qəbzi», S.S. Axundov «Yuxu» və digər əsərlərində sənətkarlarımız bu mövzuya müraciət etməklə ədəbiyyatımız üçün qiymətli sənət nümunələri yaratmışlar.

Xalqımızın bədii təfəkkürü özünün gözəl, sehrkar, bədii xüsusiyyətləri ilə zəngindir. Yer üzündə mövhumatın, fanatizmin hökmranlıq etdiyi zamanlarda insan şüurunda ziddiyyətli ideyalar cövlan edirdi. İnsanın təfəkküründəki bu ziddiyyətlər Xeyirlə Şər, pisliklə yaxşılıq, təbiətdə baş verən hadisələr, insanlara xeyir gətirən, insanların məhvinə səbəb olan təbiət hadisələri insan tərəfindən hələ yaxşı dərk edil mədiyi üçün möcüzələrə çevrilirdi. İnsan üçün yaxşı nə vardısa yaxşılığın, pisliklər isə pisin ayağına yazılırdı. İlk qəbilə quruluşu formalaşdığı zamanlardan başlayaraq insanlar müəyyən hadisələrə tapınırdılar. Xeyirlə Şər arasındakı ziddiyyətlərin Xeyrin qələbəsi ilə nəticələnməsini arzu edənlər yaxşı həyatı yaradanı, insan üçün, insanın həyatı üçün əsas olan günəşi, işığı, suyu, torpağı ilahiləşdirir, tanrılaşdırır. Dünyanı iki yerə bölən, onu əksliklərin vəhdətində görən, insan həyatı üçün, onun yaranması üçün lazım olan əsas şeyləri Xeyrə, insanın, təbiətin məhvinə səbəb olan pislikləri, ölüləri Şərin ayağına yazmış ölüm-olum məsələlərinə də öz obrazlı donunu geydirməklə bu mifizmi əfsanə və rəvayətlərdə də yaşatmışdı. Ulu babalarımızdan bizə miras qalan bu mifizm insan şüurlarında kök salaraq insanların yaşamaq, yaratmaq ideyalarına xidmət etmişdir ki, bu da bütün dünya xalqlarında olduğu kimi, Azərbaycan xalqının yaradıcılığında da öz əksini tapmışdır. Folklorumuz ikili dünyamızın ziddiyyətlərini, cəmiyyətdə gördüyü haqsızlıqları xeyirxah qüvvələrin xeyrinə həll etməyə çalışır.

İ.Əfəndiyevin yaradıcılığında qəhrəmanların çətin anlarında ona kömək etmək üçün özünü yetirən Xızır Nəbi türkdilli xalqlar, o cümlədən Azərbaycan

ritual mifoloji sisteminin aparıcı obrazlarından biridir. O, insanlara həyat bəxş edən, xeyir-bərəkət gətirən qüdrət sahibi kimi səciyyələndirilir. Xalq içərisində Xızır Nəbi, Xızır əleyhissalam və Xızır peyğəmbər kimi tanınır. «Xızır darda qalanların yardımına çatan müqəddəs varlıqdır…Xalq təqvimində yazın başlanğıcında (kiçik çillənin sonunda) keçirilən Xızır İlyas günü ilə bağlı müxtəlif inam və adətlər Xızırın yenilik, sərvət, bərəkət müjdəçisi olması ilə bağlıdır. Xızırın abihəyatdan (dirilik suyu) içdiyi üçün ölməzlik qazanması (əfsanəyə görə İsgəndərlə zülmətə getmiş və orada həyat suyu içmişdir) vaxtaşırı dünyanı ziyarət etməsi, özünü tanıtmadan insanlar cərgəsinə qarışması, qəhrəmanların məşuqələrinə yiyəlik etməsi kimi inamlar geniş yayılmışdır». (22, s.491)

Xızır peyğəmbərin çətin anda insanların köməyinə çatması əfsanə və nağıllarımızda, dastanlarımızda yaşayır. İ.Əfəndiyev onun bu keyfiyyətlərindən bəhrələnməklə qəhrəmanın başına gələn sonrakı faciələri əfsanəvi, mifik qüvvələrlə bağlamaqla əsərinin bədii dəyərini, emosional gücünü artırmış olur.

«Qızyetər özü də bilmirdi hara gedir. Birdən dünya durduqca yaşayan Xızır peyğəmbər çıxdı onun qabağına, dedi: -Ay gəlin, bu yiyəsiz çöllərdə səni qurd-quş basıb yeyər. Gözünü yum, açanda özünü obada görərsən».

Qızyetər dedi:

-Mən nə üzlə obama qayıdım?

O zaman Xızır peyğəmbər dedi:

-İndi ki, öz obana getmirsən, ayrı obaya apararam səni.

Qızyetər dedi:

-Yox, mən tay insan üzü görmək istəmirəm.

-Onda öz babalın öz boynuna!

Xızır peyğəmbər bunu deyib yox oldu». (45, s.155)

Yazıçının bu obrazı Qızyetərin köməyinə gətirməsi, qəhrəmanın ən ağır anlarını, ölümlə üzbəüz dayandığını, onun daxili sarsıntısını daha qabarıq şəkildə göstərmək üçün bir bədii priyom kimi əsərinə daxil etməsi xalq ədəbiyyatından gəlmədir. Xalq içərisində yayılmış Xızırla bağlı rəvayətlərdən bir neçəsinə nəzər salaq. «Xızır və İlyas», «İsgəndər və Xızır peyğəmbər» kimi əfsanə və rəvayətlərdə də Xızır ölməzliyə qovuşan bir mifik obrazdır. (59)

«Xızır və İlyas» əfsanəsində Xızır dirilik suyunun arxasınca gedərkən ona İlyas adlı bir nurani qoca da qoşulur. Onlar zülmət dünyasına çatırlar. Ac və yorğun olduqları üçün bir bulağın başında əyləşib öz boğçalarını açaraq yeməyə başlayırlar. Onlardan biri quru balığı bilməyib suya salır. Əyilib götürmək istərkən balığın dirilib üzdüyünü gördükdə heyrətə gəlir və başa düşür ki, axtardıqları dirilik suyu budur. Bulağın suyundan içib geri qayıdırlar, Xızır səhralara, çöllərə, İlyas isə dənizə sarı yol alır! (51, s.46)

Buradan aydın olur ki, Xızır peyğəmbərlə bağlı bu əfsanələr uzun minilliklərdən əvvəl yaranmışdır. Tağı Xalisbəyli yazır ki, Xızırın adı şərq mifologiyasında təbiətdə daim dirilik, çiçəklənmə, artma rəmzi kimi göstərilir. İslam dini yarananda Xızırın müqəddəsliyini qəbul etmişdir. Ona görə də bu barədə Quranda rəvayət verilmişdir.

V.V. Bartold da ölməzlik əldə edən Xızırla qədim şamanın özünəməxsus ölməzliyi haqqında xalq tamaşalarında onları bir-birinə yaxınlaşdıran motivlərin olduğunu bil-dirmişdir. Xızır qədimdən xalqın düşüncəsinə hakim olan və onun milli təfəkkürü-nün yaratdığı kultdur.

«Dədə Qorqud» boylarında da Xızır çətin anda insanların köməyinə çatan müqəddəs bir obraz kimi təsvir edilir. «Dirsə xan oğlı Buğac xan boyını bəyan edər, xanım hey» boyunda Dirsə xan öz əlaltılarının hiyləsinə uyaraq oğlu Buğacı ova aparıb orada ölümcül yaralayır. Lakin onun köməyinə yetən Xızır peyğəmbər olur: «Qarğa quzğun qan görüb, oğlanın üstünə qonmaq istərdi…Oğlan anda yığıldıqda Boz atlu Xızır oğlana hazır oldı. Üç qatla yarasın əlilə sığadı: «Sana bu yaradan, qorxma, oğlan, ölüm yoqdur. Tağ çiçəgi anan südilə sənin yarana məlhəmdir» -dedi, ğaib oldı». (75, s.39)

İ.Əfəndiyevin qəhrəmanına da bu kult daha yaxın, daha doğmadır. O birdən-birə yoxa çıxan Qızyetərin müəmmalı yoxluğunu istəmir. Onu Xızır peyğəmbər kimi obrazlarla qarşılaşdırmaqla salamat qalmasını istəyir, əmisioğlu Bəhlul kimi, Qaracanın ögey analar əlində qalıb əzab çəkməsini deyil, onu Qaracaya qaytarmaqla onun balaca gözlərində dünya dolu səadəti, sevinci görmək istəyir. Qəhrəmanının daxili isək və arpzularını daha təsirli, daha qüvvətli verməyə çalışan yazıçı bu obrazdan yararlanmaqla bədii cəhətdən qüvvətli, yüksək bədii təsir qüvvəsinə malik sənət əsəri yaratmış olur.

Folklorşünaslarımız Xızır İlyası yaşıllıqla, günəşlə bağlayır, türk xalqlarında, eləcə də azərbaycanlılarda yolçulara, yolda qalanlara, çətinliyə düşənlərə yardım edən müqəddəs obraz kimi qiymətləndirirlər.

Xızır peyğəmbərin köməyindən imtina edən qəhrəmanı yazıçı aparıb başqa bir sehrli aləmə çıxarır, nağıllarımızda olduğu kimi: «Qızyetər bir qədər getmişdi ki, qabağına bir toy məclisi çıxdı. Gördü, vallah, burda bir dəsgahdır ki, gəl görəsən. Məleykə kimi gözəl bir qız əyləşib qızıl taxtın üstündə, sazəndələr çalır, gözəl qızlar oynayır. Ortalıqdakı süfrənin üstündə də dünyanın hər cürə naz-neməti var. Taxt-rəvanda əyləşən qız onu görüb soruşdu:

-Ey bəni-adəm, necə olub ki, sən bura gəlib çıxmısan?

Qızyetər soruşdu:

-Sən kimsən?

Qız dedi:

-Mən pərilər padşahıyam.

Qızyetər başına gələn əhvalatı, zalım sevgilisinin vəfasızlığını açıb pərilər padşahına nağıl elədi». (45, s.155-156)

Pərilər padşahı da Xızır İlyas kimi nağıl dastanlarımızın qəhrəmanlarıdır. O, da mifoloji obrazlarımızdan biridir.

İ.Əfəndiyev yaşadığı real həyata əfsanəvi dünyasının qəhrəmanlarını da gətirməklə təkcə xalq yaradıcılığına məhəbbətini ifadə etmirdi, eyni zamanda «onların yardımı ilə» bu qəhrəmanların köməyi ilə demək istədiyi sözü deyir, vermək istədiyi məsləhətini verir, pis yola düşənləri düzgün yola çağırır, eşqinə, hissinə vəfasız çıxanları imtahana çəkir, müqəddəs xeyirxah işlər görməyə cağırırdı.

«Pərilər padşahı olan o gözəl qız soruşdu:

-İntiqamını alandan sonra ürəyin soyudumu?» (45, s.156)

İ.Əfəndiyev yaradıcılığında ən maraqlı cəhətlərdən biri də xalqın suya, oda olan inamlarını öz əsərlərində yaşatması və onlardan bəhrələnməsidir. Yazıçının yaradıcılığında öz əksini tapan, onun əsərlərinin bədii təsir gücünü artıran suya, torpağa, daşa inam ilkin inamlardan olmuşdur və xalqımız onlara canlı bir məfhum kimi baxmışlar. Suyun insanlara xoşbəxtlik verməsinə, çətin yollarının asan, uğursuz işini uğurlu etməsinə inam yazıçının əsərlərində

yaşayır. Xalq yaradıcılığında su ilahiləşdirilir. Su aydınlıq, təmizlik simvolu kimi qəbul edilmişdir. İ.Əfəndiyevin qəhrəmanlarının nəzərində də belədir. Uzaq səfərə yola düşərkən Fatma nənə oğlu Nurunun arxasınca su atır. Yazıçı folklorumuzda yaşayan suyun ilahi gücünə, qüdrətinə inamdan yararlanmaqla ananın daxili hiss-həyəcanlarını, narahatçılığını oğlunun arxasınca atdığı bir qab suyla qabarıq şəkildə verir. Səfərə çıxan oğlunun arxasınca su atan ana ona inamın işığında yaşayır. İ.Əfəndiyev yaradıcılığının bədii gücünü artıran, onun əsərlərinin ideya və məzmun zənginliyinə xidmət edən suyla bağlı xalq mifologiyasından gəlmə motivlər «Kitabi-Dədə Qorqud» dastanlarında da vardır. Qazan xanın arvadı Boyu uzun Burla Xatın oğlu Uruzun nəzir-niyazla, «quru-quru çaylara su salmaqla» Tanrının ona verdiyini söyləyir.

«Su haqq didarını görmüşdür» kəlməsindən də biz görürük ki, suya tapınmanın kökləri çox qədimdir. Su həyatdır, çünki həyatın mövcudluğu üçün su başlıca amillərdəndir. Yazıçının qəhrəmanı da oğlunun arxasınca su atarkən bu inama söykənir, ona həyat verəcəyinə, onu yaşadacağına inanır. Su saflıq, təmizlik, həyat mücəssəməsidir. Yazıçı bu piriyomdan istifadə etməklə ananın daxili hisslərini daha canlı verə bilir. Suyun səfərə çıxan insanın arxasınca atılması işlərinin asan, yolunun uğurlu olması inamına xidmət edir. Nurunun əməllərində saflıq görməyən ana başa düşür ki, oğlu səfil həyat sürür. Axıradık bir işin arxasınca getməyən oğulla əri Bayram bəy arasında yaranan gərginliyin də səbəbi budur. Ananın ürəyindən keçənləri oxucuya çatdırmaq üçün bu mifik inam daha təsirli vasitədir.

Su «Dədə-Qorqud» dastanlarında, nağıllarımızda, əfsanələrimizdə əsas mövzulardan biridir. «Salur Qazanın evinin yağmalanması» boyunda yurdunun viranə qaldığını gördükdə, anasını, ailəsini tapmadıqda o axar suya üz tutur:

«Cığnam - cığnam qayalardan çıqan su!
Ağac gəmiləri oynadan su!
Şahbaz atlar içdigi su…
Ordumın xəbərin bilirmüsin, degil mana,
Qara başım qurban olsun, suyım, sana! dedi». (75, s.44)

Dünyanın ilkin ünsürü kimi də su götürülür. Hər şeyin sudan yarandığı, dünyanın dağıdan amilin də su olduğu, (Nuhun tufanı mifində) miflərdə yaşayır. Oğuz miflərində də su başlanğıc, xilaskar, həyətverici funksiyaları daşıyır. F.Rəşidəddinin «Oğuznamə»sində türkləri məhv olmaq təhlükəsindən də çayın suları xilas edir. Ən qədim bayramlarımızdan olan Novruzda su çərşənbəsi mərasimi keçirilməsi-sübh tezdən ilk çərşənbə bulaq başına gəlib su götürmək, əl-üzlərini yumaq, «ağırlığım-uğurluğum suya», «azarım-bezarım suya» -deyib, su üstündən atlanmaq, suyla bağlı inanclar (su içən adamı ilan çalmaz, yuxuda su görmək aydınlıqdır, süfrəyə su dağılması aydınlıqdır, suyla qurdun ağzı bağlı olar kimi inanclar) «Kitabi-Dədə Qorqud» dastanında «Su tanrının üzünü görmüşdür» kimi ifadələr bir daha bunu deməyə əsas verir ki, İ.Əfəndiyev yaradıcılığında suya münasibətin ilkin kökləri miflərdədir. Bunlar da göstərir ki, xalqımızın mifologiyasında su həyat mənbəyidir.

Mifik təsəvvürlərdə olduğu kimi. Gerçək həyatımızda da su təbiətin oyanmasında, yaşamağın, həyatın inkişafında mühüm rol oynayır. Şumer-akkad mifoloji sistemində dünya okeanı Abzunun sahibi Enki Ereduq da (İridağda Qafqaz dağlarında) yaşayır. Şumer miflərində Enki və Nikmah ilk insanı Abzunun dibindəki gildən düzəldir. Əl Ustadın «Munisnamə»sində də dünyanın bütün sularının öz mənbəyini Qaf dağından alması söylənilir. On ikinci əsrdə bu əsəri qələmə almış azərbaycanlı Əl Ustadı mənsub olduğu xalqların suya, oda inancları, mifoloji təsəvvürlərində onların əlaqəli şəkildə təsviri həyatın mənbəyi torpaq, su, odla bağlıdır.

İ.Əfəndiyev yaradıcılığında əsərlərinin məzmun zənginliyinə xidmət edən, onların bədii təsir gücünü artıran bulaqla, suyla bağlı əfsanə və rəvayətlər, «Koroğlu» dastanı qəhrəmanlarının həyatında da böyük rol oynayır. Alı kişi oğluyla Cənlibeldə yurd salandan sonra oğluna elə yaxın yerdə bir Qoşabulaq adlı yer olduğunu söyləyir, onu tapmağı xahiş edir və bildirir ki, kim yeddi ildən bir bulağın-ulduzların toqquşmasından sonra köpüklənən suyundan içsə aşıq olar. Eyni zamanda o bulağın suyu kor gözləri sağaldır. İ.Əfəndiyevin qəhrəmanları da «Qarı dağı»nın altından axan sərin çeşmənin qüdrətindən xəbərdardır. Belə müqəddəs yer adlarından, onların xalqa xeyir verən tərəflərindən yararlanmaqla, yazıçı yüksək bədii təsir gücünə malik əsər

yaratmış olur. Yaratdığı əsərdə xəlqilik daha qabarıq şəkildə verilir. Yazıçı da əsərlərini bu mövzular üzərində kökləməklə, xalqdangəlmə bu ideyalardan bəhrələnməklə həm qüvvətli, milli ruhda əsərlərin yaranmasında mühüm rol oynamış olur, həm də xalqına, onun mədəniyyətinə bağlı olduğunu sübut edir. Onun qələmə aldığı «Qarı dağı» əfsanəsində də çeşmədən, bulaqdan söz açılır. «Şəhərdən yadigar yalnız «Qarı dağı» qaldı. O vaxtdan bəri «Qarı dağı»nın altında bir çeşmə qaynayır. Uzaq mənzildən gəlib-keçən yolçular onun suyundan içib, ürəklərinin yanğısını söndürürlər». (41, s.61)

Çay - su, bulaq türk dilli xalqların hamısında ilkin başlanğıcdır. «Su həyatdır» məsələsi indi də yazıçının mənsub olduğu xalqımızın zehinində, təfəkküründə, mənəviyyatında yaşayır. Bu inam əski təfəkkürün məhsuludur və bütün türkdilli xalqların mifologiyasında özünü bariz şəkildə göstərir.

Mirəli Seyidov yazır ki, «Etil - İtil, Volqaboyuna səyahət etmiş X əsr ərəb alim-səyyahı İbn Fədlan da təsdiq edir ki, türklərdə su tanrısı varmış. Əski Çin mənbələrinə söykənən hunların 24 qəbiləsinin-boyunun başçıları ilin beşinci ayında Lunq-Çenq şəhərinə toplaşıb Göy Tanrıya, yer, su ruhlarına qurban vermişlər. Tuqyular ildə bir dəfə müqəddəs ruhların, onqonların, eləcə də suyun şərəfinə mərasim düzəldərmişlər. Qıpçaq qəbiləbirləşmələri silsiləsinə daxil olan Kimeklərdən bəhs edərkən Qardizi qeyd edir ki, onlar suyun tanrısı olduğuna inanır, suya tapınırlar». (117, s.215)

Novruz bayramında səhər tezdən axar suda yuyunmaq, su götürmək həm yenilik, təzələşmək, həm də suya tanrı kimi tapınmadır.

İ.Əfəndiyevin «Qəhrəman və bülbülün nağılı» əsərində qəhrəmanın ruhunu özü ilə göylərin sakit, maviənginliklərinə aparan mələk simalı qız da su ilə ilişgəlidir. Həyatının son anlarını yaşayan qəhrəman yuxusunda sevgilisini çay kənarında görür. Suyu ilk başlanğıc hesab etmiş türk xalqlarının mifologiyasında tanrı ilə bərabər kainatda öncə suyun da əsas olduğu bildirilir. Hətta Müqəddəs bir şəxsiyyət kimi tanıdığımız Dədə Qorqud da ölümdən yaxa qurtarmaq üçün çay üzərində məskən salır. Xızır Peyğəmbər bulaqdan su içərək ölməzliyə qovuşur və əbədi çətinliyə düşən insanların xilaskarına çevrilir. İ.Əfəndiyevin qəhrəman döyüşçüsü də («Qəhrəman və bülbülün nağılı») ömrünün son anlarında özünü çay kənarında görür və yazıçı burada

suyla, su tanrısıyla bağlı mifik görüşlərimizdən istifadə etməklə öz qəhrəmanının müsbət, müqəddəs qüvvələrlə bağlı olduğuna oxucu diqqətini yönəldir, vətən yolunda həlak olan oğullarımızın ölməzliyə qovuşan, yüksək keyfiyyətlərə malik bir şəxsiyyət olduğunu göstərir.

Qədim atəşpərəstlikdə də M.Seyidov su tanrısının adının çəkildiyini göstərir: «Ey Atəş anamız, sən, doqquz irmağın qovuşduğu yerdə, doqquz bucaqlı pak evdə oturan və çayların, dənizlərin ilahəsi su tanrısı ilə danışırsan..!» (117, s.218)

Nağıl və əfsanələrimizdən tanıdığımız su pərisi, xalq içərisində indi də yaşayan çay, bulaq, hətta dəniz kənarında su pərilərinin görünməsi haqqında rəvayətlər, söyləmələr öz köklərini məhz bu əski mifologiyamızdan alır. İ.Əfəndiyevin qəhrəmanı («Qəhrəman ilə bülbülün nağılı») da ömrünün son anlarında getməkdə olduğu əbədi yuxuların qoynunda son dəfə görmək istədiyi sevgilisini «mələk kimi sakit, məhzun bir üzlə» çay qırağında görür.

Suyla və digər məfhumlarla bağlı əfsanələr xalq təvəkkürünün ən qiymətli nümunələridir. Yüksək ideyaya və dərin məzmuna malik olan əfsanələrimiz V əsrdə yaşamış Herodotun əsərlərində də öz əksini tapmışdır.

İ.Əfəndiyev yaradıcılığında rəqəmlərə münasibət də mifizmlə bağlıdır. «Qarı dağı» əfsanəsində yazıçı nağıllarımızdan qopub gələn bir sıra xüsusiyyətlərdən yararlanır.

«Hökmdar yeddi qızıl dirəkli çadırında, yeddi tirmə döşək üzərində əyləşdi». (41, s.56) Belə folklor faktlarından bəhrələnərkən folklor ənənələrinə dərindən bələd olduğunu göstərməklə yanaşı, onlardan bir qüvvətli vasitə kimi istifadə etmiş, əsərlərində milli ruhu yaşatmağa çalışmışdır. Yazıçının balaca qəhrəmanı da nağıl və əsatirlərimizdə yaşatdığımız mifologiyamıza üz tutur. Əgər Xanmurad kimi bir igid olarsa, yeddi gün yeddi gecə at sürərək gedib ağ divi öldürər və onun oğurlayıb apardığı gözəl qızı xilas edib, anasının yanına qaytarar.

Rəqəmlər dünyanın dərk olunmasına mifik baxışın məhsuludur. İlk insanların kəmiyyət kateqoriyasını mənimsəməyə başlaması sehrli, sakral rəqəmləri meydana gətirmişdir. Müqəddəs rəqəmlər mifologiyanın tərkib hissəsidir. Qədim insanlar bu müqəddəs rəqəmlərdən kömək gözlədiklərindən

onlara üz tuturlar. İnsan ya şadığı aləmdə baş verən hadisələrin arxasında sirli bir qüvvə dayandığını düşünməklə bərabər, bəzi rəqəmlərin də qeyri-adi gücə, möcüzəyə malik olduğu qənaətində idilər. Bu sakral rəqəmlər xeyirxahlığına və bəd əməllər törətməsinə görə iki yerə bölünürdü. Azərbaycan mifik sistemində 1, 2, 3, 4, 5, 7, 9, 40 sakral rəqəmləri ən çox işlənmişdir.

Bir Tək Allahın adıyla bağlı olub, dünya mifik modellərində bütövlük, tamlıq, vahidlik kimi başa düşülür.

İ.Əfəndiyevin qəhrəmanlarının 3, 7, 40 rəqəmlərinə münasibətinə diqqət yetirdikdə Azərbaycan mifik düşüncələrdə 7 ulularımızın ilkin astral anlayışlıarındandır. Türk xalqlarının mifologiyasında əcdad göy cisimləri ilə əlaqələndirilir. Yazıçının bədii imkanlarından bəhrələndiyi «yeddi» rəqəmi - yeddi qardaş, yeddi başlı əjdaha, yeddi axmaq, yeddi pəri, yeddi igid obrazlar kimi nağıllarda, dastanlarda işlədilir. B.A. Frolov yazırdı: «sehrli yeddi» rəqəmi qədim insanın Ay təqviminə, yeddi iqlim ölkələrinə, ulduzlar sisteminə, böyük Ayı bürcünə mifik inamından yaranmışdır». (177, s.192)

İ.Əfəndiyevin qəhrəmanlarının başı üzərində duran yeddi qara qulun qayğısını çəkdiyi igid də yeddi illik duanın, yeddi minlik qurbanın sayəsində dünyaya gələn insandır: «Şahzadə Məliktac qonşu çadırda, qızdırma içində yatırdı, hər tərəfində yeddi qara qul əlləri döşündə sükut içində dayanıb gözlərini ona zilləmişdi» (41, s.57). «Nə danışırsan, qarı? -dedi. -O, mənim yeganə varisimdir. Mən yeddi il dua edib, yeddi min qurban kəsəndən sonra, Böyük yaradan mənə əta etdi» (41, s.58). «Oğlan yeddi düşmən öldürüb on səkkiz yara alandan sonra yıxıldı» (41, s.30).

«Dünyanın yaranması» haqqında əsatirdə deyilir ki, yer və göy əkiz olubmuş, dəhşətli alovun püskürməsilə dünya iki yerə bölünmüşdür. Sonra qaranlıq dünya odun-günəşin köməyi ilə işıqlanır. Ay-ulduz yaranır. Günəşin suyu qızdırması nəticəsində su buxarlanır. Yerində dağlar, dərələr yaranır. Ay və Ulduz suyun törət-diyi fəlakətlərdən bezib zil qara örtük toxuyub günəşin qabağını kəsirlər, günəş ayı görüb ona vurulur. Onların Daş və Dün adlı bir oğlu və bir qızı olur. Əkizlərdən də dörd nəvə, on iki nəticə, iyirmi dörd kötücə, otuz itikcə, üç yüz altmış dörd ötükcə doğulur. Ötükcələrin biri Yeri özü üçün yurd seçir və ora yeddi çöp basdırır, yatır. Ayılanda yeddi çöpün göyərib yeddi ağac

olduğunu görür. Əlbəttə, sonralar bunlar müqəddəs ağaclar (Dağdağan, Əncir, Alma, Nar, Tut, Zoğal, Saqqız ağacı) hesab olunur. Bəzi rəqəmlərin dünyanın, insanların yaranmasıyla bağlılığı xalqımızın məişətində, həyatında rəqəmlərə münasibətin dərin kökləri olduğuna işarədir.

Ən qədim dini abidəmiz olan «Avesta»da Yer kürəsinin yeddi hissəyə bölünməsi söylənilir. Çəmənzəminli yazırdı ki, «Yeddi» rəqəmi ona görə müqəddəsdir ki, burada insanın yaşaması üçün zəruri olan və Zərdüşt fəlsəfəsində də materialist əsaslarla mənalandırılan yerə məxsus dörd (torpaq,su, hava, od) və göyə məxsus üç (günəş, ay, ulduzlar) ən əsas şey birləşmişdir. (34, s.11)

Quranda da Allahın dünyanı və insanları yeddi gün ərzində yaratdığı qeyd olunur. Ölü dəfn edildikdən sonra onun üç, yeddi və qırxıncı günlər xatırlanması, qırx gün ona yas saxlanması, qırxına qədər yeddi gündən bir onun adına ehsan verilməsi və s. kimi etiqadlar adət-ənənələrimizdə bu gün də yaşayır. «Yeddi qardaş, bir bacı» nağılında qardaşların sayının yeddi göstərilməsi, Nizaminin yaratdığı şah əsərlərindən birinin adının «Yeddi gözəl» (bu da əfsanələrdən gələn priyomdur) adlandırılması, Göyün yeddi qatdan ibarət olması, yeddi qapıdan nəzir yığmaqla quran kəsmək «əhdi» və buna bənzər digər adət-ənənələrimizdə yaşayan yeddi rəqəminə müqəddəs baxım mifik təfəkkürümüzün yaşartılarıdır. Yeddi rəqəminin sakrallığını, müqəddəsliyini şərtləndirən həftənin yeddi gündən ibarət olması, Babilistanda qədim və orta əsrlərdə yeddi iqlimin astronomik elmi təsviri və s. amillərdir. Yeddi rəqəminə sakral baxışların Azərbaycan xalqının məişətinə, ayinlərinə daxil edilməsi ilin axır çərşənbəsində bayram süfrəsinə yeddi rəngdə yeyinti məhsullarının qoyulması, «yeddiləvin» adlanan xörəklərin bişirilməsi, yeddi şam yandırılması, yeddi rəng yumurta boyadılması və. bu kimi qədim adət-ənənələrimizdə özünü yaşatması mifik təsəvvürlərin nəticəsidir.

«Üç» rəqəmi də yazıçının yaradıcılığında folklorumuzda olduğu kimi öz əksini tapır, «Səkinə ilə Gülməmmədə üç gün, üç gecə bir toy elədilər, gəl görəsən». (45, s.10) «İş belə olanda gədənin cibində tapança varmış. Fərəc bəyə üç güllə vurub özünü pəncərədən atır küçəyə». (45, s.21)

Ölü yerdən qaldırılarkən onun üç dəfə qoyulub götürülməsini və ondan çox qabaqlar da üç rəqəminin nağıllarımızda müqəddəsləşdirildiyini bilirik. «Məlikməmməd» nağılında padşahın üç oğlu var, onun bağında bitən almaya üç gün keşik çəkilir, quyunun ağzındakı daşı götürmək və quyuya düşmək üçün üç dəfə cəhd edilir. Üç dəfədən sonra işin öz həllini tapması üç rəqəminə olan inamın təzahürüdür. Üç rəqəmilə bağlı «Atalar üçdən deyib», ilin fəsillərinin üç ay götürməklə dörd yerə bölünməsi, nağılların sonunun «Göydən üç alma düşdü», kəlamıyla bitməsi, toyların üç gün, üç gecə çalınması, qəhrəmanların üç gün üç gecə yol gedib mənzilə çatması və s. üç rəqəminə olan müsbət rəyin təzahürü kimi götürülməlidir:

«Tüfəngin gilizlərini çıxarıb, yenə də atdı. İkinci nişana da göyə qalxdı. Sonra tüfəngi yanında dayanmış cavan qaçağa vermək istəyəndə Xanmurad zarafatyana dedi:

-Ərənlər üçəcən deyib, əmi!» (45, s.176)

Üçlükdən əcdadlarımızın rituallarında, adət-ənnələrində istifadəsi inanclardan doğurdu. Dünya modelində üç dünya-yerüstü, yerüzü, yeraltı qaranlın dünya mövcuddur: «Beləliklə, ilkin dövrlərdə kosmosun üçqatlı strukturuna, üç aləmin mövcudluğuna əsaslanan müqəddəs üç rəqəmi zaman keçdikcə folklor epik ənənəsinin poetikasında, xüsusilə süjet qurmanın formalaşmasında əsas vasitələrdən birinə çevrilmişdir». (111, s.399)

İ.Əfəndiyevin yaradıcılığında yararlandığı mifik rəqəmlərdən biri də «qırx» rəqəmidir.Qırx rəqəminə ən çox nağıllarımızda, əfsanələrimizdə, dastanlarımızda və digər folklor nümunələrimizdə rast gəlirik. «Kitabi-Dədə Qorqud» dastanlarımızda da yeddi, qırx, üç rəqəmləri öz əksini tapmışdır. «Qazan bu xəbəri eşitdi. Dəsmalını əlinə alıb ökür-ökür ağladı. Divanda zarlıq qıldı. ağladı. Qazan vardı, odasına girdi, yedi gün divana çıqmadı, ağladı-oturdı». (75, s.125) Və yaxud «Ana, ağlamağıl, mana bu yaradan ölüm yoqdır, qorxmağıl! Boz atlu Xızır mana gəldi. Üç kərrə yaramı sığadı» Bu yaradan sana ölüm yoqdır. Tağ çiçəgi anan südi sana məlhəmdir», -dedi» (75, s.39) və s. dastandakı epizodlar rəqəmlərə münasibətin folklorumuzda lap erkən dövrlərdən mövcudluğunu göstərir: «Qarıcıq anan qara dəvə boynında asılu keçdi.

Qırx incə bellü qız ilə həlalın-Boyı uzun Burla xatun ağlayuban şundan keçdi.

Qırx yigidlən oğlın Uruz başı açuq, yalın ayaq kafərlərün yanınca tutsaq getdi». (75, s.45)

«Qırx»rəqəminin arxasında gizlənən sehri nağıllarda, dastanlarda görürük. «Əsli və Kərəm» dastanında Əslinin toy paltarının qırx düyməsi və axırıncı qırx rəqəmindəki tilsim, möcüzə, nağıllarımiızda qəhrəmanın otuz doqquz otağı gəzməsi və qırxıncı otaqda misli-bərabəri olmayan bir gözəli görməsi və huşunu itirməsi, qırx rəqəminin eyni zamanda çoxluq mənasını ifadə etməsi,nağıl qəhrəmanlarımızın qorxunc qüvvələrlə qırx gün vuruşduqdan sonra onlara qalib gəlməsi və başqa bu kimi qırx rəqəmiylə bağlı məsələlər folklor nümunələri qırx rəqəminin sehrini, möcüzəsini əks etdirir.

Yazıçının «Yusif və Esfir» əsərində də «Qırx il idi ki, Yusif Allaha ibadət edirdi. Daşa girən Kahin İbrahim demişdi ki, kim qırx il hər gün, hər gecə Allaha İbadət eləsə, Allah onun üç xahişini yerinə yetirər». (40, s.45) Yazıçının qəhrəmanları bu qırx ilin gücünü görürlər. Qırx il Allah evində ibadətə başı qarışan Yusif bu keçən illər müddətində gözəlliyi əldən gedən Esfirin arzularını yerinə yetirir. Müqəddəs hisslərlə yaşayan Yusifin daxili aləmini açmaq, onun insani keyfiyyətlə-rini daha qüvvətli şəkildə vermək, «insanın gözəlliyi onun daxili aləminin gözəlliyi ilə vəhdətdə özünü göstərir», «gözəllik xoşbəxtliyə çatmaq üçün əsas deyildir» fikrinin, ideyasının açıqlamaq üçün yazıçı qırx rəqəmindən də istifadə etməklə bədii cəhətdən qüvvətli bir əsər yaratmışdır.

«Abidin yuxusu» hekayəsində də Abid «qırx il idi ki, gecə-gündüz Allaha ibadət edirdi, Gündə beş dəfə namaz qılıb, alnını möhürə sürtməkdən alnında fır əmələ gəlmişdi. Qırx il idi ki, o özünü o gözə görünməyən böyük Allahın hüzurunda hiss edirdi. Qırx il idi ki, qəlbini, ruhunu dünyanın hər cür fəallıqlarından, hər cür günahkar ehtiraslarından azad, rahat hiss edirdi. Və qırx il idi ki, bir quş cənnət bağından ona misilsiz ləzzətə malik ətirli bir nar gətirirdi». (40, s.58) Buradakı qırx rəqəmi say çoxluğundan xəbər verir. Çünki bu qırx ilin içində neçə-neçə qırx günlər, qırx gecələr, qırx aylar var. Burada yazıçının istifadə etdiyi qırx rəqəmi folklor mənbələrində olduğu kimi çoxluq mənasını ifadə edir: «Qırx günlük yol», «Qırx ağaclıq məsafə», «Qırx gün

möhlət almaq» kimi ifadələr hələ əşyaların sayını dəqiq müəyyənləşdirməyə qadir olmayan babalarımızın çoxluğa qeyri-adi bir qüvvə kimi baxmalarından irəli gəlirdi. B.A. Karrıyev «Qırx» rəqəmini «nəyinsə mükəmməlliyinin, kamilliyinin, komplektləşdirilməsinin, çoxluğunun, tamlığının xüsusi göstəricisi» kimi izah edir. (154, s.167)

«Qırxında öyrənən gorunda çalar», ölənlərin ruhunun qırxıncı gün qəbri tərk etməsi, ölülərə qırx gün yas tutulması, «Çillə» mərasimi (çillə özü qırx deməkdir), qırx gün Koroğlunun atlarının qaranlıq tövlədə saxlanılması, Məlikməmmədin qırx ağaclıqda bir padşahın ölkəsindəki doqquz başlı əjdahanı öldürməyə gedərkən quşun məsləhəti ilə «qırx şaqqa ət, qırx tuluq su» götürməsi, öz məmləkətlərinə döndük-dən sonra qırx gün, qırx gecə ona toy çaldırılması, inanclarımızda yeni doğulmuş körpənin qırx gün qorunması, «qırxını tökdük»dən sonra üzə çıxarmaq «qırx» rəqəminə sakral münasibətdən doğur.

İ.Əfəndiyev qələmə aldığı əsərlərdə dünya folklorundan seçmələrə də yer verir.

İ.Əfəndiyev Yaxın və Orta Şərqin, eləcə də Avropa xalqlarının mədəniyyətinə yaxından bələd olmuşdur. O, istər kiçik, istərsə də iri həcmli əsərlərində, yeri gələndə dramatik əsərlərində bu xalqların mənəvi qaynaqlarından milli ruhumuzda yazdığı əsərlərin ahənginə uyğun şəkildə istifadə etmiş, hümanizmə xidmət edən yüksək insani keyyfiyyətləri əsas tutaraq qüdrətli sənət əsərləri yaratmışdır. Bu dünyanın mürəkkəbliyindən baş açmayan Muradın uşaq aləmində barışa bilmədiyi haqsızlıqlara qarşı üsyanı vardı. O, ətrafında ziddiyyətlərlə dolu həyatdan baş aça bilməməzlikdənmi, nədənsə yaşadığı real aləmdən qaçırdı, öz düşündüklərini hamıdan gizlətməyə, ancaq nağıllardan eşitdiyi gözəllikləri yaşatmağa çalışırdı. O, yaşadığı cəmiyyətdə bu gözəllikləri görmürdü və buna görə də özünün yaşıdı Səriyyəyə arzuladığı gözəl həyat haqqında danışır: «Mən ona yaxşı şeylər haqqında danışmaq istəyirdim. Zümrüd quşunun Məlikməmmədi öz belində zülmət dünya-sından işıqlı dünyaya necə gətirib çıxardığını danışırdım. Mən Robinzon Kruzonun macərasını böyük bir həvəslə ona nağıl eliyəndən sonra onu da

demək istəyirdim ki, biz də, yəni Səriyyə ilə mən də heylə adada olsaydıq nə gözəl olardı.

…Amma, demədim. Çünki mən danışıb qurtarandan sonra o dedi:

-Yazıq Robinzon, tək-tənha o adada necə yaşayırmış, darıxmaqdan, adamın bağrı çatlar». (45, s.262-263)

İ.Əfəndiyevin qəhrəmanı yaşadığı bu cəmiyyətdə istədiyini tapa bilmir. Ona görə də Robinzonun macəralı həyatını öz uşaq təxəyyülündə yüksək qiymətləndirir. Özüylə birgə Səriyyənin də real aləmdən uzaq yaşamasını ona görə istəyir ki, Səriyyə də bir çox şeylərdən özü kimi məhrum idi. Onun uşaq dünyası onu vaxtsız tərk etmişdi.

## N Ə T İ C Ə

Bütün yaradıcılığı boyu əsərlərində həyat həqiqətlərini əks etdirmiş və qiymətli əsərlər yaratmış İ.Əfəndiyev xalqın yaratdığı zəngin xəzinədən məharətlə istifadə etmiş, xalq təfəkkürünün bədii təxəyyülündən öz yaradıcılıq imkanları dairəsində bəhrələnmişdir.

Ata-babalarımızın mifik təfəkkürünün zəngin irsindən istifadə yazıçının əsərlərinin bədii dəyərini, emosionallığını, bədii təsir gücünü artırmaqla bərabər onun xalqına, vətəninə, milli mənəvi dəyərlərə bəslədiyi hörmət və məhəbbətinin nəticəsi kimi qiymətləndirilə bilər.

O, yaşadığı elin, obanın və ümumtürk folklorunun bədii qaynaqlarından yararlanmaqla özünəməxsus psixoloji sənət duyumları yaratmış, özündən əvvəlki böyük klassiklərimizin ənənələrini davam etdirmişdir. Xalqın ən incə

duyğularını, milli şüurunun zənginliyini aydın, səmimi şəkildə ifadə edən bayatılardan, aşıq yaradıcılığından, xalq musiqisindən bəhrələnməklə əsərlərinin məna duyumunu artırmaqla yanaşı, əsərəlrinin daha oxunaqlı, daha maraqlı olmasına çalışmışdır.

Xalqın bəşəri duyğularını, fikir və arzularını əks etdirən əfsanələrimiz, rəvayətlərimiz, dastanlarımız, xeyrin şər üzərində qələbəsini əks etdirən nağıllarımız İ.Əfəndiyev yaradıcılığında bu və ya digər formada yazıçının xalqına bağlı bir sənətkar olduğunu, onun arzu və ideyalarını özündə yaşatdığını göstərir. Hikmətamiz fikir və əməllərin yığcam ifadəsi olan atalar sözü və məsəllərimiz, xalqın həyat və məişətində yaşayan əski adət və ənənələrimiz, xalqın zəngin mənəvi həyatının xəzinəsi olan musiqimiz, aşıq poeziyası və s. folklor nümunələrindən faydalanması İ.Əfəndiyevin əsərlərində milli ruhu, xəlqiliyi daha da qüvvətləndirir. Xalq ədəbiyyatına dərin köklərlə bağlı olan, xəlqilik prinsiplərini öz əsərlərində yaşadan İ.Əfəndiyevin ən gözəl cəhətlərindən biri də xalq məişətinin, adət-ənənələrinin onun yaradıcılığında əksi və onun obrazlı şəkildə ədəbiyyatımızda ifadəsidir.

Xalqın yaratdığı hər bir folklor nümunəsi o xalqın həyatı, dünyagörüşü, əxlaqı ilə bağlıdır. İ.Əfəndiyevin əsərlərində öz əksini tapmış toy, nişan oğuz ailə-əxlaq görüşlərinin ən ilkin dövrlərindən bu günümüzə qədər bütün xüsusiyyətləri ilə qəhrəmanların məişətində, adət-ənənəsində yaşayır.

Əsərlərinin emosional gücünü artırmaq və daha təsirli vermək üçün obrazların dilində işlədilən, ən qədim oğuz məişətinin ilkin xüsusiyyətlərini özündə bu gün də yaşadan alqışlar, qarğışlar, andlar və digər folklor vahidləri, xalq dilinin bu incə çalarları əsərlərinin ideya və məzmunu ilə bağlı şəkildə verilir. Az sözlə yüksək fikir ifadə etməsi, xalq dühasının yığcam, konkret fikirlərindən, dərin məzmun aşılayan nümunələrindən yaradıcı surətdə bəhrələnməsi onun xalq ədəbiyyatının bütün incəliklərinə dərindən bələd olduğunu göstərir.

İ. Əfəndiyevin yaradıcılığında folklor motivlərini araşdırarkən məlum olur ki, o, xalq ədəbiyyatı süjetlərindən istifadə etməklə yeni sənət əsərləri yaratmış, əfsanə, nağıl, dastan motivlərindən, nağıl və dastan qəhrəmanlarının obrazlarından faydalanmış, əsərlərində kiçik əfsanələrdən, bayatılardan, aşıq

poeziyasından, xalq mahnılarından, atalar sözü və məsəllərdən, ağız deyimlərindən məharətlə istifadə etmiş, onlardan yaradıcı surətdə bəhrələnməklə milli ruhumuzu oxşayan sənət əsərləri yaratmışdır.

Ümumiyyətlə, yazıçının xalq yaradıcılığının bütün nümunələrindən yaradıcı surətdə bəhrələnməsi ədibin sənətkarlıq baxımından özünə layiq qiymətini səciyyələndirir. Bu nümunələr onun yaradıcılığına rövnəq verir, əsərlərinin milli ruhunu artırır. Qələmə alınan hadisələrin, bir-birinə zidd fikirlərin, real həyata münasibətin şifahi xalq yaradıcılığı qaynaqlarından yararlanmaqla təsvir edilməsi, mifik, yarımi-fik obraz və motivlərin, süjetlərin yazıçının əsərlərinə daxil etməsi, onlardan istifadəsi yaratdığı əsərlərin ideya məzmununa xidmət edir.

Özünün sələfləri kimi İ.Əfəndiyev folklor süjetlərindən istifadə etməklə əsərlərinin oynaq, məna baxımından qüvvətli olmasına nail olmuşdur. Eyni zamanda xalq sənətinin təsiri altında özü də folklorla bağlı orijinal əsərlər yaratmışdır.

Milli müstəqilliyimizi əldə etdiyimiz, azad, suveren, demokratik bir ölkə qurduğumuz, onun inkişafı üçün çalışdığımız bir zamanda biz əvvəlki milli ənənələrimizi qoruyub saxlamalı, zəngin mədəniyyətimizə hörmətlə yanaşmalı, milli xalq ədəbiyyatmızın qaynaqlarını yeni baxımdan araşdırmalıyıq. Həmçinin, İ.Əfəndiyev yaradıcılığında da bunun özünəməxsus xüsusiyyətlərinin olduğunu bilməliyik.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayev B. Azərbaycan folklorunda ailə-məişət mərasimləri və onların poetik mətnləri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VII kitab, Bakı: Elm, 1987, 198 s.

2. Abdullayev B. Xalq yaradıcılığında alqış və qarğış // «Azərbaycan» jurnalı, 1981, № 10

3. Abdullayev B. Yusif Vəzir Çəmənzəminli və folklor. Filol. elm. nami. alim. dərəc. almaq üçün dis. Bakı, 1974

4. Abdullayev B. Haqqın səsi. Bakı: Azərnəşr, 1989, 144 s.
5. Abdullayev C.M. Səməd Vurğun və folklor: Filol. elm. nami. alim. dərəc. almaq üçün dis. Bakı, 1962, 319 s.
6. Abdullayeva A. Müşfiq və folklor. Bakı: Gənclik, 1996, 272 s.
7. Abdulla Şaiq. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı: Yazıçı, 1978, 502 s.
8. Araslı H. Nizamidə xalq sözləri, xalq ifadələri və zərb məsəllər // Azərbaycan EA-nın Xəbərləri. Ədəbiyyat seryası, 1942, № 8
9. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Şerlər. Bakı: Yazıçı, 1988, 184 s.
10. Aşıq Hüseyn Bozalqanlı. Dastanlar, hekayətlər / Toplayanı Şəmşad Rza. Bakı: Yazıçı, 1987, 173 s.
11. Atalar sözü / Toplayanı Ə. Hüseynzadə. Bakı: Yazıçı, 1982, 368 s.
12. Avesta. Bakı: Azərnəşr, 1995, 103 s.
13. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, I c., Bakı: Elm, 1983, 374 s.
14. Azərbaycan dastanları. 5 cilddə, I c., Bakı: Azərbaycan EA nəşri, 1965, 380 s.
15. Azərbaycan dastanları. 5 cilddə, II c., Bakı: Azərbaycan EA nəşri, 1966, 476 s.
16. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988, 196 s.
17. Azərbaycan nağılları. 5 cilddə, I c., Bakı: Azərbaycan EA nəşri, 1960, 325 s.
18. Azərbaycan xalq nağılları. Dünya Uşaq Ədəbiyyatı kitabxanası. 50 cilddə, II c., Bakı: Gənclik, 1983, 464 s.
19. Azərbaycan folkloru antologiyası. 2 kitabda, I k., Bakı: Azərbaycan EA nəşri, 1968, 289 s.
20. Azərbaycan folkloru antologiyası: Naxçıvan folkloru. Bakı: Sabah, 1994
21. Azərbaycan tarixi. 3 cilddə, I c., Bakı: Azərnəşr, 1994, 687 s.
22. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, I c., Bakı: Elm, 1984, 543 s.
23. Azərbaycan etnoqrafiyası. 3 cilddə, I c., Bakı: Elm, 1988, 456 s.
24. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 501 s.

25. Azərbaycan folklorşünaslığı məsələləri. Bakı: Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu, 1983, 73 s.
26. Azərbaycan xalq dastanları, Bakı: Yazıçı, 1983, 252 s.
27. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I kitab, Bakı: Azərbaycan EA nəşri, 1961, 255 s.
28. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. II kitab, Bakı: Azərbaycan EA nəşri, 1966, 258 s.
29. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. V kitab, Bakı: Azərbaycan EA nəşri, 1977, 196 s.
30. Babayev İ., Əfəndiyev P. Azərbaycan Şifahi Xalq ədəbiyyatı. Bakı: Maarif, 1970, 268 s.
31. Bilqamıs dastanı. Bakı: Gənclik, 1985, 102 s.
32. Bu yurd bayquşa qalmaz. Folklor nümunələri. Bakı: Yazıçı, 1995, 142 s.
33. Cəfərov N. Eposdan kitaba. Bakı, Maarif, 1999, 220 s.
34. Çəmənzəminli Y.V. Xalq ədəbiyyatının təhlili. Əsərləri. 3 cilddə, III c., Bakı: Elm, 1977, 328 s.
35. Əfəndiyev Ə. İlyas Əfəndiyevin yaradıcılıq yolu // Azərbaycan EA-nın «Elturan» jurnalı, 1999, № 1-2(15), s. 43-46
36. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı: Gənclik, 1998, 524 s.
37. Əlibəyzadə E. «Kitabi Dədə Qorqud». Bakı: Azərbaycan tərcümə mərkəzi, 1999, 328 s.
38. Əliyev R.M. Azərbaycan nağıllarında mifik görüşlər. Bakı: Elm, 1992, 118 s.
39. Əsli və Kərəm. Bakı: Uşaqgəncnəşr, 1960, 76 s.
40. Əfəndiyev İ. Sən ey böyük Yaradan. Bakı: Şərq-Qərb, 1997, 161 s.
41. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, I c., Bakı: Yazıçı, 1984, 364 s.
42. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, II c., Bakı: Yazıçı, 1984, 359 s.
43. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, III c., Bakı: Yazıçı, 1984, 380 s.
44. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, IV c., Bakı: Yazıçı, 1984, 380 s.
45. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, V c., Bakı: Yazıçı, 1985, 343 s.
46. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, VI c., Bakı: Yazıçı, 1985, 300 s.

47. Əfəndiyev İ. Üç roman. Bakı: Gənclik, 1987, 534 s.
48. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
49. Əfəndiyev İ. Bizim qəribə taleyimiz. Bakı: Yazıçı, 1989, 536 s.
50. Əfəndizadə R. El ədəbiyyatı və yaxud el sözləri // «Azərbaycanca öyrənmə yolu» məcmuəsi, 1928, №1, s.26-27
51. Əfsanələr. Bakı: Gənclik, 1986, 174 s.
52. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304 s.
53. Əski türk yazılı abidələri müntəxabatı. Bakı: BDU, 1994, 280 s.
54. Əzizov E. Mifoloji inamlar // «Zəka» jurnalı, 1993, №1-2, s.12-15
55. Fərzəliyev T. Azərbaycan xalq lətifələri. Bakı: Elm, 1971, 120 s.
56. Fərzəliyev T. Şərq xalqlarının lətifələri. Bakı: Yazıçı, 1982, 119 s.
57. Fərman Eyvazlı. Qaçaq Kərəm. Bakı: Yazıçı, 1987, 416 s.
58. Fəzlullah Rəşidəddin. «Oğuznamə» / Fars dili. tər., ön söz və şərh. R.M. Şükürovanındır. Bakı: Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi, 1992, 71 s.
59. Folklorşünaslıq məsələləri. IV buraxılış, Bakı: ADU, 1999, 153 s.
60. Gözəlov F.Oğuz epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı: Sabah, 1993, s.
61. Hacıbəyli C. Qarabağın dialekti və folklor. Bakı: , 1989
62. Hacıyev C. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Azərnəşr, 1958
63. Herodot. Tarix. Bakı: Azərnəşr, 1998, 329 s.
64. Heyət C. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Azərnəşr, 1990, 160 s.
65. Hüseynzadə Ə. Atalar sözləri və məsəllər. Bakı: Azərnəşr, 1971, 151 s.
66. Hüseynzadə Ə. Rəvayətlər. Bakı: Azərnəşr, 1974, 98 s.
67. Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan folkloru. Bakı: APİ, 1990, 119 s.
68. Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan qaynaqları. Bakı: Azərnəşr, 1991, 294 s.
69. Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: APİ, 1988, 86 s.

70. Xəlilov N. Xalq təfəkkürü, sənətkar qüdrəti. Bakı: Elm və həyat, 1996, 136 s.

71. Xəlilov P. «Kitabi-Dədə Qorqud-İntibah abidəsi». Bakı: Gənclik, 1993, 172 s.

72. İsmayılov Y. İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı: Elm, 1991, 262 s.

73. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Elm, 1993, 272 s.

74. «Kitabi-Dədə Qorqud». Bakı: Azərnəşr, 1962, 171 s.

75. «Kitabi-Dədə Qorqud». Bakı: Yazıçı, 1988, 265 s.

76. «Kitabi-Dədə Qorqud». Bakı: Çaşoğlu, 2000, 172 s.

77. «Koroğlu» dastanı. Bakı: Azərnəşr, 1961, 372 s.

78. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 241 s.

79. Köçərli F. Azərbaycan ədəbiyyatı: 2 cilddə, I c., Bakı: Elm, 1978, 598 s.

80. «Qaçaq Nəbi» dastanı. Bakı: Azərnəşr, 1961, 372 s.

81. Qasımov H. Bayatılar. Bakı: Azərnəşr, 1960, 256 s.

82. Qasımlı M. Aşıq sənəti: Qaynaqları, tarixi, yaranışı və mühitləri. Bakı: Ozan, 1996, 258 s.

83. Qarayev Y. Tənqid, problemlər, portretlər. Bakı: Azərnəşr, 1976, 912 s.

84. Qorki M. Ədəbiyyat haqqında. Bakı: Uşaqgəncnəşr, 1950, 150 s.

85. Quluyev Ç. Süleyman Rəhimov və folklor. Bakı: Azərnəşr, 1978

86. Quran / Ərəb dilindən tərcümə edənlər Z. Bünyadov, V. Məmmədəliyev. Bakı: Azərnəşr, 1991, 710 s.

87. Masse A. İslam. Tarixi oçerk. Bakı: Azərbaycan Ensiklopediyası, 1992, 256 s.

88. Mehdi Hüseyn. Ədəbiyyat və sənət məsələləri. Bakı: Azərnəşr, 1958, 610 s.

89. Məmmədov M. Azərbaycan miflərinin təsnifatı // «Dil və ədəbiyyat» jurnalı, 1994, №3

90. Mərasimlər, alqışlar, adətlər. Bakı: Gənclik, 1992, 346 s.

91. Mirzə İbrahimov. Aşıq poeziyasında realizm. Bakı: Elm, 1966, 84 s.

92. Mirzə Fətəli Axundov. Aldanmış kəvakib. Bakı: Maarif, 1985, 175 s.

93. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984, 192 s.

94. Nəbiyev A. Azərbaycan xalq nağılları. Bakı: Gənclik, 1988, 462 s.

95. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə, Bakı: Turan, 2002, 680 s.

96. Nəbiyev A. Azərbaycan uşaq folkloru. Bakı: Elm, 2000, 78 s.

97. Nəbiyev A. El nəğmələri, xalq oyunları. Bakı: Azərnəşr, 1988, 168 s.

98. Nəvai Əlişir. Yeddi səyyarə. Bakı: Yazıçı, 1979, 123 s.

99. Nizami G. Xosrov və Şirin. Bakı: Yazıçı, 1993, 401 s.

100. Nizami G. Leyli və Məcnun. Bakı: Yazıçı, 1983, 304 s.

101. Nizami G. Lirika. «Sirlər xəzinəsi», «Şərəfnamə». Bakı: Yazıçı, 1988, 628 s.

102. Oğuznamələr. Bakı: BDU, 1993, 92 s.

103. Paşayev S. «Arzu-Qəmbər» dastanı haqqında // Azərbaycan qadını, 1974, №12

104. Paşayev S. Azərbaycan eposunun əfsanə qaynaqları. Bakı: Azərnəşr, 2002

105. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı: ADU, 1989, 88 s.

106. Paşayev S. Nizami və folklor. Bakı: Bilik, 1976, 48 s.

107. Paşayev S. Nizami və xalq əfsanələri. Bakı: Gənclik, 1983, 128 s.

108. Paşayev S. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. cilddə, I c., Gəncə: Pirsultan, 2002

109. Paşayev S. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. cilddə, II c., Gəncə: Pirsultan, 2002

110. Paşayev S. Yaşayan əfsanələr. Bakı: Gənclik, 1973, 70 s.

111. Ramazan Qafarlı. Mif və Nağıl (Epik ənənədə janrlararası əlaqə). Bakı: N.Tusi adına ADPU, 1999, 448 s.

112. Rəfik Özdək. Türkün Qızıl kitabı. Bakı: Yazıçı ədəbi nəşrlər evi, 1996, 144 s.

113. Rzaquluzadə M. Atalar sözü. Bakı: Azərnəşr, 1950

114. Salahova A. İ.Əfəndiyev yaradıcılığının poetikası. Bakı: Yazıçı, 1984, 136 s.

115. Saləddin Ə. Sabir və folklor. Bakı: Gənclik, 1969, 126 s.

116. Sehrli sünbüllər: Azərbaycan mifləri / Toplayanı A.Nəbiyev. Bakı: Gənclik, 1990, 144 s.
117. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 485 s.
118. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
119. Seyidov M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik, 1994, 232 s.
120. Seyidov N. Bəhlul Danəndə lətifələri. Bakı: Yazıçı, 1979, 48 s.
121. Seyidov Y. İlyas Əfəndiyev: Həyat və yaradıcılığı haqqda müxtəsər oçerk. Bakı: Azərnəşr, 1975, 235 s.
122. Səməd Vurğun. Seçilmiş əsərləri: 6 cilddə, V c., Bakı: 1972, 426 s.
123. Şükürov A. Mifologiya. I kitab, Bakı: Elm, 1995, 186 s.
124. Şükürov A. Mifologiya. IV kitab, Bakı: Elm, 1996, 164 s.
125. Şükürov A. Mifologiya. V kitab, Bakı: Elm, 1996, 165 s.
126. Şükürov A. Mifologiya. VI kitab, Bakı: Elm, 1997, 227 s.
127. Şükürov A. Mifologiya. VIII kitab, Bakı: Elm, 1999, 163 s.
128. Şükürova G. İlyas Əfəndiyevin «Qəhrəman və Bülbülün nağılı» hekayəsində folklor nümunələri // «Dil və ədəbiyyat» jurnalı, 1999, № 3(25), s. 101-103
129. Şükürova G. İlyas Əfəndiyevin yaradıcılığında xalq ədəbiyyatı // «Dil və ədəbiyyat» jurnalı, 1999, № 3(25), s. 103-105
130. Şükürova G. İlyas Əfəndiyevin «Geriyə baxma, qoca» əsərində mifoloji elementlər // «Dil və ədəbiyyat» jurnalı, 2000, № 1(26), s. 58-61
131. Şükürova G. İlyas Əfəndiyevin hekayələrində mifizm // «Dil və ədəbiyyat» jurnalı, 2000, № 1(26), s. 61-64
132. Şükürova G. İlyas Əfəndiyevin yaradıcılığında «Dədə Qorqud» dastanları ilə səsləşən motivlər // «Dil və ədəbiyyat» jurnalı, 2000, № 2(27), s. 72-77
133. Şükürova G. İlyas Əfəndiyevin yaradıcılığında Qarabağ mövzusu və folklor // «Dil və ədəbiyyat» jurnalı, 2000, № 2(27), s. 77-80

134. Şükürova G. İlyas Əfəndiyevin əsərlərində xalq yaradıcılığı / Aspirantların və gənc tədqiqatçıların VI Respublika elmi konfransının materialları. II cild, Bakı: 2000, Az.TU, s. 186-188

135. Şükürova G. Epos dünyasına səyahət // «Azərbaycan» jurnalı, 2001, № 9, s.180-183

136. Şükürova G. İlyas Əfəndiyevin yaradıcılığında əfsanə, rəvayət, nağıl, dastan süjeti və motivlərindən istifadə // «Dil və ədəbiyyat» jurnalı, 2003, № 4(38), s. 49-53

137. Şükürova G. İlyas Əfəndiyevin yaradıcılığında bayatı, aşıq yaradıcılığı və xalq mahnılarından bəhrələnmə // «Dil və ədəbiyyat» jurnalı, 2003, № 4(38), s. 53-58

138. Şükürova G. Elçinin «Mahmud və Məryəm» əsərində folklor motivləri // «Mütərcim» jurnalı, 2005, № 1, s. 80-86

139. Şükürova G. Dəyərli tədqiqat əsəri // «Qobustan» jurnalı, 2005, № 2, s. 92-95

140. Təhmasib M. Azərbaycan xalq dastanları: Orta əsrlər. Bakı: Elm, 1972, 397 s.

141. Təhmasib M. Azərbaycan xalq ədəbiyyatında div surəti // «Vətən uğrunda» jurnalı, 1946, № 1

142. Təhmasib M. Molla Nəsrəddin lətifələri. Bakı: Yazıçı, 1978, 219 s.

143. Təhmasib M. Nəsimi və xalq poeziyası. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1973, 5 avqust

144. Vəliyev K. Dastan poetikası. Bakı: Yazıçı, 1984, 223 s.

145. Vəli Həbiboğlu. Türk Dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. I kitab, Bakı: Örnək, 1995, 324 s.

146. Vəliyev V. Azərbaycan qəhrəmanlıq dastanları. Bakı: ADU, 1980, 75 s.

147. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 416 s.

148. Yunis İmrə, Aşıq Veysəl. İki zirvə. Bakı: Yazıçı, 1982, 140 s.

149. Bahaeddin Ö. Türk mitolojisi. (Kaynakları ve açıklamaları ile destanlar): I c., Ankara: Türk tarih kurumu basımevi, 1971, 644 s.

150. Körpülü F. Edebiyat araştırmaları: III nəşr, Ankara: Türk tarih kurumu basımevi, 1986, 472 s.

151. Boqatırev P.Q. Voprosı teorii narodnoqo iskusstva. M.: İskusstvo, 1971, 554 s.

152. Dalqat U.B. Literatura i folğklor. M.: Nauka, 1981, 303 s.

153. Jirmunskiy V.M. Törkskiy qeroiçeskiy gpos. L.: , 1974, 727 s.

154. Karrıev B.A. Gpiçeskie skazaniə o Ker-oqlı u törkoəzıçnıx narodov. M.: Nauka, 1968, 258 s.

155. Kokkğəra Dj. İstoriə folğkloristiki v Evrope. M.: İzd. inostr. lit., 1960, 690 s.

156. Koroqlı X., Nabiev A.M. Azerbaydjanskiy qeroiçeskiy gpos. Baku: Əzıçı, 1996, 308s.

157. Kramer S.N. İstoriə naçinaetsə v Şumere. M.: Nauka, 1965, 256s.

158. Levinton A.Q. Zametki o folğklorizme Bloka. Mif. Folğklor. Literatura, L.: 1978

159. Lixaçov D.S. Otkrıtıe noviznı v literature. «Literaturnaə qazeta», 1976, 11 iölğ.

160. Losev A.F. Filosofiə. Mifoloqiə. Kulğtura. M.: Politizdat,1991,525s.

161. Malov S.E. Pamətniki drevnetörkskoy pisğmennosti. M.:-L.: AN SSSR, İnstitut əzıkoznaniə, 1951, 450 s.

162. Meletinski E.M. Qeroy volşebnoy skazki. M.: İzdatelğstvo vostoçnoy literaturı, 1958, 264 s.

163. Mifı narodov mira. Gnüiklopediə: 2-x t. T.1, M.: Bolğşaə Rossiyskaə gnüiklopediə, 1998, 672 s.

164. Nesterov S.P. Kon v kulğtax törkoəzıçnıx plemen Üentralğnoy Azii v gpoxu srednevekovğə. Novosibirsk: Nauka, 1990, 141s.

165. Potanov L.P. Glementı reliqioznıe verovəniy v drevnetörkskix qeneloqiçeskix leqendax // Sovetskaə gtnoqrafiə, 1991, №5

166. Propp V.Ə. İstoriçeskie korni volşebnoy skazki. L.: İzda. LQU, 1986, 364s.

167. Propp V.Ə. Russkiy qeroiçeskiy gpos. M.: Xudoj. lit., 1958, 601s.

168. Propp V.Ə. Sboronne trudov: Pogtika folğklora / Sost., predis. İ komment. A.N. Martınovoy. M.: Labirint, 1998, 352s.

169. Propp V.Ə. Folğklor i deystvitelğnostğ. M.: Nauka, 1976, 325 s.

170. Samoyloviç M.S. İstoriə turkmenskoy literaturı. M.:-L.: 1940, s.

171. Sbornik materialov dlə opisaniə mestnostey i plemen Kavkaza. Tiflis: İzda. Upr. Kavuazsk. Uçeb. Okruqa, Vıp. 42, 1912, 589 s.

172. Stebleva İ.V. Pogziə törkov VI-VIII vekov. M.: Nauka, 1965, 148 s.

173. Taylor G.B. Pervobıtnaə kulğtura. M.: Politizdat, 1989, 572 s.

174. Tokarev S.A. Rannie formı reliqii. M.: Politizdat, 1990, 621 s.

175. Frezer Dj. Zolotaə vetvğ. M.: Nauka, 1998, s.

176. Frezer Dj. Folğklor v vetxom zavete. M.: Nauka, 1989, s.

177. Frolov B.A. Çislo v qrafiki paleolita. Novosibirsk: Nauka, 1974, 239s.

178. Şaxnoviç M.İ. Pervobitnaə mifoloqiə i filosofiə. L.: Nauka, 1971, 240 s.

179. Əmpolğskiy Z. Drevneyşey svedeniə o törkax v Zone Azerbaydjana / Uçenie zapiski. Seriə əzıka i literaturı. AQU im. S.M. Kirova, 1966, №2.